Rəyçi: polkovnik **Çingiz Məmmədov**

Şəmistan Nəzirli. Cumhuriyyət generalları. Bakı. Hərbi nəşriyyat. 1995. Səh. 212.

Müdafiə Nazirliyinin Hərbi-Elmi Tədqiqatlar İdarəsinin baş zabiti, yazıçı Şəmistan Nəzirlinin «CÜMHURİYYƏT GENERALLARI» kitabında 1918—20-ci illərdə fəaliyyət göstərən Azərbaycan Demokratik hökumətinin sərkərdələri haqqında sənədli hekayələr və oçerklər toplanmışdır. Tarixi faktlar əsasında yazılmış əsərdə həm də XIX əsrin hərb tarixinin səhifələri, ilk admiral İbrahim bəy Aslanbəyovun və general Daniyal bəy İlisulunun ömür yolu araşdırılır.

Hərbi nəşriyyat, 1995

## KİTABIN İÇİNDƏKİLƏR

1.Uğurlu araşdırmalar (Qılman İlkin)
2.İlisulu generalın faciəsi
Şeyx Şamilin yanında
Aşıq Rəfinin bir şeri
3.İlk admiralımız
Sənədlərdən soraq aldım
Mənbələrdən gələn səslər
Admiralın ömür yolu
Qəribə və xoş bir təsadüf
Admiral həm də alimdir
4.İlk Milli Ordu generalımız
Möhtərəm bir generalın ölümü
General Süleyman bəy
Yeni açılan arxivdən
5.Acı Tale
6.General Cavad bəy Şıxlinski
(və hərbçi Şıxlinskilər haqqında qeydlər)
7.Qəribə tale
Alim sözü
Ailənin bəxt ulduzu
Lev Tolstoya məktub
Gecikmiş cavab
Uzun ömrün səhifələri
Yaralı söhbət
8.General Səməd bəy Mehmandarov
Uzaq Şərqdə
Port-Artur yürüşlərində
Birinci dünya müharibəsində
General Mehmandarovun anketi
Təlatümlü illərdə
Cümhuriyyət dövründə
9.Alim-general
(general Əliağa Şıxlinskinin 1918-1943-cü illərdəki fəaliyyətindən)
Milli ordu quruculuğunda
Ulu vəsiyyəti faydasız olmaz
10. General Firudin bəy Vəzirov
11. General Teymur bəy Novruzov
12. Bir nəslin generalları
General Əmir Kazım Qacar

General  Əmənulla  xan  Qacar
Nəslin  ağbirçəyi
13. Milli sərkərdəmizin faciəsi (1916-1920-ci  illərdə)
Generallar

## UĞURLU ARAŞDIRMALAR

Mən Şəmistanı 1972-ci ildən tanıyıram. O vaxt «Ulduz» jurnalında onun Səməd Vurğun barədə yazdığı silsilə sənədli hekayələri çap olunurdu. Tanıyıram deyəndə, hələ üzünü görməmişdim, ancaq onunla görüşün sorağındaydım. Keçmişimizi, tarixi sənədləri araşdırmağa olan odlu həvəsi və marağı məni ona sarı çəkirdi. Hiss edirdim ki, bu maraq onu içəridən alovlandırır və oçerkdən-oçerkə elə bil daha da püxtələşdirir. Nəhayət, 1978-ci ildə onun Səməd Vurğun haqqında sənədli hekayə və oçerkləri «Vurğun keçib bu yerlərdən» adlı kitabda küll halında çapdan çıxdıqda mən ümidimdə yanılmadığımı hiss etdim. Bundan sonra o öz mövzusunu dəyişdi, xalqımızın hərbi xadimləri ilə maraqlanmağa başladı və bu sahədə ilk addımlarını atdı. Uğurlu addımlardı. Bu, bəlkə də onun televiziyanın «hünər» verilişləri redaksiyasında nə az, nə azacıq, 19 il çalışması ilə bağlı idi. O zamandan Şəmistan bu mövzuya sadiq qaldı və həmin sədaqət bu günədək davam edir. Əlbəttə, hamımız üçün fərəhli haldır ki, bu sahədə çalışan jurnalistlərimiz var və onlar bu mövzunu araşdırmaq və işıqlandırmaq qüvvətinə malikdirlər. Açılmamış səhifələri açmaq, qaranlıqlara nur çiləmək, gizlinləri aşkarlamaq, ədaləti bərpa etmək cəhdləri gənc jurnalistin mənəvi potensialına işarə idi. Biz bir-birinin arxasınca uğurlu adaşdırmaların necə meydana çıxdığının, onların hansı əmək, səy, inadkarlıq nəticəsində yaranaraq xalqın mühakiməsinə verildiyinin şahidi olduq. Hərb tariximizdən xəbərsiz olanlara təzə-təzə müjdələr verildi. Şəmistan xüsusilə o şəxsləri, o xadimləri bizə tanıtdı ki, onların ancaq adlarını eşitmişdik, şəxsiyyətlərini öyrənmək isə qismətimizə düşməmişdi. O, bu adamların üzərindəki məşum pərdələri cəsarətlə qaldırdı və həqiqət aşkar edildi. Mən şəxsən belə cəsur araşdırıcıları çox sevirəm. Günlərini, saatlarını tozlu arxiv sənədləri içərisində keçirən adamları özümə yaxın hiss edirəm. Şəmistan da məhz belə tədqiqatçılardandır.

Şəmistan publisist araşdırıcıdır. O, tarixçilərdən bir çox baxımdan fərqlənir. Tarixçi üçün ikinci və ya üçüncü dərəcədə əhəmiyyətli olan məsələlər publisist araşdırıcı üçün birinci dərəcəli məsələyə çevrilir. Çünki publisist araşdırıcı onlardan yeni şirələr çəkir, yəni rənglər alır. Publisist tədqiqatçı öz araşdırmalarında daha çox yaradıcılığa meyl edir. Təsvir etdiyi adamların daxili psixoloji aləmini təşrih edir, xarakterini açır. Adi tarixçidən fərqli olaraq, hadisələrə müdaxilə edir, qələmə aldığı qəhrəmanları bədii ifadələrlə canlandırır. Bütün bu dediklərimizi onun 1991-ci ildə «Gənclik» nəşriyyatı tərəfindən buraxılmış «Azərbaycan generalları» kitabında görmək olar. Mən onu 1991-ci ilin ən uğurlu kitablarından biri hesab edirəm. İstər mövzu və istərsə də yazılış tərzi ilə çox təravətli olan bu kitabda xalqımızın bütöv bir nəslinin — hərb xadimlərimizin tarixini öyrənmək olar. Hər məqalə xalqımızın unudulmuş bir hərbi xadiminin kəşfidir. Bəli, mən bunları kəşf adlandırıram. Tozlu arxivlərin rəflərindən tapılmış, kəşf edilmiş insan taleləri. Mən bu məqalələri hələ ayrı-ayrılıqda dərc edildiyi

illərdə böyük həvəslə oxuyurdum. Desəm ki, səbrsizliklə gözləyirdim, inanmazsınız. Çünki bilirdim ki, Şəmistanın hər yeni məqaləsində yeni bir insan taleyi açıqlanacaq. Mənim diqqətimi daha çox cəlb edən Şəmistanın bütün hadisələri bədii ifadələrlə təsvir etməsi idi. Bu məqalələri oxuyarkən bəzən adama elə gəlir ki, bədii bir parça oxuyur. Şübhə yoxdur ki, bu, Şəmistanın publisist məqalələrində yazıçılığa daha çox söykənməsindən irəli gəlir. Hər bir parçanı həyəcansız oxumaq mümkün deyil. General Əliağa Şıxlinski barədə olan oçerki oxuyarkən insan elə bil bədii bir parçanı vərəqləyir. Müəllif Şıxlinskinin hərb elmi tarixindəki böyük kəşfləri ilə yanaşı, bir insan kimi dəruni hisslərini də təsvir etməkdən çəkinməmişdir. Mən belə bir üsulu keçmişdən yazan bütün jurnalistlərə məsləhət bilərdim. Şəmistan Əliağa Şıxlinskinin müharibə cəbhələrində general kimi qəhrəmanlıqlarından, böyük sərkərdə kimi istedadından, hərbi bilik sahəsindəki elmi fəaliyyətindən və eyni zamanda onun məhəbbətindən, ailəsindən kövrək söhbət açır. Məsələn, generalın öz arvadı barədə qəmli dəmlərini Şəmistan onun öz dili ilə belə təsvir edir: «Bir yerdə keçirdiyimiz iyirmi iki illik həyatın aydın səmasında bir bulud ləkəsi də görünmədi. Fitrətən istedadlı olan, yaxşı təhsil almış, mülayim xasiyyətli Nigar xanım ailə səadəti üçün yaranmış bir qadın idi. Mən bu səadətə tam mənası ilə nail oldum. Lakin 1931-ci il avqustun 15-də Nigar xanımın ölümü mənim üçün ən ağır bir zərbə oldu. Mənim hər şeyim — həm səadətim, həm də səhhətim onunla getdi».

Başqa generallar haqqındakı hekayətlər də belə maraqla oxunur. Şəmistan Azərbaycanda sovet hakimiyyəti illərində köhnə çar generallarının başına açılmış müsibət və təhqirləri də ürək ağrısı ilə təsvir edir. Onlardan çoxu dəstə-dəstə Nargin adasında güllələndikdən sonra ailələrinin də başına min bir oyun açılmışdı. Xüsusilə, Azərbaycanda Sovet hakimiyyətinin ilk günlərində azərbaycanlı zabitlərdən öldürülənlərin sayı-hesabı yox idi. «Azərbaycan generalları» kitabı bu baxımdan bolşevizmə əsl ittihamdır. Azərbaycan generalları nəinki Rusiyada, hətta dünyada da şöhrət qazanmışdılar. Əliağa Şıxlinskinin məşhur «Üçbucaq nəzəriyyəsi» Avropanın bir sıra ölkələrində «Şıxlinski üçbucağı» adı kimi tanınmışdı. Yaponlar da Ə. Şıxlinskini, S.Mehmandarovu yaxşı tanıyırdılar.

«Azərbaycan generalları» kitabının böyük idraki əhəmiyyəti vardır. Bu kitabdan çox şey öyrənmək olar. Şəxsən mən Ə. Şıxlinskinin klassik şairimiz Molla Vəli Vidadinin nəvəsi olduğunu və hətta özünün də şer yazdığını məhz bu kitabdan öyrəndim. Oxucular birinci Cahan müharibəsi illərində azərbaycanlı təyyarəçi, poruçik Fərrux ağa Qayıbovun göstərdiyi qəhrəmanlıqla bu kitab səhifələrində tanış ola bilərlər. Poruçik Qayıbov 1916-cı ildə Vilno üzərindəki hava döyüşlərində düşmənin dörd təyyarəsi ilə təkbaşına vuruşmuş, dörd saat ərzində onlardan üçünü vurub yandırmış və özü də qəhrəmanlıqla həlak olmuşdur. Kitabın səhifələrində oxucular bizə hələ məlum olmayan başqa azərbaycanlıların da qəhrəmanlıq epizodları ilə tanış ola bilərlər. Hərbi sərkərdələrimizin, sıravi əsgərlərimizin qəhrəmanlıqları ilə tanış olmaq istəyənlər, bu kitabı mütləq

oxumalıdır. Kitabda Azərbaycan generallarından Hüseynxan Naxçıvanski, Fərəc bəy Ağayev, Həsən bəy Ağalarov, Balakişi bəy Ərəblinski, İbrahimağa Usubov və başqaları barədə verilən oçerklərdə bizə bu vaxtadək məlum olmayan faktlara rast gəlmək mümkündür. Müəllif təsvir etdiyi şəxsiyyətlərə həmişə dərin ehtiram və məhəbbətlə yanaşır. Bu, bizim hərbi xadimləri guya çarizmə xidmət etdikləri üçün az qala inkar etmək mövqeyində duran nankor adamlara sanki cavab aksiyasıdır. Onların fikrincə rus ordusu sıralarında xidmət etmək guya öz xalqına xəyanətdir. Yaxın keçmişimizdə M. F. Axundov, A. Bakıxanov haqqında yazılmış bir sıra məqalələrdə belə əhvali-ruhiyyəni sezməmək mümkün deyil. Gəlin tariximizə soyuqqanlıqla baxaq. Vaxtilə çiyinlərində rus ordusunun paqonlarını gəzdirmiş A. Bakıxanov, M. F. Axundov, Ə. Şıxlinski, İsmayıl bəy Qutqaşınlı və başqaları birinci növbədə öz xalqlarına xidmət etmişlər. Onları inkar etmək mədəniyyətimizi inkar etmək deməkdir. Axundovun mədəniyyətimizin inkişafı üçün gördüyü işləri daha kim həyata keçirə bilərdi? Görkəmli yazıçı Əbdürrəhim bəy Haqverdiyev haqlı olaraq demişdir ki, Mirzə Fətəli Axundovun medallar və paqonlarla bəzənmiş mundiri altında böyük xalq qəlbi döyünürdü. Məgər Azərbaycan dilinin, Azərbaycan milli ənənələrinin rəvacı üçün Axundov, Bakıxanov, Qutqaşınlı və başqaları çar ordusundakı xidmətlərindən məhz bu məqsədlə istifadə etməmişlərmi? Bu cəhətdən də «Azərbaycan generalları»nın birinci hissəsi 1991-ci ildə vaxtında çapdan çıxmışdır.

Axtarışlarını dayandırmayan Şəmistan Nəzirli bu mövzuda onun davamı olan ikinci kitabını yazıb qurtarmışdır. Oxuculara təqdim olunan yeni kitabın ən gözəl məziyyəti ondan ibarətdir ki, 1918—20-ci illərdə xalqımız üçün əvəzsiz xidmətləri olmuş və indiyədək unudulmuş hərbi xadimlərimizin ömür yolu araşdırılıb ilk dəfə oxuculara çatdırılır. Kitabda hərbi simalar haqqında toplanmış oçerklərdəki materiallarla tanış olarkən hiss edilir ki, onları toplamaq müəllifə böyük zəhmət bahasına başa gəlmişdir. Şəmistanın yaradıcılıq axtarışlarında onu da duymaq mümkündür ki, müəllif az qala fanatik axtarıcı kimi tutduğunu buraxmır, adamlarla söhbətində sözdən söz çəkir. Birinin təsadüfən ağzından çıxmış bir sözdən yapışaraq, onun izinə düşür, naməlum mətləblərə cığır açır, yorulmadan, arxivlərin tozunu uda-uda məqsədinə çatanadək axtarışını davam etdirir. Qəribəsi də odur ki, onun şübhə və ehtimalları axırda həqiqətə çevrilir, adı bütöv bir nəsil, bəlkə də bir neçə nəsil tərəfindən unudulmuş soydaşlarımızın taleyinə işıq salır, onları arxivlərin rəflərindən qaldıraraq, xalqa açıqlayır. Bu axtarışlar zamanı millətimizə yuxarıdan xor baxan adamların uzun illər müddətində törətdikləri cinayət və saxtakarlıqların üstündən qalın pərdələri qaldırır, arxivlərdə vuruşan döyüşçü kimi oğurlanmış mənəviyyatımızı, əlimizdən alınmış şəxsiyyətlərimizi, nəinki Rusiyada, bəlkə də bütün dünyada tanınmış sərkərdələrimizi özümüzə qaytarır. Onun fəaliyyəti sərkərdə düşmənlə üz-üzə vuruşan döyüşçülərimizin qəhrəmanlığından heç də əskik deyildir. Dediklərimizi doğrultmaq üçün təkcə bir faktı göstərmək kifayət edər: kitabda «İlk admiralımız»

adlı bir oçerk vardır. Onu oxuyarkən iftixarla düşünürsən ki, Şəmistan taleyi oğurlanmış ilk azərbaycanlı admiralımız İbrahim bəy Aslanbəyovu arxivlərdən üzə çıxarmaq üçün necə inadkarlıqla vuruşmuşdur. Bunu ancaq damarlarında azərbaycanlı qanı olan adam bacarardı. O, Sevastopol şəhərinin muzeyində olarkən muzey bələdçisinin ağzından Aslanbəyovun adını eşidir. Sonra onun muzeydən asılmış portretini görür. Dəqiqələrlə durub baxır. Aslambeqov kimi qələmə verilmiş bu adamın simasında daxili bir hissin gücü ilə doğma cizgiləri duyur, ürəyi ona isinir və buradan da axtarışlar başlanır. Lakin məqsədinə çatmaq üçün çoxlu maneələrlə rastlaşır. Muzeydə ona deyirlər ki, Aslanbəyov heç zaman azərbaycanlı ola bilməz, azərbaycanlılardan, ümumiyyətlə, admiral yetişməmişdir. Arxivdə işləyən yaşlı bir erməni qadın isə Aslanbəyovun şəxsi işini ona göstərməkdən müxtəlif bəhanələrlə boyun qaçırır. Şəmistan isə əl çəkmir, inadkarlıqla tələb edir ki, admiralın şəxsi işini ona göstərsinlər. Nəhayət, öz məqsədinə çatır. Budur, admiralın şəxsi işi onun əlindədir. Orada oxuyur: «Admiral İbrahim bəy Aslanbəyov Allahverdi oğlu. Dini «müsəlman». Lakin sonralar kimsə qara mürəkkəblə bu ad və familiyanın üstünə qələm çəkərək, əlavə etmişdir: Aslanbəyov Avramiy Boqdanoviç. Müsəlman dini sözü üstündə «Pravoslavnıy» yazılmışdı. Axır ki, bu saxtakarlıq və oğurluq müəllif tərəfindən ifşa olunmuşdur.

Şəmistanın başqa oçerklərində, məsələn, «Milli sərkərdələrimizin faciəsi», «Acı tale» və başqalarında da tarix vərəq-vərəq gözlərimiz qarşısında səhifələnir, hər şey öz yerini tutur. Bu oçerklər adi oçerklərdən öz ensiklopedik xarakteri və hətta dərsliklərə daxil ola biləcək zəngin materialları ilə fərqlənir. Hər bir oçerk bir görkəmli şəxsiyyətin taleyidir.

Heç şübhəm yoxdur ki, oxucular bu kitabı daxili razılıq hissi ilə oxuyacaq, tapıntılardan bəhrələnəcək və istər istəməz dodaqları arasından bu sözlər eşidiləcəkdir: «Uğur olsun sənə, Şəmistan!»

**Qılman İLKİN,**
**Dövlət mükafatı laureatı,**
**yazıçı.**

Daş Salahlı qəbristanlığında
əbədiyyətə qovuşan, qəlbimin közündə
yaşayan TELLİ OSMAN qızının
əziz xatirəsinə ithaf edirəm.

## İLİSULU GENERALIN FACİƏSİ

Həqiqəti tapmaq üçün təkcə ayaq altına baxmaq azdır, üfüqlərə, günəşə baxmalısan!

**Lev TOLSTOY**

General Daniyal bəyin ömür yolunu öyrənmək üçün Bakıda çox adamlar mənə vəd verdi, amma heç bir nəticəsi olmadı. İlisuya getdim. Orda da hərə bir əfsanə, hərə bir nağıl danışdı. Hətta «qohumuyam», «nəticəsiyəm» deyənlər də oldu. Təəssüf ki, qohumun da, nəticənin də bildikləri ara söhbətlərindən başqa bir şey deyildi. Böyük dramaturqumuz Mirzə Fətəli Axundovun şəxsi arxivindən əldə etdiyim on bir nəfərin təsvir olunduğu «Şamilin naibləri» foto şəklini onlara göstərdim. Nə nəvə, nə də qohumlar babalarını tanımadılar.

İlisu kəndindən də əliboş qayıtdım. Qaxda, İlisuda və Bakıda adamların əksəriyyəti general Daniyal bəy haqqında olmuş əhvalatları təhriflə söyləyirlər. Müasirlərimizdə günah yoxdur. Ona görə ki, aradan nə az, nə də çox, bir əsr yarımdan artıq vaxt keçib. Müasirlərimizi qınamazdan qabaq onu da deyim ki, mən inanıram ki, elə Şeyx Şamilin, Daniyal bəyin sağlığında da bu əhvalatlar təhriflə danışılıb. Çünki Şamili məğlub etmək üçün rus komandanlığı hər cür alçaqlığa, min cür fəndə əl atıb, hadisələri elə dolaşdırıblar ki, kimin haqlı, kimin haqsız olduğunu sübut etmək üçün uzun illər axtarış aparmaq lazım idi. Elimizin hörmətli ağsaqqalı, akademik İmam Mustafayevin məsləhəti ilə inqilabdan əvvəlki mənbələri araşdırdım. Əsl həqiqət naminə saralıb-solmuş sənədlərin tozunu uddum.

General Daniyal bəyin taleyi keşməkeşli, həyatı çalın-çarpaz xətlərlə doludur. Qarışıq illərdə (1830—1870) onun ömrü macəralı keçib. İş elə gətirib ki, varisi olduğu İlisu sultanlığını, bir də sırasında sadiq əsgər kimi xidmət edib general rütbəsinə layiq görüldüyü ordunu atıb, ideya düşməni Şeyx Şamilə pənah gətirib, onun tərəfinə keçib. On altı illik mübarizədən sonra ruslar tərəfindən əsir alınıb. Rusların yenidən onlara qulluq etmək təklifini qəbul etməyib və Türkiyəyə mühacirətə gedib.

General Daniyal bəyin harada haqlı, harada günahkar olmağını qoy oxucu özü mühakimə eləsin. Biz isə bildiyimiz, zərrə-zərrə topladığımız faktları sizə təqdim edirik.

Daniyal bəy İlisulu XIX əsrin əvvəllərində qədim İlisu kəndində anadan olub. Ruslar Qafqaza gələndə atası Əhməd xan İlisunun hakimi idi. Başqa Azərbaycan xanlarına, feodallarına səxavətlə verilən yüksək hərbi rütbədən Əhməd xana da pay düşdü. Ona polkovnik rütbəsi verdilər. Sultan Əhməd xan altı oğul atası idi: İmran ağa, Məhəmməd ağa, Xəlil bəy, Musa ağa, Daniyal bəy və Süleyman xan.

1830-cu il yanvarın 9-da İlisu sultanlığına bədbəxtlik üz verdi. Sultanlığın qoca hakimi Əhməd xan Sultan qəflətən vəfat etdi. O vaxtkı qanuna görə vərəsəlik atadan böyük oğula yox, ailənin kiçik qardaşına çatırdı. Mərhum Əhməd xan Sultanın kiçik qardaşı olmadığına görə qanuni vərəsəliyi onun böyük oğlu İmran ağa qəbul etmişdir. İmran ağa təbiətən zəif və humanist adam olmuşdur. Hər deyilənə inanan, mühüm siyasi məsələlərdə şəxsi fikri olmayan İmran ağanın az çəkən hakimliyi dövründə rəiyyətlər belə onun üzünə qayıtmışdılar. Ona görə də İmran ağa hakimiyyəti könüllü olaraq özündən kiçik qardaşı Musa ağaya vermişdir. Musa ağa atası Əhməd xan kimi ağıllı, tədbirli idi. Daxili və xarici məsələlərdən tez baş çıxardan yəni hakim az vaxtda sultanlıqda gəzən söz-söhbətə son qoydu. Kəndlərdə baş qaldırmaqda olan nəsil iğtişaşlarının, özbaşınalığın qarşısını aldı. Lakin tale Musa ağanın da bəxtinə uzun ömür qismət eləmədi. O, 1830-cu il sentyabrın 25-də qəflətən vəfat etdi. Onun hakimiyyəti heç bir il də çəkmədi. O dövrün məşhur tarixçisi Vasili Potto yazır ki, bundan sonra vərəsəlik haqlı olaraq mahalda sərtliyi və cəsurluğu ilə ad-san qazanmış Daniyal bəy sultanın əlinə keçmişdir. Bu ağıllı və mərd adama müridizmin tüğyan elədiyi bir dövrdə sultanlığa rəhbərlik eləmək nəsib olmuşdu.

Qafqazı bu üç silahla — alicənablıq,<br>ədalət və həqiqi igidliklə fəth etmək olar.<br><br>Mirzə KAZIM BƏY,<br>professor.

Ruslar Qafqaza gələndə bu üç keyfiyyətdən heç biri onlarda olmamışdır. Onlar Qafqaz xalqlarının alicənablığından, inamından istifadə edərək torpağımızı fəndgirliklə fəth etmişlər. Gəncəli Cavad xanın, Qarabağlı İbrahim Xəlil xanın faciəli ölümləri və Sibirə sürgün olunan qazaxlı mayor Mustafa ağa Arif Şıxlinskinin, Şəmşəddinli Nəsib Sultanın, Qubalı mayor İsa bəy Bakıxanovun və onlarla azərbaycanlı ziyalıların acı taleyi bu fəndgirliyin qurbanı oldu. Rusların fəthetmə siyasətini təkcə yerli ziyalılar yox, o vaxt Qafqaz Əlahiddə Ordusunda xidmətdə olan rus əsgər və zabitləri də başa düşmüşdülər. Ağsaçlı Qafqazda Şeyx Şamilin apardığı azadlıq hərəkatına qarşı çıxmaq istəməyən rus əsgər və zabitləri dəstə-dəstə Şeyx Şamilin tərəfinə keçirdilər. Bəzi rus hərb tarixçiləri onların Şamil tərəfə keçmələrini çar ordusunda hərbi qulluğun ağır olması ilə əsaslandırırlar. Lakin o dövrün sənədlərinə əsasən, rus əsgər və zabitləri ona görə Şamil tərəfə

keçirdilər ki, onun azadlıq uğrunda mübarizəsinə ümid bəsləyir və bu yolda qələbə çalacağına inanırdılar.

Erpeli kəndinin sakini Şəmsəddin Əminoğlunun 30—40-cı illərdəki məlumatına görə, təkcə Darqo aulunda dörd yüz, Vedeno aulunda isə üç yüzdən çox qaçqın rus əsgər və zabiti vardı. Bunların hamısı könüllü olaraq Şamilin azadlıq ordusuna və şəxsən Şamilə pənah gətirənlər idi.

Qaçqın rusların adət-ənənəsinə hörmət edən, hətta onların dağlı qızları ilə evlənmələrinə icazə verən imam Şeyx Şamil 1840-cı ildə naiblərinə göndərdiyi bir məktubunda yazırdı:

«Möminlərin hakimi Şamildən naiblərə. Bilin və agah olun ki, ruslardan bizim tərəfimizə qaçanlar bizə inanırlar, siz də onlara inanın. Bu insanlar bizim səmimi dostlarımızdır. Haqqa tapınan bu təmiz insanlara toxunmayın, onlara yaşamaq üçün hər cür şərait yaradın».

***

«Mənim istəkli qardaşım. Qoy gavurların vədləri səni yoldan çıxartmasın. Aldanma. Allahın adı ilə səni inandırıram ki, onların arzusu, istəyi ancaq bizi qul etməkdir. Onlar bizi alçatmaq, inamımızı hər yolla qırmaq istəyirlər. Gavurların həm varlı, həm də tamahkar olmasına baxmayaraq, biz qadir Allahın rəhminə sığınırıq.

...Biz atlarımızı ona görə yəhərlədik, xəncərlərimizi ona görə qınından çıxartdıq ki, o bir olan Allahın adını ucaldıb yüksəklərə qaldıraq: bizə kömək edin. Əgər siz müsəlmansınızsa, Allahın düz yoluna gəlmək istəyənlərə mane olmayın».

**(Şeyx Şamilin Gümbətli Əlimirzəyə**
**1 aprel 1840-cı il tarixli çağırış**
**məktubundan).**

1844-cü ildə Şeyx Şamilin azadlıq ordusuna pənah gətirənlərdən biri də İlisu hakimi Daniyal bəy Sultan Əhmədxan oğlu oldu.

Yüz əlli ildən çoxdur ki, Şamil hərəkatından yazan rus hərb tarixçiləri, tədqiqatçıları Daniyal bəyin qarasınca deyinərək, onu «ruslara xəyanət edən satqın general» kimi qələmə verirlər. Soruşan yoxdur ki, 40 ilə yaxın polkovnik olan atası Əhməd xana, əmisinə, qardaşına və nəhayət Daniyal bəyin özünə on beş il ruslara sadiq xidmətinə görə knyaz titulu verdiniz, general-mayor rütbəsi ilə təltif etdiniz, bəs ruslara «xəyanəti» haradan baş verdi? Bu barədə nə Lineviç, nə N. Smirnov, nə S. Esadze, nə də başqaları zərrəcə söhbət açmırlar. Görəsən bu tədqiqatçılar 1831-ci ildən 1844-cü ilə qədər general Daniyal bəy İlisulunun Sankt-Peterburq, Tbilisi və Moskva arxivlərində saxlanan, imperator I Nikolaya, Qafqaz canişini M. S. Vorontsova, imperiyanın hərbi naziri A. İ. Çernışova, Əlahiddə Qafqaz Ordusunun baş komandanı A. İ. Neydqardta, imperatorun dəftərxana rəisi M. P. Pozenə raportlarını, xahişnamələrini və ərizələrini oxuyublarmı? Şübhəsiz ki, oxuyublar, onlar üçün sərfəli olmadığına görə, üstündən sükutla keçiblər.

Yalnız Əziz Qubaydullin özünün 1928-ci ildə Bakıda nəşr etdirdiyi «Azərbaycanda kəndlilər və feodal sinfi» adlı əsərinin 157-ci səhifəsində Daniyal bəyin müridlərinin tərəfinə keçməsinə haqq qazandırır. O yazır: «1844-cü ildə sultanın müridlərin tərəfinə keçməsini rus müəllifləri Daniyal bəyin şüurlu xəyanəti (onların fikrincə, bu xəyanət sultanın əvvəlki davranışı ilə uzlaşmır) və ya inciklik nəticəsi kimi təsvir edirdilər. Amma bizim fikrimizcə, sultanın «xəyanəti» haqqındakı işə rus hakimiyyət orqanları tərəfindən edilən şüurlu təxribat kimi baxmaq olar. Tiflisdə özlərini elə göstərdilər ki, guya general Şvartsın sultanı müridlərlə əlaqədə günahlandıran məlumatına inanıblar və İlisuya hərbi dəstələr göndəriblər, Daniyal bəyin müdafiə olunmaqdan başqa çarəsi yox idi. Ruslar tərəfindən sıxışdırılıb məğlub edilən Daniyal bəy bir neçə bəylə birlikdə Sarıbaş dərəsi ilə Saxura, oradan da müridlərin yanına qaçmalı oldu. Daniyal bəyin başqa əlacı yox idi. Ruslar bundan sonra onun sultanlığını məhv etdilər».

Daniyal bəyin haray, üsyan dolu xahişlərinə, raportlarına, insafla desək, imperator I Nikolaydan başqa ədalətlə yanaşan ikinci bir şəxs tapılmayıb. Aşağılar isə imperator sərəncamının, əmrinin axarını başqa səmtə yönəldiblər. Bir sözlə, Daniyal bəyi məcbur eləyiblər ki, «ruslara xəyanət edən satqın general» olsun.

Bəs general-mayor rütbəli İlisu sultanı niyə «satqın» olub?

O vaxtın kif basmış sənədlərindən məlum olur ki, general Daniyal bəy alicənab, işində, qulluğunda sərt və ədalətli bir şəxsiyyət olub. Rusların ilk gəlişində polkovnik atası onların yağlı vədlərinə necə inanmışdısa, Daniyal bəy də bu inamla Paskeviç tərəfindən İlisu hakimi kimi yüksək vəzifəyə, knyaz tituluna və general-mayor rütbəsinə layiq görülmüşdü.

Yenicə sultan təyin olunan Daniyal bəyə Paskeviçin 1831-ci il fevralın 14-də göndərdiyi məktubunu oxuyanda ədalətin saf üzünü görürsən.

General-feldmarşal qraf İ. F. Paskeviç məktubunda yazır: «İnanıram ki, yaxşı işinizlə atanız Əhmədxan ağa kimi xalqın hörmətini qazanacaqsınız. Sizi İlisu xalqının istəyi ilə seçmişik. Yəqin ki, az müddətdə ləri azaldıb, xalqın güzəranını yaxşılaşdıracaqsınız. Üsyanları, məhəlli, tayfa çəkişmələrini aradan qaldıracaqsınız. Sərhədlərinizi möhkəmlədin, torpağınız onda daha çox bəhrəli olar».

Həmin il İ. F. Paskeviçin qulluq yeri Varşavaya dəyişdirilir. Bununla da Daniyal bəyin «dramı» başlayır. Hər addımbaşı sıxışdırılan Daniyal bəyin torpaqlarının bir hissəsi və bir neçə para kəndi 1830-cu ildə Car-Balakən inzibati dairəsinin tərkibinə daxil edildi. On il keçər-keçməz İlisu sultanlığının ərazisi Gürcüstan-İmeretiya quberniyasına qatıldı. Bir yandan torpaqlarını zəbt edib şəxsi mühafizə dəstəsini ixtisara salır, digər tərəfdən Şamil ordusuna qarşı vuruşmasını tələb edirlər. İmtiyazları məhdudlaşdırılan, Car-Balakən dairəsinə tabe olmaq istəməyən Daniyal bəy yuxarı dairələrə nə qədər xahişnamələr yazırsa da onu eşidən olmur. Onda Daniyal bəy rusların Şamilə qarşı hərbi səfərdə iştirak etmək təklifini rədd edir.

Ötən əsrin əlli doqquzuncu ilində Qafqazda səfərdə olan məşhur fransız yazıçısı Aleksandr Dümaya danışılan bir əhvalatda Daniyal bəyin ruslara xəyanət edib-etmədiyini daha real görürük:

«Elə bu vaxt əyninə çərkəzi çuxa geymiş qəşəng bir zabit bizim yanımıza gəldi. O, İvana bir neçə tərifli söz dedi. Balaca knyaz tərəfə döndü və onu mənə təqdim etdi:

—Məhəmməd xandır.

Bu, mənə onun haqqında hələ heç nə demirdi. Mən salam verdim. Cavan zabitin müqəddəs Georgi xaç ordeni və çox gözəl silahı vardı. Müqəddəs Georgi xaç ordenini hər adama, hər hansı bir təsadüf və ya kiminsə məsləhəti ilə vermirlər.

—Siz mənə deyəcəksinizmi, bu Məhəmməd xan kimdir, knyaz? — deyə mən İvana müraciət etdim.

—Əlbəttə , elə bu saat.

O bir neçə kəlmə Məhəmməd xanla nə barədəsə danışdı.

—İndi isə qulaq asın, sizə deyim bu Məhəmməd xan kimdir. Hər şeydən əvvəl, bu adam Nuxanın axırıncı xanının nəvəsidir. İşdir, əgər bu şəhər və bütün əyalət rusların olmasaydı, onunku olmalı idi. Ona ayrıca mülk verilmişdir. O, mayordur... Bu rütbəni öz ləyaqəti ilə almışdır. Bu, məşhur Daniyal bəyin bacısı oğludur.

—Nə danışırsınız? O Daniyal bəy ki, Şamilin naibidir və onun oğlu Hacı Məhəmmədin qaynatasıdır?

—Lap düz tapmısınız.

—Bu necə ola bilər, dayı Şamilə, bacıoğlu isə ruslara xidmət edir?

—Burda bir anlaşılmazlıq olmuşdur: İlisulu xan kimi Daniyal bəy də ruslara xidmət etmişdir. O vaxt Ləzgistana komandanlıq edən general Şvarts ona qarşı bir balaca düz hərəkət etmir. Daniyal bəy hamı eşidə-eşidə şikayətlənir və ona hədə-qorxu gəlir. Adam çox vaxt müəyyənləşdirə bilmir ki, bu işin axırı necə qurtaracaq. Daniyal bəyin bir erməni katibi varmış. Bu erməni katibi general Şvartsa yazır ki, Daniyal bəy Şamilin tərəfinə keçmək istəyir. Məktub göndərilən yerə çatmaq əvəzinə, gəlib çıxır Daniyal bəyin öz əlinə. O, öz erməni katibini bir xəncər zərbəsi ilə öldürür və atlanaraq doğrudan da Şamilin tərəfinə keçir. Bu hadisə 1845-ci ildə olmuşdur.[1] Əgər deyilənlərə inansaq, Şamil onu qəbul etmir. Belə olanda, Tiflisə gedib xahiş edir ki, imperatorun özü ilə danışmaq üçün ona icazə versinlər. Onun bu xahişini də rədd edirlər, ona müşayiətçi dəstəsi qoşurlar. Bu hörmət əlaməti yox, onu izləmək üçün idi. O, Qarne Maqaliyə gəlir. Orada Baron Vrangelin vasitəsilə knyaz Varontsovdan xahiş edir ki, yenidən rus dövlətində işə girsin. Lakin bir şərtlə ki, Maqalidə qalsın. O, Şamilə çox yaxın olar və onunla əlaqələri

---

[1] A. Düma səhv edir. Arxiv sənədlərində və Qafqaz Əlahiddə Korpusunun komandiri A. İ. Neydqardtın hərbi nazir Çernışova göndərdiyi 6412 nömrəli müraciətində Daniyal bəy Şamilin tərəfinə 1844-cü il iyulun 19-dan 20-nə keçən gecə keçmişdir — müəl.

bərpa edə bilərdi. Ona deyirlər ki, Tiflisdə və ya Qarabağda yaşamaq şərtilə rütbəsini özünə qaytarırlar. O, bu təklifi rədd edir və yenidən Şamilin yanına qayıdır. Elə o vaxtdan bəri o, Şamilin bütün yürüşlərinin başında durur və bizə çox ziyan vurur».

Bu epizodu oxuyanda adam istər-istəməz düşünür: Necə olur ki, Dümanın mühafizəçisi sıravi əsgər (hələ yəqin ki, Cavadsız imiş) İvan hüquqları məhdudlaşdırılan Daniyal bəylə general Şvarts arasında baş verən «bir anlaşılmazlığı» başa düşür, amma müasir rus hərb tarixçiləri, tədqiqatçıları yox. Baxmayaraq ki, aradan əsr yarımdan çox keçib, bu sətirlərin müəllifi bu gün oxuculardan İvanın dediyi «anlaşılmazlığ»ı «ədalətsizlik» kimi oxumağı xahiş edir. Hələ fikir verdinizmi, nə mühafizəçi İvan, nə Aleksandr Düma «xain general» ya da «dönük Daniyal bəy» sözlərini işlətmirlər. Halbuki Aleksandr Düma 1859-cu ildə Qafqazda olanda Daniyal bəy də, Şeyx Şamil də sağ idi, ruslara qarşı mübarizələrini davam etdirirdilər. Demək fransız yazıçısına verilən məlumatdan da aydın olur ki, ruslardan incik düşən Daniyal bəy Şamilin tərəfinə keçməkdə, onun azadlıq uğrunda apardığı mübarizəyə qoşulmaqda haqlı idi.

General Daniyal bəyə rusların etibarı hələ 1804-cü ildən bəlli idi. Həmin il atası Əhməd xan ni gecikdirdiyinə görə, general P. D. Sisiyanov belə bir məktub göndərmişdi:

«Həyasız, fars cəmdəkli sultan, sən hələ mənə məktub da yazmağa cürət edirsən! Darıxma, bir gün qonaq gələrəm sənə, görüm iki ildən bəri öz nin bir hissəsini nə üçün ödəmirsən? Rusiya imperiyasının qaçqın ağalarını qəbul edir və onlara dam-daş verirsən? Babaxan (Fətəli şah Qacar — Ş. N.) üçün üç yüz nəfərlik qoşun göndərirsən? Sən it canlı, eşşək ağıllı məktubdakı hiyləgər bəhanələrlə məni aldada bilərsən? Əgər ixtiyarım çatsaydı, mənim yanıma ipəksiz göndərdiyin adamı Sibirə yollardım. Səndən isə mənim əlahəzrət imperatorumun sədaqətli vergilərini almayınca sənin qanınla çəkmələrimi yumaq istərdim. Harda görünüb ki, milçək qartalla danışıqlar aparsın?»[1]

Bu da rus generalının (milliyyətcə gürcüdür — Ş. N.) qanacağı. Belə təhqirə hansı sultan, hansı millətin oğlu dözərdi... Məktubda yekəxanalığın, qanacaqsızlığın həddini aşmasını oxucu özü görür. Təhqirin dərəcəsinə bax: «həyasız, fars cəmdəkli, eşşək ağıllı, it canlı...» və s. Atası belə ağır sözlərlə təhqir olunan Daniyal bəy rus imperiyasına, rus generalına necə sadiq ola bilərdi?..

O ki qaldı general Daniyal bəyin bacısı oğul Məhəmməd xanının müqəddəs Georgi ordeni almasına, Aleksandr Düma demişkən, hər yoldan ötənə, hər adama bir təsadüfdən və ya kiminsə xahişi ilə bu ali orden verilmirdi. Elə bu yerdə ata-babalarımız deyib ki, mərd oğul dayısına oxşar. Məhəmməd xan da igidlikdə dayısı Daniyal bəyə oxşamışdı. Rusların general Daniyal bəyə olan təqib və

[1] И.Владыкин «Путеводитель и собеседник в путешествии по Кафвказу». М.1885 г., 1 ч.,с.260.

təzyiqlərini arxiv sənədlərindən oxuyanda istər-istəməz bir el məsəlini də xatırladım: «Mərdi qova-qova namərd edərlər».

Aleksandr Düma «Qafqaz səfəri» kitabında general Daniyal bəylə bacısı oğlu Məhəmməd xan haqqında kiçik bir epizod da verib. İnanıram ki, bu balaca epizodu oxuyan hər bir şəxs Daniyal bəyin igidlərə məxsus hərəkətinə ürəkdən gələn bir səslə «əhsən» deyib.

Aleksandr Düma mühafizəçisi İvandan soruşur: «— Elə bir təsadüf olubmu ki, dayı ilə bacıoğlu hər hansı bir döyüş zamanı üzbəüz gəlsinlər?

—İki dəfə.

—Bəs belə hallarda onlar necə hərəkət edirlər?

— Onlar bir birini salamlayır və hərəsi çıxıb öz yolu ilə gedir».

Əsl igidlərə məxsus xüsusiyyətdir, elə deyilmi? Zənnimizcə, həqiqi mərd və igid olan adamlar bundan artıq hərəkət edə bilməzlər. Bu ibrətamiz epizoddan sonra Düma özü də etiraf edir ki, mən indi 28-30 yaşlı yaraşıqlı Məhəmməd xana yeni bir maraqla baxırdım. O mənə Bestujev-Marlinskinin Ammalat bəyini xatırladırdı...

## Şeyx Şamilin yanında

...Məni qadir Allahdan başqa heç kəs
aldada bilməz. Qoy məni yaradan özü də
məni hifz etsin. Qurana and içmişəm ki,
başım bədənimdən ayrılana kimi
gavurlarla vuruşacağam...

**Şeyx ŞAMİL**

Onu qarşılamaq üçün Şamilin özü Darqo auluna gəlmişdi. Andiçmə isə Qunibdə oldu. Daniyal bəy Quranı əlinə götürdü. Üç dəfə öpüb, gözünün üstünə qoydu. Yorğun və kədərli səslə:

— And olsun bu müqəddəs Qurana və böyük Peyğəmbərimiz Məhəmmədə ki, bizi qul etmək istəyən gavurlara qarşı son nəfəsimə qədər vuruşacağam. Böyük imamımız Şeyx Şamilin rəhminə sığınaraq onun əmrlərinə bütün varlığımla əməl edəcəyəm. Əgər dediklərimə əməl etməsəm, onda möhtərəm imamımız tərəfindən bir dəfə yox, yüz dəfə Allahın lənətinə məruz qalım. Ailəmlə və İlisudan böyük imamın dərgahına təşrif gətirən nökər-naibimlə birlikdə özünün azadlığı uğrunda mübarizə aparan dindaşlarıma sədaqətli olacağım barədə and içirəm. And içirəm ki, müqəddəs torpaqlarımızdan gavur ayağının kəsilməsi üçün qılıncım iti, köhlənim yəhərli, gözüm yuxusuz olacaq. Pak müsəlman qəlbilə sizə sığınacaq gətirən İlisu sultanı Daniyal bəy Əhmədxan oğlu.

Şeyx Şamil Daniyal bəyin ailəsini və sadiq nökərlərini də səmimi salamladı. Özünə isə min manatdan çox dəyəri olan silah bağışladı. Qılıncın bir üzündə ərəbcə: «Daniyal bəyə dostluq nişanəsi, hicri 1263-cü il (1845), o biri üzündə isə

«Nəticə haqqında düşünənlər heç vaxt cəsarətli olmayacaqlar» sözlərini yazdırmışdı.

Qılıncı təqdim edəndən sonra Şeyx Şamil həmişə olduğu kimi indi də qısaca danışdı:

— Biz müsəlmanların bədbəxtliyi ondadır ki, rusların yağlı dillərinə, şirin vədlərinə çox tez inanırıq. İnanmayın ruslara, boyun əyməyin gavurlara. Dözün və səbr edin. Şeytan ruslar Qafqaza gələndən tamahkar müsəlmanlara rütbələri, vəzifələri səxavətlə verib onları özlərinə tabe edirlər. Sonra da minbir hiylə ilə ya Sibirə sürgünə göndərir, ya da sui-qəsd edib aradan götürürlər. Bu gün bizə pənah gətirən Daniyal bəyin aqibəti buna canlı sübutdur. Gələcək haqqında fikirləşəndə heç vaxt keçmişi unutmayın. Ruslara qarşı vuruşa-vuruşa ölmək onlara boyun əyməkdən yaxşıdır. Allahı sevərsiniz aldanmayın donuz ruslara. Mən bir əlimdə Qurani-Kərim, o birində isə qılınc, sizinlə gavurlara qarşı müqəddəs torpağımız uğrunda son nəfəsiməcən vuruşacağam.

Allah-Taala öz kömək əlini pak olan müsəlmandan heç vaxt əsirgəməz. Peyğəmbərin, imamların zühur olan səslərini dinləyin. Onlar sizə necə hərəkət etmək barədə yol göstərəcəklər.

Daniyal bəy Qazi Məhəmmədin naib olduğu Qarat aulunda məskən saldı. Az sonra Şamil ona dörd minlik süvari etibar edib, naib təyin etdi. Onun illik donluğu gümüş pulla on min manat idi.

1843-cü ilin sonlarında Qafqazdakı hərbi əməliyyatlarda rus ordusu az-çox müvəffəqiyyət qazanmışdı. Lakin general Daniyal bəyin və rus əsgərlərinin Şamil tərəfə çox keçməyindən bərk narahat olan imperator Qafqaza yeni bir komandan təyin etdi. Novorossiyanın general-qubernatoru və Bessarabiyanın canişini altmış üç yaşlı qraf Mixail Semyonoviç Vorontsovu[1] Qafqaza baş komandan və canişin vəzifəsinə göndərdi. İmperator I Nikolay Qafqaza əlavə olaraq qırx minlik qoşun da ayırdı. Onun yeni komandan qarşısında tələbi belə idi: 1845-ci ilin sonuna kimi güclü hərbi yürüşlər aparıb imamlığın mərkəzi Darqo və Andi aullarını almaq və Şamillə birdəfəlik qurtarmaq. Amma 1859-cu il avqustun 25-dək davam edən bu

[1] Gəncliyində M.S.Vorontsovu yaxşı tanıyan, bəd əməllərinin şahidi olan böyük rus şairi A.S.Puşkin 1824-cü ildə onun xarakterini bircə bəndlik şerində çox gözəl açmışdır:

Yarım igid, yarım avam,
Üstəlik də yarım alçaq.
Lakin burda bir igid var,
Alçaqlıqda tam olacaq.

Sonralar tam alçaq olan M.S.Vorontsov 1845-ci ilin mayında Darqo auluna hərbi səfər zamanı zəif və avam komandan olduğunu sübut etdi. Həmin hərbi yürüşdə M.S.Vorontsovun komandan olduğu qoşun dörd general, yüz səksən altı zabit və dörd min əsgər itirdi. Bərk ərzaq qıtlığı çəkən rus qoşunu bir suxarını bir neçə əsgər arasında bölməyə məcbur oldu. Ona görə də bu hərbi səfər “suxarı ekspedisiyası” kimi rus hərb tarixinə düşdü. – müəl.

müharibə göstərdi ki, Şeyx Şamil kimi güclü sərkərdəni belə qısa müddətdə asanlıqla məğlub etmək qeyri-mümkündür.

Rusların qarşısına çıxmaq üçün Şeyx Şamil öz ordusunu üç hissəyə böldü. Çox aulu və Qazıqumıx istiqamətində döyüşəcək birinci dəstəyə Daniyal bəy naib təyin olundu. O, hiyləgər erməni generalı Arqutinskinin dəstəsi ilə vuruşmalı idi. Dörd minlik süvari dəstəsi ilə Daniyal bəy ustad Cəmaləddin Hüseynlə birlikdə Çox aulu uğrunda güclü döyüşlər apardı. Zaqatala yaxınlığında keçmiş düşməni general Şvartsla üzbəüz gəldi. General Şvartsın dəstəsini özünün iki minlik say-seçmə süvarisi ilə geri oturtdu. Onun hərbi əməliyyatı belə idi ki, İlisuya enib dədə-baba torpaqlarını gavurlardan xilas etsin. Lakin çaparın gətirdiyi xəbərə görə general Arqutinski güclü qoşunla arxadan ona hücuma hazırlaşırdı. Onda Daniyal bəy Kudal, Saltı və Kuppa aullarına yeriyib onları ruslardan təmizlədi...

Bu kiçik döyüş epizodu on altı il Şeyx Şamilin azadlıq hərəkatında yaxından iştirak edən general Daniyal bəyin hərbi əməliyyatlarından biridir. Yüzlərlə belə döyüş əməliyyatının fəal iştirakçısı olan general Daniyal bəy İlisulu Şamilin ən igid naiblərindən biri, ən sevimli məsləhətçisi olmuşdur. Çara «xəyanət» edib Şamilin tərəfinə keçən general Daniyal bəy Qafqaz xanlıqlarında və dağlılar arasında böyük hörmətə malik idi. Amma təəssüf ki, rus tədqiqatçısı Nikolay Smirnov «Qafqazda müridizm» kitabında Daniyal bəyin hərbi fəaliyyətinə özünün şovinist rus prizması ilə baxaraq, heç bir əsası olmadan yazır ki, guya Şeyx Şamil Daniyal bəyin qısa və kifayət qədər ifadəli xarakteristikasını vermişdir: pis döyüşçüdür, məsləhətçi kimi yaxşıdır, icraçı kimi yararsızdır!

Sual olunur, əgər belədirsə, Şamil kimi ağıllı sərkərdə mübarizəsinin son dəqiqəsinə kimi general Daniyal bəylə on altı il necə işləmişdir?

Əsl həqiqəti isə şahidi olanlar deyə bilərlər. Ona görə də Şamilin otuz il şəxsi katibi və bütün yürüşlərinin iştirakçısı olmuş Məhəmməd Tahirin «Şeyx Şamil» tarixi əsərindən kiçik bir parçaya diqqət yetirək:

«...Ruslar və Ağalar xanın qaziqumuxları aulu öz qüvvələrinə tapşırdılar. Belə olduqda imam Daniyal sultana əmr etdi ki, çoxluların üzərinə gedib xoşluqla və ya zorla onları şəriətə itaət etdirib vədlərinə sadiq qalmaları üçün onlardan girov da götürsün. Daniyal Sultan imamın şərtlərini çatdırmaq üçün Çoxa nümayəndəlik göndərdi. Lakin çoxlular öz müttəfiqlərinə bel bağlayıb müridləri saymadılar. Elçilər çox saymazyana qəbul edilib, onların gətirdikləri təkliflərə çox həyasızcasına əks təkliflər irəli sürdülər. Özü də elə bir vaxtda ki, Daniyal Sultan güclü qoşunla aulun lap ağzında, naiblərdən İnko və Musa Hacı isə öz dəstələri ilə aulun içində idilər.

Öz sülh təkliflərinə rədd cavabı alan Daniyal Sultan aşağı başdan aula daxil oldu. Çoxlular da görünür əliboş dayanmamışdılar. Kudali aulundan ayaqdan-başa kimi yaraqlanmış üç yüz döyüşçü onlara köməyə gəldi. Eyni vaxtda Ağalarxan da öz Qaziqumux, Akuşi və sudaxarlıları ilə qəbristanın yanında mövqe tutdular.

Hər iki tərəf arasında səkkiz gün çəkən qızğın və qanlı döyüş oldu. İmamdan təkrar əmr gəldi: hamınız həlak olun, amma məqsədə çatmadan qayıtmayın. Hər iki tərəf inadlı və çılğıncasına vuruşdu. Naiblər ruhdan düşüb imamlarını itirməyə və rəislərini sülhə çağıran təkliflər söyləməyə başladılar. Lakin Daniyal Sultan bildirdi ki, o, Çoxda ölər, amma imamın hüzuruna qara üzlə qayıtmaz».

Bu naib general Daniyal bəyin imam Şamilə sadiqliyinin yüz nümunəsindən biridir.

Arxiv sənədlərindən məlum olur ki, Şamil onunla həm də yaxın qohum olmuşdur. Şamilin böyük oğlu, varisi Qazi Məhəmməd Daniyal bəyin qızı Kərimətlə evlənmişdi. Şeyx Şamil ailəsi ilə 1859-cu ildə əsir alınıb Peterburqa, Kaluqaya aparılanda gəlini Kərimət də onlarla idi. Saf dağlar havasında böyümüş Kərimət Vətən həsrətilə göynəməkdən nəmli Kaluqada vərəm tapdı, orada da vəfat etdi.

O da məlumdur ki, Şeyx Şamil əsir alınandan sonra imperatorun əmrilə polkovnik Runovski ona yavər təyin olunur və ona tapşırılır ki, Şamilin davranışını, söhbətlərini qeydə alsın. Polkovnik Runovski «Şamil haqqında qeydlər» adlı kitab yazmışdır. Həmin kitabda Runovski yazır ki, Şamil söhbətlərində 1861-ci ildə Daniyal bəyin fransız qəzetində («Yousna du midi») çap olunmuş fikirlərini təkzib etmək üçün dəfələrlə onu xatırlayır, onun söhbətlərinə qayıdırdı. Şamilin dediyinə görə, Daniyal bəy onun tərəfinə keçməmişdən üç il əvvəl qazavat döyüşçülərinin sıralarına keçmək üçün danışıqlar aparıb. Ona razılıq verilmiş, lakin, görünür, baş verən hadisələri götür-qoy edən Daniyal bəy iki il qazavat tərəfə keçmək məsələsini gecikdirirdi. Daniyal bəyin bu niyyətinə ümidini itirən Şamil, ona xəbər göndərir ki, bəs onun imarətinə öz bayrağını sancmaq üçün İlisuya gəlir. Onda Daniyal bəy Şamilə bildirir ki, imkan düşən kimi Şamilin tərəfinə keçəcək.

Şamilin, sədaqətsizliklə məzəmmətlədiyi Daniyal bəy, nəhayət, yanındakı rus zabitini (əslində milliyyətcə erməni olan rus zabitini — Ş. N.) öldürüb Darqoya gəlir.

1859-cu ildə Qunib aulundakı son döyüşdə də Daniyal bəy Şeyx Şamilə and içir ki, onu son damla qanına kimi qoruyacaq, öz qızını doğrayar, ancaq rusların əlinə keçməyə razı olmaz.

Şamilin tərəfinə keçdikdən sonra sultanlığı dağılan, sarayı yerlə-yeksan edilən, ruslar demiş, «xain general» Daniyal bəyin son taleyi necə olmuşdur?

Şamil kimi Daniyal bəy də əsir alınmışdı. Bir müddət Şəkidə saxlanılmış, hətta ona 5,5 min manat pensiya da verilmişdir. Yenidən rus ordusunda qulluq etmək təklif olunanda, inciyib imtina etmişdir. O, 1859-cu ildə Türkiyəyə getmişdir.

Bu gün bütün Qafqazda dolaşan, ağız-ağız gəzən bir əhvalat var. Onu xeyir-şər məclislərində Şeyx Şamildən söhbət düşəndə tez-tez danışırlar. Bu əhvalat nə

dərəcədə doğrudur, onu ancaq gözəgörünməz olan bir Allah bilir. Çünki onu şəxsən eşidənlərin heç biri həyatda yoxdur.

Deyilənə görə, Şeyx Şamil 1870-ci ildə Məkkəyə ziyarətə gedəndə yolüstü İstanbulda dayanır. Onun burada olmağını eşidən keçmiş qazavat döyüşçülərinin hamısı görüşə gəlir. Daniyal bəy də gəlir. Şamil hamı ilə sağ əlilə görüşür. Lakin növbə Daniyal bəyə çatanda sol əlini çox kefsiz ona uzadır.

— Böyük imam, nə üçün mənimlə sağ yox, sol əlinlə görüşürsən?

İmam Şamil sərt bir kinayə ilə ona cavab verir:

— Axı, mənim sağ əlim yoxdur. Onu sən və sənin naib dostların kəsib ruslara satmadınız? — hirslə qışqıran imam əlavə edir: — hə, siz kəsmədiniz, bəlkə yalan deyirəm...

Evinə çox pərişan halda qayıdan Daniyal bəy Əhmədxan oğlu İlisulu həmin axşam ürək partlamasından vəfat edir...

## Aşıq Rəfinin bir şeri

Hörmətli redaksiya!

Mən ilisuluyam. Qəzetinizdə («Bərəkət» qəzeti, 6-7 noyabr 1991-ci il) ilisulu Daniyal Sultan haqqında yazını böyük maraqla oxudum. Sizə və axtarışlarını həsrətlə izlədiyimiz Şəmistan Nəzirliyə bütün ilisuluların adından öz minnətdarlığımı bildirirəm. Materialı oxudum və yaddaşım vərəqləndi. Arxivimdən bir bloknot tapdım. Qəlbimdə düz otuz il bundan əvvəlki qeydlərimə heç nə artırmadan «Bərəkət» qəzetinin oxucularına çatdırmaq arzusu oyandı.

**Hörmətlə:**
**Paşa ƏFƏNDİYEV,**
**professor.**

1961-ci ilin oktyabrında Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Azər Hüseynovla ekspedisiyaya getmişdik. Azər müəllim Qax-Zaqatala bölgəsinin ləhcə, şivələrini tədqiq edir, mən də Molla Cümənin şerlərini toplayırdım. Ekspedisiyaya Qaxdan başladıq. Məqsədimizi bilən, özü də Qaxbaş kəndindən olan «Məmməd müəllim» (onu belə çağırırdılar) bizi Qaxbaşa Rəfi dayının evinə apardı.

Osmanov Rəfi Həzrət oğlu. Özünün dediyinə görə, yaşı yetmişdən keçmişdir. Onun atası Həzrət (Qoca oğlu Həzrət adı ilə tanınmışdır) aşıqlıq eləmişdir. Molla Cümənin dostu olmuşdur, bir-birinin evlərinə gedib gələrmişlər. Molla Cümənin Qoca oğlu Həzrətə həsr elədiyi şerləri də olmuşdur, onların birini bloknotuma yazdım.

Rəfi dayı Şəki, Qax, Zaqatala tərəflərdə yaşayıb-yaradan aşıqların da şerlərini bilirdi. Şeyx Şamil haqqında atasından eşitdiklərini çox həvəslə danışırdı. Bir neçə rəvayət də söylədi. Heyf ki, onları yazmadıq. Bununla belə bloknotun küncündən kiçik bir qeyd tapdım.

«Atam söyləyirdi: Nikolay padşah deyir ki, Şeyx Şamili mənim yanıma gətirin, özü də diri gətirin».

Aşıq Rəfinin özünün də çoxlu şeri olub. Çox təəssüf ki, onunla görüşmək bizə bir də qismət olmadı. Aşıq Rəfinin Şeyx Şamilə və İlisuya həsr elədiyi şerlərini dilindən yazdım. Şerlərdə müəyyən tarixi hadisə və faktlara işarə olunur. Özü də Şəmistan müəllimin yazıları ilə necə də sıx səsləşir. Onun birini müəyyən ixtisarla «Bərəkət» qəzetinin oxucularına təqdim edirəm.

Seyraqub ayağından,
Gədalanan xanlara bax.
Axıdıb göz yaşını,
O tökdüyü qanlara bax.
Vətəndən cida düşüb,
Çəkdiyi bir günlərə bax,
İsmayıltək haqq yolunda
Qurban olan canlara bax.
Qurtarsın qayğılardan
Daniyal Sultanı Şamil.

***

İşlənir şəriəti,
Çox söylənir doğru sözü,
Padşahla dava qılıb,
Xotkara bənzəmiş özü.
Tutdurur topa onu
Nə qoymaz Cari, Tiflisi.
Gəlibən bu yerlərə
O alıbdı dağı-düzü.
Töközbdü bulud kimi
Kövkəbi, asmanı Şamil.

***

Bilirəm tab eləməz,
Kimsə onun savaşına.
Yandırır eşq oduna
Pərvanətək ataşına.
Titrəşir xəlayiqlər
Çıxanda mizan qoşuna.
Biçarə Rəfi deyər
Bəxtəvər onun başına!
Alıbdı bu dünyada
Cənnəti-rizvanı Şamil.

## İLK ADMİRALIMIZ

İnsanın ata-anası olmayanda ona yetim deyirlər. Daha böyük fəlakətdir ki, millət yetim qalsın. Yetim millət kimə deyirlər? Öz tarixini bilməyən millət yetimdir. Öz dahilərindən, böyük adamlarından xəbərsiz yaşayanlar yetim hesab edilir.

Biz elə xalqıq ki, böyük dahilər, dünya miqyasında şöhrət tapan adamlar yetirmişik, amma başqa millətlər ona sahib olmaq istəyiblər.

**Əkrəm CƏFƏR,**
**professor.**

### Bələdçi qızın dedikləri

İlk dəfə onun adını 1976-cı ildə Sevastopol şəhər muzeyində eşitdim. Bələdçi qız nəhəng bir kreyser şəkli önündə dayanıb 1853—1856-cı illər müharibəsinin qəhrəmanları haqqında məlumat verirdi:

— 1854-cü ilin mart ayında İngiltərə və Fransa Rusiyanın Balkanlarda güclənməsindən bərk narahat olmuşdu. Onların məqsədi Qara dəniz boğazlarını ələ keçirmək və Rusiyanın ticarət yollarını bağlamaq idi. Ona görə də hər iki ölkə müharibəyə qoşulub Krıma qoşun çıxartdı. Sevastopol mühasirəyə alındı. O vaxtdan da Sevastopolun qəhrəmancasına müdafiəsi başlandı. Admiral İstomin, Naximov, Aslanbəyovun (axırıncı famili Aslambekov kimi tələffüz edirdi) və rus əsgərlərinin qəhrəmancasına vuruşmasına baxmayaraq, ingilis və fransız qoşunları şəhəri aldılar. Təhkimçi Rusiyanın gücsüzlüyü və çürüklüyü ölkəyə baha başa gəldi. Bax, bu gördüyünüz şəkildəki vitse-admiral Aslanbəyov 1871-ci ildə üçüncü donanma skipajının rəisi olanda Sevastopola dəmir yolu çəkilməsinə rəhbərlik etmişdir...

### Sənədlərdən soraq aldım

Bələdçi qız sözünə ara verib bildirdi ki, indi də o biri salona keçək. Tamaşaçıların bəzisi irəli durub admiralın portretinə yaxından baxıb keçirdilər. Mən isə şəklin önündə xeyli dayandım... Onun üzündə, gözündə qafqazlıya, daha doğrusu Azərbaycanlıya oxşarlıq axtarırdım. Etiraf edim ki, sövq-təbii bir hiss onun bizim xalqın oğlu olmasına məndə şübhə yaratmırdı. Əzəmətli duruşu, qafqazlılara məxsus burma bığları bəy nəsilli olmağından nişan verirdi. Çərçivənin aşağısındakı qısa məlumatı oxudum: «Vitse-admiral A. B. Aslambeqov. 1820—1900-cü illər».

Bayaqkından daha geniş bir salona keçdiyimizdən hərə bir tərəfə çəkilib eksponatlara baxırdı. Bir nəfər sualları ilə bələdçi qızı lap bezikdirmişdi. Mən isə sual vermək üçün fürsət gözləyirdim. Bələdçi qız ondan canını qurtarmaq üçün deyirdi:

—Ay yoldaşlar, bir az yaxın gəlin, eksponatlara əl vurmayın, belə olmaz. Suallarınızı axırda verməyinizi xahiş edirəm...

Üçüncü, axırıncı salona keçməyimizi bildirəndə mən dözə bilməyib ona yaxınlaşdım.

—Möhtərəm xanım, sizinlə bir məsələni aydınlaşdırmaq olarmı? — deyə soruşdum.

Qu quşu kimi zərif olan bu incə məxluq heysiz halda:

—Buyurun, — dedi, amma qısa olsun.

—Vitse-admiral Aslanbəyovun milliyyəti məni maraqlandırır, başqa heç nə...

—Bilmirəm, — deyib təəccüblə üzümə baxdı. — Necə məgər, rus deyil? Siz hardansınız?

—Bakıdanam, — dedim. — Zənnimcə, rus deyil.

—Deyilənə görə, bakılı da deyil. Onun erməni olduğunu deyənlər də var. Əgər sizi maraqlandırırsa, bir azdan bizim otağa gələrsiniz. Otaqda aydınlaşdırarıq. Gərək ki, onun sənədləri saxlanılır...

Həmin gün əsas fond bağlı oldu. Yelena ilə səhər görüşmək üçün vədələşdik. Əsas fondun bu gün bağlı olmağı onu da narahat etmişdi. Ona görə də mənə belə bir məsləhət verdi:

—Vaxtınız varsa, bu gün «Sevastopol şəhər panoramı»na da baş çəkin. Admiral Aslanbəyov haqqında orada da məlumat olmalıdır.

...Panoram-muzeydə məni pis qarşılamadılar. Amma gəlişimin məqsədini biləndə dodaq büzdülər. Dedilər ki, admiral azərbaycanlı ola bilməz, o illərdə sizinkilərdən orduya, donanmaya götürmürdülər.

— Niyə götürməyiblər? — dedim, götürüblər. Bu müharibədə (1853—1856-cı illər) hər birində beş yüz nəfər döyüşçüsü olan Azərbaycan süvari alayları və ayrıca Qarabağ süvari alayı vuruşurdu. Məhz rus hərb tarixçiləri yazırlar ki, Rusiyanın Qafqaz cəbhəsində əldə etdiyi qələbələrdə Azərbaycan süvariləri xüsusilə fərqlənirdi. Bu qələbə Krım uğrunda gedən döyüşlərdə vəziyyəti bir qədər yüngülləşdirdi. Bu müharibədə üç yüz əllidən çox azərbaycanlı zabit və əsgər təltif olunmuşdu. Vuruşanların da əksəriyyəti bəy, xan və ağa nəslindən olan oğullar idi.

Təəssüf ki, burada admiral Aslanbəyov haqqında heç bir sənəd tapılmadı. Amma muzey işçilərinin göstərdiyi ədəbiyyatdan öyrənə bildim ki, 1855-ci ildə Sevastopolda güclü döyüşlər zamanı admiral Naximov ağır yaralanıb.

Mərkəzi kitabxanaya gedib, admiral Naximovla bağlı kitabların hamısını sifariş verdim. Yazıçı Yuri Davıdovun «Naximov» sənədli povestində admiral haqqında belə bir epizoda rast gəldim: «Konsilium müəyyən etdi ki, Naximovun vəziyyəti ümidsizdir. Həkimlər onun bundan sonra yaşamasına inanmırlar. Ölüm yatağında Naximovun əzabı qırx saat çəkdi. Qırx saat tamam olanda canvermə başladı. Həmin anlar şahid kapitan-leytenant Aslanbəyovun gündəliyində dəqiq yazılıb:

«İyunun 30-da saat on birə yaxın onun nəfəs alması daha da kücləndi. Otaqda sakitlik hökm sürürdü, həkimlər mübahisəni kəsdilər və otaqdakılar

çarpayıya yaxınlaşdılar. Sokolov ucadan və çox aydın şəkildə dedi: «Budur, ölüm yaxınlaşır...»

Müəyyən an ötdükdən sonra Voyevodskinin sualına Sokolov bərkdən «keçindi» cavabını verdi. Hamı saata baxdı, saat on bir on dəqiqə idi».

Sonra yazıçı Yuri Davıdov izah edir ki, admiral Naximovun ən yaxın adamı kimi kapitan-leytenant Aslanbəyovun qeydlərində heç bir fantaziya yoxdur. Məhz ona görə də admiral Naximovdan yazan bütün rus tədqiqatçıları—akademik Y. V. Tarle, məşhur hərbi cərrah və həmin müharibənin iştirakçısı N. Piroqov və başqaları Aslanbəyovun qeydlərinə əsaslanırlar.

Sonralar «Naximovun bioqrafiyası» adlı əsərin müəllifi Aslanbəyov yazır ki, admiral Kornilovun həlak olmasını eşidən Naximov ona son borcunu verməyə getdi. Mən içəri girəndə Naximov ağlaya-ağlaya artıq ölmüş dostu Kornilovu öpürdü.

Sabahkı günü həyəcanla gözləməyə başladım.

Uzun bir dəhlizdən keçib, həyətə çıxdıq. Dolama pilləkənlərlə aşağı düşüb qapısına «İnqilaba qədərki mühafizə otağı» sözləri yazılmış qapını açdıq. Yelena hər şeyi ağ saçlı qadına təfsilatı ilə danışdı. Onun üzünə donuq bir ifadə çökdü. Əlindəki qələmi oynada-oynada təəccüb və kinayə ilə məni ötəri süzdü. Dodaqaltı nəsə mızıldanıb yerində qurcalandı. Qadının əhvalının pozulduğunu duyan Yelena öz işi üçün xahiş edən adamlar sayağı: «Rica edirəm, həm öz adımdan, həm də uzaq yol gəlmiş bu yoldaşın xatirinə etiraz etməyəsiniz. Görünür çox lazımdır...»

Yerindən durmaq istəməyən müdir ağır-ağır başını qaldırıb rişxəndlə:

—Bunun üçün Bakıdan buraya gəlmisiniz? — Xeyli duruxub: — Axı, Aslambəyov erməni admiralıdır. Sizin axtarışınız, məncə, mənasızdır.

—Ola bilməz, — dedim, əvvəla ona görə ki, admiralın familiyası Aslambəyov deyil, Aslanbəyov ola bilər. İkincisi də, əgər erməni olsaydı, Aslanyan olardı.

—Siz bunları hansı mənbədən və nəyə əsaslanıb deyirsiniz?

—O illərdə heç bir erməni familiyasında «bəy» sözü ola bilməzdi. «Bəy», «xan» və «ağa» titulları ancaq müsəlman xalqlarına məxsusdur. Ermənilərin isə bircə titulu olub, — «məlik», o da sonradan.

Fondun müdiri nə Yelenaya, nə də mənə bir söz demədən durub sol tərəfə buruldu, sonu görünməyən rəflər arasında yoxa çıxdı. Yelena əyilib arxasınca baxdı. Əlini dodaqlarının üstünə qoyub astadan yeniyetmə qızlara məxsus şıltaqlıqla:

—Dənizçilər demişkən, sükanı belə də tutun, hələlik biz onu məğlub eləmişik. Bircə Allah eləsin, familiya məsələsi siz deyən kimi olsun.

Təxminən on-on beş dəqiqədən sonra əlində qədim boz bir qovluq geri qayıdan mühafizəçi yerində oturub, bizi heç görmürmüş kimi özü vərəqləməyə başladı. Dərin, sükutlu bu yarımzirzəmi otaqda arabir açılan vərəqin səsi mənim intizarımı daha da artırırdı.

Handan-hana:

—Baxaq görək. - dedi, — sizin sözlərinizdə həqiqət varmı? Şəxsən mən şübhə edirəm ki, belə bir görkəmli admiral müsəlman ola...

Mən daha dözə bilmədim. Düzü, qorxurdum, özü baxıb, sonra da götürüb geri aparsın və desin ki, sizin dediklərinizdən əsər-əlamət yoxdur. Ayağa durdum. Əlimi cibimə salıb, pasportumu və vəsiqəmi çıxardıb stolun üstünə qoydum.

—Buyurun, — dedim, — mən bu iki sənədimi sizə etibar edirəm. Siz də əvəzində qovluğu verin, özüm baxım.

Hiss elədim ki, mənim bu səbirsizliyim Yelenanın da xoşuna gəlmədi. O, narahatlıqla:

—Axı, belə olmaz...

Müdir də dözə bilməyib bir az əsəbi:

—Nə deyirəm, buyurun, — deyib, — qovluğu mənə verdi.

Admiralın şəxsi işinə baxır və gözlərimə inanmıram. İlahi, bu qədər saxtakarlıq etmək olarmı? Nəfəsim təngiyir, həyəcandan şəxsi iş əlimdə əsir. Dözə bilməyib sevincimi onlara da bildirmək istəyirəm.

—İcazə verin, sizin üçün admiralın ad-familiyasını oxuyum.

Müdir dinmir. Amma Yelena, mənim qələbəmi, sevincimi duyan Yelena:

—Buyurun, oxuyun, — deyə şən səslə cavab verir.

Oxuyuram:

—Aslanbəyov İbrahimbəy Allahverdi bəy oğlu. Əsli belədir. Lakin qara tuşla bu ad-familiyanın üstündən xətt çəkilib, düzəliş edilib: Aslambeqov Avramiy Boqdanoviç, 1822-ci ildə Bakıda anadan olub. Əsl-nəcabəti isə ağalıqdır (zadəgan). Dini müsəlmandır, sonuncu iki sözün üstündən də xətt çəkilib, əvəzində «pravoslavnıy» yazılıb. Əgər mümkünsə, icazənizlə admiralın şəxsi işindən qeydlərimi götürüm...

Yelena sevinclə:

—Əlbəttə, olar, buyurun, əyləşib qeydlərinizi edin, mənə isə icazə verin mürəxxəs olum.

Mənim səmimi təşəkkürümü məmnuniyyətlə qəbul edən Yelena gedən kimi müdir sərt səslə bildirir:

—Yoldaş, qeydlər götürmək olar, amma nadir fondda saxlanan şəxsi işin foto-surətini çıxartmağa icazə verilmir.

—Çox sağ olun, — dedim, — mənə bu qeydlər də bəs eləyər.

—Belə bir qadağanın olmamasını mən çoxdan bilirdim. Lakin bu dar macalda mübahisəyə girişməyi artıq hesab etdim. Bir də ki, bu, mənə heç lazım deyildi. Başlıcası o idi ki, mən həmyerlim haqqında, ilk azərbaycanlı vitse-admiral barədə nadir tapıntı ilə üzləşmişdim. Bu sevinc mənə bəs idi.

## MƏNBƏLƏRDƏN GƏLƏN SƏSLƏR

«Bakı limanı » getdikcə yararlı hala salınırdı... Gəmi heyətinin əksəriyyəti bakılılardan olurdu. Gəmiçiliyin inkişafı bakılıların çoxunu dənizlə həmişəlik bağlayırdı. O illərdə şəhərdə çox nadir ailələrə rast gəlmək olardı ki, dənizçi olmasın. Gəmilərdə qara fəhlə işləyən də çox idi. 1820-ci illərdə Bakı sularında artıq altmışa qədər yelkənli gəmi üzürdü».

**Qılman İLKİN,**
**yazıçı.**

Azərbaycan Hərbi Dəniz Donanması tarixində ilk admiralımız Dərgahqulu bəyin oğlu Birinci Mirzə Məhəmmədxan olmuşdur. Təəssüf ki, hələlik onun fotoşəklini əldə etmək və ömür yolunu tam öyrənmək mümkün olmamışdır. Lakin hərbi dənizçilik tariximizin səhifələrində Mirzə Məhəmmədxanın fəaliyyəti barədə az da olsa məlumat var.

İyirmi yaşında Bakı xanlığına hakim olan Mirzə Məhəmmədxan atası Dərgahqulu bəydən sonra bərbad hala düşmüş iqtisadiyyatı qaydaya salmaqla yanaşı, Xəzərdə gəmiçiliyin inkişafına xüsusi qayğı göstərirdi. İlk dəfə Bakı limanında gəmiçiliyin inkişafına da o başlamışdır. Bu məqsədlə Avropada gəmiqayırma təcrübəsini öyrənmək üçün səfərə də çıxmışdı. Sevimli yazıçımız Qılman İlkinin «Bakı və bakılılar» sənədli əsərindəki bir epizod tarixi fakt kimi qiymətlidir.

«Bir gün Mirzə Məhəmməd oğlu Məlik Məhəmmədi yanına çağırıb dedi:

— Qulaq as, Məlik Məhəmməd, gör nə deyirəm. Biz dəniz sahilində oturmuşuq, ancaq öz gəmilərimiz yoxdur. Balıqçı gəmiləri ilə iş aşmaz. Bizə elə gəmi lazımdır ki, üstümüzə düşmən gələndə onun qabağına çıxa bilək.

Atasının sözlərindən heç bir şey başa düşməyən Məlik Məhəmməd gözlərini döyə-döyə ona baxırdı.

— Bunun üçün mən Avropaya getməliyəm, — deyib. Mirzə Məhəmmədxan dərindən nəfəs aldı. — Yaxşı gəmiləri ancaq oralarda düzəldirlər.

Bəs burda kim qalacaq? — Məlik Məhəmməd təəccüblə soruşdu.

Necə yəni kim qalacaq? Sən!

Məlik Məhəmməd bəzi işlərə qarışaraq, atasına kömək edirdisə də özünə qarşı bu cür etibarı heç gözləmirdi.

Həmin illərdə Bakıda olmuş səyyah Lerx yazırdı ki, Bakı xanı admiral Mirzə Məhəmməd xan tez-tez Langertə gedərək, orada gəmi inşasına rəhbərlik edirdi».

Ötən əsrin əvvəllərinə məxsus başqa bir mənbə də mövcuddur. 1804—1806-cı illərdə Azərbaycana işğalçılıq məqsədilə gələn rus qoşunlarının burnunu Xəzərdəki hərbi dənizçilərimiz ustalıqla ovmuşdular. İran tarixçisi Nəsir Nəcimi yazır ki, Abbas Mirzənin cəsarətli sərkərdəsi, Bakının igid komandiri (əslində valisi) Hüseynqulu xan toplardan birini rus gəmilərindən azacıq aralı olan yerə

çəkib, heyrətləndirici çəldlik və fədakarlıq göstərərək düşmənin bir neçə gəmisini top mərmisiylə dənizə qərq etmişdi.

Şübhəsiz ki, on yeddi yaşlı İbrahim bəy Aslanbəyovun Peterburqda Hərbi Dəniz Korpusunu bitirməsidə ilk admiralımız Mirzə Məhəmmədin arzu və istəyi ilə bağlı olmuşdur. Bakıxanovların ailə şəcərəsində Allahverdi bəy adlı bir şəxs vardı. Bəlkə İbrahim bəy Aslanbəyov həmin Allahverdi bəyin oğludur? Təəssüf ki, yüz yetmiş üç illik zaman məsafəsində bunu dəqiqləşdirmək mümkün olmadı. Ancaq xatırlatmaq istədik ki, o vaxtlar aşağı təbəqəyə məxsus ailənin on üç yaşlı oğlu Rusiyada oxumaq imkanına malik ola bilməzdi. Demək, ilk vitse-admiralımız İbrahim bəy Aslanbəyov Bakı xanlarının nəslinə mənsubdur. Şəxsi işində zadəgan nəslinə mənsub olması barədə qeyd də bunu sübut edir.

Adətən ensiklopediyaya düşən hər hansı görkəmli fərdin, şəxsiyyətin harada doğulduğu, hansı millətin oğlu olduğu yazılır. Nə məşhur naşir İ. D. Sıtinin 1911-ci ildə nəşr olunmuş çoxcildli «hərbi ensiklopediya»sında, nə də sovet dövründə çıxan hərbi dəniz ensiklopediyalarının heç birində admiral Aslanbəyov haqda bu cür məlumatlar yoxdur. Görünür, Rusiyanın hərbi-dəniz donanması tədqiqatçılarına belə görkəmli bir sərkərdəni özününküləşdirmək sərfəli olub. Niyə də olmayaydı?!. Axı, vitse-admiral Aslanbəyov həm də hərbi donanma tarixində görkəmli alim kimi tanınıb!

## Admiralın ömür yolu

Bəzi mənbələrdə, xüsusilə sovet dövründə nəşr olunan əsərlərdə Aslanbəyovun təvəllüdü 1820-ci il göstərilir. Fikrimizcə, bu da səhvdir. Çünki 1917-ci il inqilabından əvvəl nəşr olunan mənbələrdə admiral İbrahimbəy Allahverdi oğlu Aslanbəyovun 1822-ci il sentyabrın 10-da Bakıda anadan olduğu göstərilir. Üç il Peterburqdakı dənizçilik məktəbində təhsil alan İbrahim bəy oranı 1837-ci ildə (adı «Qırmızı lövhə»yə yazılmaqla) bitirmişdir. Baltik dənizində «Aleksandr Nevski» və «Prozerqin» hərbi freqatlarında üzən miçman Aslanbəyov iki il «İmperator I Pyotr» sürətli hərbi gəmisində Daqerord yaxınlığında keçirilən təlimlərdə iştirak etmişdir.

1842-ci ildə dənizçilik məktəbi zabitləri sinfini bitirən İbrahimbəy Qara Dəniz Donanmasının hərbi nəzarət gəmilərində üzmüş, Qara dənizin Şərq sahillərində baş verən toqquşmalarda iştirak etmişdir.

«Elbrus» hərbi gəmisinə komandirlik edən leytenant Aslanbəyov 1854-cü ildə düşmənin ticarət gəmilərini darmadağın etmək üçün dörd dəfə (30 iyun, 7 iyul, 3 və 6 avqust tarixlərində) dənizə çıxmış, avqust ayında isə desant gəmisinin döyüşən batareyasına komandirlik etmişdir. Bu xidmətinə görə ona kapitan-leytenant rütbəsi verilmişdir. Həmin il sentyabrın 13-dən müharibənin axırına kimi Sevastopol qarnizonunda olmuş, avqustun 27-də sonuncu hücumu dəf edərkən kontuziya almışdır. Şərq müharibəsindən sonra Nikolayev limanında 36-cı donanma ekipajına komandirlik etmişdir.

Aslanbəyov 1860—1861-ci illərdə «Sokol» pərli korvet gəmisinin komandiri kimi Aralıq dənizində üzmüş və həmin gəmini Kronştadta gətirmişdir. 1863-cü ildə həmin korvetlə Nikolayev şəhərinə qayıdan İbrahim bəy iki ildən sonra «Retvizan» gəmisinə komandir təyin edilmişdir. Bir müddət məşhur vitse-admiral Butakovun zirehli eskadriliya qərargah rəisi olmuşdur.

Aslanbəyov 1869-1872-ci illərdə dəfələrlə müxtəlif ümumdövlət əhəmiyyətli məsələləri öyrənmək üçün toplanmış komitələrə sədr təyin edilmişdir. Estoniyaya ezam olunan İbrahim bəy gəmiçilik məktəblərinin yaradılması və ticarət gəmilərinin düzəldilməsi üçün yaranan komitənin üzvü olmuşdur.

1878-ci il yanvarın 1-də kontr-admiral rütbəsi veriləndə İbrahim bəy Aslanbəyov səkkizinci donanma ekipajının rəisi idi.

Onun tərcümeyi-halı həm admiral kimi, həm də hərbi dəniz tarixçisi kimi çox zəngindir. Əgər başqa hərbçinin ömür yolu ilə müqayisə etməli olsaq, ancaq general Əliağa Şıxlınskinin artilleriya tarixindəki xidmətləri ona bərabər ola bilər. Ona görə ki, azərbaycanlı generallardan hərb elmi ilə məşğul olan ancaq Əliağa Şıxlinski idi. Fərq bircə ondan ibarətdir ki, Əliağa Şıxlinskinin elmi və hərbi fəaliyyəti Azərbaycanla daha çox bağlı olmuşdur. Admiral Aslanbəyovun elmi tədqiqatları isə rus hərb elmində geniş istifadə olunsa da, bu günə qədər bizə gəlib çatmamışdır. Daha doğrusu, özümüzdə nə tədqiqat olmuşdur, nə də təbliğat...

1872-ci ildə I Pyotrun anadan olmasının iki yüz illiyi böyük bayram şənliyi kimi keçirilirdi. Bu münasibətlə ümumrus texniki sərgisində iştirak etmək və imperatorun kiçik avarlı gəmi dəstəsinə Moskvaya kimi rəhbərlik etmək həmyerlimiz Aslanbəyova etibar olunmuşdu.

1879—1882-ci illərdə İbrahim bəy gəmi heyətilə dövri-aləm səyahətinə çıxmışdı. O, sakit okeanda dəmir zirehli hərb və buxar yelkənli iti gedən gəmilərdən ibarət hərbi heyətə («Minin», «Knyaz Pojarski», «Hersoq Edinburqski», «Asiya» və «Afrika») rəhbərlik etmişdir. Aslanbəyov okeanda sürətlə hərəkət edən kreyserlərin və «uçan eskadrilya»nın orduda tətbiq edilməsinin təşəbbüskarıdır. O, məşhur admiral A. A. Popovun xahişi ilə sonuncu layihədə nəzərə almaq məqsədilə tələb və qüsurlarını, siyahısını tərtib etmişdir.

Admiral İbrahim bəy Aslanbəyov Sakit Okean adalarında üzmüş, hətta Polineziyanın xırda adalarını da dolaşmışdır. Onun şəxsi işində saxlanan rəy və xatirələrdən, xüsusilə dənizçiliyə aid inqilabdan əvvəlki ədəbiyyatdan məlum olur ki, Aslanbəyov öz heyəti və ümumiyyətlə, tabeliyində olanlar arasında yüksək hörmət qazanmışdır. İllərin soldurduğu sənəddə ad-familini oxuya bilmədiyimiz bir kontr-admiral yazır ki, rus adını yüksək tutan Aslanbəyov xarici ölkələrdə də yaxşı tanınırdı. O, gəmi heyətində ruh yüksəkliyi yaratmağı məharətlə bacarırdı: hətta kiçik rütbəlilərin də şəxsi təşəbbüsünü həmişə qiymətləndirirdi. Açıqürəkliliyi və qətiyyəti ilə fərqlənirdi. Aslanbəyovun gəmi ilə səfərləri haqqında çoxlu lətifələr, eləcə də özünün danışdığı məzəli Şərq əhvalatları hələ də məşhurdur. Bu onun məşhur şəxsiyyət kimi nə qədər sevildiyini bir daha göstərir.

1884-cü ildə kontr-admiral İbrahim bəy Aslanbəyov Baltik donanmasının kiçik flaqmanı təyin olunur. Üç il sonra — 1887-ci il sentyabrın 22-də hərbi-dəniz donanmasındakı misilsiz xidmətlərinə görə ona vitse-admiral rütbəsi verilir. Bu ali rütbədən sonra Baltik donanması üzrə flaqman vəzifəsinə təyin olunan Aslanbəyov 1901-ci il dekabrın 7-də Peterburqda vəfat edir.

O, həmyerlimiz, böyük alim Mirzə Kazım bəylə dost olmuş, dahi rus yazıçısı Lev Tolstoy isə onu axtarıb tapmış, admiral Naximovun həlak olma səhnəsini ona danışmasını xahiş etmişdir. Lev Tolstoy məşhur «Sevastopol hekayələri»ni yazarkən admiral Aslanbəyovun xatirələrindən bəhrələnmişdir.

Ömrünün əlli ildən çoxunu hərbi dəniz donanmasında nümunəvi xidmətdə keçirən admiral İbrahim bəy Aslanbəyov Rusiyanın və xarici ölkələrin yüksək ordenləri ilə təltif olunmuşdur. Həmyerlimizin xidmətləri Serbiyanın «Takova» (1879), Rusiyanın «Müqəddəs Vladimir» (1854), birinci dərəcəli «Müqəddəs Stanislav» (1881), birinci dərəcəli «Müqəddəs Anna» (1883), «Ağ qartal» (1888), Yaponiyanın «Günəşin doğması» (1882), Havay dövlətinin ikinci dərəcəli «Kalakua» (1882) ordenlərinə layiq görülmüşdür.

1881-ci ildə imperator III Aleksandrın tacqoyma mərasimində iştirak edən admiral Aslanbəyova hədiyyə olaraq qılınc verilmiş və birillik məvacibi həcmində pul mükafatı ayrılmışdır.

Hələ sağlığında — 1882-ci ildə Saxalində bir yarımada, Oxot dənizində isə bir körfəz Aslanbəyovun adı ilə adlandırılmışdır.

Boris Maslennikovun 1986-cı ildə nəşr olunmuş «Dəniz xəritəsi nəql edir» kitabının 28-ci və 253-cü səhifələrində həmyerlimiz haqqında verilmiş qısa bioqrafik göstərici çox böyük əhəmiyyət kəsb edir. Əsaslı mənbələrdən topladığı faktları müəllif ilk dəfə oxucuya təqdim edir;

**«Aslanbəyov yarımadası.** Oxot dənizi, Saxalin adası, 1882-ci ildə ekipaj kliper təsvir edilib. Sakit okean komandanı, eskadrilya kontr-admiralı İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun soyadı ilə adlandırılıb. Soyadları xəritə üzərində hərf səhfilə yazılıb.

**Aslanbəyov körfəzi.** Oxot dənizi, Saxalin adası, 1882-ci ildə kəşf edilib və xəritəyə ekipaj, kliper «Plastun» kimi yazılıb. Elə həmin vaxtda da İ. A. Aslanbəyov soyadı ilə adlandırılıb.

**Aslanbəyov İbrahim bəy Allahverdi bəy oğlu** (1822—1900). Dəniz korpusu məktəbini bitirib. 1837—42-ci illərdə Baltik dənizində üzüb. 1842—61-ci illərdə Qara dəniz donanmasında «Selafanl», «Varşava» gəmilərində, «Femistokol» briqində və başqalarında qulluq edib. 1865—68-ci illərdə «Retvizan» gəmisinin komandiri, 1879—82-ci illərdə Sakit okean eskadrilyasının komandiri olub. 1887-ci ildə vitse-admiral rütbəsi alıb».

## Qəribə və xoş bir təsadüf

Doxsan üçüncü ilin sentyabr ayında Qax rayonuna ezamiyyətə getmişdim. Marsan kəndində Eldar Hacı oğlu Məmmədov soyadlı bir cavanla tanış oldum. İşi, sənəti ilə maraqlandım.

—Mühəndisəm, — dedi, on dörd ildir ki, Saxalində neft çıxarıram, indi məzuniyyətə gəlmişəm.

—Təsadüfən orada «Admiral Aslanbəyov» adasına rast gəlməmisən?

—Elə mən o adada yaşayır və işləyirəm, — dedi.

—Nə yaxşı təsadüfdür, azərbaycanlı admiralın adını daşıyan adada həmyerlisi yaşayır və işləyir.

—Admiral Aslanbəyov məgər azərbaycanlıdır? Siz bunu dəqiq bilirsiniz?

—Bəli, — dedim, — o, xalqımızın ilk admiralıdır.

—Bu barədə bizim ada sakinləri arasında, qeyri millətlərlə tez-tez mübahisəmiz olur. Familiya oxşarlığına əsaslanıb mən və həmyerlilərim «admiral bizim xalqın oğludur» deyiriksə də, əlimizdə heç bir əsas yoxdur. Bilmirik nə vaxt yaşayıb, nə vaxt ölüb... Bir-iki dəfə məzuniyyətə gələndə rayonumuzun tanınmış ziyalılarından bu barədə soruşdum. Hamısı dedi ki, bizim elə bir admiralımız yoxdur.

Mən sevinclə:

—Var, — dedim, — Eldar, Saxalinə qayıdanda yolunu Bakıdan sal, görüşək, sənə admiralın fotoşəkillərini və bioqrafiyasını verim. Aslanbəyovun bizim xalqın oğlu olması haqqında əlində əsas dəlil olsun.

Məndən də artıq sevinən Eldar:

—Çox sağ ol, — dedi, — mən də admiral Aslanbəyov haqqında qəsəbə kinoteatrında bir guşə düzəldəcəyəm.

## Admiral həm də alimdir

Admiral İbrahim bəy Aslanbəyovdan yazan rus tədqiqatçıları onun haqqında «Admiral Naximovun bioqrafı kimi daha çox məşhurdur» sözlərini iftixarla qeyd edirlər. Təsadüfi deyil ki, İbrahim bəyin «Naximovun bioqrafiyası» adlı oçerki ayrıca kitab kimi bir neçə dəfə nəşr olunmuşdur.

Admiral Aslanbəyovun elmi-publisistik əsərləri isə ayrıca tədqiqata layiqdir. Hərbi-dəniz donanmasının ötən əsr tarixini araşdıran tədqiqatçıların əksəriyyəti onun əsərlərindən mənbə kimi bu gün də istifadə edirlər. Heç təsadüfi deyil ki, 1889-cu ildə Sankt-Peterburqda «Vitse-admiral Aslanbəyovun yarıməsrlik yubileyi» adlı kitab da nəşr olunmuşdur. V. Fridriksin «Kontr-admiral Aslanbəyovun bayrağı altında üzən «Afrika» kreyseri» adlı kitabı isə hələ 1880-ci ildə yenə Sankt-Peterburqda işıq üzü görmüşdür. Q. İ. Syominin «Sevastopol» tarixi oçerkləri kitabında (1955-ci il) isə admiral Aslanbəyovun gündəliyindən geniş istifadə olunmuşdur.

Knyaz-admiral Baryatinski isə həmyerlimiz haqqında yazdığı xatirələrində qeyd edir ki, Şərq və Qafqaz lətifələrini o qədər maraqla danışardı ki, müsahibi qəşş edənə qədər gülərdi. Bu lətifələr indi də dənizçilərin dillərində gəzir.

Ötən əsrin altmışıncı illərindən başlayaraq admiral Aslanbəyovun «Morskoy sbornik» jurnalında silsilə elmi-publisistik məqalələri dərc olunmuşdur: «Sokol» üçdorlu hərb gəmisinin Aralıq dənizindən Kronştadta səfəri» (1861), «Admiral Naximov» (bioqrafik oçerk, 1868), «Admiral A. S. Qreyq» (1873), «Admiral A. İ. Panfilov» (1874), «Dəniz akademiyasının 50 illiyinin bayram edilməsi münasibətilə nitqi» (1877), «Kontr-admiral Aslanbəyovun səfərləri haqqında məlumatlar» (1881) və başqa məqalələrindən tədqiqatçılar bu gün də bəhrələnirlər.

Şübhəsiz, admiral İbrahim bəy Aslanbəyov Rusiyada yaşayıb-işləməsəydi, belə ali rütbəyə çata bilməzdi. Yüz altmış üç ildən sonra onun bizim üçün qaranlıq qalan ömür yoluna, hərbi fəaliyyətinə az da olsa işıq sala bildik. Bu isə son dərəcə vacibdir. Yoxsa, qeyri millətlər, xüsusilə naxələf qonşularımız bizim unutduğumuz məşhur oğullarımızı özününküləşdirir, üstəlik də: «sizin tarixiniz kasıb olub, görkəmli oğullarınız yoxdur», — deməklə xalqımızı təhqir edirlər.

...Hərbi-Donanma tariximiz onsuz da kasıbdır. Bu sahədə fəaliyyət göstərən oğullarımız az qala barmaqla sayılacaq qədərdir: Kontr-admiral Cəlil Cavadov (1916—1980) və vitse-admiral Həmid Qasımbəyov (1923-cü il) Vəssalam!

Nə yaxşı ki, bu boşluğu müəyyən qədər də olsa dolduracaq İbrahim bəy Aslanbəyov kimi admiralımızı gec də olsa tapa bilmişik...

## İLK MİLLİ ORDU GENERALIMIZ

1917-ci il noyabrın on beşində mən Qafqaza gəldim. Öz xalqımın baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan qorunmasına xidmət etmək arzusu ilə Azərbaycan korpusu təşkil etməyi lazım bilib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım.

**Əliağa ŞIXLİNSKİ,**
**Tam artilleriya generalı.**

—Hər ağacın öz kölgəsi var, hər millətin də ordusu olmalıdır. Süleyman bəy, indiki vəziyyət bunu daha çox tələb edir. Biz ordu yaratmasaq, milləti qırğına verə bilərik. Hadisələrin belə sürətli inkişafı göstərir ki, ordusu, top-tüfəngi olan bir xalq, digərini məhv edə bilər. Bu saat bizim vəziyyət elədir ki, düşmən həm içimizdədir, həm də qonşuluğumuzda. Yüz il arxalandığımız rus imperiyası axırımızı gətirib bura çıxartdı.

—Əliağa, Səməd bəy hardadır, niyə üzə çıxmır? Ordu təşkil etməyə, xalqın müdafiə qüdrətini möhkəmləndirməyə yaxşı imkan yaranıb.

—Vladiqafqazdadır. Bu günlərdə gəlmişdi, Tiflisdəki milli müsəlman şurasında lazım olan adamlarla görüşdük. Yenə qayıtdı Vladiqafqaza. Ailəsini köçürüb Bakıya gətirməyə getdi.

Biz bir məsələni də çox tez həll etməliyik. Vaxtilə «dikiy diviziya»da və hazırda imperiya ərazisində xidmətdə olan zabitlərin hamısını çağırmalıyıq. Xarkovdan polkovnik İbrahim ağa Usubovu, Murmanskdan general Mirkazımbəy Talışxanovu, Nijeqorod alaylarından şahzadə Əmir Kazım Qacarı, polkovnik Əmənulla xan Qacarı, Seyfulla Qacarı, general Firidun bəy Vəzirovu. Xüsusilə beşinci və yeddinci Qafqaz nişançı diviziyalarında bizim həmyerlilər daha çoxdur. Onların hamısını çağırmaq lazımdır. Silah tutan oğul Vətənin dar günündə gərək olmayacaqsa, əmin-amanlıq dövründə heç lazım deyil. Sən bilirsən general Əlyarbəy Haşımbəyov indi harada qulluq edir?

—Qafqaz araba-karvan briqadasında. Ünvanı məndə var, tel vuraram.

— Bu işi tez eləmək lazımdır. Zabitlərdən birinə tapşırsan daha səlah olar. Sənin işin çox olur, çatdıra bilməzsən. Polkovnik Şirinbəy Kəsəmənliyə, bir də qardaşım uşaqları Cavad bəyə və Rüstəm bəyə özüm xəbər eləmişəm. Onlar çoxdan milli orduda qulluq eləmək arzusundadırlar. Gələcəklər. Dayan, qardaş, bir nəfəri də xatırladım. Mayor Davud bəy Yadigarov indi harda xidmətdədir, bilmirsən?

—Yox, çoxdandı onunla əlaqəm yoxdu.

—Onu mən öyrənərəm, əmisi İsrafil bəy Tiflisdə mənim qaynım Bahadır bəylə qonşudur.

—Əliağa, mənim Zaqafqaziya seymi deyilən dövlət hakimiyyətinə heç bir ümidim yoxdur. Gürcüləri deyə bilmərəm, məncə, ermənilər bu təşkilata daxil olmaqla vaxt qazanırlar və güc toplayırlar.

—Aydın məsələdir, ermənilərin bu bicliyini hamı başa düşüb. Lori dərəsindəki gürcülərlə davadan əllərinə bir parça torpaq keçirə bilmədilər, rüsvay oldular. İndi bizimlə torpaq iddiasına başlayacaqlar.

Sənin xəbərin var ki, daşnak generalı Foma Nazarbəyov Tiflisdə erməni korpusu təşkil edir. Bu yandan da Andranik, Nijde, Dro əməlli-başlı milli erməni diviziyaları yaradıblar. Mənə belə gəlir ki, mənim Tiflisdə təşkil etdiyim korpusla sənin burda, Gəncədə yaratdığın alayı birləşdirməliyik. Çünki ayrılıqda biz heç nəyik. Gəncənin yarısı erməni əhalisidir. Sabah ayağa qalxsalar, tək sənin alayınla onların qarşısını ala bilmərik. Bizim korpusu da Gəncəyə köçürmək lazımdır.

—Bilirsən, Əliağa, xeyli vaxtdır Gəncədəyəm, öyrənmişəm. Gəncə və Çaykənd ermənilərinin İrəvan daşnakları ilə çox yaxın əlaqələri var. Deyilənə görə, onlar Gəncənin müsəlman əhalisini qırmaq üçün əməlli-başlı silahlanıblar. İrəvan daşnaklarının işarəsini gözləyirlər.

Əliağa dayandı. Fikir və düşüncə ilə dostu Süleyman bəyin üzünə baxa-baxa qaldı. Sağ əlini qaldırıb yoğun gövdəli çinara söykəndi.

—Qardaş, — dedi, — bizim əsas çətinliyimiz odur ki, əsgər və zabitlərimiz üçün nə silah var, nə cəbbəxana, nə də əməlli-başlı paltar və ayaqqabı. İmperiya ordusu bizim ərazilərdən çəkilib gedəndə hamısını özü ilə aparıb. Bir müsəlman bəndəsi qabağa durub bunları ruslardan almayıb. Amma erməni daşnakları, gürcü zadəganları, menşevikləri onların ərazilərini tərk edən rus qoşunlarından hər bir silahı, hətta kazarmaları belə təhvil alıb, öz əsgərlərini yerləşdiriblar.

—Bu barədə bizim alayın vəziyyəti pis deyil, Əliağa. Burda mənim yaxın bir dostum var, imkanlı və karagələn adamdır. Məmmədbağır ağa Şeyxzamanov cənablarını deyirəm. Yer və ərzaq məsələsində bizim alaya yaxından, cani—dillə kömək edir. Hərbiyyə məktəbinin hələlik azsaylı müdavimlə açılmasına da maddi kömək edəcəyinə söz verib. Məmmədbağır ağa əsl nəcabəti ilə tanınan bir zatdır, milli parlamanın da üzvüdür.

—Hər kimdirsə ol zatdan möhkəm yapışmaq lazımdır, — dedi Əliağa. — Tiflisdə də belə bir dindaşımız var. Tanımamış olmazsan, Həmzət bəy Xəlilov bizim milli korpusa həm ərzaqla, həm də geyimlə çox kömək edir. Bu günlərdə xeyli silah və balakənlilərdən ibarət bir kiçik alay da təşkil edib gətirdi. İki qoçaq oğlu da — Rüfət bəy və Ramazan bəy mənim korpusumda qulluq edir. Hər ikisi ali təhsilli zabitdir.

—Amma Məmmədbağır ağa səninlə çox maraqlanır. Gəncəyə təşrif gətirməyinizdən xəbərdar deyil. Qayıdaq evə, adam göndərərəm, məmnuniyyətlə sizin görüşünüzə gələr.

Əliağa etiraz etdi:

—Yox, — dedi, — bizim ona işimiz düşüb, bəlkə biz ikilikdə onun görüşünə gedək, inciməz ki?..

Süleyman bəy sevinclə:

—Yox, canım, nə danışırsan, — dedi, — əksinə, çox xoşhal olar, inan nə qədər sevinəcək səni gördüyünə. Port-Artur və cahan müharibəsi zamanı sənin, Səməd bəyin, Hüseyn xan Naxçıvanskinin haqqında qəzet və jurnallarda nə yazılıbsa, hamısını yığıb səliqə-sahmanla saxlayır! Evinə gələn ali qonaqlara o yazıları oxumaqdan ləzzət alır. Evi də burda yaxındadır, Sərdar bağının qərb həndəvərində...

***

1917-ci il dekabrın ortalarında Azərbaycan milli ordusu yaratmaq haqqında dərdləşən iki nəfərin kimliyi ilə yəqin ki, oxucular da maraqlanırlar. Onlardan birini - məşhur generalımız Əliağa Şıxlinskini həssas oxucu şübhəsiz ki tanıdı. Digəri isə indiyədək haqqında müasirlərimizin məlumatı olmadığı general-mayor Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyevdir. İlk dəfə Azərbaycan hərbiyyə məktəbinin açılmasında və Gəncə süvari alayının yaradılmasında böyük xidməti olan görkəmli sərkərdələrimizdən biridir. Azərbaycan Demokratik ordusunun sıralarında cəmi-cümlətanı bir il general kimi xidmət edən Süleyman bəy Əfəndiyevin adı yetmiş üç il arxiv səhifələrində gizlədilmişdir. Beş il bundan əvvəl

onun haqqında əlimizdə çox az məlumat olduğuna görə, mətbuatda çıxış eləməyə cəsarət etmirdik. Tədqiqatçı dostumuz Alxan Məmmədov «Azərbaycan» qəzetinin 3 mart 1919-cu il və «İstiqlal» qəzetinin 10 mart 1919-cu il tarixli nömrələrində general barədə əldə etdiyi kiçik həcmli yazıları səxavətlə bizə bağışladı. Hər ikisində — «Möhtərəm bir generalın ölümü» və «General Süleyman bəy» yazılarında xalqımızın sərkərdə oğlunun ömür yolu haqqında dolğun məlumat əldə etdiyimizə görə alim dostumuza təşəkkürümüzü bildiririk. Yazılardan görünür ki, 1919-cu ildə qəflətən səpmə yatalaq xəstəliyinə tutulan general Süleyman bəy Əfəndiyevin vaxtsız ölümü bütün Azərbaycan istimaiyyəti üçün ağır itki olmuşdur. «İstiqlal» qəzetində imzasız verilmiş yazıdan bunu açıq-aydın görmək olur.

«Ey möhtərəm əsgər! Sən Azərbaycanın ən qəhrəman övladı idin. Sən öldün. Fəqət, sənin qəhrəmanlığın səndən sonraya yetişəcək, zabitlərimiz arasında ölməyəcəksən. Səni Azərbaycan hərb tarixində yad etmək Azərbaycan üçün böyük bir şərəfdir. Sənin ruhuna təzim və hörmətlərimizi ithaf edər ikən Vətən və millətimizə də bəyan-təziyyət eyləriz».

Bəs general Süleyman bəy Əfəndiyevin on yeddinci ilə qədərki fəaliyyəti necə və harada keçmişdir? Bu suala tarixin dərin qatlarında, toz basmış arxiv sənədləri cavab verir.

...1864-cü il oktyabrın 5-də Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev Ağdamda dünyaya gəlmişdir. İlk təhsilini Gəncədəki progimnaziyada[1] almışdır. On altı yaşında həmin məktəbi bitirən Süleyman bəy 1880-ci ildə Yelizavetqrad[2] süvari məktəbinə daxil olmuş və oranı 1885-ci ildə müvəffəqiyyətlə bitirmişdir. Hərbi xidmətə Qafqaz süvari ordusunun polis nəzarəti idarəsində başlayan gənc zabit Süleyman bəy iki il sonra, mayın 18-də kornet-zabit rütbəsi ilə təltif olunmuşdur.

Eskadron komandiri Süleyman bəy Əfəndiyev nümunəvi xidmətinə görə 1899-cu il martın 15-də rotmistr (kapitan) rütbəsinə layiq görülmüş və ona kavaler kimi fəxri ad verilmişdir.

1900-cü ildə isə üçüncü dərəcəli «Müqəddəs Stanislav» ordeni ilə təltif olunmuşdur.

Əsrimizin əvvəllərində xidmət yeri bir neçə dəfə dəyişdirilən Süleyman bəy 1907-ci il fevralın 28-dən Zaqafqaziya polis keşikçi dəstəsinin Kutaisi quberniyası üzrə baş nəzarətçisi təyin olunmuşdur.

Süleyman bəy Əfəndiyev yalnız hərbçi deyildi. O həm də xalqımızın maariflənməsində görkəmli ictimai xadim kimi fəal iştirak etmişdir. Tez-tez Qoriyə gələn, azərbaycanlı balalarının təhsili və güzəranı ilə maraqlanan Süleyman bəy onlara maddi köməyini əsirgəməmişdir. Görkəmli maarifçi, ədəbiyyatşünas Firidun

---

[1] İnqilabdan əvvəl dörd, yaxud altısinifli natamam təhsil verən məktəb — müəl.
[2] İndiki Kirovoqrad şəhəri — müəl.

bəy Köçərli və Səfərəlibəy Vəlibəyovla dostlaşmış və Tiflisdə azərbaycanlıların təşkil etdiyi mədəni-maarif cəmiyyətinin işində yaxından iştirak etmişdir.

1912-ci il dekabrın 6-da polkovnik rütbəsi qazanan Süleymanbəy Əfəndiyevin imperiya ordusundakı xidmətləri sonralar üçüncü dərəcəli «Müqəddəs Anna», ikinci dərəcəli «Müqəddəs Stanislav», «Müqəddəs Anna» və üçüncü dərəcəli «Müqəddəs Vladimir» ordenlərinə layiq görülmüşdür. Polkovnik Süleymanbəy Əfəndiyevin imperiya ordusunda sonuncu vəzifəsi Qafqaz ordusunda Zaqafqaziya polis-keşikçi dəstəsinin təftiş-yoxlama üzrə baş nəzarətçisi idi (1912-ci ildən).

Öncə dediyimiz kimi, Süleymanbəy Əfəndiyevin çox böyük və danılmaz xidməti 1917-ci ilin iyul ayından başlayaraq Azərbaycan Milli Ordusunu yaratmaq təşəbbüsüdür.

1919-cu ildə «Azərbaycan» və «İstiqlal» qəzetlərində verilmiş hər iki nekroloq-yazıda generalın bu misilsiz fəaliyyəti barədə məlumat var. Ona görə də hər iki yazını kiçik ixtisarla əziz oxuculara təqdim edirəm.

**Möhtərəm bir generalın ölümü**

Azərbaycan, ümumiyyətlə, Zaqafqaziyada namuspərvəranə və xalisanə bir surətdə islamlara xidmət edən möhtərəm bir zabit — Süleyman bəy Əfəndiyev cümləmizi mütəəssir və məyus buraxaraq həyata vida etdi.

Süleyman bəy Əfəndiyev Rusiya inqilabından sonra Zaqafqaziya islamlarının hərbi təşkilatında qiymətli bir üzv olaraq çalışmış və çalışdığı işlərdə böyük bir əzm və səbat göstərmişdir. Süleyman bəy Əfəndiyev Namiq Kamalın «Cahan titrər səbat pay ərbab-əzmü məqanətdən» beytinə masdəl olmuş, səbatını məhviyyəti — şəxsiyyəyə qədər götürmüşdür. Süleyman bəy bir vaxt Gəncədə ifayi-xidmət edirdi. Sovuq şiddətli bir surətdə idi. Kəndisini salamlamaq üzrə yanına getmişdim. Qısa bir cümlə ilə müqabilə etdi: «Camaatımız oyanır. Qoçaq əsgərlərimiz çoxalır» — dedi. Sonra ən zabitpərvər bir əsgər vəziyyətini alaraq: «Vəzifə deyilən şeyi əgər həqiqəta bilinə hər işimiz yaxşı olar idi».

Mərhum siyasət ilə əsla əlaqədar olmaz idi. Onun nəzərində yalnız əsgərlik və əsgərliyə məxsus bir iman var idi.

Gəncədən sonra Tərtərə getmiş və orada islam təşkilatını müvəffəqiyyətlə ikmal etmişdir. Sonra Qarabağa — Ağdama da gələrək ifayi-vəzifə xüsusunda böyük bir qabiliyyət və qeyrət göstərmişdir.

Süleyman bəy hiss və fikircə çox təmiz adam idi. Heç kimsə bilməz ki, Süleyman bəydən bir pis iş sadiq olmuşdur. Bir dostumuz bizə təmina deyirdi ki, Azərbaycanda namus və iffətilə mücəssəm bir təmsil təşril edən bir sima varsa, o da Süleyman bəy Əfəndiyevdir.

Parlaman əzasından Məmmədbağır ağa Şeyxzamanov cənabları mərhumun ən yaxın tanıdığı və bir çox zamanlarda bərabər işlədiyi bir zat olması etibarı ilə də bizə deyirdi ki, general Süleyman bəy Əfəndiyev eyni zamanda bütün Azərbaycan

zabitləri arasında çalışması ilə, təşkilatçılığı ilə də birinci tanınıb bilinmiş bir zat idi.

Əvət! Azərbaycan üçün bu ziya böyük bir ziyadır. Bu ziya qarşısında mütəəssir olmamaq qabil deyildir.

General-mayor Süleyman bəy Əfəndiyev haqqında ikinci nekroloq-məqalə 1919-cu il martın üçündə «Azərbaycan» qəzetində dərc olunub. Məqalənin yazarı Səid adlı müəllifdir.

## General Süleyman bəy

Bu günlərdə Azərbaycan Cümhuriyyəti ordusu komandanlarından — ordunun böylə mühüm bir vəziyyətində — mirliva (general) Süleyman bəy Əfəndiyevin tif xəstəliyindən vəfat etməsi xəbəri gəldi. Rəhmətulla əleyh rəhmətə vaseh.

Mirliva Əfəndiyevin vəfatı nəinki yalnız mirtəvanın əqrəba və metəlağatını məhzun və dilgir edəcəkdir. Bəlkə onu tanıyan, onun həqqinə arif, onun vətən və millət uğrundakı xidmət və fədakarlıqlarını bilmiş olan cümlə azərbaycanlıları dilxun və dağdar edəcəkdir.

Süleyman bəy Əfəndiyev kim idi?

Bu suala hazırkı hərbiyyə nazirimiz general Səməd bəy Mehmandarov həzrətləri: «general» Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda təht idarəmdəki cümlə zabitan arasında ən birinci mövqe tutanlardan idi!» — deyə cavab vermişdir.

Bizlər isə mərhumun səhifeyi tarixiyyəsinə bir nəzər edəlim. Bən onun bütün səhalfe tarixəsindən bəhs etməyə məal-təəssüf qadir degiləm. Bu bana dəxi məchuldur. Fəqət mərhumun Gəncə şəhərindəki imrar həyatından bəhs etmək mümkündür.

O vəqt miralay (polkovnik) rütbəsində olan Süleyman bəy 1917-ci sənənin iyul ayında Gəncə şəhərinə təşrif gətirdi. Müəyyən bir vəzifə ilə mavərayi— Qafqaz hökuməti tərəfindən ezam edilmiş idi, vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan kimi Gəncə Müsəlman milli komitəsinə təşrif gətirərək bəyanat verdi. Və Azərbaycan türklərinin qəvay əsgəriyyəsi olması və buna əşd ehtiyac xüsusunda izahat verərək əlavə etdi ki, əgər bu məsarifi Gəncə milli komitəsi öz öhdəsinə götürərək qəvay əsgəriyyə təşkili əsasına ibtidar etmək arzusunda bulunarsa, məalməmnuniyyə bu xüsusda heç bir fədakarlıqdan çəkinməyəcəkdir. Milli komitə işə başladı. Yüz əlli nəfərlik gecə-gündüz olaraq bir məktəb hərbiyyə güşadına qərar verdi. Bu miqdarı Gəncə vilayəti qəzaları arasında nüfuz etibarı ilə təqsim edərək namizədlər və onların məsariflərini göndərmək xüsusunda cümlə qəzaların milli komitələrinə müraciət etdi.

Bəzi qəzalardan mütəllimlər göndərildi, lakin məsarif üçün para gəlmədi. Bəzi komitələr tərəfindən para göndərildisə, nəhayət az miqdar.

Mərhum Süleyman bəy çalışmaya başladı. Pulsuzluq, aclıq, əlbəsəssizlik onu məyus etmədi, qorxutmadı. Hətta özü 1917-ci sənə avqustunun əvvəlindən vəzifəyə başladığı halda 1918-ci sənənin şəbat ayında keçmiş maaşlarını almaq üçün özü utanıb bəndəni vasitə etdi.

Bu qədər müddət öz hesabına xidmət etdikdən sonra yenə maaş istəməyi özünə bir müşkül əmr hesab ediyordu. Gəncədə akarşi başlandı, cümlə mülki və hərbi məmurlar dəxi qarətkarlara, talançılara iltihaq etdilər. Kimsə kimsəni tanımaq istəmədi, kimsə kimsəyə itaət etmədi, şübhə etmək olur ki, düz, doğru, qeyrət və namuslu şəxslər tapılmayacağı bir dərəcəyə gəldi. Mərhum Əfəndiyev gündüzlər ac, gecələr uyğusuz öz cavan mütəllimləri ilə şəhərin hərastına, şəhərdə əmin-asayişi əmələ gətirmədə zərrə qədər qüsur gətirmədi. Şəhərdə, istisionda, nərəyə gedilsə Süleyman bəy görünürdü. Özü namus və qeyrətli, mütəllimləri düz, doğru.

Şəmkir müharibəsi əsnasında isə mərhum Süleyman bəy heç bir fədakarlıqdan çəkinmədi. Əvvəldən axıradək ən təhlükəli, ən mühüm nöqtələrdə isbat vücud edənlərin birincisi oldu. Bundan sonra Süleyman bəyin məmuriyyəti qara yazıya təbdil edildi. Bir müddət Gəncədən getdi. Bu halda müsəlman ordusu təşkilinə hökumət tərəfindən müsaidə edildi. General Əliağa Şıxlinski baş komandan (Gəncədə ilk dəfə yaradılan korpusa Ə. Şıxlinski baş komandan təyin olunmuşdur — Ş. N.) təyin edildi. Gəncədə qəvay əsgəriyyə təşkilinə başlandı.

Mərhum Süleyman bəy beşinci alay komandanlığına təyin edilərək yenidən Gəncəyə təşrif gətirdi. Yenə fəaliyyətə, fədakarlığa başladı. Bu vəqt şəhərdə öylə bir aparşi hökmfərma idi ki, heç bir qüvvə təmin asayişə müqtədir deyildi. Nəhayət, mövcud türk əsgərlərini müsəlləh edərək onların namus və qeyrətlərinə istinadən onların vasitəsilə e'adeyi-asayişə və Bakı tərəfdən Gəncə üzərinə tərtib edilməkdə olan hücuma qarşı müdafiə etməyə müqtədir ola bilmək lüzumu hiss edilərək buna təşəbbüs edildi.

Süleyman bəy: «Bən bu vəzifəyi qəbul edə bilərəm» - deyə bütün zəhmət və çətinliyi öz alayına qəbul və hər bir cəhətdən təmin etdi. Həqiqətən bununla da Gəncədə e'adeyi-asayiş əmələ gələrək nizam, intizam bərqərar etdilər. Böyləcə mərhum general Süleyman bəy Əfəndiyev heç bir gün fədakarlıqdan çəkinməyərək fəaliyyətinə davam etməkdə idi. Bu günlərdə bir ziyai-əbədi qəbilindən mədud olaraq darülbəqaya ertihal edərək cümlə azərbaycanlıları hüzn və ələm dəryasına qərq etmiş.

Rəhmətullahe əleyh rəhmət vaseh.

## Yeni açılan arxivdən

İnamla demək olar ki, 1918—20-ci illərdə milli ordumuzun keçdiyi ömür yolu tam tarixi salnamədir. Yetmiş iki il «tamamilə məxvidir» möhrü ilə xalqımızdan gizlin saxlanan hərb tariximizin qiymətli sənədlərini araşdırmaq bizə

yalnız 1992-ci ilin noyabr ayında qismət oldu. Burda nələr yoxdu... Hər sənəddə bir qəhrəman oğlumuzun taleyi, döyüş yolu, kimisi yarımçıq, kimisi də bütöv. Bu nadir sənədləri araşdırdıqca böyük Səməd Vurğunun dillər əzbəri olan misraları yada düşür:

Hər türbədən bir qəhrəman
Sanki baxıb deyir bizə:
«Alovların arasından
Yollar açdım eşqinizə».

Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində saxlanan belə qiymətli sənədlərdən biri də general-mayor Süleyman bəy Əfəndiyevə məxsusdur. 1919-cu il fevralın 21-də hərbi nazir vəzifəsini müvəqqəti icra edən general-leytenant Əliağa Şıxlinskinin və Baş Qərargah rəisi, polkovnik Həbib bəy Səlimovun imzaladığı 89 nömrəli əmrdə oxuyuruq:

«Bu gün Ağdamdan birinci piyada Azərbaycan diviziyasının rəisi general-mayor Əfəndiyevin tif xəstəliyindən vəfat etməsi haqqında kədərli teleqram almışıq. 1917-ci il fevral çevrilişindən sonra general-mayor (o vaxt polkovnik) Əfəndiyev var qüvvəsi ilə ictimai-təşkilati işlərdə və Vətənin müdafiəsi sahəsində xalqına xidmət etməyə başladı.

Yeri gəlmişkən qeyd edək ki, Gəncə şəhərində onun təşəbbüsü ilə yeni yaranan Azərbaycan ordusuna təlimatçılar hazırlamaq üçün tədris dəstəsi yaradılmışdı. Polkovnik Əfəndiyevin rəhbərlik etdiyi çox da böyük olmayan bu dəstə vətənimizin mərkəzi Gəncə şəhərində qayda-qanun yaradılmasında, anarxiyadan qorunmaqda, eşalonların tərksilah edilməsində və xalq əmlakının qorunmasında əsas rol oynayırdı.

Gəncə şəhərində Müsəlman korpusu yaradılanda polkovnik Əfəndiyev beşinci Müsəlman alayının komandiri təyin edilir. Tiflisdəki müxtəlif təşkilatların açıq müxalif mövqeyi, rəsmi dairələr tərəfindən müsəlman alayının yaradılmasına mənfi münasibəti və bir çox digər çətinliklərə baxmayaraq polkovnik Əfəndiyev Tiflis rəsmi dairələrindən öz bacarığı hesabına alayı üçün lazım olan əsas şeyləri alır və Gəncəyə çatdırır.

Könüllülərdən təşkil olunmuş beşinci atıcı alayı, yerlərdə hərbi sahədə onlara kömək edə biləcək hakimiyyətin olmadığı bir dövrdə əksəriyyəti yaxşı geyinmiş və orta səviyyədə təlim görmüş əsgərlərdən ibarət idi. Komandirin qayğısı təkcə əsgərlərlə qurtarmırdı. Polkovnik Əfəndiyev zabitlər üçün də əla təşkil olunmuş ucuz yeməkxana təşkil etmişdi.

Azərbaycan korpusunun süvari hissələrinin müvəqqəti buraxıldığı dövrdə polkovnik Əfəndiyev qərargaha çoxlu əşya və xeyli ərzaq məhsulları təhvil verdi. Bundan sonra ikinci Qarabağ süvari alayının komandiri təyin olunan polkovnik Əfəndiyev bir çox çətinliklərə baxmayaraq alayı tam hazırlıqlı hərbi hissə səviyyəsinə qaldıraraq, əla vəziyyətdə Hərbi Nazirliyə təqdim etdi.

Başqa rəislər arasında hərbi nazir tərəfindən fərqləndirilən polkovnik Əfəndiyevə bu il yanvarın 6-da general-mayor rütbəsi verilir və birinci piyada diviziyasının komandiri təyin edilir.

General Əfəndiyev hazırkı şəraitdə diviziyanın təşkil olunması kimi ağır işə başlayır, Azərbaycanın vacib bölgəsində istirahət bilmədən fədakarcasına hərbi hissələrdə qayda-qanun yaratmağa çalışır.

Öz diviziyasındakı tibbi vəziyyətdən narahat olan general Əfəndiyev şəxsən özü lazaretin təşkilinə rəhbərlik edir, tez-tez xəstələr arasında olaraq, bəzən xoş sözlə, bəzən də rəhbər tələbkarlığı ilə onların taleyini yüngülləşdirir. Qayğıların çoxluğundan o, özü haqqında düşünmür və səpmə yatalaq xəstəliyinə tutularaq mərd bir əsgər kimi vəzifə başında ölür. Yorulmaz döyüşçü və Vətənin əsl oğlu, qəbrin nurla dolsun!

Vəfat etmiş general Süleyman bəy Əfəndiyev Batumda yaşayan ailəsini maddi çətinlik qarşısında qoymuşdur. Hətta böyük oğlunun vəfatı xəbərini eşidən general ona tapşırılan işlərin böyük əhəmiyyətini düzgün dərk edərək öz vəzifəsini tərk etməmişdir.

Əmr edirəm ki, onun dəfninin xərcləri xəzinənin hesabına olsun və ailəsinə birdəfəlik beş min rubl məbləğində müavinət verilsin. Eyni zamanda ailəsinin normal yaşayışını təmin edə biləcək məbləğdə təqaüdlə təmin olunması barədə hazırda Bakıda yerləşən Hərbi Nazirlik qarşısında vəsadət qaldırıram».

Beş gün sonra — fevralın 26-da general Əliağa Şıxlinski həmin əmrinə belə bir əlavə də etmişdir:

«Vəfat etmiş Birinci piyada diviziyasının rəisi, general-mayor Süleyman bəy Əfəndiyevin dul qalmış həyat yoldaşının xahişi ilə mərhum Gəncə şəhərində yox, Qazax qəzasında dəfn olunacaqdır».

Təəssüf ki, Vətənimizin azadlığı uğrunda canını fəda edən general Süleyman bəy Əfəndiyevin bu günədək nə yaxın qohumunu, nə də fotoşəklini tapmaq mümkün olmadı. İllərin uzaqlığı bizə imkan vermədi ki, öyrənək görək bu mərd generalımız harada — Qazaxın özündəmi, yoxsa hər hansı bir kəndindəmi uyuyur.

Bu günkü nəslə general Süleyman bəyin fotoşəklini görmək hələlik qismət deyil. Ümid gələcək tədqiqata, arxiv sənədlərinə, bir də Ağdamda və Qazaxda yaşayan Əfəndiyev soyadlı nəvə-nəticələrin yaddaşına qalır...

## ACI TALE

Xoşbəxtəm ki, müsəlman Ordusunun zabiti kimi ölürəm. Xüdahafiz!

**General Məmməd bəy**
**Sulkeviçin son sözləri.**

Cümhuriyyət dövrünün iyirmi bir döyüş generalı sırasında oxucunu düşündürən və bir az təəccübləndirən soyada rast gəlmək olar: — General-leytenant MƏMMƏDBƏY ALEKSANDROVİÇ SULKEVİÇ.

General Məmmədbəy Sulkeviç milliyətcə Litva tatarıdır. Atası Aleksandr Qusar alayında xidmət etmiş, podpolkovnik rütbəsinə qədər yüksəlmişdir.

Polşada yaşayan mühacir Arslan bəy yazır ki, general-leytenant Məmmədbəy Sulkeviç on səkkizinci ilin axırlarında Azərbaycan Müdafiə Nazirliyində Baş Qərargahın rəisi olub. Lakin Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivində saxlanan hərbi sənədlər bu faktı inkar edir. Əvvəla həmin tarixdə bizim ordunun Baş Qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşı olmuşdur. İkincisi də arxiv sənədlərindən aydın olur ki, Məmmədbəy Sulkeviç Azərbaycana on səkkizinci ilin dekabrında gəlib və 1919-cu ilin martın 26-dək Gəncədə yerləşən Birinci Müsəlman Korpusunun komandiri olub, həmin tarixdə yüz qırx yeddi nömrəli əmrlə Baş Qərargah rəisi təyin olunub. Hərbi Nazir Səmədbəy Mehmandarovun və general HƏBİB BƏY SƏLİMOVUN Gəncədə imzaladığı bu əmrdə deyilir ki, general-leytenant Məmmədbəy Sulkeviç martın 19-dan təyin olunduğu vəzifənin icrasına başlasın.

Arxivdə saxlanan daha bir sənədin Sulkeviçin bioqrafiyası üçün əhəmiyyətli olduğunu nəzərə alıb, oxuculara onu da təqdim etmək istərdim.

Hərbi Nazirliyin dəftərxanasına məxsus 15 oktyabr 1919-cu il tarixli sənəddə Sulkeviçdən tələb olunur ki, özünün dini mənşəyi və atası barədə məlumat versin. Və xahiş olunur ki, gerbli-möhür üçün dörd manat da pul ödəsin.

Məmmədbəy Sulkeviç isə qara tuşla yazdığı ərizəsində onlara belə cavab vermişdir: «Dinim müsəlman, adım Məmmədbəy, rütbəm general-leytenantdır. Azərbaycan vətəndaşlığını qəbul edirəm».

General Sulkeviç 1865-ci il iyunun iyirmisində Kemeyşi yaşayış məntəqəsində dünyaya gələndə atası onun adını Maçeybəy qoysa da sonralar Krımdakı fəaliyyətinə görə tatarlar ona hörmət əlaməti olaraq «Süleyman Paşa» adı vermişlər. Bizdə isə özü könüllü olaraq «Məmmədbəy» adını qəbul etmişdi.

Tatar parlamenti, tatar xalqı və mətbuatı general Süleyman Paşa Sulkeviçi 1918-ci ildə dövlət başçısı vəzifəsində böyük ruh yüksəkliyi ilə qarşılamışdır. Krım tatarları arasında «Süleyman Paşa» adı böyük hörmətlə və ehtiramla çəkilirdi. Xalq Maçeybəy Sulkeviçi «Süleyman paşa» adı ilə çağırırdı. Bu da səbəbsiz deyildi. Tatar xalqı arasında belə bir əfsanə yaşayır. Bu əfsanəyə görə rus imperiyasının Krımdakı hökmranlığı məhv olduqdan sonra şimaldan bir müsəlman oğlu peyda olacaq. Onların azadlıq hərəkatına başçılıq edəcək. Bu adamın da adı Süleyman paşa olacaqdır. Xalqın inamınca bu əfsanə 1918-ci ildə həqiqətə dönmüşdü. Ona görə də tatar xalqı Maçeybəy Sulkeviçi Süleyman paşa timsalında qəbul etdi.

Arxiv sənədləri daha bir faktı da aşkarlayır. Orada göstərilir ki, general Sulkeviç Azərbaycana tək gəlməmişdir.

Kazımbəy Sulkeviç Musavat hökümətinin Xarici İşlər Nazirliyində dəftərxana direktoru olmuşdur. Çox təəssüf ki, onların qardaş, yoxsa əmioğlu olduğunu müəyyənləşdirmək mümkün olmadı. Məhz bu səbəbdən də bəzi

tədqiqatçılar səhvən general-leytenant Məmmədbəyi Kazımbəy Sulkeviç kimi də yazırlar.

General Sulkeviçin həyat yoldaşı Məryəm xanım isə məhşur milyonçu H. Z. Tağıyevin qız məktəbində müəllim işləmiş və Bakı Müsəlman qadınlarının Xeyriyyə Cəmiyyətinin fəal üzvü olmuşdur. Digər bir ziyalı qadın — Leyla xanım Sulkeviç Azərbaycan Parlamentinin dəftərxana işləri idarəsində iş icraçısı vəzifəsində işləmişdir.

İnqilabdan əvvəl dini müsəlman olan oğullara hərbi akademik təhsil almaq demək olar ki, nəsib olmamışdır. İndiyə qədərki tədqiqatımızda Məmmədbəy Sulkeviç İmperiyanın Baş Qərargah Akademiyasında ali hərbi təhsil alan ilk dindaşımızdır. O, 1894-cü ildə Baş Qərargah Akademiyasını bitirib. Bundan əvvəl isə Voronej Kadet korpusunda və Peterburqdakı Mixaylovsk Artilleriya məktəbində oxumuşdur. Həqiqi hərbi xidmətə 1883-cü ildə başlayan Məmmədbəyə üç il sonra podporuçik rütbəsi verilmişdi.

Məmmədbəy Sulkeviç tarixə «Boksyor üsyanı» kimi daxil olan (1899—1901-ci illərdə) Şimali Çin antiimperialist və rus-yapon müharibəsində iştirak etmişdir. Port-Artur döyüşlərində piyada diviziyasının qərargah rəisi və Modlinski piyada alayının komandiri olan Məmmədbəy Sulkeviçin xidməti «İgidliyə görə» medalı ilə və qızıl qılıncla təltif olunmuşdu.

İstedadlı sərkərdə kimi tanınan Məmmədbəy həm də hərb elminin tanınmış alimi idi. Odessa Hərbi Dairəsinin təşkilatçısı olan Sulkeviç uzun illər həmin dairə qoşunlarının komandanı olmuşdu. Məmmədbəy Sulkeviç özünün əmrlərindən, elmi əsərlərdən və məsləhətlərdən ibarət ikicildlik əsərlərini nəşr etmişdir. Rus tədqiqatçılarının yazdığına görə, onun hərbi tövsiyyələrindən nəinki Rusiyada, hətta xarici ölkələrin ordularında da istifadə olunmuşdur.

General Məmmədbəy Sulkeviçi Rusiyada yaşayan müsəlmanların taleyi ciddi düşündürmüşdür. Dindaşlarının xristianlar arasında azad nəfəs almaması, sərbəst yaşamamaları onu qeyrətli vətəndaş kimi həmişə narahat etmişdir. O, 1902-ci ildə Polşa şərqşünası, Peterburq Universitetinin professoru Anton Muxlinskinin (1808—1877) «Litva tatarlarının mənşəyinin araşdırılması və vəziyyəti» kitabını Odessada öz xərcinə nəşr etmişdi.

1915-ci ildə 33-cü piyada diviziyasının komandiri Məmmədbəy Sulkeviçə general-leytenant rütbəsi verilib. Buna qədər o, on birinci orduda korpus qərargahının rəisi idi. Birinci cahan müharibəsi başlananda onun qərargah-mənzili Kazan şəhərində yerləşmişdir. O, «Əsgəri şuro» tatar təşkilatının Mərkəzi Komitəsi ilə sıx əlaqə saxlayır və Rumıniya cəbhəsində müsəlmanlardan ibarət Birinci Əlahiddə korpusu təşkil edir. General Sulkeviçin üç müsəlman diviziyasının təşkili haqqında arayışı Ümumrusiya Müsəlman Şurasının «Xəbərlər»ində, 1917-ci ildə xalqa çatdırılıb.

Müsəlman Hərbi Korpusu yaradan Məmmədbəyin ən böyük arzusu Kazana, ya da Krıma gedib dindaşlarının milli istək və arzularını həyata keçirmək idi.

Nəhayət 1918-ci ilin yazında «Əsgəri şuro»nun əmrilə Sulkeviç öz korpusu ilə Krıma gəlir. Bu vaxt Krımda vəziyyət olduqca ağır idi. «Bolşeviklər vəhşicəsinə yerli əhalinin qanını tökürdülər». (Anton Denikinin «Rus qiyamı haqqında oçerklər» kitabı).

Bu zaman ölkədəki anarxiyadan istifadə edən alman generalı Koşanın diviziyası da gəlib Krıma çıxmışdı. General Koşanın dəstələri Sulkeviçin Korpusunun yolunu kəsib onu tərksilah edir. Lakin almanlarla sülh danışıqlarından sonra onların köməyi və təklifi ilə Sulkeviç Krımın Baş Naziri təyin olunur.

General Sulkeviçin Krım dövrü özünün siyasi fəallığı ilə çox maraqlıdır. Tatar əhalisinin mövqeyinin sabitləşməsində bir sıra tədbirləri həyata keçirmiş, Krım dövlətinə başçılıq etdiyini demək kifayətdir.

Sulkeviçin Beynəlxalq siyasətdə ən mühüm addımlarından biri Krım hökümətinin səfiri kimi tatarların «Millət» qəzetinin keçmiş baş redaktoru Səbri Ayvazovu İstanbula Krım dövlətinin səfiri göndərməsi oldu. Bu da Türkiyədə böyük ruh yüksəkliyi ilə qarşılandı. Ona Avropa səfirləri arasında fəxri yer ayrıldı. Eyni zamanda Krım səfirinin İstambulda olması Berlində bir qədər narahatçılıq yaratdı. General Sulkeviç höküməti keçmiş Rusiya imperiyasının ərazisində yaranmış başqa müsəlman dövlətləri ilə də əlaqə yaradırdı. Məhz bu məqsədlə də Azərbaycanın Bakıdakı hərbi nazirinin adına xoş məramlı məktub göndərilmişdi.

General Məmmədbəy Sulkeviç hökuməti humanizm prinsiplərinə arxalanırdı, o, özü isə həqiqi mənada demokrat siyasətçi idi.

1918-ci ilin sonlarında Krımın taleyində dəyişiklik oldu. Ağqvardiyaçı general Anton Denikinin könüllü ordusu Krımı zəbt etdi. General Sulkeviç hökuməti yıxıldı. Nə Vilhelm hökuməti, nə də Türkiyə ona kömək edə bildi. Çünki özlərində də vəziyyət ağır idi. 1918-ci il noyabrın 3-də alman generalı Koş məktubla Sulkeviçə bildirdi ki, bundan sonra ona kömək edə bilməyəcək. Ona görə də yarımadanın taleyi dəyişdi. Məmmədbəy Sulkeviç könüllü ordunun komandanı Anton Denikinin təzyiqi ilə Krımı tərk etməli olur.

Ağqvardiyaçı general Anton Denikin yazır ki, noyabrın dördündə Məmmədbəy Sulkeviç mənə — Yekaterinodara teleqram göndərdi ki, Almaniya qoşunları arasında sürətli dağılma gedir. Silahlı qüvvə olmadığına görə (almanlar Krımda silahlı qüvvələr yaradılmasını qəti surətdə qadağan ediblər — Ş. N.), mübarizə üçün heç bir dayaq yoxdur. Yenidən partlayışlar və bolşeviklərin amansızlıqları təkrar oluna bilər... Vəziyyət müttəfiqlərin donanmasının və könüllülərin tezliklə köməyə gəlməsini aydın surətdə tələb edir...

Sol partiyaların mübarizəsi və güclü təbliğatına görə mənim kabinetim öz səlahiyyətlərindən əl çəkir, öz yerini kadetlərdən, sosialistlərdən və tatarlardan ibarət koalisiyalı nazirliyə verir...».

Bundan sonra general-leytenant Məmmədbəy Sulkeviç Azərbaycana gəlir. Az müddətdə birinci süvari müsəlman diviziyasının komandiri və sonra Baş Qərargahın rəisi olur. Xüsusilə, 1919-cu ilin iyun ayının on altısında Azərbaycan

və Gürcüstan hökumətləri arasında hərbi ittifaqın bağlanmasında Sulkeviçin böyük köməyi olub. Bu təşəbbüsü o irəli sürmüşdü:

«Üç il müddətində imzalanmış hərbi müdafiə paktına görə Azərbaycanın və Gürcüstanın istiqlaliyyət və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqavilədə olan tərəflər bir-birinə yardım göstərməyə borclu idilər» (C. Həsənov ««Ağ ləkə»lərin qara kölgəsi» kitabı, 1991, səh. 85).

Hər iki tərəf üçün ciddi müdafiə xarakteri daşıyan, on maddəli müqaviləni Azərbaycan Respublikası tərəfindən Xarici İşlər Naziri Məmmədyusif Səfərov, Hərbi Nazir Səmədbəy Mehmandarov, Baş Qərargah rəisi Məmmədbəy Sulkeviç, Gürcüstan Respublikası tərəfindən isə Xarici İşlər Naziri Geqeçkori, Hərbi Nazir Ramişvili, Hərbi Nazirin köməkçisi Qedevanov və general Odişelidze imzalamışdılar.

1920-ci ilin mayında bolşeviklər general Məmmədbəy Sulkeviçi həbs edib Bakı fövqəladə Komitəsinin zərzəmisinə salırlar.[1] İyulun 15-də «Əksinqilabi fəaliyyətdə» ittiham olunduğuna görə isə güllələyirlər.

Məmməd Əmin Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» kitabında iyirminci ildə güllələnən general Məmmədbəy Sulkeviçin adını yana-yana çəkir. Onun mərd, mübariz bir şəxsiyyət olduğunu iftixarla qeyd edir. O, xatirələrində yazır:

«Qardaşım, parlament üzvü Mehmed Əli bəyin hekayətini ilk dəfə xalqa çatdırmaq istəyirəm. O, qorxmaz general Sulkeviçin qəhrəmancasına ölümünün şahididir. Onunla bir kamerada olan Mehmed Əli bəy söyləyirdi: «Generala əmr etdilər ki, çekistlərin ardınca getsin. Bizə aydın oldu ki, onun ölüm saatı çatıb. Ətrafa ölüm sükutu çökmüşdü. Onun gözlərinə baxmağa cəsarət etmirdik, biz təsəlli sözü tapa bilmirdik... General Sulkeviçin özü bizi qabaqladı, sakit, qətiyyətli səslə dediyi sözləri ömrüm boyu unutmayacağam: «Xoşbəxtəm ki, müsəlman Ordusunun zabiti kimi ölürəm. Xudahafiz!».

O, öz mərd davranışı ilə könüllü qəbul etdiyi Azərbaycan vətəndaşlığını və Litva tatarlarının şöhrətini şərəflə qorudu.

Əzablı bir ömür yolu keçərək əlli beş yaşında bolşevik-daşnak gülləsinin haqsız qurbanı olan general-leytenant Məmmədbəy Sulkeviçin nəinki Azərbaycanda, heç Rus imperiyası ərazisində belə sağ qalan kimsəsi yoxdur. Onun haqqında Musavat dövrünün arxivində az da olsa məlumat qalıb.

Şuşadan, Xankəndindən və Zəngəzur ekspedisiyasından vurduğu teleqramlar, Baş Qərargah rəisi kimi verdiyi əmr və sərəncamlar onun Azərbaycanı ürəkdən sevdiyinə əyani sübutdur. Rəyasət və stol sevməyən döyüş generalı Məmmədbəy Sulkeviç həmişə ön cəbhədə olmuş, əsgərləri döyüşə ruhlandırmışdır.

Onun 1920-ci il yanvarın 28-də Şuşadan Hərb Naziri əvəzi general Əliağa Şıxlinskiyə vurduğu teleqramda oxuyuruq:

---

[1] İndiki Yusif Məmmədəliyev küçəsindəki on beş nömrəli evin zirzəmisinə — müəl.

«Şəxsiyyətini yaxşı tanıdığım və birinci Zəngəzur ekspedisiyasında əla döyüşünün şahidi olduğum podpolkovnik Novruzovun[1] Qarabağ dəstəsinin artilleriya rəisi təyin edilməsi üçün vəsadət edirəm.

**Baş Qərargah rəisi**
**general Məmmədbəy Sulkeviç».**

İyirminci ilin iyulunda general Məmmədbəy Sulkeviçin son gününün şahidlərindən biri də Bakıda bolşeviklər tərəfindən həbs olunan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi diplomatik departamenti ümumi şöbəsinin müdiri Meçislav Stanislavoviç Rudzinski olmuşdur:

— 1920-ci il aprelin iyirmi səkkizində bolşevik çevrilişi baş verdi. Mən Polşa nümayəndə heyətinin üzvləri ilə birlikdə həbs edildim. Bir neçə gündən sonra bizi fövqəladə Komitəyə apardılar. Az sonra general Məmmədbəy Sulkeviç də buraya gətirildi. Onun əhval-ruhiyyəsi çox pis idi. Fikirləşirdi ki, güllələyəcəklər. Özü haqqında veriləcək qərarı təkminlə gözləyirdi. Onunla bir kamerada olduğumdan bütün günü dərdləşirdik. Birinci günü döşəmədə yatır və başımızın altına yastıq əvəzi qəzet qoyurduq. Sonra rəflər düzəldildi... Çevrilişdən bir neçə həftə sonra sübh çağı çekistlər içəri girərək bir neçə nəfəri oyatdılar, şeylərini yığmağı onlara əmr etdilər. Çekistlər tələsdirir, haraya aparacaqları barədə məhbuslara heç nə demirdilər. Mən general Məmmədbəy Sulkeviçin yaxınlığında yatmışdım. General bizlərdən bir neçə nəfərin əlini sıxmağa macal tapdı. Xüdahafizləşərkən o, tam yəqinliklə bildirdi ki, güllələməyə aparırlar. Özümüzün sağ qalacağımıza heç bir ümidimiz olmasa da, ona təsəlli verdik. Onu da qeyd etməliyəm ki, general özünü çox ləyaqətli və mərdanə aparırdı... Bir neçə gündən sonra qəzetlərdə «əksinqilabi fəaliyyətində ittiham olunanların güllələnməsi haqqında məlumatı oxuduq. Bu siyahıda general-leytenant Məmmədbəy Sulkeviçin familiyası da vardı. O da mənə məlumdur ki, general Sulkeviç haqqında heç bir araşdırma, məhkəmə istintaqı olmadı. O, Azərbaycan Demokratik Ordusunun generalı olduğuna görə sorğusuz-sualsız güllələndi.

## GENERAL CAVAD BƏY ŞIXLİNSKİ

(və hərbçi Şıxlinskilər haqqında qeydlər)

Ata yurdumuzdan ilham almasaq,
Zaman ağac kimi qurudar bizi.
Bu gün babaları yada salmasaq,
Sabah nəvələr də unudar bizi.

**Hüseyn ARİF**

Bir neçə il əvvəl iyirminci illərə kimi yaşamış bir çox hərbçilərimiz haqqında danışmaq bizə yasaq olmuşdu. Xüsusilə də, Azərbaycan Xalq

[1] Xankəndində yerləşən ikinci dağ divizionunun komandiri, podpolkovnik Nikolay İosifoviç Novruzovdur — müəl.

Cümhuriyyəti ordusunun general və zabit heyəti barədə. Bəzilərinin adını bir yerdə çəksək də, yalan-gerçək yazırdıq ki, filankəs yeni gələn şura hakimiyyətini ürəkdən alqışlayıb.

Beləcə, yetmiş ildən çox bir müddətdə yüzlərlə, minlərlə oğullarımıza, qızlarımıza özümüz öz əlimizlə qara yaxmışıq. Bunların arasında elələri də olub ki, indiyə kimi adını heç yerdə çəkməmişik. Hətta yaxın qohumları belə onların adını çəkməyə ehtiyat ediblər. Bunu dövr, zaman tələb edib. Totalitar rejimin ağır təzyiqinə məruz qalmış o qohumları bu gün biz günahlandırmaq iddiasında deyilik. Bir quruluşda ki, ölüyə Quran oxuyan mollanı Sibirə sürgün edirdilər, onda əmini necə günahlandırmaq olar ki, istilaçı XI Qızıl Orduya qarşı vuruşan qardaşın oğlunun adını xatirələrində niyə yazmamısan? Təsəvvür edin ki, «şanlı Qızıl Ordu» — deyə, şəninə nəğmələr qoşduğumuz bir vaxtda o əminin aqibəti necə olardı?

Tam artilleriya generalı Əliağa Şıxlinski 1942-ci ildə qələmə aldığı «Xatirələrim» kitabının iyirmi ikinci səhifəsində yazır: «1896-cı ildə briqadanı təftiş edən dairə topçu rəisi general-leytenant Baumqarten mənim komandamı gözdən keçirərkən briqada komandiri knyaz Ximşiyevə göstərib dedi: «Bu zabit çox ağıllı adamdır, onu sənə təqdim edirəm». Knyaz Ximşiyev cavab verərək dedi: «siz onu yungerlikdə görmüsünüz, biz isə on ildir ki, onun zabitliyini görür və lazımınca qiymətləndiririk». Bu təftişin nəticələri haqqında təlim komandasının rəisi əmrnaməsində yazırdı: «Otuz doqquzuncu topçu briqadasının təlim komandası sevindirici bir vəziyyətdədir...». Sonra o, öz əmrində komandanın başqa komandalara olan bütün üstünlüklərini göstərib, mənə təşəkkür elan etdi.

…1895-ci ildə mənim doğma qardaşım oğlu, cavan zabit bizim briqadaya keçdi. Topçu rəisi general-leytenant Parçevski dedi ki, rəislər bu zabit haqqında göstəriş vermək vəzifəsindən azaddırlar. Çünki onun üçün əmisi Əliağa Şıxlinski kimi bir örnək vardır».

Min doqquz yüz səksən üçüncü ildə generalın «Xatirələrim» kitabını yenidən nəşrə hazırlayanda ona «Qeydlər və izahlar» fəsli yazmalı oldum. İstər-istəməz generalın qardaşı oğlu, həmin cavan zabitin taleyi ilə maraqlandım. Bu barədə Bakıda heç nə tapmadım. Bir dəfə Qazaxa gedəndə ağbirçəklərdən, ağsaqqallardan soruşdum ki, Əliağa Şıxlinskinin hərbçi qardaşı oğlunun adı nə olub? Onlar da sorğuma sualla cavab verdilər ki, hansı hərbçi qardaşı oğlunu deyirsən, generalın iki hərbçi qardaşı oğlu olub: Cavad bəy və Rüstəm bəy Şıxlinskilər.

Bəli, ortaya bir çətinlik də çıxdı.

Eşitdim ki, polkovnik Rüstəm bəyin qızı Qazaxda yaşayır. Zəng eləyib görüşmək istədim. Ədilə xanımla telefon söhbətimiz görüşməyə körpü salmadı. Mətbuat işçilərindən giley-güzar elədi. Dedi ki, «Dəli Kür» filmi çəkiləndə bir rejissor bizdən xeyli şəkil apardı, hələ də geri ala bilmirik, hətta, Əliağa babamın ağ at üstündə çəkilmiş yeganə şəkli belə it-bata düşdü.

Haqlı giley idi. Bu söhbətdən sonra mən də Ədilə xanımla görüşməyə inad eləmədim. O, telefonda elə qəmli danışırdı ki, əzizlərinin nadir foto şəkillərinin onun üçün nə qədər ağır itki olduğunu çox gözəl başa düşdüm. Bir də hiss elədim ki, Cavad bəy Şıxlinski haqqında danışmağa ehtiyat edir...

Az sonra Şıxlinskilər nəslinin cavan nümayəndəsi ilə tanış oldum. Sözarası həmin cavan zabitin adını soruşdum. O, inamla bildirdi ki, Əliağa babamın ehtiyat edib adını çəkmədiyi cavan zabit Cavad bəy Şıxlinskidir. Onun dediyinə inanıb «Xatirələrim» kitabının iki yüz on birinci səhifəsinə belə bir izahat yazdım: «Həmin cavan zabit sonralar general-mayor rütbəsinə qədər yüksələn Cavadbəy Məmmədağa oğlu Şıxlinski olub».

Generalın yaxın qohumuna inansam da özümdə bir inamsızlıq, narahatçılıq vardı. Arxivlərdə işləyəndə Cavad bəyin adına rast gəlmirdim. Heç olmasa fotoşəklini belə tapa bilmirdim. Axtarışlarımın bəhrəsizliyi bəzən belə bir hərbçinin olması haqda məndə şübhə da doğururdu. Digər tərəfdən, general Əliağa Şıxlinskinin ensiklopedik biliyinə, dəqiq yaddaşına inanmaya bilmirdim. Generalın iki yüz səhifəlik «Xatirələrim» kitabında onlarla hərbçinin və müxtəlif peşə adamlarının vəzifəsini, ad-familini dönə-dönə hərbi ensiklopediyalarla tutuşdurmuşdum. Səksən yaşlı qoca generalın yazdığı kitabda zərrəcə səhv tapa bilməmişdim.

General xatirələrini yazanda 1942-ci il idi. Otuz yeddinci il hələ davam edirdi. 1920-ci ildə istilaçı XI Qızıl Orduya qarşı Gəncədə üsyanın fəal başçısı olan general Cavad bəy Şıxlinski İrana qaçmışdı. Ona görə də general onun adını yazmağa cəsarət etməmişdi.

Bəs nə etməli? Haradan, necə öyrənməli, general Cavad bəy Şıxlinskinin fəaliyyətini? Bir tərəfdən də fikirləşirdim ki, onun haqqında yazacağım məqalənin dərcinə heç kəs yaxın durmayacaq.

Qazax ağsaqqalları isə məni şirnikləndirirmiş kimi xeyir-şər məclislərində onu tərifləyirdilər. Dəqiq hərbi fəaliyyətini öyrənmək istəyəndə «qalsın gələn dəfəyə» — deyib, söhbətin mövzusunu dəyişirdilər. Sözün tam mənasında oxunu atıb, yayını gizlədirdilər. Hiss edirdim ki, qorxurlar, ehtiyat edirlər. Onlar hardan biləydilər ki, dövr dəyişəcək, tarixin qaranlıqlarına işıq düşən gün gələcək. İndi həmin vaxt gəlib, amma çox təəssüf ki, o yaxşı məlumatlı kişilər yoxdu. Onlar general Cavad bəy və onun polkovnik qardaşı Rüstəm bəy haqqında söz-söhbəti də özləri ilə o dünyaya apardılar. Onlardan yalnız biri — Abdulla Babanlı müəyyən mətləblərdə mənə kömək etdi.

Yadımdadır, elə oradaca söhbət polkovnik Cahangir bəy Şıxlinskidən düşdü. Bir neçə ağsaqqal onun 1918— 20-ci illərdəki fəaliyyətindən fəxrlə söhbət açdı. Dedilər ki, bu illərdə Daş Salahlı Məmməd koxa, Söyünbəy Sübhanverdixanov, Mədədbəy Vəkilov, Əskiparalı Mikayıl ağa Cahangirbəylə çiyin-çiyinə verib erməni daşnaklarına, gürcü menşeviklərinə qarşı vuruşaraq torpağımızı qorudular.

Mən də «Azərbaycan tarixi» kitabından oxuduğum bir epizodu onlara danışdım:

— Orada yazılır ki, 1915-ci ildə fabrik fəhlələri (məlum deyil hansı fabrikin — Ş. N.) gündəlik əmək haqqının artırılması üçün tətil eləyirlər. Bu təzyiqdən sahibkar əmək haqqını beş qəpik də artırır. Lakin bunu sədəqə kimi qəbul edən fəhlələr yenə imtina edirlər. Tətilçilərin qətiyyətini görən qəza rəisinin müavini Cahangir bəy Şıxlinski fəhlələrin beş nəfər nümayəndəsini yanına çağırıb onları həbslə hədələyir. Əmr edir ki, işə başlasınlar. Polislər də fabriki mühasirəyə alırlar. Lakin tətilçilər inadla öz tələblərinin ödənilməsinə nail olurlar, onların əmək haqqı beş qəpikdən on beş qəpiyə qədər artırılır, üstəlik də iş günü yarım saat azaldılır...

Bu yerdə dözə bilməyən ağsaqqal maarifçi Abdulla Babanlı dedi:

— Yalandı, oğul, büsbütün yalan epizoddur. Əvvəla bizim Qazaxda elə bir fabrik olmayıb. Bizdə indi də, o vaxt da xırda xalça, kəlağayı, dondurma və konfet sexləri var. Bizdə inqilabdan əvvəl belə sexlərin və dükanların sahibkarları Hacı Rəsul uşağı adı ilə tanınan Məmmədəli, Əbdüləli, Mirzəvəli və başqa qardaşlar vardı. Onlar da xeyirxah, kasıba, yetim-yesirə əl tutan oğullar idi. Dükanlarından bir kəlağay alanda, birini də bağışlayırdılar. Onlar xırda-para şeylərin alverçisi deyildilər, əsl tacir idilər. Mən əsrdən böyüyəm, nə təhər olub ki, bu boyda tətili nə görmüşəm, nə də eşitmişəm. Yalan yazır o oxuduğun «Azərbaycan tarixi» kitabı...

Yaxşı tanıdığım bir tarixçi professorun kitabından aşağıdakı cümlələri oxuyanda o vaxt mən də general Cavad bəy Şıxlinskinin xalqının düşməni olduğuna inanmışdım. Eləməyib tənbəllik bu cümlələri də Abdulla müəllimə oxudum: «Müsavat generalı Cavad bəy Şıxlinski, polkovnik Cahangir bəy Kazımbəyov, polkovnik Məhəmməd Mirzə Qacar, məşhur musavatçı Xan Xoyski qardaşları və başqaları qiyamın bilavasitə təşkilatçıları olmuşlar.

Əksinqilabçı ünsürlərdən təşkil edilən qiyamçılar on-on iki minlik böyük dəstəyə və üç artilleriya batareyasına malik idilər.

Mayın iyirmi altısında qiyamçılar hərbi cəbbəxananı ələ keçirdilər, dəmiryol vağzalını tutdular. Müsavatçılar şəhər əhalisi içərisində bolşeviklər, qızıl əsgərlər əleyhinə hər cür böhtanlar yayır, guya bolşeviklər əleyhinə bütün Azərbaycan üsyan etmişdir, — deyə fitnə-şayiələr yayırdılar».

Cümlələri oxuyub qurtaran kimi Abdulla müəllim titrək, arıq barmaqlarını sətirlərin üstündə gəzdirə-gəzdirə dedi:

— Bu cümlələrdəki «böhtan, fitnəkar, şayiə, əksinqilabçı» sözlərini pozsaq, «qiyam və qiyamçıları» isə igid, üsyankar sözləri ilə əvəz etsək, professorun sözləri düz olar.

Əlbəttə, on dörd il əvvəl Abdulla müəllim bu iradları mənə ikilikdə, özü də astadan, ehtiyatla deyirdi. Onda nə demokratiya vardı, nə də aşkarlıq.

1991-ci ildə arxivdə rast gəldiyim bir kitab məni çox sevindirdi. Sevindim ki, nə general Əliağa Şıxlinskinin yazdığı, nə də onun qohumunun dediyi səhv olmadı. 1912-ci ildə Qafqaz canişinliyinin mətbəəsində nəşr olunmuş «Kavkazski

kalendar» sorğu kitabı bunu bir daha təsdiq etdi. Kitabın dörd yüz səksən doqquzuncu səhifəsində belə bir qeyd var: «Otuz doqquzuncu artilleriya briqadasının komandiri general-mayor Kalin, birinci rotanın komandiri isə kapitan Cavad bəy Şıxlinskidir».

Yeri gəlmişkən həmin kitabdan müəyyən səhifələri qısaca olaraq oxuculara təqdim edirəm. Ona görə ki, orada xalqımızın görkəmli hərbçi oğulları haqqında məlumat verilir.

Dörd yüz yetmiş səkkizinci səhifədən:

—Birinci Qafqaz ordusu korpusunun artilleriya müfəttişi general-leytenant Səməd bəy Mehmandarov, əlli ikinci artilleriya briqadasında birinci divizion komandiri Əsəd bəy Talışxanov, Qafqaz canişinliyinin hərbi qərargahında ştalmeyster (orduda süvari zabiti - Ş. N.) Bəhram xan Naxçıvanski xidmət edirlər.

Yüz otuz altıncı səhifədən:

—Cavanşir qəzasının Tərtər qəryəsində praporşik Gəraybəy Vəkilovun, Qarasaqqalıda İsfəndiyar bəy Muradovun (general Ə. Şıxlinskinin bacısı oğludur. Az müddət Qazax qəzasının rəisi olub. 1920-ci ilin mayında Gəncə üsyanın iştirakçısı adı ilə məşhur ədəbiyyatşünas Firidun bəy Köçərli, doktor Məcid bəy Vəkilov, müəllim Nadir bəy Dağkəsəmənski ilə birgə bolşeviklər tərəfindən güllələnib — Ş. N.), Qazax qəzasında starşina köməkçisi Cahangir bəy Şıxlinski və Məcidbəy Şıxlinskinin fəaliyyətindən danışılır.

Beş yüz iyirmi doqquzuncu səhifədə isə Əliağa Şıxlinskinin iyirmi ikinci artilleriya briqadasında birinci polkun komandiri olduğu göstərilir.

«Kavkazski kalendar»dakı bu tapıntılarımdan sonra cəsarət edib 1990-cı ilin sentyabrında «Bizim generallar» verilişində general Cavad bəy Şıxlinski haqqında sorğu ilə çıxış elədim. İki gün keçməmiş bir nəfər zəng elədi. Dedi ki, çıxışınıza qulaq asdım. Çox sağ olun ki, mənim babalarım Cavad bəy və Rüstəm bəy Şıxlinskilər haqqında az-çox məlumat verdiniz. Amma heç birinin şəklini göstərmədiniz.

—Yoxdur, — dedim, — qardaş, heç bir arxivdən şəkillərini tapmaq mümkün olmadı. Mən də ona görə sorğu elədim ki, kimdə onların şəkli varsa, bizə göndərsin. Əgər doğrudan da o kişilər sənin babandırsa kömək elə, şəkillərini tapaq.

—Var, — deyə xəttin o başındakı adam inamla bildirdi.

Mən sevinclə:

—Harda, kimdə? — deyə soruşdum.

—Qazaxda, anamda. Siz bir neçə il əvvəl anamla bu barədə telefonla danışmısınız. Anam isə əmisi Cavad bəyin adı gələndə həmişə ehtiyat edir. Bir də itkin şəkillərdən sonra anam heç kəsə inanmır. Sizin verilişə baxıb, indi özü Qazaxdan zəng eləmişdi ki, qəzetdə dərc olunan yazılarını oxuyuram, verilişinə də baxdım, şəkilləri ona etibar eləyə bilərəm...

Danışan Ədilə xanım Şıxlinskayanın oğlu Rüstəm idi. On ildən sonra bu görüşün baş tutması üçün polkovnik Rüstəm bəyin nəvəsi Rüstəmə təşəkkür edib, Qazaxa getdim. Gedəndə özümlə respublika kino-fotosənədlər arxivindən tapdığım iki nadir şəkli də götürmüşdüm. 1919-cu ildə çəkilən bu şəkillərdə Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun general və zabitləri təsvir olunmuşdu. Hər iki şəkildə cavan bir zabitin ad-famili yazılmışdı: Bahadır bəy Vəkilov.

***

Elə ilk görüşdən bir-birimizdən üzrxahlıq elədik. Ədilə xanım yanıqlı-yanıqlı dedi ki, gözüm qorxub, ay oğul, iyirminci, bir də otuz yeddinci illər bizim ailəyə heç nədən çox ağır zərbələr vurub. Sənin ön il bundan qabaqkı telefon zəngində isə yara hələ isti idi. Şəkillərin yarasını deyirəm, ən çox məni yandıran da Əliağa babamın ağ at üstündə çəkilmiş yeganə fotoşəkli idi. Günah məndə oldu, heç olmasa üzünü çıxartdırıb özümdə saxlamadım. Rüstəm dönə-dönə gedib o rejissoru axtarıb. Deyiblər rəhmətə gedib. Şəkillər də itdi-batdı. Nə isə olan-oldu, keçən-keçdi... Məndə qalan şəkillər bunlardı, — deyib, Ədilə xanım «Nikolaydan qalma» bir albomu stolun üstünə qoydu. Albomun ilk səhifəsində çərkəzi geyimli cavan bir zabit şəkli... İri ala gözləri necə də tanış və doğmadır. Mənim şəklə diqqətlə baxdığımı görən Ədilə xanım:

—Dayımdı, — dedi, — müsavat zabiti olduğuna görə iyirminci ildə bolşeviklər onu da güllələyiblər.

Onun səsindəki təsvirəgəlməz kövrəklik, həzin bir qəm dalğası varlığımı titrətdi. Adam belə anlarda qarşısındakına təsəlli verməkdən də məhrum olur. Daxili təlatüm, vicdanın səsi olub keçmiş ədalətsizliyi, vəhşiliyi ittiham edir. Dərindən köks ötürüb, «heyf» — deməkdən başqa əlindən bir şey gəlmir. Çünki nahaq qan tökənləri, heç nədən insan güllələdənləri ittiham etmək gecdir. O vəhşiləri indi tarix mühakimə edir. Tarix öz səhifələrində onlara amansız cəza verir, gec də olsa əyrini-əyri, düzü-düz yazır.

Ağır qəm yükünün altından qurtarmaq xatirinə soruşdum:

—Dayınızın adı necədir, Ədilə xanım?

—Bahadır bəy Vəkilov.

—Ola bilməz, — dedim. — Özümdən asılı olmayaraq səsim bərkdən çıxdı.

—Onda bu şəkillərə baxın, zəhmət olmasa...

Mən özümlə götürdüyüm bir qrup milli ordu əsgərinin iki fotoşəklini ona göstərdim.

—Bu, tən ortada oturan Bahadır dayımdı, — dedi. İkinci şəklə baxır: — Bu da odu, dayımdı... Bu şəkillər bizdə yoxdu. Sizdə hardandı? — deyə soruşdu.

—Arxivdən tapmışam, — dedim.

—Oy, nə yaxşı iş görmüsünüz, çox sağ olun... Mənim anam Böyükxanım Vəkilovlardandır. İbrahim ağa Vəkilovun qızıdır. General-topoqraf İbrahim ağanın yox, o, Paşa ağanın oğludur. Mənim babam isə Pənah ağa Vəkilovun

oğludur. İkicə dayım vardı: böyüyü İsfəndiyar bəy, kiçiyi isə Bahadır bəy idi. İsfəndiyar dayım 1907-ci ildə Qori seminariyasını qurtarmışdı. Bir müddət Bakıda rus-tatar məktəbində müəllim işləyib. 1910-cu ilin yayında görkəmli maarifçi Əhmədağa Mustafayevin Dilicanda ədəbi fəaliyyətinin iyirmi beş illiyi keçirilib. Dayım yubileyin təşkilatçısı olub. Böyük şairimiz M.Ə.Sabirin «Hophopnamə» sinin nəşri üçün ianə toplayıb. 1918-ci ildə Qazax seminariyası açılanda Firidun bəy Köçərli onu Qazaxa dəvət edib. Səməd Vurğunun, Seyfulla Şamilovun, Mirqasım Əfəndiyevin, Osman Sarıvəllinin, Mehdi Hüseynin, Mehdixan Vəkilovun və yüzlərlə seminaristin müəllimi olub. Bolşevik hökuməti qurulanda əksinqilabçı-müsavatçı fəaliyyətinə görə Solovki konslagerinə sürgün etdilər. Ana tərəfimdən Solovki adalarında əzab çəkənlər çox olub. Müsavat parlamentinin üzvü Rəhim bəy Vəkilov, maarifçi Zəkəriyyə Vəkilov, Məmmədhəsən Vəkilov-Baharlı, Bakı Darülmüəllimatının direktoru Mədinə xanım Vəkilova-Qiyasbəyli isə otuz yeddinci ildə güllələndi. Azərbaycan parlamentinin üzvü, partiyanın ikinci lideri Mustafa ağa Nadir bəy oğlu Vəkilov 1920-ci ildə Türkiyəyə mühacirətə getdi..Solovki konslagerində on il həbs cəzası çəkən dayım İsfəndiyar bəy Vəkilov 1936-cı ilin noyabrında qayıtdı. Ömrünün axırına kimi müəllimlik etdi. 1960-cı ildə vəfat edən dayımın indi bir qızı, bir oğlu qalır. Oğlu İbrahim Vəkilov istefada olan polkovnikdir. Kiçik dayım Bahadır bəy Vəkilov idi. Bayaq dediyim kimi iyirminci ildə cavankən bolşeviklər güllələdilər, heç evlənməmişdi də. Sizin tapdığınız şəklin arxasında yazılıbmı, neçənci ildə çəkilib?

—1919-cu ildə çəkilib, — deyə cavab verdim.

—Mənimlə yaşıddı, dayımın şəkli, — deyib Ədilə xanım qəmli-qəmli köksünü ötürür. Ovcundakı xırdaca güllü dəsmalla nəmli gözlərini sildi.

—Ədilə xanım, bolşeviklər ana tərəfinizdən ona görə çox adamı güllələyib, sürgün ediblər ki, Rəhim bəy Vəkilov müsavat parlamentinin üzvü olub və nəslinizdə bəylik varmış. Əslində maarifçilər daha çox olub. Tbilisidəki Qori seminariyasının arxivində işləyəndə bir dəfə maraqlandım ki, görüm neçə Vəkilov oxuyub. Saydım, on bir nəfər idi. Hələ Qazax seminariyasını qurtaranlar da olub... Bəs, ata tərəfinizi niyə incidiblər?

— Ata tərəfimdə də ağalıq var idi. «Ağalıq» yeri adlanan Şıxlinskilərə məxsus torpaqlar indi də qalır. Birinci Şıxlıya çatmamış, Kür qırağı yerlər Şıxlinskilərin olub. İndi orda üzüm bağı salınıb... Polkovnik atam Rüstəm bəy Şıxlinskini də 1920-ci ildə bolşeviklər güllələdilər. Bizim ailə Bakıdan Qazaxa köçdü. Sonra Gəncə üsyanı oldu. Cavad əmim İrana getdi. Evimizdə başıpapaqlı qalmadı. Anam Qazaxda arteldə dərzi işləyirdi, bir təhər dolanırdıq. 1932-ci ildə olan bir hadisə heç vaxt yadımdan çıxmır. «Çistka» vaxtı idi. Bir gün anamı komsomolçular kluba çağırdılar. Belə yerlərdə heç vaxt olmayan anam getmək istəmirdi, utanırdı. Dedilər ki, Bakıdan «çistka» aparmağa nümayəndə gəlib, getməsən vəziyyətin daha pis olar. «Kulak» kimi sürgün edərlər, körpələrinə yazığın gəlsin. Onda anam məni də özü ilə apardı. Yığıncaq başlandı. Səsə

qoydular ki, Böyükxanım İbrahimağa qızı Şıxlinskayanın səsi alınsın, yoxsa yox. Yerdən: qadındı, köməksizdi, əri, qaynı və bir qardaşı güllələnib, bir qardaşı isə sürgündədir, bağışlansın, — deyənlər çox oldu. Bu vaxt bizim keçmiş nökərimizin komsomolçu oğlu söz alıb kürsüyə çıxdı. Anam ürəkləndi. Utancaq anam ilk dəfə başını qaldırıb ümidlə kürsüyə tərəf baxdı. Nökərimizin komsomolçu oğlu Lenindən, Stalindən, proletariatdan və yeni qurulan kolxozdan odlu-odlu danışırdı. Bəyləri, ağaları təhqir edə-edə birdən üzünü anam tərəfə tutub, əlini irəli uzatdı: — Bu, o Vəkilovlardan, o Şıxlinskilərdəndir ki, proletariatın qanını su yerinə axıdıb. Səsi alınmalıdır. Vəssalam, — deyib kürsüdən fəxrlə düşdü. Anamı işdən çıxardıb, «səsini» aldılar. Ailəmiz hökumət yanında gözükölgəli oldu. Dinə bilmədi yazıq anam.

Dünya yaxşı adamlardan xali deyilmiş, ay oğul. Bir xeyli sonra anam o vaxtın nüfuzlu adamları Həmid Əfəndiyevə və Sayad Bəhərzalova müraciət etdi. Onlar kommunist olsalar da, vicdanlı adamlar idilər. Anamın «səsini» qaytarıb, özünü də işə bərpa etdilər. O vaxt əmim Cavad bəy İranda sağ idi. Onda sərhəd çox da möhkəm deyildi, gedib-gələnlər vardı. Xəbər gətirmişdilər ki, general Cavad bəy Şıxlinski Ərdəbil qarnizonunun komandanıdır. Əmimə Azərbaycan Demokratik ordusunda general-mayor rütbəsi verilmişdi. Səhv eləmirəmsə, on doqquzuncu ildə verildiyini anam danışardı. Əmim də, atam da Birinci Dünya Müharibəsində Tatar polkunun tərkibində vuruşublar, hər ikisi «Müqəddəs Georgi» və «Müqəddəs Vladimir» ordenləri ilə təltif olunublar. Otuz-qırxıncı illərdə o taydan, Cavad bəydən, onun qoçaqlığından yaxşı sədalar gələndə bizim qocalar pıçıltı ilə, ehtiyatla danışırdılar ki, Cavad bəy hərbi işdə atamdan da mahir olub. O, əmisi Əliağa Şıxlinski qədər qoçaq imiş. 1946-cı ilə qədər eşidirdik ki, əmim sağdır, evlənib iki oğlu — Çingiz, Nazir və Gövhər adında qızı var.

—Cavad bəy böyük idi, yoxsa atanız Rüstəm bəy?

—Cavad əmim 1875-ci ildə anadan olmuşdu. Yaşı qırxı keçsə də evlənməmişdi. Bizim Şıxlinskilərin arasında gec evlənənlər var.

—Ədilə xanım, elə general Əliağa Şıxlinski buna canlı sübutdur. O da gec—qırx altı yaşında evlənib.

Anam danışardı ki, boy-buxunda, bacarıqda, xasiyyətdə də Cavad bəy əmisi Əliağa Şıxlinskiyə oxşayırdı. Atamı da, əmimi də Əliağa babam Tiflisdəki zadəgan balalarına məxsus kadet korpusuna qoymuşdu. Oranı bitirəndən sonra hər ikisini Peterburqa aparır, vaxtilə özünün oxuduğu Mixaylov topçuluq məktəbinə oxumağa qoyur. Atam əmim Cavad bəydən üç yaş kiçik idi, 1878-ci ildə anadan olub. Hər ikisi də Qazaxda anadan olub. Sizə danışdıqlarımın hamısını anam yazmışdı, ordan oxumuşam, hara qoymuşam, harda gizlətmişəm tapa bilmirəm... Anam bu yazıları müharibədən qabaq yazmışdı. Deyirdim ki, ay ana, at getsin, bu yazılar nəyinə lazımdır. Birdən nə olar... Bunlara görə başımız bəlalar çəkər. Anam da arxayınçılıqla: «Yox, qızım, — deyərdi, — vaxt gələcək lazım olacaq, belə kişilərin adı batmamalıdır».

— Ədilə xanım, nə general əminiz Cavad bəyin, nə də polkovnik atanız Rüstəm bəyin Azərbaycan milli ordusundakı əvəzsiz xidmətləri itib-batmayıb. Xalqımızın görkəmli oğlu Mirzəbala Məmmədzadənin «Azərbaycan milli ordusunun keçdiyi yollar» məqaləsində onlar barədə məlumat var: «Ağdamda (1918-ci ildə) pulemyot bölüyünə məxsus hazırlıq məktəbi açıldı. Sonralar bolşeviklər tərəfindən edam edilən mərhum miralay (polkovnik) Şıxlı Rüstəm bəyin idarəsi altında topçu hissəsi təşkil edildi». Müəllif yazırdı ki, yenicə yaradılan Müsavat ordusunun birinci diviziyasına mirliva (general-mayor) Cavad bəy Şıxlinski komandan təyin edildi...

Zəngəzurda məskun olan ermənilər İrəvan daşnaklarının təhriki ilə bu vilayəti özlərinə ilhaq etmək niyyətilə Azərbaycan hakimiyyətini tanımırdılar. 1919-cu ilin oktyabr ayında general Cavad bəy Şıxlinskinin komandanlığı altında Zəngəzur ermənilərinə qarşı hərbi yürüş oldu. Bu səfər bir aydan artıq davam etdi.

Zəngəzurdakı erməni milli hissələrinə qarşı hərbi əməliyyatlar aparan Cavad bəy Dığ kəndi ərazisində düşmənin möhkəmləndirilmiş istehkamlarını dağıdır və kəndi onlardan təmizləyir. Az sonra ingilislərin işə qarışması ilə hücum dayandırılır. Noyabrın iyirmi üçündə barışığa əsasən erməni hərbi hissələri Zəngəzur ərazisini tərk edir.

General Cavad bəy Şıxlinskinin 1919-cu il noyabrın səkkizində həmin döyüşlər barədə hərbi Nazirliyə göndərdiyi bir teleqram Mərkəzi Dövlət Arxivində saxlanılır.

«Adamların həddindən artıq yorulduqlarını və Dığ kəndini əldə saxlamağın mümkün olmayacağını müəyyənləşdirdikdən sonra, mən qrupu Zabıx çayının şimal sahilinə çəkməyi və əlverişli mövqe tutmağı qərara aldım.

Bütün hissələr çayı sağ-salamat keçib müəyyən olunmuş mövqeyi tutdular. Enişi enərkən toplardan biri yoldan çıxdı və dərəyə düşdü, onu çıxartmaq mümkün olmadı. Həmin topun açarını, təkərlərini və mühüm hissələrini söküb götürdük. Top bizim mövqeyimizin yaxınlığındadır, çalışıram ki, ayın doqquzuna kimi çıxardıb aparaq. Mənim bütün göstərişlərimi yerinə yetirmək üçün Yadigarovun dəstəsi Abdallara gəlib.

Qəhrəmanlıqla həlak olan Cavanşir alayının podpraporşiki Muradovun və Zaqatala alayının praporşiki Qazıyevin böyük cəsurluğunu xüsusi qeyd etməliyəm. Bizim artilleriyada əla döyüş xidmətləri olan podpolkovnik Novruzovun məharətini də unuda bilmərəm. Bizim itki belədir: Zaqatala alayından həlak olan və itkin düşən qırx nəfərdir, əlli nəfəri isə yaralanıb. Cavanşir alayından beş nəfər həlak olub, iyirmi nəfər yaralanıb. Şəki alayından iki nəfər yaralanıb, Qarabağ alayından isə ikisi və artilleristlərdən bir nəfər yaralanıb. Zabitlərdən üçü həlak olub, dördü isə yaralanıb. İtkilərimizin sayını əlavə olaraq yenə Sizə bildirəcəm.

**General-mayor Cavad bəy**
**Şıxlinski**
**Abdallar kəndi».**

Cavad bəy Şıxlinskinin komandanlıq etdiyi birinci piyada diviziyası 1919-cu ilin sonlarında Gəncədə yerləşirdi. Diviziya üç alaydan və üç taburdan (batalyon) ibarət idi: Cavanşir alayının komandiri podpolkovnik Səməd bəy Rüstəmbəyov, Zaqatala alayının komandiri polkovnik Əhməd bəy Dibirov və Gəncə alayının komandiri Cahangir bəy Kazımbəyov idi.

**Gəncə. Birinci piyada diviziyasının rəisi, general Şıxlinskiyə**[1]

**Təcili teleqram**
**1920-ci il 27 aprel**

«Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirlər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızıl Buruna Qazaxdan bir batalyon və Gəncədən bir batalyon göndərmənizi əmr edirəm. Hər bir batalyonda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarını artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqrafla bildirin. Biz batalyonları sabaha gözləyirik.

**Hərb naziri artilleriya generalı**
**Səməd bəy Mehmandarov».**

Respublika Mərkəzi Dövlət Arxivində saxlanılan daha bir sənəd. Hərbi Dəniz komissarı Çingiz İldırımın və Respublika bolşevik Ordusunun müvəqqəti Qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşının 30 aprel 1920-ci ildə verdiyi əmrdə oxuyuruq:

«Birinci piyada diviziyasının rəisi, general-mayor Cavad bəy Şıxlinskinin tabeliyində olan, Gəncə və Zaqatala quberniyalarında yerləşən bütün hərbi hissələrə, habelə Qarabağ bölməsinin döyüşçülərinə təcili olaraq XI Qızıl Ordunun komandanlığına hərbi əməliyyatlar zamanı tabe olmasını əmr edirəm. Bütün başqa hallarda bu hərbi hissələr əvvəlki kimi mənim tabeçiliyimdə qalır».

Nə igid Cavad bəy, nə də onun mərd əsgər və zabitləri bolşeviklərin bu ədalətsiz əmrinə boyun əymədilər. Onlar son güllələri qurtarana kimi Gəncə üsyanını davam etdirdilər...

İyirminci il aprelin iyirmi yeddisində bolşeviklər Azərbaycanı zəbt edəndə Gəncə qaynar qazana dönmüşdü. Hamı silaha sarılmışdı. O günlərin hadisələrini alay komandiri, polkovnik Cahangir bəy Kazımbəylinin mühacirətdə yazdığı «Gəncə üsyanı haqqında xatirələr»ində daha real görürük. O, yazır: «...Mayın iyirmi üçündə səhər saat altıda növbəti fəaliyyət planını və birgə işləri

---

[1] Bu teleqramı bəzi müəlliflər səhvən tam artilleriya generalı Əliağa Şıxlinskinin adına dərc edirlər. Əvvəla, Əliağa Şıxlinski heç vaxt birinci piyada diviziyasının rəisi olmayıb. İkincisi də Əliağa Şıxlinski 1912-ci ildən 1917-ciilədək general-mayor rütbəsində olmuşdur. Teleqram, haqqında söhbət açdığımız, onun qardaşı oğlu general-mayor Cavad bəy Məmmədağa oğlu Şıxlinskiyə vurulub (1875—1959) — müəl.

müəyyənləşdirmək üçün şəhərdə olan birinci Azərbaycan diviziyasının rəisi general Cavad bəy Şıxlinskini, Azərbaycan Ordusunun baş intendantı general Məhəmməd Mirzə Qacarı və süvari diviziyasının rəisi general Teymur bəy Novruzovu müşavirəyə dəvət etdim. İlk iki general onların arxasınca göndərilmiş polk adyutantının müşayiəti ilə gəldilər. Küçələrə çıxan əhalinin sevincini xüsusi qeyd etmək lazımdır. Əhali polkun qərargahına gələn hər iki generalı «Yaşasın» sədaları ilə qarşıladı. Onları qərargaha əllərinin üstündə apardılar. Uzun müddət küçələrdə sevinc qışqırtısı eşidilirdi. Yalnız mənim təkidli xahişlərimdən sonra kütləni sakitləşdirmək mümkün oldu. Xalq evlərinə dağılmışdı. Bu müşavirədə general Məmməd Mirzə Qacar yerli hökumətin ümumi rəhbəri və təşkilatçısı seçilir. Artilleriya generalı Cavad bəy Şıxlinski həm bolşeviklərdən alınmış artilleriyanı, həm də bolşeviklərin pozub-dağıtdıqları Azərbaycan artilleriyasını yenidən təşkil edir.

Mən öz polkuma və partizan dəstələrinin fəaliyyətinə rəhbərlik edirəm».

Ədilə xanımla köhnə albomu yenidən vərəqləyirik. İllərlə arxivlərdə axtardığım general Cavad bəyin və polkovnik Rüstəm bəy Şıxlinskilərin fotoşəkillərinə ilk dəfə burda rast gəlirəm. Sevincimin həddi-hüdudu yoxdur. Yetmiş ildən çox adı, fəaliyyəti hərb tariximizdən yoxa çıxan iki görkəmli sərkərdəmizin qaytarılması üçün Ədilə xanıma təşəkkür edib ayrılıram.

İnqilabın ilk günlərində musavat generalı «damğası» ilə təqib olunan məşhur hərbi xadimlərimiz Əliağa Şıxlinskinin, İbrahimağa Vəkilovun, Səməd bəy Mehmandarovun, Mirkazım xan Talışxanovun, Firudinbəy Vəzirovun, İbrahimağa Usubovun, Qalib bəy Vəkilovun, Daniyal bəy Həlləcovun, Əhməd bəy Dibirovun başına nələr gətirilməyib? Vaxtlı-vaxtsız qapıları döyülüb, onlara ağla gəlməyən suallar verilib: bəy baban nə vaxt ölüb, niyə köhnə orduda qulluq eləmisən? Türkiyədə, İranda neçə qohumun var?

Azərbaycan Demokratik hökümətinin polkovniki Əhməd bəy Dibirovun qızı Nəcibə xanım Abdullayeva hazırda Bakının Qaqarin küçəsindəki səkkiz nömrəli evdə yaşayır. O, ağrılı-acılı illəri Nəcibə xanım kədərlə xatırlayır:

- İstefaya çıxan atam Balakən rayonunun Mahamalar kəndində yaşayırdı. Otuzuncu illərdən başlayaraq çox get-gələ saldılar. Amma onu həbs etmək üçün bir əsas tapa bilmirdilər. Nəhayət, həyat yoldaşım — 1917-ci ildən partiyanın üzvü olan Əmir Abdullayevi həbs etdilər. Səbəbi də bu oldu ki, musavat polkovnikinin qızına evlənibsən.

...Atam kəndin mərkəzində ağsaqqallarla söhbət edirmiş. Bu vaxt bir xoruz onların yanındakı kötüyün üstünə çıxıb dalbadal banlayır. Səbri tükənən atam zəhlə tökən xoruza zarafatla: «ay xoruz, — deyir, — sən də komsomol kimi nə qışqır-bağır salmısan». Xırdaca bir daş atıb xoruzu qovur. Bir azdan evə qayıdan atamı yarıyoldan qaytarıb orqana apardılar. Sorğu-suala tutdular və günahlandırdılar ki, sən nə haqla komsomolu təhqir etmisən. Onu Sibirə sürgün etdilər. Atam o gedən oldu. O gündən mən «xalq düşməni»nin qızı və «xalq düşməni»nin həyat yoldaşı

oldum. İki ay sonra bizə xəbər verdilər ki, atanız türmədə ürək partlamasından vəfat etdi.

***

İyirminci ildə rusca dərc olunan «Kommunist» qəzeti generallarımızın və ziyalılarımızın təqib olunması barədə kifayət qədər yazılar verib. Azərbaycan bolşeviklər partiyasının orqanı olan bu qəzetin səhifələrini vərəqləyəndə Azərbaycan və onun övladları haqqında ürəkaçan heç nəyə rast gəlmirsən. Əgər iyirminci ilə qədər Azərbaycan tarixindən bixəbər olan adam bu qəzeti vərəqləsə, istər-istəməz düşünər ki, bu xalqda ziyalı yox imiş, bu xalq quldur, sərgərdan, əksinqilabçı, rüşvətxor və oğru imiş.

Yeni bolşevik hökuməti Azərbaycanda özünü möhkəmlətmək üçün XI ordunun gücü ilə hər cür alçaqlığa əl atıb. Evləri müsadirə, ziyalıları həbs edib, güllələyib, qəddar və vəhşi hərəkətlərini həyata keçirib.

Qəzetin 29 iyun 1920-ci il tarixli nömrəsində oxuyuruq:

«Gəncə Quberniyasının Fövqəladə Komissiyası elan edir: Gəncə Quberniyasının Fövqəladə Komissiyası aşağıda adı çəkilən ailələri girov saxlayır: Qacarlar, Kazımbəyovlar, Şıxlinskilər, Xanxoyskilər ailəsini və Gəncədə iki yüzə yaxın görkəmli burjuaziya sinfindən olan şəxsləri.

Əgər bunlardan kimsə üsyan qaldırmaqda, ya da sui-qəsddə yaxalanarsa, həmin şəxs dərhal sorğu-sualsız güllələnəcəkdir».

«Kommunist» qəzetinin 30 iyun 1920-ci il tarixli nömrəsində yazılır: «Gəncə. İyunun 28-də Tiflisdən gələn yoldaşlar xəbər verirlər ki, Azərbaycan əksinqilabçılarının hamısı Tiflisin küçələrində veyillənirlər. Hazırda Rəfiyevlər ailəsinin hamısı, general Cavad bəy Şıxlinski Teymur bəy Novruzov və bütün Şamxor bəyləri də oradadırlar.

Yusif bəy Konstantinopola gedib. Tiflisdə belə bir şayiə də gəzir ki, Gəncə üsyanındakı uğursuz təşkilatçılığına görə Xan Xoyski müsavatçıların tərəfindən qətlə yetirilib.[1] Həm də xəbər verilir ki, Gürcüstanda sovet qoşunları ilə toqquşmada Zaqatala dairəsindəki gürcü əsgərləri onlara güllə atmaqdan imtina ediblər. Ona görə ki, güllələnən zabitlərin yeddi nəfəri gürcü olub».

«Kommunist» qəzeti, 6 iyun 1920-ci il tarixli nömrəsində: «General Şıxlinski həbs olundu. Gəncə, 3 iyul. Məşhur əksinqilabçı və Gəncə üsyanının təşkilatçısı general Cavad bəy Şıxlinski cinayət axtarış idarəsinin milis rəisi tərəfindən həbs olunaraq Tiflisdəki xüsusi dəstənin sərəncamına verilmişdir.

[1] Əslində Azərbaycan Respublikasının Xarici İşlər naziri Fətəli xan Xoyski 1920-ci il iyunun 19-da bolşeviklərin muzdla tutduğu erməni qatili Aram Yevkanyan tərəfindən Tiflisdə arxadan atılan güllə ilə öldürülmüşdü — müəl.

Gürcülər həbs olunan general Cavad bəy Şıxlinskini ona görə günahlandırırlar ki, o, Azərbaycan Respublikasına gələn gündən (1918—20-ci illər nəzərdə tutulur — Ş. N.) gürcü zabitlərini zorla hərbi işə cəlb etmişdir».

Axırıncı cümlə tamamilə yalan və iftiradır. Əvvəla, tam məsuliyyətlə demək olar ki, «gürcü zabitləri zorla hərbi işə cəlb edilmişdir» sözləri Gürcü və Azərbaycan xalqı arasında təfriqə, ixtişaş salmaq naminə işlədilmişdir. İkincisi, heç vaxt 1918—20-ci illərdə gürcülər zorla Azərbaycan ordusuna çağırılmamışlar. Əksinə, onlar könüllü olaraq Azərbaycan milli ordusunda xidmət etmişlər. Hazırda hərbi arxivimizdə saxlanan sənədlər arasında onlarca gürcü əsgər və zabitinin bizim orduda könüllü qulluq etmək haqqında ərizə və raportları saxlanılır. Onların arasında yüksək rütbəlilər də var: Azərbaycan hərbiyyə məktəbinin rəisi, general-mayor Konstantin Davıdoviç Çxeidze, 1919-cu ildə birinci süvari diviziyasının Qərargah rəisi Amaşukeli, general-kvartirmeyster V. D. Karqaleteli, general knyaz Makayev, general-mayor Aleksandr Pursalidze və başqaları. Hətta V. D. Karqaleteli 1920-ci il martın 20-də bizim ordudakı nümunəvi hərbi xidmətinə görə 167 nömrəli əmrlə general-mayor rütbəsi ilə təltif olunmuşdur.

O dövrün tarixçisi Cahangir Zeynaloğlu «Müxtəsər Azərbaycan tarixi» kitabında mart hadisəsindən danışanda gürcü piyada bölüyünün təmənnasız köməyini unutmur. O yazır: «O Tiflisdə Mavərayi-Qafqaz hökumətinin lütf və mərhəmətilə müsəlman ordusu adı altında ancaq kiçik bir dəstə təşkil edib, düşmən qarşısına, Kürdəmirə göndərildi. Dəstə birinci tatar (Azərbaycan — Ş. N.) süvari alayı ilə yenidən təşkil edilmiş ikinci süvari alayı, bir gürcü piyada bölüyü və bir Gəncə topçu batareyasından ibarət idi. Gürcü bölüyü Bakı məsələsində gürcülərin müsəlmanlar ilə birlikdə hərəkət etmələrinə bir əlamət və müsəlmanlara kömək olaraq göndərilmiş idi».

O vaxtkı Azərbaycan—Gürcüstan münasibətlərindən onlarca belə fakt söyləmək mümkündür. Lakin yeni gələn bolşevik hökümətinin general Cavadbəy Şıxlinski və gürcü zabitləri barədə yazdığı fakt isə iki millət arasında suyu bulandırmaqdan başqa bir şey deyil.

Rusca «Kommunist» qəzetinin bundan sonrakı nömrələrində nə general Cavad bəy Şıxlinskinin, nə də general Teymur bəy Novruzovun haqqında heç bir məlumat verilmir. Bundan sonra Cavad bəylərə əli çatmayan bolşeviklər Azərbaycanı tərk etməyən hərbçi oğullarımızın tuthatutuna başlayıblar.

Qəzet 19 iyul 1920-ci il tarixli nömrəsində yazır:

«Azərbaycan Sovet Sosialist Respublikasının İnqilabi Səhra Məhkəməsi iyulun 17-də general-qubernator Teymur bəy Məlik-Aslanovun məhkəmə işinə baxmışdır. On dörd nəfər kommunistin şahidliyi ilə Teymur bəyin evindən 28.340 rubl məbləğində əşya müsadirə olunmuşdur. Teymur bəyin günahı ondan ibarətdir ki, o, müsavata qulluq göstərib və bolşeviklərə qarşı döyüşdə fəal iştirak edib. Ona görə də inqilabi məhkəmə Azərbaycan Dəmir yolu idarəsinin rəisi keçmiş

müsavatçı olan Teymur bəy Məlik-Aslanova ən ağır cəza verərək, ona ölüm hökmü kəsir. Məhkəmənin qərarı qətidir, şikayət qəbul olunmur».

Qəzetin dörd gün sonra verdiyi bir xəbər isə general Cavad bəy Şıxlinskinin əmisi oğlu haqqındadır:

«23 iyun 1920-ci il.Hərbi Səhra Məhkəməsi Şərif Abdulla oğlu Şıxlinskinin komandir olduğu fəhlə-kəndli batalyonunda yoxlama aparmışdır. Məlum olub ki, Şərif Şıxlinski 22.600 rub. məbləğində pul və yeməyi mənimsəyib; O, bu pulları hara xərclədiyini söyləsə də inandırıcı olmadı. Müsavatçı olduğunu boynuna aldı. Nəslən bəy və burjua qalığı olan bu zərərli elementə ona görə də üç il həbs cəzası verilir».

Qarşımda arxivdən çıxarılmış, üz qabığı solmuş, qırx ildən də əvvəl Şıxlinskilərin bir qoluna qarşı tərtib edilmiş kiçik bir qovluq var. Bu işin içində 1949-cu il mayın on yeddisində Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin birinci şöbəsinin əməkdaşı mayor Siplis tərəfindən yazılmış və o vaxt üçün tamamilə məxfi sayılan bir arayış var. Həmin arayış Şıxlinskilərin əzab və əziyyətləri üçün əsas olmuşdur. Heç bir şeyə əsaslanmayan və sübuta yetməyən bu saxta sənədin tam mətni belədir. Türkiyədə siyasi mühacir Şıxlinski Qiyas bəy Cahandar bəy[1] oğlu 1895-ci ildə doğulmuşdur. Azərbaycan SSR Qazax rayonu Şıxlı kəndinin sakini, Qazax rayonunun keçmiş nüfuzlu bəyi Müsavat hökuməti zamanı Gəncədə pristav olmuşdur. 1930-cu ildə siyasi banda yaratmış (?) və Azərbaycanın bir sıra rayonlarında əməliyyatlar keçirmişdir. Sonra qardaşları və quldur dəstələri ilə (?) Türkiyəyə mühacirət etmişdir. Müsavat liderlərinin göstərişi ilə Türkiyənin SSRİ ilə həmsərhəd rayonlarında bizim əraziyə göndərilmək üçün quldur dəstələri təşkil etmişdir. Azərbaycan SSR-də gizli antisovet təşkilat yaratmaq məqsədilə həmin quldur dəstələrinin köməyi ilə emisarların göndərilməsi həyata keçirilmişdir. İstər özü, istərsə də Türkiyədə yaşayan yaxın qohumları müsavatçı dairələrlə sıx bağlıdır və SSRİ-yə qarşı təxribat işi aparırlar.

Bu, ağ yalan idi, çünki Şıxlinskilər Türkiyədə olarkən ancaq sovet rejiminə müxalifətdə idilər və öz xalqına qarşı təxribat aparmırdılar. Fransada və digər ölkələrdəki rus mühacirləri kimi bolşevizm diktaturası metodlarını ifşa etməkdə idilər.

Buna görə də Azərbaycan Demokratik Respublikasının süqutundan sonra bolşeviklərin təqibindən mühacirət etmək məcburiyyətində qalan müsavat partiyası liderlərinin xaricdə olması totalitar rejimə rahatlıq vermirdi. Qiyas bəy Şıxlinski qardaşları və yaxın qohumları ilə onların arasında idilər. Onları Azərbaycan xalqının gözündən salmaq məqsədilə rejim ifşaedici materiallar uydurur, onları «xalq düşməni» kimi göstərməyə çalışır, Azərbaycanda qalan qohumlarını isə ailəlikcə Qazaxıstanın soyuq çöllərinə, Sibirin və Uzaq Şərqin ucqar tayqasına

[1] Xalq yazıçısı İsmayıl Şıxlının «Dəli Kür» romanındakı Cahandar ağadır — müəl.

sürgün edirdi («Xalq qəzeti», K. Muradov «Amansızlıq» məqaləsi, 21 may 1993-cü il).

Bu faciələri oxuyanda istər-istəməz general Cavad bəy Şıxlinskinin Vətəni tərk edib İrana mühacirət etməsinə haqq qazandırırsan. İstilaçı XI orduya qarşı son gülləsinə qədər vuruşan, torpağını yadlardan qoruyan yüzlərlə mərd, igid oğlumuz qürbətdə Vətən, el-oba həsrətiylə dünyasını dəyişdi. Onlardan biri də milli ordu generalımız, Gəncə üsyanının başçısı Cavad bəy Məmmədağa oğlu Şıxlinski idi. O, 1959-cu ildə Türkiyədə vəfat etmişdir.

## QƏRİBƏ TALE

Qaş qaraldı, uzaqlar yavaş-yavaş görünməz oldu.

Axşam düşürdü. Örüşdən qayıdan mal-qaranın mələşməsi kəsildi. Yal gözləyən itlər zəncir gəmirir, dartınıb gah hirslə, gah da yazıq-yazıq zingildəşirdi. Yenicə doğmaqda olan Ay Kürün sularında yuyunurdu.

Salahlı obasına qərib bir axşam mehman olmuşdu. İbrahimin səbri tamam kəsilmişdi. Tez-tez torpaq dama girib-çıxır, dinclik tapa bilmirdi. Gözü o tayda qalmışdı. Pənah kişi isə görünmürdü. İbrahim bir neçə dəfə gəlib Pənah kişinin xalxalına baxıb məyus qayıtdı. Atasının dostu ilxıçı Pənah sözünə düz adam idi. Paşa ağanın ölümündən sonra ilxıçı bu dostluğu ailənin böyüyü İbrahimlə davam etdirirdi. «Nə oldu, Pənah əmi niyə gəlmədi, bəlkə...». Öz-özünə verdiyi suallar İbrahimin intizarını daha da artırırdı.

Şəmmətli meşəsinin bərabərində bir at kişnədi. Üstündəki adam ata acıqlandı. At şappıltı ilə suya girdi. Bir göz qırpımında payızın bulanıq sularını yarıb bu taya keçdi.

İbrahim sahildə atlı ilə üzbəüz gəldi. Qorxaq və zəif bir səslə:

—Pənah əmi, sənsənmi? — dedi.

İlxıçı duruxdu. Qəfil zərbə dəymiş adam kimi əl-ayaq aça bilmədi:

—Mənəm, oğul, — dedi, sən deyəsən lap doğrulamısan getməyi, hazırsanmı? Burda gözlə, evə dəyib gəlirəm. — Atını cığıra salıb, bir az aralandı. Birdən yarı yolda geri döndərib:

—Ayə, a İbi, — dedi, evə bir şey demisənmi?

—Deməmişəm, Pənah əmi, amma Yusifə bərk-bərk tapşırmışam ki, işdi gördün çox axtarırlar, anam çox ağlayıb sızlayır, onda deyərsən ki, dünən Qazaxda idim, eşitdim İbrahim Tiflisə oxumağa gedib.

—Onda get bala bərənin yanında gözlə, birdən buralara hərlənən olar, indi gəlirəm, bir az da orda fikirləş.

Pənah kişi itini mahmızladı.

İbrahim qamışlıqda xeyli gözlədi. O, Pənah kişinin «bir az da gözlə» deməyindən şübhələndi. «Yəqin anamdan qorxur, qarğış sahibi olmaq istəmir». Kür aşıb-daşanda gətirib sahilə çıxartdığı qarağac kötüyünün üstündə oturub, ağzı qaralan evlər arasından Pənah kişinin evini tapdı.

Gündüzlər ayaqyalın, başıaçıq oynadığı bu hay-küylü sahil gecə yuxusunda uyuyurdu. Səssizlik onun qulağını batırır, qorxusunu artırırdı. Sakit çay da elə bil gündüzün haray-həşirindən yuxuya getmişdi. Daş atmasan onun səsini eşitməzdin. Qamışlıq xışıldadı. İbrahim diksinib əlini yerə uzatdı. Nəsə qamışlığı yara-yara ona tərəf gəlirdi. Qaranlıqda iki göz od kimi yanırdı. İbrahim «a kafir» — deyib, qorxa-qorxa daş atdı. Çaqqal sivişib qamışlıqda yox oldu. «Yaxşı ki, dovşan deyil, nənəm deyərdi çaqqal yola uğurludu».

İbrahim yenidən Pənah kişinin evini axtarıb tapdı. İlxıçının qara damının qapısı cırıltı ilə açıldı. Əvvəl Pənah kişi, sonra da əli xurcunlu arvadı çıxdı.

—A kişi, uşaqlara tuman-köynək almağı unutma.

—Rəhmətliyin qızı, mən at satmağa gedirəm, yoxsa tuman-köynək almağa, — Pənah kişi arvada hirsləndi. — Axşama kimi kor Baqrat tuman-köynək satır, ondan alsan belin qırılarmı?

—Onda son atanın goru, bir az mampası al, — arvad yalvardı, — uşaqlar neçə gündü sevincək olublar ki, dədəmiz şəhərdən mampas alacaq.

Pənah kişi könülsüz:

—Yaxşı, yaxşı, — deyib, xurcunu atın belinə aşırdı. Atı yedəkləyib xalxaldan çıxartdı. İbrahimin yanına qədər ata minmədi. Qamışlığın arxasına çəkib atın sağrısını, boynunu sığalladı, oxşadı.

—Əlimdən möhkəm tut, indi atıl min.

İbrahim bir göz qırpımında ata sıçradı.

—Geri otur, — Pənah kişinin səsində arvadla danışdığı əsəbilik qalmışdı. O, birdən fikrini dəyişib: - Yox, yox, a İbi, qabağa otur, bu üzülmüş xamdı, birdən çayın ortasında hürküb eləyər yıxar səni. Yalmanından bərk tut, çətini çayı keçənə kimidi.

—İlxıçı «ya allah» deyib ata mindi. Xam at çayın dərin-dayaz yerinə baxmayıb suyu yarır, fınxıra-fınxıra o taya tələsirdi.

Sahilin o tayı başdan-başa meşə idi. Şəmkirdən başlayan qədim Qarayazı meşəsi Kürün sahili boyunca yaşıl kəmər kimi Gürcüstan sərhədlərinə doğru uzanırdı. Çayın sağ sahilindəki Salahlı, Şıxlı obalarının dolanacağı da bu meşə idi. Əhali otu, odunu buradan aparır, mal-qarasını burada otarırdı. Pənah kişi də burada ilxı saxlayırdı. Hər ilin payızında beş-altı dilbozu Tiflisə aparıb dolanacaq edirdi.

O taya çıxan kimi at tanış cığırda yerişini artırdı. Meşə bir az seyrələndə duruxub kişnədi və birdən götürüldü. Pənah kişi atın başını çəkdi:

—Əyə, üzülmüşün boynunu sığalla, gecə vaxtı nə hay-küy salır.

İbrahim atın yalmanını sığallaya-sığallaya:

—Pənah əmi, — dedi, — bu nə dəli atdı, bunnan heç oğurluğa-zada getmək olmaz.

—Təzə tutmuşam, a bala, hələ yaxşı öyrəşməyib. Sən niyə bu gecə vaxtı tərs atın üstündə tərs söz danışdın. Allaha şükür, nəsil-nəcabətində oğurluq eləyən də yoxdur. Oğurluq haradan ağlına gəldi?

İbrahim nə ağ dindi, nə də qara.

—A İbi, sən Mirzənin evini tanıyırsanmı?

Kişi İbrahimin yaralı yerinə toxundu. Odur ki, kefsiz-kefsiz:

—Yox, — dedi.

—Əyə, bə nə təhər gedib çıxacaqsan? Heç şəhərdə olubsanmı?

—Ötən yay Mirzə kəndə gələndə bir kağız yazıb verdi. Ünvanı da var orda.

—A bala, səndən qorxuram, gedib o dinsizlərin içində itib eləyərsən, mən qanda qalaram. Sonra anan Tükəzbanın əlindən qurtara bilmərəm.

—Qorxma, Pənah əmi, məndən sonra evdə anamın on balası var. Hürkütməsə saya bilmir. Mən heç yada düşməyəcəyəm.

—Elə demə, a bala, ana ürəyidir, yoxluğundan əsim-əsim əsəcək. Bir də nə var o şəhərdə, bilmirəm, qaçıb gedirsən ora. Gərək qalıb kənddə işləyəydin, evin də böyüyü sən idin, anana da kömək olardın.

—Yox, Pənah əmi, gedib oxuyub bir sənət qazanacam adam olacam.

Burada, kəndimizdə Molla Mustafanın məktəbi səni adam olmağa qoymur? Oxu molla ol, ya da Abbasağa kimi özünən şer quraşdır. Elə o da molla kimi bir şeydi.

—Şairlik mollalıq döyül, Pənah əmi, Abbasağa kişi şairdir.

—Niyə o boyda Vidadiyə, Vaqifə mollalıq yaraşdı, Abbasağaya yaraşmadı?

—Pənah əmi, Vidadiynən Vaqif sən deyən o Mustafa kimi molla döyül ey. O vaxtlar babalarımız onlara savadlarına görə molla deyiblər.

—Yaxşı, bunlar bir yana qalsın, sən gedib şəhərdə nə olacaqsan, nə oxuyacaqsan? — Pənah kişi hirslə soruşdu. İbrahimin canına qorxu düşdü ki, birdən cavabımdan razı qalmasa bu dəli Pənah məni qaytarar ha... Özünü ələ alıb:

—Mən başqa şey oxuyacam, voyenni olacam.

—O nə sözdü əyə, olmaya əfsər olacaqsan? İbrahim qorxa-qorxa:

—Hə, — dedi.

—Dilini bilirsənmi? Urusun deyirəm.

—Mampassatan Baqratdan bir-iki söz öyrənmişəm, qalanını da orda öyrənəcəm.

—Ay öyrəndin ha, axşama kimi gürcü çobanlarıynan bir yerdəyəm. Qoqodan, bicodan artıq kəlmə bilənin dədəsi tünbətün olsun. Dil öyrənmək su içmək döyül, oğul.

İbrahim istədi desin ki, sənin savadın, fərasətin yoxdu, mən neyləyim. Qorxdu ki, dəli Pənah elə buradaca onu dəli atından düşürər, qalar dizinə döyə-döyə.

Meşə yolu qurtardı. Onlar sonu görünməyən Ceyrançöl düzünə çıxanda Ay Avey dağının bərabərində idi. Çöl bulud arxasına girib-çıxan Aydan gah nurlanır, gah da qaralırdı. Xeyli uzaqda otlayan ilxı qəbir daşları kimi qaralırdı. Onların mindiyi at ilxını görəndə bir neçə dəfə kişnədi. Atların bir neçəsi başını qaldırıb

fınxırdı. Birdən yaxındakı kolun dibindən bir adam qalxdı. Vahimələnən İbrahim atın yalmanından yapışdı. Pənah kişi bunu dərhal hiss edib:

—Qorxma, — dedi. Mənim ilxıçı yoldaşımdı, bunu gördüyünü heç yerdə danışma ha, yazıq bir gürcüdü, xozeyinini öldürüb qaçıb. Mənə pənah gətirib. Godo kəndində bir dəmirçi dostum var, onun qardaşı oğludu. Zalım oğlu qorxu nə olan şeydi bilmir. Deynən get qəbiristanda yat, yatacaq, eymənmək-zad yoxdur. Bunda urusca qəzet də var. Gündə çıxardıb oxuyur. Məni günortadan gözləyir...

—Qatso, o kimdi, sənnən gələn?

—Paşa ağanın oğludu, İbidi, bu da şəhərə gedir.

—Xeyir ola, bu uşağın Tiflisdə nə işi var?

Nə bilim, Nikolaz, — deyir gedib oxuyub, voyennidi, əfsərdi, nədi ondan olacam.

Nikolaz qayğılı-qayğılı:

—Qatso, dəlisən-nəsən, — dedi, — xalqın uşağını aparıb itirərsən.

—Niyə itir, on dörd yaşında cavan da şəhərdə itərmi?

***

İbrahim həmkəndlisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin Şeytanbazar yanındakı evini asanlıqla tapa bildi. Çünki o vaxtlar Tiflisdə çoxlu azərbaycanlı yaşayırdı. Mirzə Hüseyn Əfəndi də çox hörmətli və məşhur şəxs idi.

O, Tiflisdə rus-tatar məktəbində şərq dilləri müəllimi, Zaqafqaziya müftisi vəzifələrində işlədiyindən böyük nüfuza malik olm həyata keçməsinə şərait yaratmağı Mirzə Hüseyn Əfəndi ən nəcib, ən şərə uşdu. Oxumaq istəyən kasıb balalarına kömək əli uzatmağı, onların bu işıqlı arzularının fli vəzifə hesab edirdi.

Müftinin həyat yoldaşı Səadət xanım İbrahimi görəndə gözlərinə inanmadı. Bu gözəl və nəcib qadın heyrətdən, təəccübdən az qala qışqıracaqdı. O, İbrahimi bağrına basıb doğma balası kimi öpdü, oxşadı. Kəndi, qohumları soruşdu. Atası Paşa ağanın vaxtsız ölümünə heyfsləndi. İbrahimin oxumaq dalınca gəlməsini eşidəndə ona elə bil dünyanı bağışladılar.

- Səadət xanım, — Hüseyn Əfəndi ağır-ağır soruşdu: — İbrahimin haraya qəbul olunmaq istədiyindən xəbərin varmı?

Xeyr!

—Ot kökü üstə bitər. Praporşik Paşa ağanın oğlu hərbi qulluqçu olmaq istəyir.

—Hə! — qadın xeyli duruxdu, — demək mənim kəndimin, Salahlının ilk savadlı hərbi qulluqçusu olacaqsan, çox yaxşı, çox gözəl, oğul, — Səadət xanım onu yenidən qucaqladı.

—Kadet korpusunda yer yoxdur, bir az gec gəlib, bu gün sentyabrın altısıdır. Amma Hüseyn əmisi onu məyus qaytarmaz. — Mirzə ipək kimi yumşaq və dumağ saqqalını sığallayıb ani olaraq susdu:

Bəxtindən üçüncü Mejevoy hərbi gimnaziyasında bir yer var. Bu məktəbin direktorunun mənimlə dostluğunu bilirsən. O, İbrahimi himayəsinə götürər. Mənə

belə gəlir ki, burda İbrahim üçün çətin olmayacaq. Direktor milliyyətcə Kazan tatarıdır. Bizim dilə yaxşı bələddir. Ona həm rus dilini öyrədər, həm də təhsil verər.

***

...Xalqımızın yetirdiyi elə şəxsiyyətlər var ki, onların adına ancaq müxtəlif mənbələrdə, arxiv sənədlərində rast gəlmək olar. Yaşadığı dövrdə, illərdə bunların fəaliyyəti geniş işıqlandırılsa da, zaman keçdikcə onlar məlum səbəbdən unudulub. Xalqımız üçün gördükləri əvəzsiz işlər ört-basdır edilib. Totalitar rejimin «müsavat generalı» damğası vurduğu onlarca belə qeyrətli sərkərdəmiz yaddaşlardan qeyb olub. Böyüməkdə olan gənc nəslin demək olar ki, bu ara-sıra adı çəkilən şəxsiyyətlərdən xəbəri yoxdur. Halbuki, onların keçdiyi mübariz həyat yolu bu gün bizim üçün böyük məktəbdir.

Topoqraf-general İbrahim ağa Paşa ağa oğlu Vəkilov da belə unudulmuş şəxsiyyətlərdən biridir.

1853-cü il mayın 7-də keçmiş Yelizavetpol quberniyasının Qazax qəzasının Qıraq Salahlı kəndində anadan olan İbrahim ağa Vəkilov on bir yaşında atadan yetim qalmışdı. Atası Paşa ağa 1864-cü ildə vəfat edib. On nəfərlik ailəni güc-bəla ilə saxlayan anası Tükəzban xanım Yusif ağa qızı ailənin dördüncü oğlu İbrahimi Tiflisə at satmağa gedən həmkəndlilərinə qoşub oxumağa göndərmişdi.

Azərbaycan Dövlət Tarix Muzeyinin elmi arxivində saxlanılan 56 nömrəli qovluqda İbrahim ağa Vəkilovun 1866-cı il sentyabrın 6-da Tiflisdəki üçüncü Mejavoy hərbi gimnaziyasına daxil olduğu göstərilir. Orta məktəb həcmində təhsil verən bu məktəbdə doqquz il oxuduqdan sonra həmyerlisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin məsləhətilə İbrahim Peterburqdakı hərbi topoqrafiya məktəbinə daxil olur.

1879-cu ildə İbrahim ağa Vəkilov həmin məktəbi müvəffəqiyyətlə bitirib, praporşik rütbəsi alır. Qulluq üçün Tiflisə göndərilən gənc zabit bir müddət Qafqaz hərbi dairəsinin topoqrafiya qərargahı şöbəsində çalışır.

Xidmətinin ilk illərində Dağıstanda topoqrafik çəkilişlərlə məşğul olan İbrahim ağa Vəkilov 1883-cü ildə Rus—İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edir. Belə bir ciddi iş vaxtından əvvəl, iki ilə müvəffəqiyyətlə yerinə yetirildiyinə görə, İbrahim ağa Vəkilovun xidməti İran hökumətinin ən yüksək «Şire—Xorşid» ordeninə layiq görülür. Beş il Qafqaz hərbi dairəsinin topoqrafiya şöbəsinə rəhbərlik edən İbrahim ağa Qafqazın və Krımın müxtəlif rayonlarında topoqrafik çəkilişlərlə məşğul olur. 1891-ci ildə Türkiyəyə ezam olunan İbrahim ağa Vəkilov dörd il rus səfirliyində yaşayaraq xüsusi tapşırığı yerinə yetirir. Mayor rütbəsində yenidən Qafqaz hərbi dairəsində mühüm işlər icraçısı işləyir.

1901-ci ildən şöbə rəisi podpolkovnik İbrahim ağa Vəkilov Qars vilayətinin Rus—Türk sərhədlərində topoqrafik çəkilişə rəhbərlik edir.

1912—13-cü illərdə Rus—İran hökumətinin danışıqlarına əsasən polkovnik İ. Vəkilov Cənubi Azərbaycanın Təbriz, Urmiya və Xoy şəhərlərində keçirilən topoqrafik çəkilişlərə də başçılıq etmişdir. Birinci dünya müharibəsi illərində döyüşən ordu qərargahında fəaliyyət göstərən polkovnik İbrahim ağa Vəkilov 1917-ci il inqilabından sonra Tiflisə qayıtmışdır. Onun xidmətləri Stanislav, Anna və dördüncü dərəcəli Vladimir ordenlərinə layiq görülmüşdür.

İbrahim ağa Vəkilov Qafqazda hərbi topoqrafiya üzrə general-mayor adına layiq görülmüş yeganə şəxsiyyətdir.

Bir müddət Tiflisdə Zaqafqaziya Federasiyasında və Zaqafqaziya Xeyriyyə Cəmiyyətinin sədri vəzifəsində çalışan İbrahim ağa sonralar Bakıda və Gəncədə fəaliyyət göstərmişdir.

***

1918-ci ildə o, Azərbaycan Milli Ordusunun təşkilində fəal çalışanlardan olmuşdur. Bundan əvvəl Azərbaycan hökuməti onu Qazax qəzasına kənd və şəhər sovetlərinin seçkilərinə rəhbərlik etməyə göndərmişdi. Vəkilovun nüfuzu yeni yaranan Azərbaycan Demokratik Cumhuriyyətinin bəlkə də zənginləşməsinə güclü təkan verdi.

1918-ci il iyunun 23-də Respublika Daxili İşlər nazirinin əmrilə polkovnik İbrahim ağa Vəkilov Gəncənin qubernatoru təyin olunur. Goran mahalına və ayrı-ayrı kəndlərdə sığınacaq tapmış daşnak tör-töküntülərinə divan tutan qubernator onları tərksilah etmişdi. Onun daxili işlər nazirinə göndərdiyi 1919-cu il 23 mart tarixli məlumatında bildirilirdi ki, Gəncə qəzasında daşnak irticasının və xarici müdaxiləçilərin törətdiyi fitnə-fəsadlar aşkar edilmişdir. Yerli bolşeviklərlə birləşən ermənilər müsəlmanlar arasında qırğın törətmək istərkən yaxalanmışlar. Onların başçısı qolçomaq Cümşüd Voskanov həbs edilmişdir.

1919-cu ilin martında Novruz bayramı münasibətilə milli ordunun paradı keçirilmişdir. Respublika hərbiyyə naziri Səməd bəy Mehmandarov və bir qrup parlament üzvü parad-nümayişdə iştirak etmək üçün Gəncəyə gəlmişdilər. Gəncə qarnizonundakı səliqə-sahmana və nümunəvi qayda-qanuna görə hərbiyyə naziri qubernator İbrahim ağa Vəkilova səmimi təşəkkürünü bildirmişdi.

Azərbaycan hökumətinin 1919-cu il 30 mart tarixli qərarı ilə uzun illər ordudakı nümunəvi xidmətinə görə İbrahim ağa Paşa ağa oğlu Vəkilova general-mayor rütbəsi verilmişdi.

Ay yarım sonra (1919-cu il martın 14-də) general İbrahim ağa Vəkilov hökumətin 248 nömrəli əmri ilə Baş Qərargahda hərbi topoqrafiya şöbəsinin rəisi təyin olunmuşdur. O, rusların aprel işğalına qədər bu vəzifədə qeyrət və vicdanla çalışmışdır.

1919-cu ilin dekabr ayında ilk hərbi bayrağımızın təsdiq olunması haqqında Baş Qərargah İdarəsi qərar verdi. Bayrağın yaradıcısı hərbi topoqrafiya şöbəsinin rəisi general-mayor İbrahim ağa Vəkilov idi. İpək sapla işlənmiş bayrağın bir üzündə əski əlifba ilə Azərbaycan, o biri üzündə isə Müqəddəs Qurandan:

«Allahdan kömək və qələbə yaxındadır» surəsi yazılmışdı. Baş Qərargah İdarəsinin verdiyi beş yüz altmış bir saylı qərarda göstərilir ki, süvari, piyada alaylarında, əlahiddə tabor və hərbi məktəblər üçün vahid formada bayrağın yaradıldığı elan olunur.

Hələ əsrin əvvəllərində Tiflis ədəbi mühitində yaxından iştirak edən İbrahim ağa Vəkilov böyük dramaturqumuz Cəlil Məmmədquluzadə ilə yaxından dostlaşmışdı. Hər iki dost xalqımızın nicatı üçün birgə çalışırdı. Bu fakta Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın «Mirzə Cəlil haqqında xatirələrim» kitabında da rast gəlmək olar. Həmidə xanım yazır ki, 1907-ci ildə Qarabağda çəyirtkə və aclıq gözlənilirdi... Tiflis Xeyriyyə Cəmiyyətinin sədri İbrahim ağa Vəkilov, katibi Mirzə Cəlil bizim rayonun qaldığı çıxılmaz vəziyyətdən xəbər tutduqda zərərdidələrə paylamaq üçün poçt ilə mənim adıma altı yüz manat pul göndərmişdilər.

Polkovnik İbrahim ağa Vəkilov 1906-cı ilin yanvarın səkkizində Qafqaz kənd təsərrüfatı cəmiyyətinin zalında Müsəlman Xeyriyyə Cəmiyyətinin ilk sədri seçilir. Azərbaycanın qabaqcıl ziyalıları polkovnik İbrahim ağa Vəkilovu səsə qoyulmadan xeyriyyə cəmiyyətinin idarə heyətinə sədr təyin etdilər.

Cəmiyyətin katibi Cəlil Məmmədquluzadə, üzvlüyə namizədlər isə Səməd ağa Qayıbov, Osmanbəy Müftizadə, Rəşidbəy İsmayılov, İmadəddin Sübhanqulov, Kamal Əfəndi Ünsizadə Məmmədhəsən İmanov, Adil-Girey Daidbəyov, Əbdürrəhman bəy Əfəndiyev və başqaları seçildilər.

Bizdə Mirzə Cəlillə general İbrahim ağa Vəkilovun birgə fəaliyyətini təsdiq edən daha bir etibarlı sənəd var. O da 1909-cu il martın 22-də çap olunan «Molla Nəsrəddin» jurnalının on ikinci sayındadır. Həmin sayda İbrahim ağa haqda iki dostluq şarjı verilmişdir. Birinci şarjda küçədə İbrahim ağaya rast gələn ziyalı müsəlmanların hamısı ona baş əyir, xoş təbəssümlə ona təzim edirlər. Hamı onun Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyəti açmaq təşəbbüsünü bəyənir, ətrafına toplaşıb şirin-şirin söhbət edirlər. Onlar deyirlər ki, sən Xeyriyyə Cəmiyyətini təşkil et, biz sənə maddi cəhətdən kömək göstərəcəyik.

İzof Rotterin məharətlə çəkdiyi bu şəklin altında belə yazılıb: «İbrahim ağa Vəkilov Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri seçilməmişdən əvvəl».

İkinci şarjda isə İbrahim ağa küçənin ortasında tək dayanıb. Ondan baş götürüb qaçan ziyalı müsəlmanlara baxıb, acı-acı gülümsəyərək «bunlara nə oldu» — deyir. Bu «ziyalı» müsəlmanların kimisi qaçır, kimisi də gizlincə tindən, dalandan qorxa-qorxa İbrahim ağaya baxır. Hərbi formalı İbrahim ağa küçədə dayanıb, əlləri açıq şəkildə matdım-matdım baxır. Şəklin altında oxuyuruq: «Xeyriyyə Cəmiyyətinin sədri seçiləndən sonra».

Əsrin əvvəllərində İbrahim ağa bir topoqraf kimi çox məşhur olub.

1902-ci ildə Tiflisdə nəşr olunmuş «Rus imperatorluğunun çoğrafi birliyinin Qafqaz şöbəsi xəbərləri» kitabının (XV cild) 258-ci səhifəsindəki xəbər eloğlumuzun fəaliyyəti barədə xoş təsəvvür yaradır: «Podpolkovnik İbrahim ağa

Vəkilovun rəhbərlik etdiyi dördüncü bölmə Qars qalası rayonunun yarım verstlik məsafədən çəkilişini davam etdirmək tapşırığını almışdı. İndiyə kimi çəkiliş şöbə tərəfindən əla aparılmışdı. Podpolkovnik İ. Vəkilovun coğrafi çəkiliş şöbəsində kollej assesoru Baqdanov, podyesaul Borisenko, podporuçik Bekleşov və üç torpaq ölçən iştirak etmişdir.

1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifi və respublikamızda topoqrafiya məktəbinin yaradıcısı da general-mayor İbrahim ağa Vəkilov olmuşdur.

1922-ci il dekabrın 3-də Xalq Komissarlığının və Hərbi Dəniz Donanmasının əmrində oxuyuruq:

«Hərbi topoqrafiya şöbəsinin rəisi İbrahim ağa Vəkilov yoldaş hərbi topoqrafiya kurslarının təşkili və rəhbərliyi sayəsində misilsiz xidmətlərinə, eləcə də yeni topoqrafların yetişdirilməsinə səmimi və vicdanla yanaşmasına görə, topoqrafçıların birinci buraxılışının təntənəsi günü, ümumi iclasın qərarlarına əsasən hərbi topoqrafiya kurslarının fəxri kursantı seçilmişdir.

Hərbi Dəniz Donanmasının Xalq komissarı

Qərargah rəisi»

Yeni gələn şura hökuməti onu «müsavat generalı» kimi gözümçıxdıya salsa da İbrahim ağa hərbi-elmi, pedaqoji fəaliyyətini dayandırmamışdır. Ehtiyac içində yaşayan general, ömrünün son günlərində hökumətə yazdığı ərizəsində bildirirdi: «Dulam. Bir çarpayıdan, bir mizdən və bir arakəsmədən savayı heç nəyim yoxdur. Oğlumun darısqal evinin kiçik bir küncündə yaşayıram...».

Onun çox böyük topoqraf təcrübəsi inqilabdan sonra yalnız milli diviziyalarda deyil, həm də Respublika Xalq Torpaq Komissarlığı Topoqrafiya-Geodeziya İdarəsinin rəisi vəzifəsində, Azərbaycanın Qədim Dövr İncəsənət Abidələrini və Təbiəti Mühafizə Komitəsində işləyəndə karına gəlmişdi.

General İbrahim ağa Vəkilovun zəngin arxivi ilə tanış olduqca, şəkil və sənədlərdə fədakar, vicdanlı, xalqını, millətini sevən bir insanın dolğun obrazını açıq-aydın görmək olur.

İstər hərbi topoqrafiya, istərsə də tariximizin ayrı-ayrı ziddiyyətli, mürəkkəb dövrünü öyrənmək üçün generalın məqalələri kifayət qədər material verir. Onun Azərbaycan Dövlət Tarix Muzeyinin arxivində mühafizə olunan əlyazmasında Sovet dövründəki məqalə və məruzələri qeydə alınıb. Əlbəttə, bu, general İbrahim ağa Vəkilovun nə inqilabdan əvvəlki, nə də 1918—20-ci illərdə Milli Azərbaycan ordusundakı misilsiz xidmətidir. Bu, hətta onun sovetlər dövründəki elmi-tədqiqi xidmətinin də tam əksi deyil. Hələlik aşkar etdiyimiz bunlardır:

1) Hərbi idarə üzrə 3 dekabr 1922-ci il 373a nömrəli əmrin surəti, 4-cü təsdiq edir ki, mən doğrudan da topoqrafiya kurslarının fəxri kursantı seçilmişdim.

2) Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Mərkəzi İcraiyyə Komitəsinə 8 may 1929-cu il 2406 nömrəli məlumatını hazırlamışam.

3) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 23/XI—1922-ci il tarixli jurnal qərarının çıxarışını yazmışam.

4) Azərbaycan Hərbi Komissarlığının 8 may 1923-cü il tarixli 1347 nömrəli vəsiqəsini tərtib etmişəm.

5) Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1 aprel 1922-ci il tarixli qətnaməsinin çıxarışını yazmışam.

6) Köçərilər haqqında məqaləm «Azərbaycanı Tədqiq Edən və Öyrənən Cəmiyyətin Xəbərləri» jurnalının 3-cü nömrəsində dərc edilib.

7) «Yeni kənd» jurnalında Ağamalıoğlu adına Torpaq Ölçmə Texnikumunun yaradıcısı kimi mənim foto şəklim verilib.

8) T. Q. Sultanovun «Naxçıvan Diyarı və onun iqtisadiyyatı» kitabı mənim tərtib etdiyim xəritə ilə birlikdə nəşr olunub.

9) a) Azərbaycanın, b) Bütün Qafqazın, v) Avropanın, q) Asiyanın, d) Amerikanın (Şimali və Cənubi), i) Türk xalqlarının Asiya və Avropada məskunlaşmasının xəritələrini tərtib etmişəm.

**Alim sözü**

General İbrahim ağa Vəkilovun sərkərdəlik fəaliyyətindən başqa ayrı-ayrı sahələrdə də xalqımız qarşısında xidmətləri çox olmuşdur. Azərbaycan Respublikasının siyasi və təbii xəritəsinin ilk tərtibçisi də İbrahim ağadır.

Görəsən bu dəyərli xəritənin taleyi necə olmuşdur? Nə az, nə də çox yetmiş ildən artıq bu milli xəritə xalqımızdan gizlədilmiş, sovet dövründə ondan istifadə olunmamışdır. Yaddaşlardan qeyb olunan xəritənin yeganə nüsxəsini qeyrətli alim, coğrafiya elmləri namizədi, dosent Malik Mirzəyev qoruyub, bu günümüzə qədər saxlaya bilmişdir.

Malik müəllim, general İbrahim ağa Vəkilovun xəritəsi hansı keyfiyyətlərinə görə sovet xəritələrindən fərqlənir?

—Generalın tərtib etdiyi «Azərbaycan Respublikasının siyasi və təbii xəritəsi» kartoqrafik bir əsərdir. O, məşhur dünya alimlərinin və kartoqraflarının tərtib etdikləri xəritələrlə müqayisədə nəinki onlardan geri qalır, hətta onlardan çox-çox üstündür. Adətən xəritə tərtibçiləri bir sahəni (relyef, siyasi, iqtisadi, fiziki və s ) əks etdirməklə kifayətlənirlər. Bir xəritədə iki sahəni birləşdirmək ideyası ilk dəfə general İbrahim ağa Vəkilova müyəssər olmuşdur. O, bir xəritədə həm siyasi, həm də təbii məkanları birləşdirmiş və nəticədə dərin məzmunlu, zəngin təfsilatlı, asan oxuna bilən original kartoqrafik əsər yaratmışdır.

Xəritənin təhlilindən aydın olur ki, müəllif onu tərtib etmək üçün gərgin elmi axtarışlar aparmış, topoqrafiya, toponimika, tarix, onamastika, eləcə də coğrafiya elmlərinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Xəritə qırmızı rəng çaları ilə işlənmiş, ay-ulduz nişanlı bayrağımızla çap olunmuşdur. Onun üçün 1:420000 miqyası seçilmişdir. O dövr üçün hər yerdə — ölkədə ondan asanlıqla istifadə etmək üçün ingilislərin işlətdiyi miqyasın da (verst) verilməsi onun praktiki

əhəmiyyətini xeyli artırmışdır. Xəritədə verilən marşrut işarələrinin yığcamlığı xüsusi əhəmiyyət kəsb edir. Bunların sayı indiki xəritələrlə müqayisədə xeyli azdır. İnşa olunmuş, inşa olunan, ensiz dəmir yolları, araba, şosse yolları və axan çay aydın nəzərə çarpan şəkildə çəkilmişdir. Onun təhlili göstərir ki, müəllif topoqrafiyanı əla bildiyindən iri yaşayış məntəqələri ətrafında, ayrı-ayrı sahələrdə bağları, şorluqları, bataqlıqları da göstərmişdir, Xüsusilə, Xocavənd, Lənbəran, Kvartaboyəhmədli ərazilərində bağlıq sahələr daha çox qeyd olunmuşdur.

—Malik müəllim, bəs, təbii yer adları necə işlənmişdir? Onlar rus xəritə və mənbələrindəki kimi dəyişdirilmiş, yoxsa türkcəsi saxlanılmışdır?

—General İbrahim ağanın xəritəsinin ən böyük dəyəri yer adlarının türkcə işlənməsidir. Məsələn, Kür-Araz ovalığında Muğan bozqırı, Mil bozqırı, Şirvan bozqırı kimi adlar saxlanmışdır. Təbii coğrafi yer adları isə indikilərdən az fərqlənir. Məsələn: Dəli Məhəmmədli.

Xəritədən kifayət qədər maraqlı məlumatlar almaq olar. Xüsusilə, tarixi adların verilməsi onun dəyərini daha da artırır (Qarabulaq, Əbdəllər, Gorusu, Tərtər, İrəvan, Tiflis). Salyan və Sabirabad ərazilərində bir çox qalaların adları (Mahmud qala, Cavad qala, Şin qala, Əbül qala) tarixi məna kəsb edir. Xəritədə Arazdan ayrılan bir qolun, Yeni Arazın çəkilməsinin göstərilməsi də elmi cəhətdən çox maraqlıdır. Xəzər dənizi boyu — Dərbənddən Astaraya qədər çoxlu burunların və vətəgələrin hamısı türk—Azərbaycan adı ilə göstərilmişdir. Müəllifin silsiləni sıralar, aşırımı aşma, çölü bozqır, kəndi göy kimi yazması da dilçilik baxımından çox maraqlıdır.

Son illər erməni millətçiləri bir çox coğrafi adları əsassız olaraq dəyişdirmiş və təhrif etmişlər. Həmin başabəla «tədqiqatçılara» İ. Vəkilovun xəritəsi tutarlı cavabdır. Oxçu, Ağstafa, Alagöl, Qaragöl, Bazarçay və s. müqəddəs türk mənşəli adlar bunlara əyani misaldır. Xəritədə coğrafi adların düzgün verilməsi (oronimlər, hidronimlər, oykenillər) hazırda böyük elmi əhəmiyyətə malikdir. Saxtakar erməni tədqiqatçılarını ifşa etmək üçün bu xəritə tutarlı mənbə hesab oluna bilər.

İbrahim ağa Vəkilovun xəritəsi onun əlimizdə olan yeganə kartoqrafik əsəridir. Xəritənin tarixçi, dilçi, coğrafiyaçı alimlər və siyasətçilərin dərindən təhlilinə ehtiyacı var. İndiki dövrdə bəzi mübahisəli məsələlərin (ad, sərhəd) aydınlaşdırılmasında ondan istifadə etmək vacibdir. Xəritədə göstərilmiş, indi isə unudulmuş türk mənşəli adların bərpa olunmasında bu xəritənin çox böyük rolu ola bilər.

Azərbaycan Respublikasının qonşu dövlətlərlə sərhəd ərazilərinin xəritədə göstərilməsi (xüsusən Ermənistan, Dağıstan) müəllifin Qafqazı yaxından tanımasından irəli gəlir.

İbrahim ağa Vəkilovun «Azərbaycan Respublikasının siyasi və təbii xəritəsi» adlı məzmunlu kartoqrafik əsəri qəza sərhədlərini (siyasi vəziyyəti) çox əyani göstərən bir xəritədir.

İstedadlı topoqrafik-xəritəçi İbrahim ağa Vəkilovun bu xəritəsinin üzərində kiçik əl gəzdirməklə yenidən çap olunması vacibdir. Mənə belə gəlir ki, İ. Vəkilovun hələ əlimizə gəlib çatmayan çoxlu əsərləri müxtəlif arxivlərdə yatıb qalır, öz tədqiqatçısını gözləyir.

Azərbaycan Respublikasının müstəqillik yolunda atdığı addımlar bizi unutdurulmuş məşhurlarımızla daha yaxından tanış olmağa, onların əsərlərinin toplanıb çap olunmasınaköməklik göstərəcəkdir.

İbrahim ağa Vəkilovun topoqrafiya və kartoqrafiya sahəsində apardığı işlər onun həmvətənlərinə layiqincə çatdırılmalıdır. Bunun üçün gənclərə Vətən təəssübkeşliyi, milli hiss, keçmişimizə qayğı kimi keyfiyyətlər aşılanmalıdır.

Təəssüf ki, belə bir görkəmli alim-general haqqında Azərbaycan ensiklopediyasında bir sətir belə yoxdur. Bilikli sərkərdə İbrahim ağa Vəkilov buna layiq şəxsiyyət idi.

## Ailənin bəxt ulduzu

Arxiv sənədlərində general İbrahim ağa Vəkilovun hərbi topoqrafiya sahəsində qeyrət və vicdanla çalışmasına aid maraqlı sənədlər, rəylər vardır.

Daha bir şəhadətnamə diqqətimi cəlb edir. O, 1928-ci il iyulun 30-da Azərbaycan SSR Xalq İctimai təminat komissarı Muxtar Hacıyev tərəfindən verilib:

«Bununla təsdiq edirəm ki, hərbi topoqraf İbrahim ağa Vəkilov, mən Azərbaycan MİK-nin sədri olarkən, bir neçə dəfə müxtəlif komissiyalara üzv seçilib, eləcə də Azərbaycanın və Ermənistan respublikalarının sərhəddi təyin ediləndə və ümumiyyətlə, Azərbaycan MİK yanında müxtəlif işlərdə iştirak etmişdir. Yoldaş Vəkilov ixtisasını qəlbən sevir, üzərinə düşən vəzifəni vicdanla, ləyaqətlə və səliqəli yerinə yetirirdi».

1933-cü il noyabrın 29-da, qocaman generala Azərbaycan SSR Xalq Komissarlığı fərdi pensiya kəsmişdir.

Ömrünün çoxunu Tiflisdə yaşayan və işləyən İ. Vəkilov 1884-cü ildə rus qızı Yelena Yefimovna Yermolayeva ilə ailə həyatı qurmuşdur. Bir-birini sevərək xoşbəxt ailə quran gənclərin qarşısında imperator III Aleksandrın ədalətsiz qanunu onları çıxılmaz vəziyyətdə qoymuşdu. Çarın qanununda deyilirdi ki, müsəlmanın rus qızına evlənməyi qəti qadağan olunur. Əks təqdirdə müsəlman oğlanı rus qızına evlənərsə, o, mütləq öz islam dinindən çıxıb, xristianlığı qəbul etməlidir. Əgər o, xristianlığı qəbul etmirsə, valideynlik hüququndan məhrum olunur. Vəziyyətdən çıxış yolu axtaran İbrahim ağa Vəkilov imperator III Aleksandrın müqəddəs sinoduna, yəni ruhanilər məclisinin oberkuryerinə—məşhur Pobedonsevə müraciət etməli olur. O xahiş edir ki, xristian dinini qəbul etməyi ona məcbur etməsinlər və kəbinini qanuniləşdirsinlər. Çarın sadiq nökəri Pobedonosev qəti etirazını bildirir, hətta onun üzərinə hücum edib təqsirləndirərək deyir ki, siz rus qızı ilə kəbin

kəsdirməyi heç xəyalınıza belə gətirməyin. Biz sizdən uşaqları belə alacağıq, sizin onlara atalıq etməyə hüququnuz yoxdur.

Nəhayət, 1891-ci ildə bu gənc ailənin bəxt ulduzu doğdu. Tale sanki özü onların xoşbəxtliyini himayəyə götürdü. Həmin il kapitan İbrahim ağa Vəkilov çarın xüsusi əmri ilə ən yaxşı topoqrafiya mütəxəssisi kimi Türkiyəyə ezam olundu.

İki il sonra 1893-cü ildə İbrahim ağa ilə Yelenaya Bolqarıstanlı keşiş Georgi Misarov qanuni kəbin kəsdi. Bu vaxt ər otuz doqquz, arvad isə otuz iki yaşında idi. Artıq onun ailəsi də böyümüşdü: ailənin böyük oğlu Faris bəyin yeddi, kiçik oğlu Qalib bəyin isə altı yaşı vardı.

General İbrahim ağa Vəkilov böyük şairimiz Səməd Vurğunun əmisi oğludur. Şairin qardaşı Mehdixan Vəkilov «Mənim qardaşım» xatirə povestində yazır:

«Səməd Vurğunun general İbrahim ağa ilə axırıncı söhbəti (general İ. Vəkilov 2 iyun 1934-cü ildə vəfat edib — Ş. N.) onun arvadı Yelena Yefimovanın L. N. Tolstoya öz oğlanlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə məsləhət istəməsi haqqında göndərdiyi məktub və aldığı cavab ətrafında olmuşdur».

## Lev Tolstoya məktub

Aradan altı il keçdi. Ancaq nə İbrahim ağanın ata ürəyi sakit olur, nə də Yelena Yefimovanın ana qəlbi narahat döyüntüsünü kəsirdi. Onların intizarının əsas səbəbi oğlanlarının hansı dinə qulluq etmələri idi. Tale onlara üçüncü bir övlad da bəxş etmişdi. Rənanın artıq on üç yaşı vardı. Hara getməli, kimdən ağıllı bir məsləhət almalı? Nə rəsmi dövlət idarələri, nə də din xadimləri çıxılmaz vəziyyətdə qalan ailəyə bu barədə kömək edə bilirdilər.

Generalın Peterburq Texnologiya İnstitutunda təhsil alan böyük oğlu Borisi, Moskvadakı Alekseyev hərbi məktəbində oxuyan Qlebi də bir sual düşündürürdü: Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz müdhiş sual qarşısında qalan hər iki qardaş tez-tez ana-ataya müraciət edirdilər.

Faris Vəkilovun söhbətindən:

- Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904—05-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bəd niyyətli rus-yapon müharibəsi, xalq kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə «Din azadlığı haqqında manifest» nəşr olundu. Orada hər hansı bir səbəbdən ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dininin müdafiəçilərinin bilavasitə

yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçməsini bir qədər ləngitməli olduq.

Ata—İbrahim ağa Vəkilov və ana—Yelena Yefimovna belə qərara gəldilər ki, müdrik yazıçı Lev Tolstoydan başqa heç kəs bu ciddi ailə məsələsinə ağıllı cavab verə bilməz. Ona görə də 1909-cu il martın 2-də Tiflisdən Yelena Vəkilova yazırdı:

«Bizim dərin istəkli müəllimimiz

Lev Nikolayeviç!

Öz məktubumla sizi narahat etdiyimə görə, sizin qarşınızda üzürxahlıq üçün söz tapa bilmirəm. Bilirəm ki, mənim kimi sizdən məsləhət almaq istəyənlər çoxdur, bütün bunlara baxmayaraq mən də sizə müraciət edirəm. Çünki həyat mənim qarşımda gücüm çatmaz bir məsələ qoymuşdur.

Mən çalışacağam ki, istədiyimi qısaca izah edim. Mənim əlli yaşım var, üç uşaq anasıyam, ərim müsəlmandır, ancaq kəbinimiz qanunidir. Uşaqlarımız Pravoslav (xristian) dininə etiqad edirlər. Qızım on üç yaşındadır. Oğlanlarımdan birinin 23 yaşı var, o, Peterburq Texnologiya İnstitutunun tələbəsidir. O birinin 22 yaşı var. Moskvadakı Alekseyev Hərbi Məktəbinin yunkeridir. Bax, bu oğullarım atalarının dini etiqadına, daha doğrusu, müsəlmanlığa keçmək üçün məndən icazə istəyirlər. Mən nə etməliyəm? Mən bilirəm ki, indi bu mümkündür və həmçinin bizdə yaşayan yadellilərə pis münasibəti də bilirəm. Onlarda bu fikrin oyanmasına səbəb xırda həyati məsələlər deyil: nə maddi təminat, nə də mənsəbpərəstlik onları bu işə təhrik edir. Ancaq qaranlıqda qalan tatar (Azərbaycan — Ş. N.) xalqına kömək etmək məqsədini güdürlər. Xalqla qovuşmağa, xalqa yanaşmağa din onlara mane olur. Amma mən qorxuram ki, bu dar düşüncəli məsləhətimlə onları pis məqsədə təhrik edəm. Mən öz dərdlərimlə tənhayam. Ah, əgər mən öz əzablarımı və mübarizəmi yaza bilsəydim... Mən öz övladlarını dəlicəsinə sevən bir ananın göz yaşları ilə yazıram. Budur, əzabdan ağlımı itirmiş halda sizdən məsləhət almaq qərarına gəldim. Siz, yalnız Siz öz ağlınızla həyatımızın hazırkı şəraitində bunun nə ilə nəticələnəcəyini duya bilərsiniz. Sizə mənim dərdim kiçik və xırda görünə bilər. Ancaq bu, mənə dəhşətli əzablar verir.

Lev Nikolayeviç, siz bizə, biz balaca adamlara heç vaxt ürəkdən gələn dəyərli məsləhətlərinizi əsirgəməmisiniz. Bunu bildiyim üçün cəsarət edib sizi öz xahişimlə narahat etdim. Məni təsəlli oduna atın.

Çox-çox üzr istəyirəm ki, sizin qiymətli vaxtınızı aldım. Bu addımı atmağa məni məcbur edən dəlicəsinə analıq sevgisidir.

**Bütün qəlblə Sizə sadiq olan**
**Yelena Yefimovna Vəkilova.**
***Tiflis şəhəri,***

*Uçebnıy pereulok, ev 8.*

1909-cu il martın on beşində Yasnaya Polyanadan göndərdiyi cavab məktubunda dahi sənətkar yazırdı:

Yelena Yefimovna (Vəkilova)

Sizin oğullarınızın tatar xalqının maariflənməsinə kömək etmək arzusunu təqdir etməyə bilmərəm. Belə olduğu halda Məhəmmədin dinini qəbul etməyin nə dərəcədə lazım olduğunu da deyə bilmərəm. Ümumiyyətlə, sizə deməliyəm ki, hökuməti etiraf etmədən, adamın hansı dinə mənsub olması barədə kimə olursa-olsun, məlumat verməsini artıq hesab edirəm. Elə buna görə də Sizin oğullarınızın Məhəmməd dinini pravoslavdan üstün tutaraq qəbul etmələri, yəni bir dindən başqa bir dinə keçmələri barədə kiməsə məlumat vermələri gərək deyildir. Bəlkə bu zəruridir, lakin mən bu haqda bir şey deyə bilmərəm, ona görə də Sizin övladlarınız bu haqda lazımi hökumət orqanlarına xəbər verib-verməmələri barədə özləri qərar qəbul etməlidirlər.

Müsəlmançılığın pravoslavlıq qarşısındakı üstünlüyünə və xüsusilə Sizin övladlarınızın xidmət etdikləri məqsədin alicənablığına gəlincə, bu hərəkətə bütün qəlbimlə rəğbət bəsləyirəm.

Xristan idealı və təlimini onun həqiqi mənasında hər şeydən üstün tutan bir adam üçün bunu demək nə qədər qəribə olsa da deməliyəm ki, müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavlığından müqayisəolunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur. Belə ki, əgər bir kəsin qarşısında kilsə pravoslavlığına, yoxsa ki, islam dininə sitayiş etmək yollarından hansını seçmək məsələsi qoyularsa, onda hər bir ağıllı adam, mürəkkəb və anlaşılmaz ilahiyyatın — üç sifətli allahın, günahın bağışlanması mərasiminin, dini ayinlərin, İsanın anasına yalvarışının, müqəddəslər və onların şəkillərinə saysız-hesabsız ibadətlərin əvəzinə, bir ehkamlı vahid Allahı və peyğəmbəri olan islam dinini, şübhəsiz ki, üstün tutar. Bu, başqa cür ola da bilməz, çünki xristian təliminin mahiyyətini qaranlıqlaşdıran və kilsəyə daxil olan bir çox mövhumi mərasimlərin olmaması baxımından və xristianlıqdan 600 il sonra meydana çıxması baxımından müsəlmançılıq xristianlıqdan üstün durmaya bilməz. Ayrı-ayrı fərdlərin, bütün insanlığın və bütün insanların həyatının əsasını təşkil edən dini şüurun təkmilləşdiyi kimi, həyatda hər şey inkişaf edir və təkmilləşir. Dinin təkmilləşməsi isə onun sadələşməsindən, aydınlaşmasından və onu müəmmalı edən hər şeydən azad olmasından ibarətdir. Dini həqiqətin onu əmmalı edən hər vasitədən azad edilməsi ən qədim zamanlardan bəri, bütün böyük dinlərin əsasını qoyan bəşər mütəfəkkirləri tərəfindən həyata keçirilmişdir. Beləliklə, bizə məlum olan bütün dinlərin hamısından əvvəl belə yüksək uca din anlayışı Vedının (Hindistanda) kitablarında, sonralar Moiseyin, Buddanın, Konfutsiyanın, Lao-Tsenin, Xristanın və Məhəmmədin təlimlərində verilmişdir. Dini onun köhnə, kobud mənasından azad edib, daha dərin: sadə və ağıllı həqiqətlərlə əvəz edən bütün bu təzə din xadimləri böyük adamlar olublar, lakin məhz böyük adam

olduqlarındandır ki, həqiqəti olduğu kimi, bütün aydınlığı, dərinliyi və saflığı ilə keçmiş yanlış fikirlərindən azad şəkildə ifadə edə bilməyiblər. Bu adamların səhv edə bilməyəcəkləri, onların bütün dediklərinin təkzibolunmaz əsl həqiqət olduğu güman edilsə də, onların özlərindən çox-çox aşağıda duran şagirdləri həqiqəti bütün dərinliyi ilə dərk etmədən, təbiidir ki, onu daha dəbdəbəli və hamı üçün mütləq etmək arzusu ilə ona çoxlu lazımsız əlavələr, ələlxüsus əcaib ünsürlər daxil etdiklərindən, əksəriyyət üçün həqiqəti vacibliyi ilə görmək çətin olur. Həqiqətin din tərəfindən belə təhrifi nə qədər çox etiraf edilmişdirsə, bu təhriflər o qədər də çox artmış, nəticədə din xadimləri tərəfindən kəşf olunmuş əsl həqiqət qaranlıqlaşmışdır. Elə buna görə də ən qədim dinlərdə həqiqəti gizləyən möcüzə və mövhumatlar hər şeydən çoxdur: bu, ən çox, ən qədim dində, oramin dinində, ondan az yəhudi dinində, ondan da az budda, konfuksiya, taosist dinlərində, daha az xristian dinində, nəhayət, lap az və axırıncı böyük din olan islam dinindədir. Odur ki, müsəlmanlıq bu baxımdan ən əlverişli şəraitdədir.

İslam dini onda xarici, qeyri-təbii nə varsa, hamısını atsa və öz bünövrəsinə Məhəmmədin dini — mənəvi təliminin əsaslarını qoysa, təbiidir ki, bütün böyük dinlərin əsasları, ələlxüsus, həqiqəti etiraf edən xristian təliminin əsasları ilə birləşər. Sizə belə uzun-uzadı ona görə yazıram ki, siz mənim fikirlərimi oğullarınıza çatdıracaqsınız və bu fikirlər onların gözəl məramlarının həyata keçməsinə yaraya bilərlər. Dinin mahiyyətini təşkil edən böyük həqiqətlərin onu qaranlıqlaşdıran hər şeydən təmizlənməsinə təsir etmək insan fəaliyyətinin ən yaxşı növlərindən biridir. Əgər sizin övladlarınız bu fəaliyyəti həyat məqsədləri hesab etsələr, onda onların həyatı dolu və tam faydalı olacaq.

Bilmirəm, müsəlmançılıqda mənə məlum olan, ali əsas həqiqətləri gizlədən yanlış fikirlərdən və möhvumatdan azad edilməsinə xidmət edən iki təlim sizə və sizin övladlarınıza məlumdur, ya yox. Buna görə, hər iki təlim təqibə məruz qalıb, indi də məruz qalır. Bu təlimlərdən biri İranda yaranmış, sonra Türkiyəyə keçmiş və orada da təqibə məruz qalan babistlər təlimi indiki Akkedə yaşayan Baqo-Ullanın oğlunda səfərbər olub.

Ancaq bütün insanlıq üçün vahid olan məhəbbət dinini qəbul edən bu təlim, ibadətin heç bir xarici formasını qəbul etmir. İkinci təlim Kazanda meydana çıxıb. Onun tərəfdarları özlərini banilərinin adıyla, Allah alayı və yaxud da Vaisovçular adlandırırlar. Bu adamlar da inamın mahiyyətini məhəbbətdə görürlər və məhəbbətə zidd gedən bütün tədbirlərdən kənarda qalırlar. Bu sekta da təqib olunur və bu günlərdə onun rəhbərləri tutulub həbsxanaya salınıblar.

Əgər mənim məsləhətlərim heç olmasa bir şeyə yarasalar, siz və yaxud da sizin oğullarınız özlərinin sonrakı fəaliyyətləri haqqında qərarlarını mənə bildirsələr, çox şad olaram.

**Lev Tolstoy.**

Görünür, böyük Tolstoyu ananın məktubu bərk həyəcanlandırıb. Bunu dörd səhifəlik və demək olar ki, təcili yazılan cavab məktubundan da hiss etmək olur.

Tolstoyun «müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavlığından müqayisəolunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur» cümləsi onların ailə intizarına son qoydu. Məktub ailədə hökm kimi oxunub qanun kimi qəbul olundu.

Lev Tolstoyun məktubundan sonra Tiflisdəki Zaqafqaziya ruhani idarəsi general-mayor İbrahim ağa Vəkilovun övladlarını müsəlmanlığa qəbul etmiş və bu barədə Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadənin imzası ilə rəsmi sənəd verilmişdir. Uşaqların adını da dəyişdirmişlər: Boris Faris olmuş, Qleb isə Qalib kimi rəsmiləşmişdir.

Lev Tolstoyun Yelena Yefimovna Vəkilovaya yazdığı məktubun əslini oğlu Faris 1978-ci ildə Moskvadakı Lev Tolstoy adına muzeyə vermişdir. Surəti isə bu sətirlərin müəllifindədir.

Dahi Tolstoy müsəlman dininə etiqadını təkcə bu məktubla izhar etməmişdir. Onun çoxminli qələm və qəlb dostları Tolstoyun İslam dininə, Məhəmməd peyğəmbərin şəxsiyyətinə ülvi məhəbbəti barədə yazır, söhbət açırlar. Tolstoyun özünün birbaşa etirafı isə ilk dəfə möhtərəm oxuculara təqdim etdiyimiz aşağıdakı söhbətində aydınlığı ilə görünür.

Milliyətcə slovak olan P. Makovitski altı il Lev Tolstoyun həkimi və katibi olmuşdur. O, yazıçının gündəlik söhbətlərindən, ona gələn məktubların məzmunundan və çoxsaylı qonaqların Tolstoyu ziyarət etməsi barədə «1904-1910-cu illərdə Tolstoyun yanında» adlı monumental bir əsər yazmışdır.

1979-cu ildə həmin dörd cildlik «Yasnopolyana qeydləri» adı ilə Moskvada ilk dəfə nəşr olundu. Kitabın üçüncü cildinin üç yüz əlli altıncı səhifəsində Tolstoyun ailəvi söhbəti verilib. Oxucu orada dahi yazıçının general İbrahim ağa Vəkilovun həyat yoldaşından aldığı məktuba qayğısının və İslam dinini qəlbən sevməsinin bir daha şahidi olur.

Duşan Petroviç Makovitski yazır:

«1909-cu il martın 13-də Lev Nikolayeviç söhbət zamanı dedi: bir anadan məktub almışam, yazır ki, uşaqlarımın atası müsəlmandır, özüm isə xristianam. İki oğlum var: biri tələbədir, o biri zabit. Hər ikisi də müsəlman dininə keçmək istəyir.

Sofya Andreyevna: — Yəqin ki, oğlanları müsəlman dininə çoxarvadlı olmaq xatirinə keçmək istəyir.

Lev Nikolayeviç: — Nə olar ki... Məgər bizdə çoxarvadlılar azdır?

Sonra Lev Nikolayeviç dedi ki, bu məktub haqqında fikirləşərkən mənim üçün çox şey aydınlaşdı. Məhəmməd həmişə Yevangelini üstələyir. O, İsanı Allah hesab etmir və özünü də Allaha bərabər tutmur. Müsəlmanların Allahdan başqa Allahı yoxdur və Məhəmməd onun peyğəmbəridir. Burada heç bir müəmma və sirr yoxdur. Hansı yaxşıdır, xristianlıq, yoxsa müsəlmançılıq? Mənim üçün aydındır ki, müsəlman dini daha yaxşıdır, daha üstündür. Qısa müddət susduqdan sonra Lev Nikolayeviç təkrar etdi: — Müsəlmançılıq müqayisə olunmaz dərəcədə xristianlıqdan üstündür. Müsəlmançılıq mənə çox kömək etmişdir.

Mixail Vasilyeviç: — Zaporojyeli nekrasovçular[1] müsəlman dininə keçmişlər.

Lev Nikolayeviç: — İnsan inkişaf etdikcə dinin əsasları da: taosizm, buddizm, xristianlıq da inkişaf edir. Bunların da hamısının dini əsasları birdir. Zaman keçdikcə bu da birliyə və sadəliyə gətirib çıxardır».

## Gecikmiş cavab

Düz səksən iki il keçəndən sonra «Literaturnaya qazeta» yeddi nömrəli dosyesində (1991-ci il) general İbrahim ağa Vəkilovun ailə məktubu haqqında məlumat verdi. Dosye islam dininin bütün doğmalarını özündə birləşdirən dahi kitab — Qurana həsr olunmuşdu. Bu təşəbbüs İslam dininin əsasları barədə çoxminli rus oxucularına açıq, mübaliğəsiz məlumat vermək üçün gözəl bir başlanğıc idi. Yazıçı Lev Tolstoyun Yelena Vəkilovaya yazdığı məktubdan hissələr dərc edən qəzet həm də sorğu verərək yazırdı: təəssüf edirik ki, Vəkilovanın şəxsiyyəti haqqında heç bir məlumatımız yoxdur.

Azərbaycanda bu sorğuya cavab verən bircə adam tapıldı. O da generalın yeganə nəvəsi, professor Leyla Qalib qızı Vəkilova idi. Cavabından bu məsələni dəqiq açıqlayan Leyla xanım yazır:

«Əhvalat belə olmuşdu: Qızlıq famili Yermolayeva olan Yelena Yefimovna hərbi-zadəgan ailəsində doğulmuşdur. Tiflisdə zabit toplanışlarının birində o, gənc zabit İbrahim ağa Paşa ağa oğlu Vəkilovla görüşüb tanış olur.

Bizim Vəkilovlar nəsli Azərbaycanın qəza şəhəri Qazaxdandırlar. Zadəgan silkinə məxsus olan nəslimiz rəsmi olaraq üç yüz əlli ildən çoxdur ki, davam edir. Bizim nəsl öz xalqına, vətəninə bir çox görkəmli hərbçi, alim, yazıçı və sair bəxş etmişdir ki, onların arasında müasir Azərbaycan ədəbiyyatının korifeyi, şair Səməd Vurğunun adını çəkməmək olmaz.

İki gənc — Yelena Yefimovna və İbrahim ağa Paşa ağa oğlu bir-birini sevirlər. Lakin onların birgə səadətlərinə din ayrılığı mane olurdu. Azərbaycanlı İ. Vəkilov islam, Y. Yermolayevna isə pravoslav dininə məxsus idi. Rusiya imperiyasının o vaxtkı qanunlarına görə kəbin kəsdirmək üçün ikisindən biri öz dinindən imtina etməli idi. Ancaq onların heç biri tərbiyə olunduqları dini ehkamlara qarşı çıxa bilmir. Belə olduğu halda mənim babam İbrahim ağa Vəkilov imperatora müraciət edir. Əlahəzrətdən xahiş edir ki, onların dinlərini dəyişdirmədən kəbin kəsdirmələrinə icazə versin. Uzun çəkişmələrdən sonra bu icazə verildi. Lakin Rusiya imperiyasının qanunlarına görə belə kəbindən sonra dünyaya gələn uşaqlar pravoslav dinində tərbiyə almalı idilər.

[1] 1708-ci ildə Bulavin üsyanı yatırıldıqdan sonra ataman İqnat Nekrasovun rəhbərliyi ilə Türkiyəyə keçən Don kazakları— müəl.

Beləliklə, Yelena Yefimovna hər üç uşağını — qızı Rənanı, oğlanları Boris və Qlebi xaç suyuna salır. Lakin atalarının, dost və qohumlarının təsiri ilə uşaqlar islam dininə daha çox meyl və rəğbət göstərirlər. Analarını çox sevən hər üç uşaq böyüyəndə ondan xahiş edir ki, onların müsəlman dininə keçmələrinə razılıq versin.

Məhz bu səbəbə görə də mənim nənəm onu üzən «nə etməli?» sualı ilə «xristian dininin vicdanı» sayılan yazıçı Lev Tolstoya müraciət etməyə məcbur olur.

Lev Tolstoy dörd səhifəlik geniş məktubla nənəmə cavab yazır. Həmin məktubdan bəzi parçaları siz qəzetinizin yeddinci nömrəsində — dosyedə dərc etmisiniz.

Tolstoyun məktubundan sonra Yelena Yefimovnanın və İbrahim ağa Paşa ağa oğlunun uşaqlarının üçü də müsəlman dinini qəbul edir. Oğlanları adlarını belə dəyişirlər; Boris — Faris bəy, Qleb isə Qalib bəy olur.

Yelena Yefimovna bütün həyatını sadiq ərinə və sevimli uşaqlarına sərf etmişdir. Hərbi vəzifəsinə görə ərinin hara göndərilməsindən asılı olmayaraq (babam qərargah generalı rütbəsinə qədər yüksəlmişdi) nənəm həmişə onu müşayiət etmişdir. O, çox savadlı qadın imiş, bir neçə dil bilirmiş, ədəbi-bədii tərcümələrlə məşğul olmuş, maraqlı xatirələr yazmışdır. Nənəm 1923-cü ildə Tiflisdə vəfat etmişdir.

Mənim babam və onun hər iki oğlu öz xalqına, Vətəni Azərbaycana böyük inam və sadiqliklə qulluq etmişlər. Xüsusilə, 1918—20-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulmasında onların əvəzsiz xidmətləri olmuşdur.

Babam İbrahim ağa hərbi topoqraf idi. O, İran, Türkiyə və Zaqafqaziyanın xəritəsini yaratmışdı. Azərbaycanın ictimai həyatında görkəmli yer tuturdu. Azərbaycanda Demokratik Respublika olduğu zaman, o, Gəncənin general-qubernatoru idi. Türk, İran və Rusiya ordenləri ilə təltif olunmuşdu.

Atam Qalib İbrahim ağa oğlu Vəkilovun hərbi-texniki təhsili vardır. Birinci dünya savaşında iştirak etmişdi. Hərbi xidmətlərinə görə bir sıra ordenlərlə, o cümlədən müqəddəs Georgi xaçı ilə təltif olunmuşdu.

Əmim Faris İbrahim ağa oğlu isə ixtiralarına görə bir sıra patent qazanmış istedadlı mühəndis idi. Təəssüf ki, bizim ailəmiz də siyasi təzyiqlərdən kənarda qalmadı.

1931-ci ildə atam birinci dəfə həbs olundu, sonra səhhətinə görə həbsdən azad edildi 1937-ci ildə onu ikinci dəfə həbs etdilər və günahsız olmasına baxmayaraq, keçmiş çar və musavat zabiti kimi güllələdilər...

Əmim isə on səkkiz il Karaqanda, Maqadan və Sibir sürgünü çəkmişdi. Atamdan xatirə olaraq məndə yalnız onun (ölümündən sonra) bəraət alması haqqında olan arayışlar qalmışdır.

Sizin dosyenin səhifəsində adını çəkdiyiniz Y. Y. Vəkilovanın ailəsi haqqında mənim demək istədiyim bunlar idi.

Hə, bir neçə kəlmə də özüm haqqında demək istəyirəm. Mən — Leyla Qalib qızı Vəkilova — pedaqoji elmlər doktoru, M. F. Axundov adına rus dili və ədəbiyyatı Azərbaycan Pedaqoji İnstitutunun professoru, Azərbaycanın ali və orta məktəbləri üçün rus dili üzrə bir sıra dərsliklərin müəllifiyəm. Bütün şüurlu həyatımı gənclərin tərbiyəsinə və təhsilinə sərf etmişəm.

## Uzun ömrün səhifələri

Məni çox kefsiz və bir az da könülsüz qarşıladı.

Əvvəlcə başa düşə bilmədim, bu etinasızlıq mənim gəlişimə görədir, yoxsa qoca xəstəhaldır. Elə-belə, nəzakət xatirinə «keçin, əyləşin» — dedi. Tənha yaşayan bu qocanın tərtəmiz geyimindən, ev şəraitindən hiss etmək olurdu ki, çox səliqəli adamdır.

Qoca əvvəl eynəyini çıxartdı, sonra da dizinin üstündəki kitabı qatlayıb kənara qoydu. İri şkafın enli siyirtməsini çəkib dərindən nəfəs ala-ala, qara məxməri parçaya bükülmüş bağlamanı açdı. Balaca bir şəkil tapıb işığa tərəf tutdu. İri ala gözlərini geniş açıb «budur, — dedi, — atam, buyur, bax!». «Atam» — deyəndə səsi qırıldı. Qəribə, təsvirolunmaz bir kövrəklik bu qocanın bütün varlığını titrətdi. Udqunub üzünü yana döndərdi.

Mən şəkli alıb baxdım. Bu, cavan, çox yaraşıqlı bir zabitin ötən əsrdə çəkilmiş şəkli idi.

—Faris baba, — dedim, — bəs sənədləri? Təkcə bu şəkillə nə eləmək olar? Mümkünsə sənədləri də tapın, birgə baxaq, elə burdaca... Heç yerə aparmayacağam.

O, könülsüz geri döndü, ağır addımlarla yenidən şkafa yaxınlaşdı. Xeyli əlləşdi. Bayaq oxuduğu kitabı o küncdən bu küncə qoyur, dəftəri açıb baxır, arasından heç nə tapa bilməyib əsəbiləşirdi...

Səbrim tükənmişdi, onun əhvalı mənə də təsir etmişdi. Nəhayət, şkafın tək gözündən götürdüyü qalın bir qovluğu mənə verib titrək, kövrək səslə soruşdu:

—Cavan oğlan, sənin nəyinə lazımdı mənim atamın sənədləri?

—Faris baba, atanız xalqımızın hərbi-topoqrafiya tarixində yeganə general olub. İstəyirəm qəzetdə, jurnalda onun barəsində bir yazı ilə çıxış edim, qoy bugünki gənclik xalqımızın belə bir şöhrətli generalı olduğunu bilsin.

—Mənim atam çoxdan unudulub, — deyə incik halda əlini yellədi. Ani fasilədən sonra əlavə etdi: — Bəlkə, elə, belə yaxşıdı. Musavat generalı kimin nəyinə lazımdır?.. — İndi başa düşdüm ki, qoca məni nəyə görə könülsüz qarşıladı. — Bir vaxt özüm çox çalışdım ki, üzə çıxsın, generallar arasında onun da adı çəkilsin. O da Azərbaycan üçün, xalqı üçün can qoyub, cəbhələrdə vuruşub, gecəsi-gündüzü topoqrafiya çəkilişlərində keçib.

Hələ 1883-cü ildə rus—İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edib. Belə bir ciddi işi vaxtından əvvəl yerinə yetirən atamın xidməti İran hökumətinin ən yüksək

«Şire—Xorşid» ordeninə layiq görülüb. O, Krımın, Dağıstanın və bütün Qafqazın topoqrafik xəritəsini tərtib edib. 1892-ci ildə Türkiyəyə ezam olunan atam Qars vilayətinin rus-türk sərhədlərində topoqrafiya işlərinə rəhbərlik edib. Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya və başqa şəhərlərinin də topoqrafik çəkilişinə atam rəhbərlik edib. Hər gələn bir sənədini, şəklini istədi, elə o gedən oldu.— Kövrəlib davam etdi—mən də ki, belə, gördüyün kimi, qocaldım, əldən düşdüm. sənəd, şəkil aparanların da ünvanını, telefonunu itirdim. O insafsızlar da, nə atam haqqında yazdılar, nə də şəklini qaytardılar.

—Mən burda baxacam, heç nəyi heç yerə aparan deyiləm. Qeydlərimi də burda eləyəcəm...

—Yaxşı, onda aç qovluğu, söhbət eləyək. Əvvəla de görüm atamın sorağını sənə kim verib? — Zənlə üzümə baxıb soruşdu.

—Bir marşalın «Mənim xatirələrim» adlı yeni kitabı çıxıb. Orda atanız polkovnik İbrahim ağa Vəkilovun Sərdarabad, Baş Abaran əməliyyatındakı fəaliyyətindən geniş məlumat verilir. Qərargah rəisi polkovnik İbrahim ağa Vəkilovun hərbi döyüşlərdə məharətini marşal bütün ordu heyətinə nümunə göstərir.

Üz-gözündən gördüm ki, bu fakt onu hədsiz dərəcədə sevindirdi. Məndən qabaq əl uzadıb qovluğu özü açdı.

...1978-ci ilin yazında Faris İbrahim ağa oğlu Vəkilovla tanışlığım belə oldu. Həmin il atası haqqında «Azərbaycan» jurnalında çıxış etdikdən sonra yenidən onun görüşünə getdim.

Faris baba jurnalı aldı, yazını o üz-bu üzə vərəqlədi. Divanda yanaşı əyləşdik.

—Oxu, — dedi, — görüm nə yazmısan?

Yarıya çatmamış sərlövhəsini bir də soruşdu.

—«Qəribə tale», — dedim və dönüb ona baxdım. Onun ağıllı, iri gözlərində yaş damcıları görüb dayandım.

—Daha oxuma, özüm oxuyacam, — deyib, buz kimi əlilə biləyimdən yapışdı, — atamı yad etdiyiniz üçün hamınıza minnətdaram...

Yol boyu bu tənha qocanı düşünürdüm. «Mənim bu uzun ömrümün qarası ağından çox olub». Bu sözlər onun dilindən elə-belə çıxmamışdı. Sonralar onun həyat tarixçəsi ilə yaxından tanış olanda heyrətə gəldim ki, bütün bu əziyyətlərə necə dözüb? Qəribə burasıdır ki, həmişə başı qovğalarda olan, çox əziyyətlər çəkən bu insanın yaddaşı zərrəcə zəifləməmişdi.

Faris Vəkilov nə az, nə çox, ömrünün on səkkiz ilini doğma Azərbaycandan uzaqda, sürgündə əzab-əziyyətlə keçirmişdi. Neçə inqilabın, neçə müharibənin sınaqlarından uğurla çıxmışdı. Çünki amalı düz, əqidəsi pak olmuşdu. Harda, hansı şəraitdə olmasına baxmayaraq, qəlbində bir çırağın işığı yanmışdı. Onun da adı Azərbaycan idi. Bu pak amalla o, 1918—20-ci illərdə Azərbaycanın Gürcüstanda

diplomatik nümayəndəsi olmuşdur. Lakin 1942-ci ilin sərt küləyi onun üzünü elə qarsımışdı ki, qapısını elə bərk çırpmışdı ki, o, hələ də özünə gələ bilmirdi.

Birinci Dünya müharibəsi başlananda Texnologiya İnstitutunun beşinci kurs tələbəsi Faris Vəkilov Petroqradın Putilov zavodundakı top emalatxanasının müdafiəsinə səfərbər olunur. Gənc mühəndisin bu zavoddakı yaxşı fəaliyyəti onu pillə-pillə ucaldır. 1916-cı ildə yaxşı xasiyyətnamə ilə Petroqraddakı məşhur «Feniks» zavoduna baş mühəndis təyin olunur. Bir il sonra oktyabr tufanları zamanı bu səhmdar idarə öz fəaliyyətini dayandırır. Faris Tiflisə — ailəsinin yanına qayıdır. O, bolşevik Əliheydər Qarayevlə birgə ictimai-siyasi işlə məşğul olur. Onlar Peterburqda fəaliyyət göstərən «Azərbaycan həmyerliləri cəmiyyəti»ndə tanış olmuşdular.

Azərbaycanda inqilabın qələbəsindən az sonra ixtisasını təkmilləşdirmək üçün Parisdəki «Reno» zavoduna ezam olunur.

«…1926-cı ildə Əliheydər Qarayevdən bir teleqram aldım. O yazırdı ki, dağılıb uçurulmuş sənayemizi bərpa etmək üçün sənin də köməyinə ehtiyacımız var, qayıt gəl. Mən dərhal Bakıya qayıtdım. Əliheydər Qarayev məni mənzillə təmin edib, leytenant Şmidt zavoduna işə göndərdi».

...Axşam qonşusu qadın mənə zəng eləyib dedi ki, Faris baba sabah sizi görmək istəyir. Mümkünsə ona baş çəkin.

İşdən bir az tez çıxıb onun yanına gəldim. Biz neçə ilin dostu, hətta deyərdim, qohum kimi görüşdük.

—İndi mənim sənə işim düşüb, — dedi. — Xəbərin varmı, atamın dayısı oğlu İbrahim ağa Usubov da general olub. Ondan da yazmaq lazımdır.

Həmin günü mənə çoxlu şəkil, sənəd göstərdi. Səxavət əli açılan Faris babanın mənə hədiyyə verdiyi şəklin biri 1901-ci ildə Qarsda çəkilib. Burda atası İbrahim ağa Vəkilov topoqrafiya çəkilişi zamanı təsvir olunub. Hər iki şəklin orijinalı indi də məndədir. Anası Yelena Yefimovna Vəkilovanın 1909-cu il martın 2-də böyük rus yazıçısı Lev Tolstoydan öz övladlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə yazdığı məktubdan söhbət açdı.

Faris baba bu məktubun fotosurətini və öz əli ilə rus dilində yazdığı xatirələrini avtoqrafla mənə verdi.

—Oğul, — dedi, — mənim ömrüm qurtarır, səninki isə başlayır, qoy bunlar səndə qalsın. Amma mən tənha qocaya tez-tez baş çək, sənə lazım olan çoxlu materiallar verərəm...

Bu dəfə söhbətimizin əsas mövzusu Faris babanın əmisi İbrahim ağa Usubov oldu. General-mayor İbrahim ağa Usubov 1872-ci ildə Qazax qəzasının Qıraq Salahlı kəndində dünyaya gəlib. Sənədlərdən öyrənirəm ki, generalın atası Musa ağa da rus ordusunun zabiti olub. İran şahzadəsi Abbas Mirzənin qoşunları 1826-cı ildə Azərbaycana hücum edəndə atası Musa ağa və əmisi Süleyman ağa Usubovlar Qazax süvari dəstəsində mərdliklə vuruşmuşlar. Sonralar Polşa

müharibəsindəki nümunəvi xidmətinə görə Musa ağa ştabs-kapitan rütbəsinə qədər yüksəlmişdir.

Faris baba sənədlərindən birini açır, titrək barmağını üstündə gəzdirə-gəzdirə:

—Fikir ver, əmim də Əliağa Şıxlinski və atam kimi Tiflisdəki kadet korpusunu bitirib, özü də əla qiymətlərlə, — deyir, — 1890-cı ildə Xarkov piyada hərbiyyə məktəbinə daxil olur. Həmin məktəbi də əla qiymətlərlə bitirib ştabs-kapitan rütbəsində əsrimizin əvvəllərində başlayan rus-yapon müharibəsində iştirak edir. Port-Artur döyüşlərində mərdliklə vuruşan əmim «Müqəddəs Georgi» ordeninin dördüncü dərəcəsiylə və bir neçə medalla təltif olunur. Podpolkovnik rütbəsi alır.

Həmyerliləri, artilleriya generalları Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovla çiyin-çiyinə vuruşan podpolkovnik İbrahim ağa Usubov rus-yapon müharibəsində az şücaət göstərmir.

Port-Artur döyüşlərindən sonra yenidən Xarkov şəhərində hərbi xidmətə başlayır. 1910-cu ildə İbrahim ağa Usubov Tiflisdə yaşayan qohumu, Zaqafqaziya müftisi Mirzə Hüseyn Əfəndi Qayıbzadənin kiçik qızı Gövhər xanımla ailə həyatı qurur.

Müsahibimdən soruşuram:

—Generalın oğlu, qızı necə, qalırmı?

—Bu saat hamısını deyəcəyəm, — Faris baba yenidən əl-ayağa düşür. Köhnə cib dəftərçələrinin birini götürüb, o birini qoyur, — İki adamla görüş, söhbət elə. Əmim qızı Nigar Usubova və generalın qardaşı qızı Gövhər Usubova ilə.

Elə həmin günü Mirzə Şəfi küçəsinin altı nömrəli mənzilində yaşayan Gövhər xanıma baş çəkdim. General-mayor əmisinin adını eşidən kimi səksən yaşlı qadının da gözlərində, sifətində qəribə bir işıq yandı. Sonra o işıq qəfildən də çəkildi və yerində təəccüb qaldı: «Nə əcəb? Hardan yada düşüb?».

Gövhər ana əlini dizlərinə vurub yana-yana dedi:

—Fələyin gözü tökülsün, bircə əmim oğlu vardı, o da 1940-cı ildə qəfildən vəfat etdi. Yeganə kişi nişanəsi idi əmim ocağının. Atam İsmayılı zorla xatırlayıram, 1910-cu ildə vəfat etdikdən sonra əmim İbrahimin himayəsinə keçdim. O, Xarkovda hərbi qulluqda olsa da doğma kəndi Salahlını unutmurdu. 1914-cü ildə məni Bakıya gətirib Hacı Zeynalabdin Tağıyevin qız məktəbinə qəbul etdirdi. 1917-ciillədək bu məktəbdə oxudum. Bir il sonra Azərbaycan Demokratik hökumətinin dəvətilə Xarkovdan Bakıya köçdü.

Adətən hərbçi zəhmi ağırdı, deyirlər. Əlbəttə, işdə, qulluqda necə olmağını deyə bilmərəm, amma evdə, ailədə əmim xoşxasiyyət, həssas qəlbli insan idi. Təhsil və tərbiyə məsələsinə ciddi fikir verərdi. «Gövhər, deyərdi, — səni atanın arzusu ilə müəllimliyə qoymuşam. Sənin qarşında mədəni insan yetişdirmək kimi nəcib bir vəzifə durur. Gərək elə şagird yetişdirəsən ki, onunla həmişə iftixar edə

biləsən». Yadımdadı, general Əliağa Şıxlinski tez-tez bizə gəlirdi, hər iki bacanaq Port-Artur döyüşlərindən, Birinci dünya müharibəsindəki fəaliyyətlərindən söhbət açardılar.

İbrahim ağa Usubov görkəmli dövlət xadimi Nəriman Nərimanovla, Əliheydər Qarayevlə, Mixail Frunze və başqaları ilə çox yaxın idi, 1916-cı ildə döyüş meydanlarında göstərdiyi şücaətə görə ona polkovnik rütbəsi verilmişdi.

1918-ci ilin may ayında İbrahim ağa Usubovu milli Azərbaycan diviziyasında işləmək üçün dəvət etdilər. O, Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, Cavad bəy Şıxlinski və başqa hərbçilərlə birgə Azərbaycan Demokratik Hökumətinin milli ordusunun təşkilinə başladı. On səkkizinci ilin aprelində Gəncədə praporşik məktəbi açdılar. Burada azərbaycanlı gənclər təhsil alırdı. Bir il sonra həmin məktəb Bakıya köçürüldü və Azərbaycan hərbi məktəbi adlandırıldı. 1919-cu ildə milli hökumət xalqına sidq-ürəklə xidmət etdiyinə görə polkovnik İbrahim ağa Usubovu general-mayor rütbəsi ilə təltif etdi.

Milli hökumət İbrahim ağanı on doqquzuncu ildə Azərbaycan ordusu üçün hərbi ləvazimat və hərbi geyim alıb gətirmək məqsədilə İtaliyaya ezam etmişdi. Respublika Mərkəzi Dövlət Arxivində saxlanan bir sənəd də bunu təsdiq edir.

Musavat dövlətinin İtaliyadakı nümayəndəsinin musavat ordusuna geyim və təchizat əşyaları almaq üçün hərbi nazirliklə danışıqları barəsində teleqram.

**2 dekabr 1919-cu il.**

Özünün sərəncamında olmadığından İtaliyanın hərbi nazirliyi paltar və silah verə bilmir. O, avtomobillər, aeroplanlar, projektorlar, dizliklər, mələfələr və adyallar verir. Geyim əşyalarının göndərilməsi Gellə tapşırılıb. İlk partiya dekabrın axırlarında Batuma gələcək. Keyfiyyətli köhnə paltar tapmaq mümkün deyil. Əgər qiyməti əl versə, bu əşyaların əvəzinə parça almaq barəsində fikirləşərəm. Parçanın bizdəki qiymətini təcili bildirməyinizi xahiş edirəm.

**General İbrahim ağa Usubov».**

— Əmim çox zarafatcıl idi, — deyən Gövhər xanım söhbətini davam etdirir. — Bir dəfə süfrə başında olan bir əhvalat da yadıma düşdü. İbrahim əmim köksünü ötürüb:

Of, - dedi -, — balalarım kaş hər şeydə: ağılda, kamalda, şöhrətdə özümə oxşasınlar. Amma bircə şeydə mənə yox, dayılarına oxşasalar yaxşıdı.

Həyat yoldaşı Gövhər bibim tez üstünə düşdü:

—De görüm, o nədi elə?

Əmim bığaltı gülümsünüb:

—Boyumu deyirəm, — dedi, — bircə boy-buxundan kəm-kəsirim var.

Əmim ortaboylu idi, ona işarə vururdu.

Əliağa Şıxlinski də ona zarafatla cavab verdi:

—Eybi yoxdu, — dedi, — İbrahim, qəm eləmə, o da igidə bir yaraşıqdır.

—Gövhər xanım, general əminizin son taleyi necə olub?

—İyirminci ilin aprelində XI Ordu gəldi. Əliağa Şıxlinskiyə, İbrahim ağa Vəkilova, Səməd bəy Mehmandarova, Firidun bəy Vəzirova, əmimə və bütün azərbaycanlı hərbçilərə, generallara ilk günlər toxunmadılar. Xüsusi əmr verdilər ki, poqonlarınızı çıxarın, indi Qızıl Orduda xidmət edəcəksiniz. Onlar da dinib-danışmadılar. Dedilər, təki xalqa toxunmasınlar, biz də xalqa xidmət edərik. Səhv etmirəmsə, hətta onlara əmək haqqı da təyin etmişdilər. Əmimə vəsiqə də vermişdilər ki, o, diviziya komandiri kimi xidmət edir. Yadımdadır, iyul ayının ilk günləri idi. Evimizdə Qazaxdan gələn qonaq da vardı. Əliağa əmim, İbrahim dayım da bizə gəlmişdi. Hamı kəndi, qohumları, uşaqlıq dostlarını soruşur, deyib-gülürdülər. O vaxt bütün hərbçilər indiki Kommunist küçəsindəki (hazırda İstiqlal küçəsi adlanır—red.) beş nömrəli evdə yaşayırdı. Gecə on ikiyə işləyəndə hər kəs öz evinə getdi. Yenicə yatmağa hazırlaşırdıq ki, küçədə bir yük maşını dayandı. Maşından tökülüşən əsgərlər qaça-qaça bloklara doldular. Tüfənglərin qundağı ilə qapıları döyüb içəri soxuldular. Əsgərlər içəri girən kimi əmimi əhatəyə aldılar. Mən əmimə tərəf atılıb zorla əlindən yapışıb ağladım. Əsgərlər ev əşyalarını siyahıya aldılar. Əmimin orden, medallarını və özünü apardılar. O gecə azərbaycanlı generalları — Əliağa Şıxlinskini, Səməd bəy Mehmandarovu, general-qubernator Nərimanbəyovu, Hüseyn Şıxlinskini, əmim İbrahim ağa Usubovu — hamısını yük maşınına doldurub apardılar. Dallarınca çox gedib-gəldik, bir xəbər öyrənə bilmədik. Onları həbs etdirən İlya adlı hərbçi idi. O, yarı erməni, yarı yəhudi idi. Əmimi, on iki azərbaycanlı general və zabitini 1920-ci il iyulun on altısında gecə ilə Nargin adasına aparıb orada güllələyiblər. Çox get-gəldən sonra əmim arvadı Gövhər bibimə əl boyda kağız verdilər ki, onları səhvən güllələyiblər. Şura hökuməti ailənizdən üzr istəyir.

Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov isə ayrı kamerada olublar. Xoşbəxtlikdən onların Nəriman Nərimanova göndərdikləri məktub çatıb və onlar xilas olublar. Orduya soxulan terrorçu daşnaklardan ehtiyat edən Nərimanov 1920-ci il avqustun birində Ə. Şıxlinskini və S. Mehmandarovu Moskvaya göndərdi.

General İbrahim ağa Usubovdan çox az nişanə qalıb. Bir neçə şəkil, bir də qızı — Azərbaycan Dövlət Konservatoriyasının müəllimi, əməkdar incəsənət xadimi, professor Nigar xanım Usubova... Mübarizələrdə keçən ömrün anları indi illərin saralıb-soldurduğu çox az şəkil və sənədlərdə yaşayır. General-mayor İbrahim ağa Usubovun qızı Nigar xanım atasından fəxrlə söhbət açır.

—Əliağa əmim deyərdi ki, atan İbrahimin hərbi istedadı birinci dünya müharibəsi dövründə özünü parlaq şəkildə göstərdi. Döyüş zamanı çevikliyi, piyada qoşundan məharətlə istifadə etməsi, xüsusilə əsgərlərlə səmimi rəftarı İbrahimi rus ordusunda mahir bir sərkərdə kimi tanıtdı. Əliağa əmim bir də danışırdı ki, M. V. Frunze atanı yaxşı bir insan kimi tanıyırdı. Birinci dünya müharibəsindəki fəaliyyətini, hərbi sənətkarlığını çox yüksək qiymətləndirirdi.

Mən Xarkovda anadan olmuşam. Uşaq olsam da bəzi əhvalatları yaxşı xatırlayıram. Yadımdadır, nə münasibətləsə evimizdə qonaqlıq vardı, məclisdə

yüksək rütbəli zabitlərlə yanaşı sıravi əsgərlər də iştirak edirdi. Əsgərlərdən biri atam haqqında dedi: — Baxmayaraq ki, o, rus deyil, Azərbaycanlıdır, ancaq bizim üçün doğma atadan da yaxındır.

Atam həqiqətən də əsgərlə zabit arasında sərt sədd çəkməyən adam idi. Əsgərin bütün hüquqlarını əlindən alan zabitlərlə o, heç vaxt razılaşmazdı. Məhz bu keyfiyyətlərinə görə onu əsgərlər ata kimi sevir, hörmət edirdilər.

...Faris baba ilə görüşlərimin birində gördüm ki, o, lüğətlə bir Azərbaycan yazıçısının romanını oxuyur.

—Faris baba, — dedim, — indən belə dil öyrənmək gec deyilmi?

—Öyrənirəm ki, İbrahim əmim kimi dünənə sabah deməyim.

O nə deməkdir?

— Bu saat danışacam, — deyib qoca iri gözlərilə gülümsündü. — Xatirimdədir, 1914-cü ilin yazında atam məni də götürüb kəndimiz Salahlıya gəlmişdi. Hələ müharibə başlanmamışdı. Atam doğma kəndinə, qohumlara baş çəkməyi çox sevirdi. Ali rütbədə, yüksək bir yerdə işləməyinə baxmayaraq, ildə bir neçə dəfə kəndə gedərdi. «Bu kənd, — deyirdi, — oğul, harda olsam mənimlədi, adam nə qədər böyük şəhərlərdə, uzaq ellərdə olsa da doğmasını, ondan süd əmdiyi yeri unuda bilmir. Buna haqqı da yoxdu».

Atam eşidir ki, İbrahim ağa Usubov da ailəsilə kəndə gəlib. Abdulla əmimlə onun görüşünə gedirlər. Abdulla əmim İbrahim əmimdən soruşdu ki, nə vaxt gəlmisən?

İbrahim əmim cavab verdi ki, «sabah».

Atam təəccübləndi ki, bu nə danışır. Abdulla əmim işin nə yerdə olduğunu başa düşür. Gülə-gülə deyir:

— İbrahim, əgər sabah gəlmisənsə, yəqin ki, dünən də qayıdıb gedəcəksən. — Qoca əhvalatı danışıb kədərlə gülümsündü. — İbrahim əmim, — dedi, — uzun müddət Rusiyada qulluq etdiyindən Azərbaycan dilini bir az yadırğamışdı. Məni də tale ölkədən-ölkəyə, şəhərdən-şəhərə atıb. Fransız, ingilis və bir neçə dildə sərbəst danışıb yaza bilirəm. Amma hiss edirəm ki, yadlarla o qədər oturub-durmuşam ki, doğmamı unutmaq ərəfəsindəyəm.

Faris baba çoxillik ömründə bitib-tükənməyən hadisələrin, əhvalatların şahidi olmuşdu. Heyf ki, bu səmimi, mehriban qoca ilə görüşüm onun həyatının son günlərinə təsadüf etdi. O, bizim işıqlı dünyamızdan ömrünün doxsan dördüncü ilində köçdü.

Minillik ədəbiyyata, mədəniyyətə malik xalqımızın minillik də qəhrəmanlıq tarixi var. İgid Cavanşirin, əyilməz Babəkin, köhlən at belində yadellilərə qarşı vuruşan Koroğlunun, Nəbinin adı həm öz xalqının, həm də bütün bəşər tarixinin səhifələrində yaşayır. Onların hər biri öz doğma torpağını, öz yurdunu, öz xalqının əsrlərdən bəri yaratdığı mədəniyyəti qəsbkarlardan mərdliklə müdafiə etmişdir.

Hər əsr tarixə öz qəhrəmanlarını verib, hər igid özünün şücaəti ilə gələcək nəslə örnək olub.Zaman keçib, illər ötsə də onlar yenə unudulmur, tarixin əbədi yaddaşında, sənədlərdə həmişəyaşar qalırlar.

İnanırıq ki, hərb tariximizin səhifələrində general-mayor İbrahim ağa Usubov da beləcə yaşayacaqdır.

## Yaralı söhbət

Topoqraf general İbrahim ağa Vəkilovun qəribə taleyi ilə bağlı axtarışlar aparıb mətbuatda çıxış etdikdən sonra onun doxsan iki yaşlı oğlu Faris baba ilə dostluğumuz başlandı. Bir neçə dəfə görüşdükdən sonra qoca mənə etibar edib öz həyat yolundan, əmisi general-mayor İbrahim ağa Usubovdan danışdı. Hər dəfə görüşəndə günahsız olaraq həbs edilib əvvəl Mordoviyada, sonra Karaqandada on səkkiz il çəkdiyi əziyyətlərdən, iztirablardan yana-yana, bir-birindən dəhşətli əhvalatlar söyləyirdi.

Eşitmişdim ki, Faris babanın kiçik qardaşı polkovnik Qalib Vəkilovun komandir kimi böyük xidmətləri olub. Onu da otuz yeddidə həbs ediblər. Arabir qardaşı haqqında soruşurdum. Hər dəfə də o, söhbətin yönünü dəyişir və bu barədə danışmaq istəmirdi. Yüzü haqlayıb, uşaq kimi kövrək olan qocanın qəlbinə dəyməyə qıymırdım. Bir dəfə söhbəti Çingiz İldırımdan saldım. Bilirdim ki, Çingiz İldırımla Qalib dost olublar. Qoca məcbur olub ötəri bir əhvalat danışdı. Mən əl çəkməyib, — Qalib niyə tutulub, — deyə soruşanda qoca qəmli-qəmli üzümə baxıb xeyli dinmədi. Bu an divardakı qədim saatın səsi bizi diksindirdi. Hər ikimiz dönüb ona baxdıq. Əqrəblər düz on birin üstündə dayanmışdı. Bu gün Faris baba ilə söhbətimiz həmişəkindən daha çox olmuşdu. Həqiqətən onu bərk yormuşdum. Durub getmək istəyəndə qoca əlimdən yapışıb:

— Bərk yorulmuşam, — dedi. — Qoy qardaşım Qalib haqqında söhbət sonraya qalsın, onun faciəsi çox uzundur. Bu, illərlə ürəyimdə gəzdirdiyim yaralı bir söhbətdir. — Yazıq görkəm alan qoca üzrxahlıq elədi: — incimə, gələn şənbə-bazar gözləyəcəm...

Təəssüf ki, Faris baba mənə görüşmək üçün vəd etdiyi bazar gününə kimi yaşamadı...

Sonralar Qalib Vəkilovun doğma qızı Leyla xanımla bir neçə dəfə görüşdüm.

General Əliağa Şıxlinskinin onlarda saxlanan nadir şəkillərinin üzünü çıxartdıranda, general babası İbrahim ağa Vəkilov haqqında veriliş hazırlayanda arabir atası haqqında da soruşurdum. O da əmisi kimi suallarıma çox qısa cavab verir və nədənsə bu mövzunun üstündən sükutla keçirdi.

«...Bu gün bütün bunlar qəribə görünür, ancaq o illər repressiya olunanların hətta uşaqları da bəzən öz ata-analarının günahkar olmasına inanır və açıq-aşkar

onlardan üz çevirirdilər. Bu nə ilə əlaqədar idi? Qorxaqlıqla, öz şəxsi həyatını qorumaqla? Bu da vardı, əsas səbəb yalnız kor-koranə, fanatik inam idi».

Professor Nikolay Truşenkonun bu sətirlərini «Smena» jurnalında (1988, № 9) oxuyanda dərhal Leyla xanımı xatırladım. Susmağının səbəbini sanki bu sətirlərdə tapmışdım. Elə ki, atası haqqında danışmağa başladı, bir daha gördüm və hiss etdim ki, Leyla xanımdan qorxu hissi doğrudan da çox uzaqdır. Zarafat deyildi, doğma atadan danışmaq, yazmaq əlli ildən çox idi yasaq edilmişdi. O heç vaxt «xalq düşməni» adlandırılan atasından üz döndərməmişdi. Nə kor-koranə, fanatikcəsinə «ellər atası Stalinə», nə də cəllad M. S. Bağırova özünün pənahı kimi pərəstiş edə bilməmişdi. O illərdə incidilmiş əlli bir min «gözükölgəli» azərbaycanlı ailəsindən biri kimi dərdini ürəyində çəkmişdi. Və bəlkə də Leyla xanımın ağlına gəlməzdi ki, vaxt gələcək aşkarlığın, demokratiyanın işığında hər şey açıq-aydın etiraf ediləcək. Bütün gümanlar, şübhələr ürəklərdən silinib atılacaq, haqq-nahaq öz yerini tapacaq.

—Təəssüf ki, mən atamı babam İbrahim ağadan daha az görmüşəm, — Leyla xanım söhbətinə general babasından başlayır. — İlk dəfə atam Qalib həbs ediləndə mənim cəmisi altı yaşım vardı. İkinci dəfə isə on üç yaşında idim. Ona görə də atam haqqında anamın söhbətlərindən yadımda qalanlar daha çoxdur.

—Bəs general babanız İbrahim ağa Vəkilov atanız həbs ediləndə sizə onun haqqında heç nə danışmayıb?

—Yox, babam heç vaxt oğlunun günahsız həbs olunması haqqında söhbət salmazdı. Sonralar mənə məlum oldu ki, babam atamın tutulmasını ürəyində sağalmaz yara kimi gəzdirirmiş. Mənim kimi körpə qız uşağına xalqının, Vətəninin rifahı üçün çalışan atamın xidmətlərini və onun günahsızlığını başa salmaq iqtidarında deyilmiş. Atam tutulandan sonra babamın qəddinin əyilməyini indi də gözüm önünə gətirəndə kövrəlirəm. Babam o ağır illərdə qanadları qırılmış quş kimi gəzirdi.

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində üç övlad böyüyürdü.

Qleb sənətdə atanın yolunu seçdi. O, hərbçi olmaq məqsədi ilə Tiflisdəki kadet korpusunu müvəffəqiyyətlə bitirib Xarkovdakı üçüncü Aleksandr adına Ali hərbi-texniki instituta qəbul olundu. İkinci kursdan sonra Qleb Vəkilov könüllü olaraq həmin institutu tərk etdi. Sonralar Moskvadakı Alekseyev hərbi məktəbində təhsilini davam etdirdi.

Əsrin əvvəllərində fəhlə sinfi ayağa qalxıb mütləqiyyətin rədd olunmasını tələb edirdi. Qanlı bazar hadisələrindən hiddətlənən xalq hərəkatı coşmuşdu. İmperiyanın hər yerində çarizmin qanlı cinayəti nifrətlə qarşılandı. Belə təlatümlü, qarışıq bir dövrdə ananın da, atanın da əzabı onlara dinclik vermirdi. Peterburqda təhsil alan böyük oğlu Borisi, Moskvada yunger məktəbində oxuyan Qlebi də bir sual düşündürürdü. Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz müdhiş sual qarşısında qalan hər iki qardaş tez-tez ana-ataya müraciət edirdilər.

Faris Vəkilovun söhbətindən: — Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904—05-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bədniyyətli rus-yapon müharibəsi, xalq kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə «Din azadlığı haqqında manifest» nəşr olundu. Orada hər hansı bir səbəbdən öz ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dininin müdafiəçilərinin bilavasitə yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ona görə də çıxılmaz vəziyyətdə qalan anam Yelena Yefimovna Vəkilova 1909-cu il martın 2-də dahi yazıçı Lev Nikolayeviç Tolstoya məktubla müraciət etməli olub.

1910-cu ildə yunker Qalib Vəkilov Moskvadakı Alekseyev hərbi-texniki məktəbini bitirib xidmətə başladı. Birinci dünya müharibəsi başlananda o, Qərb cəbhəsindəki mühəndis polkunda döyüşürdü. Molodeçniy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə podpolkovnik Qalib Vəkilov 2-ci dərəcəli müqəddəs Georgi ordeni ilə təltif olundu. Hərbi-texniki mütəxəssis kimi Qalib Vəkilovun ən başlıca vəzifəsi düşmənin qəfil hücum edəcəyi bərə və keçidlərin möhkəm qurulması, səngərlərdə piyada və tank əleyhinə minaların dəqiq yerləşdirilməsi idi.

Leyla xanımın stolun üstünə qoyduğu müxtəlif sənəd və fotoşəkillərin hamısı inqilabdan əvvələ məxsusdur. Onların arasında çox da qalın olmayan bir kitab da var. Bu, məşhur ədəbiyyatşünasımız Firudin bəy Köçərlinin «Azərbaycan tatarlarının ədəbiyyatı» kitabıdır. Onu müəllif 22 oktyabr 1903-cü ildə belə bir avtoqrafla Leyla xanımın general babasına hədiyyə verib. «Hörmətli İbrahim ağa Vəkilova böyük məhəbbət nişanəsi ilə Firudin bəy Köçərlidən. Qori şəhəri».

Şəkillərdən ikisi daha maraqlıdır. Onlar məşhur generalımız Əliağa Şıxlinskiyə məxsusdur. İndiyədək heç kəsə məlum olmayan və heç yerdə nəşr edilməyən şəkillərdə Əliağa Şıxlinski 1915-ci ildə təsvir olunub. Bir qrup zabit və üç nəfər şəfqət bacısı ilə birgə çəkdirdiyi şəkildə Əliağa Şıxlinski həyat yoldaşı Nigar xanımla birgə dayanıb.

— Nigar xanımla yanaşı əyləşən anam Aleksandra İvanovna Vəkilovadır. Anam da atam Qaliblə birgə birinci dünya müharibəsi illərində döyüşən orduda xidmət edib. Anamın rütbəsi leytenant olub. O da Nigar xanım kimi hərbi səhra qospitalında şəfqət bacısı işləyib. Oktyabr inqilabı başlananda onlar Minsk ətrafındakı cəbhədə olublar. Atam üç ay ordu sıralarında komandir kimi xidmət

etdikdən sonra komandanlıq onu qulluğunu davam etdirmək üçün Bakıya ezam edir. O, yeni yaranan Azərbaycan Milli Ordusunda hərbi-mühəndislər idarəsinin rəisi təyin olunur. Podpolkovnik rütbəsində Azərbaycan Ordusunun süqutuna qədər işləyir. Sonra atam on birinci Ordunun Ənzəli şəhərindəki mühəndis qoşunları hissəsinin rəisi vəzifəsində qulluq edir.

Anam da bu yürüşdə atamla birgə olmuşdu. Atam bu yürüşdə ağır xəstələnmişdi. O, malta qızdırmasına tutulmuşdu. Xəstəliyinə baxmayaraq, 1922-ci ildə yenidən Azərbaycan Baş hərbi-mühəndislər idarəsinin rəisi vəzifəsində işə başladı. Sonra Zaqafqaziya Qızıl Ordu hərbi inqilab şurasının hərbi sənaye komitəsinin direktoru oldu. Bu vəzifədə beş il işlədi.

— Leyla xanım, — bayaq dediniz ki, atanız iki dəfə həbs edilib. Otuz yeddinci ildən əvvəl nə vaxt həbs olunmuşdu?

— İlk dəfə atam 1931-ci ildə həbs edilib. O, inşaatçı-mühəndis sifətilə Belomor-Baltik kanalının tikintisində dustaq kimi işləmişdi. 1933-cü ildə o, həbsxanadan gəldi. Qocalıb əldən düşmüş, xəstəhal atamın saçı tamam ağarmış və dinib-danışmaz olmuşdu. O, tək bircə dəfə mənimlə həbs olunması haqqında söhbət edəndə dedi: «Kim mənim haqqımda sənə nə deyir-desin, bilmirəm. Bircə onu yadında saxla ki, mən nə Vətənimin, nə xalqımın qarşısında, nə sənin, nə ananın, nə də heç kəsin qarşısında günahkar deyiləm».

Belomor-Baltik kanalı tikintisindən qayıdandan sonra atam Bakıda məişət-tikinti trestində direktor müavini işlədi.

Yadımdadır, çox tez-tez xəstələnərdi. Semaşko adına xəstəxanada, dəmiryolu xəstəxanasında, sonra da Bayıldakı xəstəxanada müalicə olunurdu. Onu operasiya elədilər. Anamla çox çətinliklə yanına gedib-gələrdik. Bir xeyli sonra atamın səhhəti yaxşılaşdı. Ailəmizin güzəranı da pis deyildi. O, işini dəyişmişdi. İndi Kür üstündəki Bankə qəsəbəsində işləyirdi. Sən demə, ən dəhşətlisi geridə imiş. Otuz yeddinci il gəlib çatdı. Laxa ağzını açan bu dəhşətli qara il yüzlərlə saf adam kimi atamı da uddu... 1956-cı ildə atamın günahsız məhv edilməsi haqqında iki bəraət məktubu aldım. Biri 1931-ci ilə görə, biri də 1937-yə görə. Sonuncuda yazılmışdı ki, polkovnik Qalib Vəkilov 19 dekabr 1937-ci ildə həlak olub. Anamla mən isə otuz yeddinci ildən əlli altıya qədər onu həbsxanalarda axtarırdıq.

Leyla xanım Vəkilovanın stolunun üstündəki daha bir tarixi şəkil haqqında: süfrə arxasında altı nəfər əyləşib. Ovdan qayıdıb günortaüstü nahar edirlər. Məşhur sovet sərkərdəsi Mixail Frunze sol əli çənəsində dərin düşüncələrə dalıb. Onun sağ yanında dayanmış Əliheydər Qarayevlə Qalib Vəkilov da fikirlidirlər. Təkcə diviziya komandiri Məmməd Veysov məşğuldur. O, əlindəki çəngəl-bıçaqla qarşısındakı qabda nəyisə doğrayır. Qalan iki nəfərin kimliyi məlum deyil. Leyla xanım deyir ki, bu şəkil 1925-ci ilin qışında M. V. Frunze ikinci dəfə Azərbaycana gələndə Xaçmaz rayonunun ərazisindəki keçmiş Neruçev (indiki 1 №-li sovxoz) malikanəsində çəkilib.

Altı ay keçməmiş bu sıradan biri — M. Frunze qəfil vəfat etdi. Əliheydər Qarayev, Qalib Vəkilov otuz yeddinin qurbanı oldular. Məmməd Veysov isə doqquzillik həbs cəzası çəkib 1957-ci ildə vəfat etdi.

—Leyla xanım, atanızın dostlarından kimləri xatırlayırsınız?

—Hələ uşaq idim, yadıma gəlir ki, M. V. Frunze, Əliağa Şıxlinski, Serqo Orconikidze və ən çox Çingiz İldırım qonağımız olardı. Çingiz İldırım mənim üçün «Çi dayı» idi. O, çox şən, səsli-küylü, çox vaxt mənimlə oynayan, mənə cürbəcür macəralar danışan «Çi dayı» idi.

Onun ailəsi yox idi. Vaxtının çoxunu atamla bizdə keçirərdi. «Çi dayı» uşaqlara xüsusi məhəbbət və hörmətlə yanaşırdı.

Onun danışdığı yarımfantastik hekayətlər də yaxşı yadımdadır. O, nəql edərdi ki, bir dəfə qatar gedə-gedə atılıb ona mindim, ordan da hoppanıb uçan təyyarənin üstünə qondum. Bunları danışar, özü də mənimlə birgə gah təəccüblənər, gah da uğunub gedərdi.

O danışırdı ki, yadıma gəlir, bir dəfə Lənkəran tərəfdə ov eləyəndə qamışlıqdan qəfil çıxan atanı qaban zənn edib az qala qanına qəltan eləmişdim. «Çi dayı» hər gəlişində mənə rəngli uşaq kitabları gətirərdi. Bir dəfə ağacdan yonulmuş qaban heykəli gətirdi. Pəncəsində anama avtoqraf yazdırmışdı.

Həmin heykəl-qaban budur. İndi də saxlayıram.

Atamın yazı stolunun üstündə «Çi dayı»nın Qırmızı Bayraq ordeni alandan sonra çəkilmiş fotoşəkli qoyulmuşdu. Onu Çingiz əmi avtoqrafla atama bağışlamışdı.

Birdən-birə «Çi dayı» yoxa çıxdı. Bir müddət bizə gəlmədi. Hər dəfə mən atamdan, anamdan soruşanda ki, «Çi dayı» niyə bizə gəlmir, onlar susardılar. Mənim sualım cavabsız qalardı. Xeyli sonra mən başa düşdüm ki, o qara illərin qorxunc əli onun da yaxasından yapışıb. Çingiz İldırım cəllad Bağırovdan yaxasını qurtarmaq üçün əvvəl Maqnitoqorska, 1934-cü ildə isə Krivoy-Roqa gedir. Amma cəllad Bağırov orda da onu axtarıb tapdırır və güllələtdirir.

Leyla xanım stolun üstündəki şəkli götürüb kədərli səslə:

—«Çi dayı»nın atama bağışladığı bu şəkil qeyri-adi bir təsadüf nəticəsində bizdə qalıb, — deyir, — Atam həbs olunanda onun kitabları, bağışlanmış şəxsi silahı, sənədləri hamısı müsadirə olundu. «Çi dayı»nın bu şəkli isə sonralar lazımsız bir kitabın arasından çıxdı. Atam Çingiz İldırımdan sonra həbs olunacağını gözləyirdi. O, hətta «Çi dayı»nın həbs olunmasını eşidəndə anama deyib ki, indi növbə mənimdir.

Görünür, atam bilə-bilə onun şəklini lazımsız kitabın arasına qoyub ki, ələ düşməsin.

Çingiz İldırıma bəraət veriləndən sonra bu nadir şəkil o gözəl insandan demək olar ki, yeganə yadigar idi. Bizim muzeylər bu şəklin surətini çıxartdılar. Adını daşıyan Politexnik İnstitutu qarşısındakı büst də bu şəkil əsasında qoyuldu.

İndi hər dəfə yolum Nərimanov prospektinə düşəndə o bust qarşısında istər-istəməz baş əyir, sanki «Çi dayı»nın özü ilə salamlaşıram.

## GENERAL SƏMƏD BƏY MEHMANDAROV

Bizim keçmişdə başqa xalqların qibtə etmələrinə layiq böyüklərimiz çoxdur. Əgər biz istəyirik ki, gələcəkdə bizim xalqımızdan böyük şəxsiyyətlər yetişsin, həmin böyükləri müasirlərimizə, gənclərimizə yaxşı tanıtmalıyıq. Keçmişə məhəbbət gələcəyə xidmətdir.

**Əkrəm Cəfər,**
**professor.**

### Hərbi təhsil dalınca

...1871-ci ildə Mehmandarovlar ailəsində şadlıq keçirilirdi. Sadıq bəy oğlunun orta təhsil alması münasibətilə Bakıda yaxın dostlarından ibarət bir məclis düzəltmişdi. Qarabağdan adlı-sanlı bəylər, yaxın qohumlar, Lənkərandan qulluq yoldaşları Sadıq bəyin sevincinə şərik olmağa gəlmişdilər. Şuşadan gələn qonaqlar özlərilə müğənni də gətirmişdilər. Müğənni, füsunkar Qarabağın igidlərini, türfə gözəllərini vəsf edib məclisi əyləndirirdi. Gecədən xeyli keçənə qədər davam edən məclisdən hamı deyə-gülə dağılışdı. Uzaqdan gələn yaxın qohumlar ailəvi söhbəti hələ də davam etdirirdilər. Xanı bəy sağ yanında əyləşmiş Sadıq bəyə yanakı baxıb:

—Əmioğlu, yaxşı, Səməd bəy Ədadiyə[1] məktəbində təhsilini ikmal elədi. Biz də yığışıb onu təbrik elədik. Bəs sonrası, indi hansı ali məktəbə hazırlaşır?

Kefi kök, damağı çağ Sadıq bəy bığlarına ötəri əl gəzdirib:

—Ötən il, — dedi, — özü ilə söhbətimiz belə olub ki, gimnaziyaya getsin, müəllim olsun, onu da istəməz, bəyənməz doxtur, mühəndis... Bunların hansını istərsə...

—Yaxşı, bu, ötən ilin söhbəti, bəs indi, bu il nə fikirləşib?

—Bu nə sözdü canım, fikirləşmək də ilnəndi? Nə fikirləşəcək, kişinin sözü bir olar. Nə bilim, ay qadan alım, əgər sən deyən kimidirsə, bu ilin qərarını yəqin ki, özü vermiş olar. Çağır özündən soruş. Əmi, qardaş oğlu— siz ki, köhnə dostsunuz.

Sadıq bəy oğlunun boy-buxunu, ədəb-ərkanı ilə fəxr edirdi. İstəyirdi ki, yaxın qohumlar da onun yar-yaraşıqlı oğul olmasını yaxından görsün.

Xanı bəy çaydan bir neçə qurtum alıb atasının yanında naz-qəmzə ilə şıltaqlıq edən Ruxsarənin saçlarını tumarladı.

—Qızım, — dedi, — get, qardaşın Səməd bəyi çağır gəlsin bura.

Səməd bəy ədəb-ərkanla salam verib stolun aşağı tərəfində, qohumlarının hüzurunda müntəzir dayandı. Şuşadan gələn ağsaqqal qonaqlar olmasaydı, ötəri

[1] Ədadiyə — orta məktəb.

zarafatı olan əmisi Xanı bəylə öpüşüb görüşərdi. İçkidən xumarlanan Xanı bəy şad-xürrəm halda gülümsünür, gözünü Səməd bəydən çəkmirdi.

—Bura bax, əyə, — dedi, — yaxın gəl, bir əmin səni öpsün.

Sadıq bəy təəccüblə:

—Bay, balam, hələ görüşməmisiniz?

Xanı bəy gur səslə:

—Yox, — dedi, — mən gələndə soruşdum, dedilər evdə yoxdu, — Xanı bəy zarafatla şəhadət barmağını silkələyə-silkələyə: qırışmal, gör heç əmisi ilə görüşməyə can atır? Dirsəyi ilə əmisi oğlu Sadıq bəyə yüngülvarı toxunub — Ona izn ver gəlsin.

—Nə izn verəcəm, bura kimi gəlib, qoy bir-iki addım da atsın. Gəl, əminlə görüş, oğul.

Xanı bəy hər iki əlilə onun başından yapışıb alnından öpdü.

—İgidin alnından öpərlər, sən ki, ədadiyəni əla bitirdin, demək igidsən.

Səməd bəy qollarını əmisinin boynuna dolayıb qulağına pıçıldadı:

—Mən də elə bildim qız kimi üzümdən öpəcəksən.

Xanı bəy bərkdən qəhqəhə çəkərək:

—Əyə, — dedi. — Lənkəranda[1] dünyaya gəlsən də, vallah, Qarabağlısan ki, Qarabağlısan... Eşq olsun sənə, qardaş oğlu...

Səməd bəy şəhadət barmağını dodaqlarının ucuna toxundurdu. Yəni ağartma, atama, qonaqlara demə işarəsini verdi.

Sadıq bəy üzə vurmasa da, onun özünə də xoş gəlirdi ki, Xanı bəy oğlu ilə böyük kimi rəftar edir. Aralarında səmimi zarafatları var. Bir-iki dəfə elə-belə ehtiyata əmisi oğluna demişdi ki, çox da dərinə gedib uşağı üzdən salma. Zarafatın şiti-şoru çıxanda, aradan pərdə götürülür, hörmət-izzət itir, axırı yaxşı nəticə vermir.

Sadıq bəy qəlyanını doldura-doldura:

—Yenə başladınız. Xanı, o sənin qulağına nə dedi ki?..

Ağır-ağır yerinə əyləşən Xanı bəy:

—Heç, özümüz bilərik, — dedi. — Gözünü Səməd bəydən çəkmədən. — Yaxşı, qardaş oğlu, ədadiyənn bitirdin, yəni möhtəşəm bilik məbədinə gedən pilləkənin birini çıxdın, bəs sonrası, indi fikrin nədir, hara oxumağa gedəcəksən?

Səməd bəy susurdu. Dinmək istəyirdi, ancaq atasından ehtiyat edirdi. Axşamdan özlüyündə fikirləşmişdi ki, arzumu əmimə təklikdə deyərəm, o da bəlkə atamı yola gətirdi. Bir ilə yaxın idi ki, qəti qərara gəlmişdi: oxumağa hərbiyyə məktəbinə gedəcək.

---

[1] Əslən Qarabağlı olan Səməd bəy Mehmandarov 1856-il oktyabrın on altısında Lənkəranda varlı zadəgan ailəsində anadan olub — müəl.

—Hə, dillən oğul, qonaqları, əmini intizarda qoyma. Hara istəyirsən? Tiflis gimnaziyasına, Xarkova, yoxsa Peterburqa?.. Maşallah, özün daha böyük oğlansan. Bəlkə mühəndis olmaq istəyirsən, bəlkə fikrindən təbabət elmi keçir?

Ata, demək olar, bütün sənətləri saydı, bircə Səməd bəyin bir ilə yaxın havası ilə uçduğu hərbi kəlməsini dilinə gətirmədi. Bu qədər ağsaqqalın yanında susmağı nəzakətsizlik sayan Səməd bəy özünü toplayıb bəy oğluna məxsus təmkinlə:

—Ata, Peterburqa, amma hərbiyyə məktəbinə getmək istəyirəm.

Sadıq bəy hərbiyyə sözünü eşidib yerində qurcalandı. Təəccüb və heyrətlə:

—Hara dedin, oğul?

—Hərbiyyə məktəbinə getmək çoxdankı arzumdur. Mən ora hazırlaşmışam, ata!

Səsinin tonu dəyişmiş Xanı bəy:

—Baho, qardaş oğlu, bu nə çətin oldu. — Deyilişindən hiss olunurdu ki, onun hərbçi olmasına əmi də narazıdır. Bu dəfə lap ciddi: — Gələcəyin yolu yaman enişli-yoxuşlu oldu, qardaş oğlu. Bəri başdan yaxşı fikirləş ha...

Bu mənim qəti qərarımdır, əmi! — deyib Səməd bəy utancaq baxışlarını yerə dikdi. Ani olaraq gözaltı atasına baxdı. Kişinin sərt sifəti qara qayış kimi tarıma çəkilmişdi. Sinəsi qalxıb enirdi. Otaqda tam sakitlik hökm sürürdü. Xanı bəy bikef halda stəkanı götürüb bir qurtum içdi. Özü də hiss etmədən stəkan əlindən sürüşüb nəlbəkidə şaqqıldadı. Əyilib diqqətlə stəkana yandan baxdı:

— Bay sənin — dedi, çatladı ki... — Üzünü Səməd bəyə tutub: qardaşoğlu, gəl bunu mətbəxə apar.

Səməd bəy otaqdan çıxanda Xanı bəy üzrxahlıq edib Sadıq bəyə təsəlli verdi:

—Əmioğlu, — dedi, gördün, şüşə qab sındı, fikir eləmə, bəlkə xeyir elə bundadır. Uşağın arzusuna qarşı çıxma, hiss olunur ki, hərbiyyə işinə çox həvəsi var. Səməd bəy qanacaqsız uşaq deyil. Özün məndən yaxşı tanıyırsan. O sənəti sevməsə, bu qədər ağsaqqal hüzurunda deməzdi ki, bu mənim qəti qərarımdır. Allah xeyir versin...

Sadıq bəy hirslə:

—Yava-yava danışma, mənim on beş oğlum yoxdur ki, birinin də başından keçib rusa verəm.

—Rusa niyə verirsən, oxuyub qayıdacaq. Bakı, Gəncə, Tiflis qarnizonlarından birində xidmət edəcək. Xalqımızın bir silah tutan oğlu da artacaq. — Xanı bəy ayağa durdu, stulu döndərib Sadıq bəylə üzbəüz oturdu. İçkinin nəşəsindən sərməst olan Xanı bəy cəsarətə gəlmişdi. İlk dəfə idi özündən böyük əmisi oğlunun hüzurunda dil-dil ötürdü: — Ay canım, gözüm, Mirzə Sadıq bəy, — dedi, niyə belə danışırsan ey, bir de görüm, sən özün Peterburq Universitetinin hüquq fakültəsini bitirməmisən? İngilis, firənk və alman dillərini də orda oxuyanda öyrənməmisən? Sən şuşalı Hüseyn bəyin oğlu, qatırçı Muradın nəvəsi

Rusiyada oxuyub gələndən sonra Muğanda pristav, Şamaxıda sahə iclasçısı, indi də Lənkəranda quberniya katibi deyilsən? Əşi, sevin ki, sənin gedib-gəldiyin yolu oğlun da gedir...

—Bəs o, gecə-gündüz Nizami, Füzuli oxuyurdu. Vidadi, Vaqif şerlərini əzbərləyirdi. Fars, türk dillərinin qrammatikasını öyrənirdi. Mən də sevindim ki, oğlum müəllim olacaq, xalqına gərək olan maarif işində çalışacaq. — Sadıq bəy hirslə Ruxsarəyə:

—Get, onu çağır, bura gəlsin! — dedi.

Səməd bəy pörtmüş halda içəri girdi. Bilmirdi baxışlarını hara diksin. Yenə bayaqkı yerdə böyüklərin hüzurunda müntəzir dayandı.

Sadıq bəy sərt və ötkəm səslə:

—Oğul, bu sənin qəti qərarındır?

—Bəli, ata...

—Axı sən onu bilirsənmi ki, sənin atan Sadıq bəyin indiyədək nə hökumət qulluğunda, nə dostlar arasında, nə də ki, evdə bir sözü iki olmayıb. Heç kəs onun sözünün qabağına söz deməyib. Bizim nəsildə indiyədək bir nəfər belə hərbçi olmayıb. Bu mənasız fikir hardan sənin ağlına gəlib? Get, fikirləş, qərarını dəyiş, — kinayə ilə. — hərbçi olacaq,.. yox bir yaranal olacaq... Elə bilirsən asandı gecə-gündüz çöllərdə qalmaq? Bu nə sənətdi? Qızmar günəşdə, sərt ayazda, dizə çıxan palçıqda günlərlə, aylarla çöllərdə qalacaqsan. Səni kimsə yoldan çıxardıb, yəqin ki, yaranal olmaq iştahan var... Dəyiş qərarını... On altı yaşın var, özünə sənət seçib, gün ağlaya bilmirsən.

—Əziz ata, ilk dəfə sözündən çıxdığım üçün üzr istəyirəm. O ki, qaldı yaranal olmağa... yaranal qızlardan olmur. Yaranal elə mənim kimi oğullardan olur...

Anası Böyüknənə dözə bilməyib oğluna qahmar çıxdı:

—A kişi, uşağı bu qədər danlama, özün də boş yerə hirslənib əsib-coşma. Uşaqdı, indi deyib, bəlkə səhərə, o biri günə fikrini dəyişdi.

Sadıq bəy hirslə stulunu qabağa çəkib:

—Görmürsən deyir ki, bu mənim qəti qərarımdır. Mənim də qəti qərarım, oğul, eşit və bil, ondan ibarətdir ki, səni heç yerə göndərməyə, nə də hərbiyyə məktəbində oxutmağa bir qəpik belə pulum yoxdur. Xoş gəldin, get, otur evdə, un çuvalına tay ol...

—Ata, mən kor qız deyiləm ki, un çuvalına tay olam. Sizin yardımınızdan imtina edib, Peterburqa hərbiyyə məktəbinə oxumağa gedəcəm... — deyib çıxdı.

1871-ci ildə ata sözündən «çıxan», bir daha onun üzünü görməyən general Səməd bəy Mehmandarov ilk hərbi təhsil almağa belə getdi. Kaş, bütün gənclər ata sözündən belə «çıxaydı».

## Uzaq Şərqdə

Səməd bəy Mehmandarov haqqında yazmağı düşünəndə qeyri-ixtiyari Əliağa Şıxlinskini xatırladım. Tez-tez Şıxlinskinin «Xatirələrim»dəki ayrı-ayrı epizodlar yadıma düşürdü. Mənə elə gəlir ki, Səməd bəy Mehmandarovun ömür yolunu Əliağa Şıxlinskidən yaxşı bilən ikinci şəxs olmayıb. Ona görə də Şıxlinskinin əvəzsiz xatirələrinə müraciət edəcəyəm. Onlar ilk dəfə 1888-ci ildə tanış oldular. Bu dostluq 1931-ci ilin fevralına kimi Mehmandarov dünyadan köçən günə qədər davam etdi. Həmyerlilərinə bu dostluq bir neçə müharibə alovundan, inqilab tufanından keçib nəsillərə nümunə oldu.

Çox təəssüf ki, Səməd bəy Mehmandarov Əliağa Şıxlinski kimi hərbi memuar yazmayıb. Buna otuzuncu illərin sərt ab-havası səbəb olub. Onda Heydər Hüseynov kimi məşhur, xeyirxah alim ədəbi ictimaiyyətə təzə gəlmişdi. Bizə əziz miras kimi qalan «Xatirələrim»in bəxti onda kəsdi ki, müharibə başlananda milli Azərbaycan diviziyasının yaradılması ilə bağlı məsləhətə gələn Heydər Hüseynov generalın xatirələrinin dəyərini qiymətləndirərək onları qələmə aldı. Ömrünun son günlərini yaşayan Şıxlinski də qürbətdə, səngərlərdə, palçıq və qanqarışıq cəbhə meydanlarında Səməd bəy Mehmandarovla keçirdiyi günlərini unutmayıb ona diktə etdi.

Bir hərbi xadim kimi, Səməd bəyin xidmətləri əvəzsizdir. Hərbi sərkərdə kimi rus hərb tarixçiləri, yazıçıları onun artilleriya sahəsindəki böyük nüfuzundan, qorxmazlığından, istedadından iftixarla yazırlar. Özümüzdə isə, inqilabdan əvvəlki generallarımızdan söz düşəndə, ən az məlumata malik adam belə Şıxlinskinin və Mehmandarovun adını çəkə bilər. Etiraf etməliyik ki, son illərə qədər hər bir azərbaycanlının tanıdığı yalnız bu iki məşhur general olub. Təəssüf ki, onların da adını çox vaxt qorxa-qorxa çəkmişik. Rəsmi dairələrdə isə onların adının yanında həmişə bir neçə ağ ləkə olub: «çar generalıdı», «müsavatın hərbiyyə naziri olub», «bəy nəslinin nümayəndələridir» və s. Bu minvalla, yersiz damğalarla görkəmli sərkərdələrimizi unutmuşuq, az, lap az tədqiq etmişik. Halbuki, yadların fəxrlə söhbət açdığı bu iki generalımız Port-Arturda yaponlara, Birinci dünya müharibəsində almanlara qarşı vuruşaraq ulu babalarımızdan gələn döyüş ənənələrini bütün dünyaya yaymışlar. Birinə «artilleriyanın allahı» fəxri adı, o birinə isə «Müqəddəs Georgi» ordeninin bütün dörd dərəcəsi verilib. Böyük imperiyanın minlərlə generalı arasında onların öz yeri olub.

Əliağa Şıxlinskinin aydan arı, sudan duru xatirələrindən bizə məlum olur ki, podpolkovnik Mehmandarov ilk dəfə 1900-cü il avqustun 3-də çinlilərə qarşı vuruşmada ad-san qazanmışdı. Uzaq Şərqə hərbi xidmətə gələn gənc zabit Şıxlinski həmin ili Nerçinsk şəhərində düşərgə salmış Zabaykal topçu divizionunda həmyerlisi ilə görüşünü sevinclə qeyd edir: «Divizion iki batareyadan ibarət idi: birincisinə podpolkovnik Enqelma, ikinci batareyaya isə mənim həmyerlim və köhnə tanışım podpolkovnik Səməd bəy Mehmandarov komandanlıq edirdi.

Şıxlinskinin xatirələrindən aydın olur ki, o, həmyerlisi ilə fəxr edirmiş. Bu da təsadüfi deyildi. Axı hərbin sərt qanunlarında, ciddi nizam-intizama baxmayaraq, kinayə ilə «aziat» deyilən bir millətin cavan zabit oğlu az müddətdə Rusiyanın ikinci və üçüncü dərəcəli «Müqəddəs Stanislav», ikinci dərəcəli «Müqəddəs Anna», üçüncü dərəcəli «Müqəddəs Vladimir», sərkərdələrə məxsus «İgidliyə görə» (qızıl qılıncla birgə) ali ordenləri ilə təltif olunmuşdur.

1875-ci ildə Peterburqdakı Konstantin yungerlər məktəbini bitirən Səməd bəy hərbi biliyə olan güclü marağı və fitri istedadı sayəsində bir il keçməmiş podporuçik rütbəsi ilə təltif olunur. Xidmətdə çox sürətlə irəliləyən Mehmandarov, yeni əsrin başlanmasına iki il qalmış podpolkovnik idi. Bir az əvvələ qayıtsaq görərik ki, cəmi iki il Varşava hərbi dairəsində xidmət edən mayor Səməd bəy Mehmandarov şəhər hərbi məhkəməsinin üzvü seçilib.

Əliağa Şıxlinski bunları bilirdi və həmyerlisinin Uzaq Şərqdə çinlilərlə döyüşdəki məharəti ilə haqlı olaraq fəxr edirdi.

Zabaykal topçu divizionunun batareya komandiri Mehmandarov tapşırıq almışdı ki, Kiçik Xinqan dağ silsiləsini düşməndən müdafiə etsin. Komandir üç sıra səngər qurdurdu. Silsilənin coğrafi şəraiti çılpaq təpələrdən ibarət olduğuna görə batareya düşmənin atəşi altında özünə mövqe tutmalı idi. Özgə çıxış yolu yox idi. Bura topların qurulması, topçuların əl-qol atması üçün münasib deyildi. Batareya döyüşə hazır olan anda Zabaykal vilayətinin rəisi, general-mayor Rennenkampf əmr verdi ki, çinli əsgərlər Sisikara şəhərindən çıxır, onlara atəş açın. Bu vaxt silahsız, hərbi paltarda, iki dəstə düşmən əsgəri təntənə ilə şəhərdən çıxmağa başladı. General nə qədər qışqırıb bağırdısa, Mehmandarov silahsız adamlara atəş açmadı.

Bu əhvalatın canlı şahidi Əliağa Şıxlinski olub. O, yazır ki, bu hadisəyə görə general Rennenkampfla Mehmandarov arasında ciddi münaqişə oldu. General Rennenkampf Mehmandarovu hədələyərək dedi ki, əmri yerinə yetirmədiyinə görə, batareya komandirliyindən çıxarılıb məhkəməyə veriləcəksən. Mehmandarov isə silahsız adamlara atəş açmağı qəti rədd etdi. O, şəhərdən çıxan çinlilərin başı üstündən atəş açdırıb onları geri qaytardı. Sisikara şəhərində bir nəfərin belə qanı axıdılmadan Mehmandarovun batareyası tərəfindən alındı.

...Polkovnik Səməd bəy Mehmandarovun artilleriya batareyası 1902-ci ildə Mancuriya ərazisində öz xidməti borcunu yerinə yetirirdi. Komandanlıq ona mühüm bir tapşırıq vermişdi: Siyan-sin rayonunda yapon agentlərini— xunxuzların quldur dəstələrini ləğv etmək. Az bir müddətdə quldur dəstələrini ləğv edən polkovnik Mehmandarovun divizionu onların başçısı, xunxuz generalı Çembeyinin özünü də əsir aldı. Həmin əməliyyatlardakı əla döyüş xidmətlərinə görə komandir Səməd bəy Mehmandarov üçüncü dərəcəli «Müqəddəs Vladimir» ordeni ilə təltif olundu.

1903-cü ilin əvvəllərində Mehmandarov altı aylıq məzuniyyət alıb Peterburqa qayıdır. Jitomirli Yelizaveta Nikolayevna Teslavla ailə həyatı qurur. Yeddi aylıq topçu zabitləri məktəbində təhsilini davam etdirir.

Əliağa Şıxlinskinin xatirələrindən:

«Mehmandarov bizdən ayrı olduğu bu müddətdə batareyaya mən komandanlıq edirdim. O, hissəmizə qayıdanda həyata keçirdiyim bütün tədbirlərlə tanış oldu, çox razı qaldı... Mehmandarov batareyanı qəbul etdi. Bütün dəftərlərdə və pulun qəbul edilməsi aktına qol çəkdi. Amma pulları saymadı. Mən təəccüb edərək, pulları niyə saymadığını soruşduqda, gülümsəyərək:

— Siz ki, saymısınız, — dedi, — mənim saymağıma ehtiyac yoxdur.

Mehmandarov həmişə kefi saz olanda etdiyi kimi, indi də papağını yan qoyaraq, açarı cibinə qoydu və evinə getdi. Kiçik rütbəli yoldaşlarım bu işə çox təəccüb etdilər. Çünki onlar komandirimizin dövlət pulu üçün necə can yandırdığını yaxşı bilirdilər. Mən onlara başa saldım ki, Mehmandarov kimi adamlar, adama bir dəfə inandılarmı, hər cəhətdən inanarlar. Məni isə Səməd bəy Mehmandarov 1888-ci ildən tanıyır».

**Port-Artur döyüşlərində**

1904-cü ildə Rus-yapon müharibəsi başlananda Səməd bəy Mehmandarovun qırx səkkiz yaşı vardı. Yelizaveta Nikolayevna ilə evlənməklərinin bir ili tamam olmamışdı. Yelizaveta Kiyev qadın gimnaziyasını bitirmişdi. Port-Artur hərbi səhra xəstəxanasında şəfqət bacısı işləyirdi. Səməd bəy kimi, o da zadəgan nəslindən idi. İyirmi bir yaşlı Yelizavetaya həyat, elə bil anadan olandan səbr dərsi keçmişdi. O, nə ağır hərb işinə, nə də yaralı əsgərlərə qarşı laqeyd deyildi. Zadəganlara məxsus sadəliklə Yelizaveta əsgərlərlə çox mehriban davranırdı. Yaralıları müalicə edir, savadsız olanların ailəsinə məktub yazır, müharibə çətinliyinə səbrlə, dəyanətlə dözürdü.

Bir dəfə Səməd bəy ona deyir: — Komandanlıqdan sənin Peterburqa qayıtmağına icazə almışam. Hazırlıq gör, sabah, ya da birisi gün səni yola salacam.

Ərinin üzünə şax baxan Yelizaveta:

—Səməd bəy, — demişdi, — ölkədə müharibə gedirsə, səncə əsgərin yeri harada olmalıdır?

—Əlbəttə cəbhədə!

—Bax, mən də cəbhədəyəm, yoxsa məni qadın görüb əsgər olmağıma şübhə edirsən?

—Axı, sən ana olmağa...

—Bir də bu söhbətə qayıtmayaq. Söz verirsən... Bu mövzudan vaz keçək, əzizim! Sənsiz mənə Peterburq yox, heç Paris də lazım deyil.

Bu ərinə, Vətəninə, sadiq bir qadının açıq ürək söhbəti idi.

Yanvarın iyirmi altısında gecə yaponlar rusların Port-Artur limanında dayanan eskadrasına hücum edib «Retvizan», «Sesareviç» zirehli gəmilərini və

«Pallada» kreyserini yandırdılar. Müharibə başlandı. Səhərisi Səməd bəy Mehmandarovu yeddinci Sibir atıcı-topçu divizionunun komandiri təyin etdilər. Bu, quru qoşunlarının komandanı, general-mayor Roman Kondratenkonun əmri idi, Roman İsidoroviç Mehmandarovun döyüşdə dəyanətinə, komandirlik bacarığına yaxşı bələd idi. Məhz ona görə də Səməd bəyi Port-Arturun Şərq cəbhəsinin rəisi təyin etdi. Bura Port-Artur müdafiəsində ən mühüm cəbhə hesab olunurdu. Yaponlar ən güclü qüvvəni də buraya yeritmişdilər. Onlar şiddətli həmlələr edir və arası kəsilmədən bombalar yağdırırdılar. Polkovnik Səməd bəy Mehmandarov komandan Kondratenkonun ən yaxın köməkçilərindən biri idi. Topçuların əməliyyatına bacarıqla rəhbərlik edən Mehmandarov qala mühasirədə olanda həmişə ön mövqelərdə və çox təhlükəli yerlərdə sərrast atəşlə samurayların hücumunu dəf edirdi.

***

Port-Artur müharibəsinin başlanmasından doxsan il keçir. Bu müddətdə rus dilində minlərlə ədəbi-bədii, elmi və publisistik əsərlər nəşr olunub. Xüsusilə, 1905—10-cu illərdə bu mövzuda çoxlu gündəliklər və xatirələr yazılmışdır. 1906-cı ildə P. Larenkonun «Port-Arturun əzablı günləri» kitabı da bu qəbildəndir. Burda sərkərdə eloğlumuz Səməd bəy Mehmandarovun təkcə döyüş qabiliyyəti deyil, həm də şəxsiyyət kimi dönməzliyi, böyüklüyü şahidlərin dili ilə verilib. İlk dəfə Azərbaycan oxucularına təqdim etdiyimiz gündəlikdən parçaları oxuyanda istər-istəməz həmyerlimizə görə iftixar hissi keçirirsən.

Həmin kitabın «Noyabr hücumları» fəslində, səhifə 494-də: «Hələ avqust bombardmanı zamanı yaponlar hiss etdilər ki, hardansa, arxadakı fortlar xəttindən onları dəqiq atəşə tutublar. Polkovnik Mehmandarovun komandası altında olan yeddinci Şərqi-Sibir artilleriya divizionu (yəni səhra artilleriyası) həmləyə məruz qalmış istehkam xəttinin sağ cinahının arxasında örtülü mövqeləri tutaraq müdafiəyə böyük kömək göstərirdi. Çünki qala artilleriyası hələ bombardmanın ilk günlərində çox zərər çəkmişdi. Polkovnik Səməd bəy Mehmandarovun səhra artilleriyası ən fədakar həmlələri belə dəf edərək yaxınlıqda olan yapon batareyaları ilə son dərəcə müvəffəqiyyətlə vuruşurdu», — yazılıb.

Səhifə 597-də: «S. daxil oldu. O, söhbət edirdi ki, ön həmlənin topçularından polkovnik Mehmandarov (sağ cinahın bütün artilleriya üzrə komandiri) və podpolkovnik Stolnikov öz şəxsi təhlükələrinə qəribə nifrətlə yanaşırlar; bombardman vaxtı batareyalarda elə gəzirdilər ki, elə bil partlayan mərmiləri görmürlər. Belə ki, onlar bu hərəkətləri ilə yerdə qalanları da ruhlandırırdılar. Onların birincisi qafqazlılara məxsus cəngavər kimi, ikincisi isə taleyinə sədaqətlə itaət edən dindar adamlar kimi davranırdılar.

Burda səhra artilleriyasının öhdəsinə başlıca olaraq həmləni şrapnellə, karteçlə düşmən kolonlarını məhv etmək məsələsi düşür. Qala topları çox ziyan çəkdiklərindən, səhra artilleriyası isə tez-tez yerini dəyişdiyindən onlarla mübarizə aparmaq yaponlar üçün çətin idi. O isə zərbələri elə hey endirirdi».

Səhifə 606-da (11/24 dekabr):

«Yaralı zabitlərlə apardığım söhbətlərdən polkovnik Mehmandarov haqqında bəzi şeyləri öyrəndim. O, cəsur, özünü çox sevən, tabeliyində olanlara tam ciddiyyətilə yanaşan bir adam idi. Onları məcbur edirdi ki, şəxsi mərdlikləri ilə hamıya nümunə olmağı bacarsınlar. Təbiətən coşqun, hərarətli olan bu adam sözünü çox kəskin deyirdi. Polkovnik Mehmandarov deyirdi ki, yalnız şücaət göstərməyi bacaran, ağılla özünü sevən adamları qiymətləndirir; karyeraçı zabitlərinsə ən böyük arzusu — həyatlarını qoruyub saxlamaq və heç bir xidmət göstərmədən ordenlər almaqdır».

Səhifə 630-da (17-30 dekabr, saat 3.00):

«Üçüncü fortun məğlubiyyəti bizim artilleriyanın vəziyyətinə pis təsir göstərdimi? — sualına polkovnik Mehmandarov belə cavab verdi ki, o, vəziyyətdə heç bir ağırlaşma görmür. Artilleriya şəraitinin pisləşməsinə üçüncü fortun heç bir mənfi təsiri yoxdur.

Yalnız general Fok özünü birbaşa cavabdan qaçıraraq, ümumi nəticəsi olmayan bir yığın söz dedi».

Səhifə 643-də (18-31 dekabr):

«Kimsə döyüş meydanından belə bir xəbər gətirdi ki, bu gün general Fokla polkovnik Mehmandarovun arasında ciddi mübahisə olub. Fok sübut etməyə çalışırdı ki, qala artıq dözməyəcək, Mehmandarov isə sübut edirdi ki, ayrı-ayrı istehkamların məhvi hələ qalanın sonu çatdığına sübut deyil, çünki müdafiənin ikinci xəttindən də müqavimət göstərmək olar.

Döyüş meydanında isə tək-tək atırdılar. Qaranlıqdır. Üçüncü fort istiqamətində, ya da qayalıqdan qırmızı fənərlər görünürdü. Deyirlər ki, bu fənərlər bizim sanitarlara sarğı məntəqəsini nişan verir.

Bərk yorğunluq hiss edirəm, ona görə də indi uzanıb yatacağam».

Səhifə 690-da (23 dekabr (5 Yanvar)):

«S. mənə xəbər verdi ki, dünən yapon artilleriyasının rəisi qərargahı ilə birgə qalaya gəlmişdi və qalanın sağ cinahının artilleriya rəisini, polkovnik Mehmandarovu (mühasirə zamanı general-mayor olmuşdu»[1] axtarırdı.

Səməd bəy Mehmandarov faktiki olaraq avqust ayının ortalarında bütün artilleriyaya rəhbərlik edirdi.

Görüş zamanı o, belə bir söz işlətdi: «Hörmətli qonaqlar yəqin səhv salıblar. Onlar çox güman ki, qala artilleriyasının rəisi, general Belını görmək istəyirlər. Lakin qonaqlar cavab verdilər ki, məhz mübarizə aparmaqda böyük əziyyət çəkdikləri, özlərinə möhtərəm rəqib sandıqları adamla — Mehmandarovla, tanış olmaq onlar üçün çox maraqlıdır. Onlar general Mehmandarovun şəninə çoxlu

[1] Port-Artur döyüşlərindəki xidmətlərinə görə Səməd bəy Mehmandarova 1904-cü il oktyabrın 22-də general-mayor rütbəsi verilmişdir — müəl.

tərifli sözlər, komplimentlər dedilər; etiraf etdilər ki, Port-Artur yaxınlığında yapon artilleriyasının itkiləri olduqca çoxdur. İyirmi beş minə kimi adam tələf olub, çoxlu yapon silahı məhv edilib, həmçinin Port-Arturda mərmilərin çatışmazlığı onların məsələsini yüngülləşdirib.

General Mehmandarovu əsir apardılar. O, təhvil verilib, sonra da vicdanına and içərək «evə» gedənlərin ən qəddar düşməni idi.

Gündüz saat on ikidir. Yaralıların yanında idim. Hər yerdə eyni söz-söhbət — qalanın təhvil verilməsindən və əsirlikdən gedirdi».

Səhifə 752-də (3/16 yanvar):

«Hakimiyyətin ələ keçirilməsi» haqqında müxtəlif fikirlər söylənirdi. Məsələn, həmişə döyüş mövqelərinin sağ cinahında olan F. və Ş. qeyd etdilər ki, guya mövqelərdə olarkən necə olubsa, onların yanında polkovnik (indi general) Mehmandarov da söhbət əsnasında bu mövzu haqda öz fikrini bildirmişdi: — «hakimiyyəti ələ keçirmək» nə deməkdir? Mən bunu başa düşmürəm! Əgər mən komendant olsaydım və vəzifəmin öhdəsindən az da olsa gələ bilsəydim, mənim qanuni hakimiyyətimi görüm əlimdən kim ala bilərdi?!.. Əgər elə adam tapılsaydı mən deyərdim: Əlahəzrət, nə qədər ki, kimin əsil komendant olduğunu ayırd etməmişik, bu yerdən heç yana tərpənən deyilik... Bu işin sonu nə qədər axmaq nəticələr versəydi belə, məni bu yolda niyyətimdən heç bir şey döndərə bilməzdi».

Həmişə ön cəbhədə olan Səməd bəy Mehmandarovun Port-Artur döyüşlərində xüsusi xidmətləri olmuşdur. Yaxşı ki, onun müasiri olan jurnalistlər Səməd bəyin döyüş fəlliyyətini qələmə almışlar.

Jurnalist E. K. Nojin Port-Arturda çıxan «Novıy kray » qəzetinin xüsusi müxbiri olmuşdur. Odlu cəbhələri gəzən jurnalist maraqlı gündəliklər müəllifidir. Qeydlərindən aydın olur ki, o, general eloğlumuz Səməd bəy Mehmandarovla həmişə ön xəttə görüşərmiş. Rus jurnalisti azərbaycanlı sərkərdənin vətəni Qafqaz üçün darıxmasının da şahidi olub:

«...Blindaja girdim. General Nadein həmişəki kimi sakitdir. Onun qərargah rəisi Stepanov yorğundur. Burda bir neçə zabit var. Polkovnik Mehmandarov da burdadır. Biz həmişəki kimi çox səmimi görüşdük. Mehmandarov heyranlıqla vətəni Qafqazı yad edirdi:

— Qafqaz çox yaxşıdır, çox gözəldir! — deyirdi. — Təbiət hər şeyin keyfiyyətinə zəmanət verərək ona öz möhürünü vurmuşdur. Amma bədbəxtlik ondadır ki, bəzən daş lazım olan yerdə bir dənə də daş tapmazsan, lazım olmayan yerdə isə sayı-hesabı yoxdur. Su lazım olan yerdə bir damla da su olmur. Ehtiyac olmayan yerdə dərya qədərdir. — Ani olaraq dayanan Mehmandarov sözünə davam etdi: — Bəs islam? Yaxşı nə varsa — onu sonrakı həyatın verəcəyini vəd edir. Hər şey çox yaxşıdır, amma bizə cənnətdə yeddi mələk boyun olublar, yeddisinin də gözü girdə. Sizcə, bu nə olan işdir? Peşimançılıq deyilmi? Bilirsinizmi, mən indi heç nə istəmirəm — nə cənnəti, nə də mələkləri. Mən yalnız bir azca istirahət istəyirəm.

Ətrafda hər yanda mərmilər partlayırdı. Onların ikisi blindajın tavanına düşdü. Zabitlər qorxu hissi ilə ayağa durdular. İgid polkovnik Mehmandarov isə heç tövrünü belə pozmadı. Onun iri, ağıllı gözlərində zərrəcə qorxu hissi yox idi».

Səməd bəy Mehmandarovun ən təhlükəli döyüşdə belə özünü itirmədiyinin şahidi olan Əliağa Şıxlinski yazır ki, oktyabrın on dördündə qala topa tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən on bir düyməli topdan, otuz yeddi millimetrlik xırda dəniz topuna qədər müxtəlif toplarla atəşə tutulmuşdur. Həm də, bu mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altıdüymə mərmi partladı və yerdən qalxan qara palçıq onun üstünü buladı, amma özü yaralanmadı.

Mehmandarov buna əsla əhəmiyyət verməyərək, böyük bir soyuqqanlıqla cibindən ağ dəsmalını çıxarıb, gözəl, təzə paltosunun üzərinə sıçrayan palçığı silməyə başladı.

Dekabrın ilk günlərində yaponlar qalaya iki ağır zərbə vurdular. Rusların inadlı müqavimətinə baxmayaraq, onlar qalanın bir neçə mühüm fortlarını tutdular. İkinci ağır zərbə isə dekabrın ikisində oldu. Komandan general Roman Kondratenko qəhrəmanlıqla həlak oldu. Əvəzində iradəcə zəif olan general Fok komandan təyin edildi. On altı gün sonra yaponlar qalanın taleyini həll edən Drakonovıy Xrebet dağını ələ keçirdilər. Port-Arturun qorxaq və istedadsız komendantı general Stessel qalanı dərhal düşmənə təslim etmək üçün hərbi şuranın iclasını çağırdı. Şurada iştirak edən bəzi komandirlər Stesselin təklifinə şərik oldular. Lakin general-mayor Səməd bəy Mehmandarov, polkovnik Semyonov və bir qrup mərd zabitlər təslim olmağa qəti etiraz etdilər. Döyüşkən zabitlər inad edirdilər ki, güclü yapon ordusunu geri oturtmağa hələ qüvvələri çatar. General Mehmandarov başda olmaqla onlar deyirdilər ki, qala hələ özünü saxlamağa qadirdir. Nə qədər ki, mərmi var, toplardan atəş yağdıracağıq. Nə qədər ki, patron var, tüfənglərdən atəş açacağıq. Mərmi və patron qurtardıqda isə süngü ilə döyüşəcəyik.

Lakin cəsarətsiz general Stessel mərd zabitləri eşitmədi, silahı yerə qoymağı qarnizona əmr etdi. Sonralar Rusiyaya qayıdanda general Stessel qala müdafiəçilərinin tələbi ilə Port-Arturu tələsik təslim etdiyinə görə hərbi məhkəməyə verildi.[1]

General-mayor Mehmandarov və onun zabit dostları qala təslim edildikdən sonra da hərbi anda sadiq qalaraq başqa əsgər və zabitlər üçün nümunə göstərdilər. Yaponların şərtlərinə görə əsgərlər hərbi əsir alınır, zabitlər isə Yaponiyaya qarşı

---

[1] 1907-ci il noyabrın 27-də başlayan hərbi məhkəmədə general Səməd bəy Mehmandarov şahid kimi iştirak etmişdir. O, Port-Arturu düşmənə vaxtından əvvəl təslim edən general Stesseli, Foku, Reysi və Smirnovu əsaslı faktlarla günahlandırmışdır. Məhkəmə bir ay davam etmişdir — müəl.

bir daha müharibədə iştirak etməyəcəkləri barədə yazılı iltizam verəndən sonra Rusiyaya qayıda bilərdilər. Stesselin ətrafındakı mürtəce fikirli bir qrup zabit dillərindən belə bir iltizam verdilər. Lakin xalqımızın igid oğlu Səməd bəy Mehmandarov belə bir alçaq, zabit şərəfini təhqir edən vəddən boyun qaçırdı. Bir daha Yaponiyaya qarşı müharibədə iştirak etməyəcəyi barədə iltizam vermədiyinə görə general-mayor Səməd bəy Mehmandarov əsir alınıb Yaponiyanın Naqoya şəhərinə göndərildi. O, Rusiyaya 1905-ci il avqustun 23-də, Portsmut sülh müqaviləsi bağlanandan sonra qayıda bildi.

Üç yüz otuz iki günlük məşhur Port-Artur qalasının müdafiəsi general Səməd bəy Mehmandarovun taleyinə belə yazıldı.

## Birinci dünya müharibəsi

Sərkərdə kimi ümumxalq şöhrəti qazanmış Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskidən danışanda talelərində oxşarlıq olan iki məşhur musiqi xadimimizi də yada salmamaq olmur. Üzeyir bəy Hacıbəyov və Müslüm Maqomayev. Onların hər ikisi bir ildə təvəllüd tapıblar, eyni seminariyanı bitiriblər. Müəllim işləyiblər, musiqi yazıblar. Tale Üzeyir bəyə övlad qismət eləməyib. Üzeyir bəylə Müslüm taleyindəki oxşarlıqları hər iki görkəmli hərb xadimlərinin həyatında da görmək olar. Əliağa Şıxlinski də övlad həsrətilə dünyadan köçdü. Mehmandarova və Müslüm Maqomayevə tale övlad da verdi, şöhrət də. Amma Əliağa və Üzeyirə nisbətən tez dünyadan köçdülər.

Hər ikisi də on səkkiz yaşından əsgər çəkməsi geyindi, Peterburqda oxudu, Port-Arturda, Birinci Dünya Müharibəsində vuruşdu. 1918-ci ildə ilk milli Azərbaycan ordusu yaratmaq kimi şərəfli iş də iki şöhrətli generala qismət oldu. Tam artilleriya generalı ali rütbəsi aldılar.

Azərbaycanın dörd qartalı ötən əsrin sonlarından əsrimizin ilk illərinədək daima xalqına sidq-ürəklə xidmət etdi.

Birinci dünya müharibəsi başlananda Mehmandarov Vladiqafqazda yerləşən 21-ci piyada diviziyasının komandiri idi. Bu vaxta kimi həyatında çox hadisələr olmuşdu. Əsirlikdən qayıdan kimi yeddinci Şərqi-Sibir artilleriya briqadasının komandiri təyin edildi, az sonra ona daha məsul vəzifə verildi — Üçüncü Sibir ordusunun korpusunda artilleriya rəisi oldu. 1908-ci il Səməd bəyə bu yüksək vəzifədən başqa daha iki böyük sevinc bəxş etdi. Həmin il iyulun on üçündə ona general-leytenant rütbəsi verildi. İkinci, ən çox yaddaqalan sevinc isə İrkutsk şəhərində noyabrın 18-də qismət oldu. Tale uzun intizardan sonra ona oğul payı göndərdi. Səməd bəy ona Pir adı verdi. Sonralar İqor adını daşıyan Pir Mehmandarov otuzuncu illərdə general ataya görə çox ağrılar, əzablar çəkdi. 1988-ci ildə Bakıda görüşdüyüm İqor Mehmandarovun danışdığı bir epizodu heç vaxt unuda bilmirəm.

— Atamdan sonra tez-tez anamı və məni ÇK-ya çağırardılar. Min cür hədələyici suallar verərdilər. Suallara düzgün cavab versək də, verməsək də bizi

döyüb incidərdilər. Bir dəfə lap cana doyub ağlaya-ağlaya soruşdum ki, axı, məni niyə döyürsünüz? Bu sualların cavabını mən həqiqətən də bilmirəm, yalandan nə deyim? Mənə əzab vermək, ağa qara demək kimi bir şeydir. Mənim günahım nədir?

— Günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideynlər seçməmisiniz.

Qəribə məntiqdir, nə vaxtdan övlad özünə valideyn seçib ki?..

Amansız təqiblərdən, yersiz sorğu-suallardan xilas olmaq üçün 1930-cu ildə, keçmiş Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuş atanın ölümündən sonra ana Yelizaveta Nikolayevna və oğul İqor Azərbaycandan Sankt-Peterburqa köçməyə məcbur olurlar. Lakin sovet ÇK-sı burda da onları təqib edirdi.

«...1937-ci ildə Mehmandarovlar ailəsi Peterburqdan Saratova sürgün edilir. Lakin İqor Mehmandarov burda da təqiblərdən yaxa qurtara bilmir. Adi yaşayış şəraitinin olmaması, ağır maliyyə çətinlikləri günaşırı XDİK-ə çağırış onların həyatını burda katorqadan da dözülməz edir.

Lakin bütün bunlarla kifayətlənməyən cəlladlar Mehmandarovlar ailəsindən yenə də əl çəkmirlər. 1941-ci ildə Y. N. Mehmandarovanı yenidən Sibirə sürgün edirlər. Bu dəfə o, alman faşistləri tərəfindən partladılan qatarda həlak olur. Oğlu isə sürgündən sonra uzun illər Kalininqradda yaşayır. 1977-ci ildə isə Azərbaycanın hökumət rəhbəri onu Bakı şəhərinə dəvət edir.[1]

...Azərbaycan Respublikası Baş Prokurorluğunun vəsatətinə əsasən vaxtilə Mehmandarovların yaşadığı Sankt-Peterburqa və Saratov vilayət prokurorluqlarına sorğu göndərildi. Həmin işlər öyrənildi və nəhayət, İqor Səməd bəy oğlu Mehmandarova, anası Yelizaveta Nikolayevna Mehmandarovaya rəsmi sənəd aldıq. Gec də olsa xalqımızın tarixindən qara ləkələrin biri də silindi» (E. Hacıyev, «Bir qara ləkə də silindi» məqaləsi, 8 iyun 1993-cü il. «Xalq qəzeti»).

***

1910-cu ilin ılıq may günlərindən birində uzun ayrılıqdan sonra doğma Qafqaz Səməd bəyi qəhrəman oğul kimi qoynuna aldı. O, Tiflisdə yerləşən birinci Qafqaz ordusunun korpusunda artilleriya rəisi təyin edildi.

Səməd bəyi yaxından tanıyan mayor Hacıağa İbrahimbəyli 1946-cı ildə çap etdirdiyi «Səməd bəy Mehmandarov» adlı kitabçasında iftixarla yazır:

«Rəsmən hərbi akademik təhsili olmayan bir zabit yalnız böyük bacarığı sayəsində, hərbi xidməti çox sevdiyinə, döyüşlərdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına və son dərəcə təmiz adam olduğuna

[1] Tam artilleriya generalı Səməd bəy Mehmandarovun yeganə övladı İqor Mehmandarov 1989-cu ildə Bakıda vəfat etdi —müəl.

görə bu qədər böyük rütbə sahibi ola bilərdi. Səməd bəy Mehmandarov da məhz belə bir zabit idi.

Əla səviyyəli topçu olan Səməd bəy Mehmandarova rəsmən topçu akademik təhsili olan hər bir topçu, həmçinin görkəmli qoşun generalı olan hər bir ərkani zabiti həsəd apara bilərdi».

Birinci dünya müharibəsi illərində general Mehmandarov almanları bir neçə dəfə ciddi surətdə məğlub edən istedadlı sərkərdə kimi ad-san qazanmışdı.

1914-cü il sentyabrın on beşində keçirilən Lodz əməliyyatında general Mehmandarov xüsusilə şöhrət qazandı. Alman generalı Makenzenin qoşunları güclü hücumla İvanqorod şəhərini alıb sürətlə Lodz şəhəri uğrunda əməliyyata başladı. Güclü təzyiqlə geri çəkilən rus qoşunları çox ağır vəziyyətdə idi. Bütün mövqelərdə hücuma keçən almanlar dayanmadan irəliləyərək geri çəkilən rus qoşunlarının bir hissəsinin qarşısını kəsib mühasirəyə almağa çalışırdı.

Mehmandarovun iyirmi birinci piyada diviziyası səksən birinci Abşeron, səksən ikinci Dağıstan, səksən üçüncü Samur və səksən dördüncü Şirvan polklarından təşkil olunmuşdu. Bu polkların hərəsinin özünəməxsus döyüş ənənəsi vardı.

Korpus komandanı öz bölmələrinin müqəddəratı üçün təşvişə düşərək Mehmandarovun diviziyasının nə vəziyyətdə olduğunu telefonla ondan xəbər aldı. Səməd bəyin telefonda komandirlərə məxsus, mərd, qısa cavabı belə oldu: «Vəziyyət ağırdır. Hücuma keçirəm!».

İki rus diviziyasının geri çəkildiyi belə bir ağır vaxtda Mehmandarovun diviziyası böyük bir inamla irəliləyən düşmənə ağır zərbələr vurub onu geri oturtdu. Üç günlük ağır döyüşlərdən sonra İvanqorod şəhərinin hüdudlarına çatıb onu mühasirəyə aldı. Birinci dünya müharibəsi tarixində Mehmandarovun bu müvəffəqiyyətli əməliyyatı alman generalı Makenzenin sürətli planlarını puça çıxartdı. Geri çəkilən iki rus diviziyasını isə mühasirəyə düşmək rüsvayçılığından xilas etdi.

Həmin əməliyyat zamanı general Əliağa Şıxlinski Ali Baş komandan tərəfindən səhra toplarının baş müfəttişi yanında xüsusi tapşırıq generalı vəzifəsini daşıyırdı. Sonralar o yazırdı:

«O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün qərb cəbhəsinə çağırıldım. Mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Səməd bəy Mehmandarovun korpusunda ağır topların vəzifəsi düzgün başa düşülmüş və bu toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir. Bu iş korpus top müfəttişinin təşəbbüsü ilə yox, məhz mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi».

Bu müharibədə misilsiz qələbələrə görə Mehmandarova tam artilleriya generalı rütbəsi verildi. 1915-ci ildə o, ikinci Qafqaz ordu korpusuna komandan təyin edildi.

General Səməd bəy Mehmandarovun döyüşlərdə göstərdiyi igidliyi və əsgərlərlə xoş rəftarı haqqında onun müasirləri iftixarla söhbət açırlar. Mayor Hacıağa İbrahimbəyli yazır ki, general Mehmandarov birinci dünya müharibəsi zamanı olduqca çox şöhrət qazanmışdı. Vuruşmaların ən qorxulu dəqiqələrində onun misilsiz soyuqqanlığı və hədsiz qoçaqlığı rus ordusunda məşhur olmuşdu.

Bununla bərabər o, olduqca ədalətli, namuslu, düz danışan adamları sevərək onlara kömək göstərən, ürəyi düz olmayanlara qarşı amansız bir adam idi. Şəxsən Mehmandarovu görənlərin hamısı təsdiq edir ki, ona tabe olanların hamısı ondan oddan qorxan kimi qorxar, lakin onu sevər, ona inanardılar.

Mehmandarov əsgərlərlə həmişə xoş rəftar edərdi və daim onların qayğısına qalardı».

«Mehmandarov nadir artilleriyaçıdır». Bu üç kəlmə söz Qırmızı Bayraqlı Qafqaz Ordusunun komandanı İ. E. Yakirə məxsusdur. Onu 1925-ci ildə «Birləşmiş Azərbaycan hərbi məktəbi»ndə müəllim işləyən Səməd bəyin şəxsi işinə komandan Yakir öz dəst-xəttilə yazıb. İnqilab illərində Mehmandarovun həyatı çox təlatümlü keçib. Nə yeni hökumət, nə də onun adamları ona inam gətirmirdilərlər. Hər yerdə «çar generalı», «müsavat naziri» kəlmələri sərt şillə kimi onun və silahdaşlarının üzünə çırpılırdı. Həmin o narahat illərdən Səməd bəy Mehmandarovun öz əlilə doldurduğu iki vərəq kağız qalıb. Onları ilk dəfə 1988-ci il fevralın on səkkizində «Molodyoj Azerbaydjana» qəzetində dərc etdirən jurnalist N. Davıdov olub. Onu kiçik ixtisarla sizə təqdim edirəm.

## GENERAL MEHMANDAROVUN ANKETİ

Həyatda o, boyca balaca, iki yerə daranıb ayrılmış ağ saqqallı bir adam idi. Həmişə kiçik ayaqlarına görə xüsusi dəridən tikilmiş yüngül çəkmə geyərdi.

Deyirlər ki, 1923-cü ildə ağsaqqallı generalı... əlində süpürgə Bakıda görüblər. Altmış yeddi yaşlı general, Musavat hökumətinin hərbi naziri kimi iki il keçdiyi həmin bu küçəni süpürüb adamlardan utanaraq Azərbaycan Fövqəladə Komissiyasına qeyd olunmağa tələsirdi. Özü də həmin gün. Qoy görsünlər ki, o, yerindədir, heç yerə getməyib, heç yana qaçmayıb.

Deyirlər ki, belə olub. Hər ehtimala qarşı, bizim əlimiz çatan nəşrlərdə bu yoxdur, ancaq bu, adamların yaddaşındasa qalıb. Uzun müddət belə hesab edirdilər ki, öz tariximizi, onun bütün keçidlərində bilmək bizə o qədər də lazım deyil, əgər biz onu bütün ziddiyyətləri ilə — lap həqiqət olsa belə — yazsaq, «düz başa düşmərik». Lakin oxşarlığın şüası, çəkilmələr zamanı sualtı daşlar təmizlənən kimi, həqiqəti üzə çıxardaraq bütün qaranlıq künclərə işıq saçır.

Oktyabr inqilabının yetmiş illik yubileyi ərəfəsində jurnalistlik axtarışı məni çekistlərin arxivinə gətirib çıxartdı. Burda «keçmiş adamlar»ın anketləri arasında illərin soldurduğu və Mehmandarovun xırda hərflərlə yazdığı ikiqat bir vərəq saxlanılır. O illərin qoxusunu verən bir vərəq...

Səməd bəy Sadıq bəy oğlu Mehmandarov xidmət illərini necə və harada keçirib? Anketdən bunu müəyyən etmək olmur. Ancaq anketin «təltiflər» sütununa görə mühakimə yürütsək, məlum olur ki, Mehmandarov həsəd aparılası hərbi xidmət yolu keçib. Həmin sütunda göstərilib: «üçüncü və dördüncü dərəcəli Georgi ordeni, brilyantla bəzədilmiş qızıl silah, birinci, ikinci və üçüncü dərəcəli Stanislav ordeni, birinci, ikinci və üçüncü dərəcəli Anna ordeni, ikinci, üçüncü, dördüncü dərəcəli Vladimir ordeni, Ağ qartal, Aleksandr Nevski və s. ordenləri... Burda sütunda yer qurtarıb, aşağıda yazılıb «və başqaları...». Bu ordenlər də şübhəsiz ki xidmətə görə verilib.

Sonra isə anketdə bir yığın sual var. Köhnə orduda sonuncu rütbəniz və vəzifəniz? Artilleriya generalı, ikinci Qafqaz korpusunun komandiri. 1937-ci il fevral inqilabı zamanı harda olmusunuz? Alman cəbhəsində. Bəs Oktyabr inqilabı zamanı? Petroqradda, 1917-ci ilin mayında üzv seçildiyim yaralıların Aleksandrovsk komitəsində. 1918-ci ildə altmış iki yaşlı generala Azərbaycan Demokratik Respublikasının musavatçılar kabinetində hərbi nazir vəzifəsini təklif edirlər və Mehmandarov bu təklifi qəbul edir. 1920-ci il iyunun dördündə onu həbs eləyib, iki aydan sonra Moskvaya göndərirlər. Ad gününü həbsdə «qeyd eləyir». Yeddi gündən sonra azad edilib Daimi Artilleriya Komissiyasının üzvü kimi səhra qərargahına göndərilir. Burda Mehmandarovun əliylə yazılıb:

«Bir dəfə də istintaq aparmadılar, heç bir ittiham irəli sürmədilər». Bəs nəyə görə? Rus qanı tökməyib, bolşeviklərə qarşı çıxış eləməyib. Hərbi andı qəbul eləyib. Əsgərdən generala kimi yüksəlib. Sədaqətlə xidmət edib. 1921-ci il noyabrın on səkkizində Səməd bəy Mehmandarov Nərimanov və Qarayevin xahişi ilə Bakıya — Hərbi Dəniz Xalq Komissarlığına qaytarılır. 1923-cü ildə yazılmış anketində göstərir: «İndiki vaxtdan tapşırıqçı və pul kağızlarının bölgüsü üzrə komissiyanın sədriyəm».

Bildiyimiz kimi, pul isə hər adama etibar edilmirdi. Deməli, o, təmiz adam olub.

Əgər Oktyabr inqilabına rəğbət bəsləməmişsinizsə bunun səbəbi nə olub? (həmin dövrdə sizin etiqadınız?).

C a v a b: — Bu suala ən yaxşı cavab — aprelin iyirmi səkkizində, yəni çevriliş günündə mənim Azərbaycan ordusuna verdiyim əmrdir. Bu əmr və eyni dərəcədə hissə rəislərinə göndərilmiş teleqramlar Qərargah arxivində qorunur və onlar mənim sovet hakimiyyətinə münasibətimi müəyyənləşdirə bilər.

Otuz doqquz nömrəli sual: hansı səpkili fəaliyyətə daha çox meyl edirsiniz?

C a v a b: Mənim yaşımda sakit və dinc fəaliyyətə...

## Təlatümlü günlərdə

«1923-cü ildə ağsaqqal general Mehmandarovu əlində süpürgə Bakıda görüblər». Anketdən bu sözləri oxuyanda istər-istəməz adamın ürəyi ağrıyır. Orduda minlərlə əsgərə, zabitə silah tutmağı öyrədən igid bir sərkərdəni bu qədər

alçaldan kimlər idi? Şöhrəti Rusiyanın sərhədlərini aşan Port-Artur, Birinci dünya müharibəsinin qəhrəmanı ilə ömrünün ağsaqqal çağında belə «ciddi zarafat» edən şəxsdə vicdandan əsər-əlamət vardımı?

1920-ci ildən şahid qalmış bir sənəddə bu sualların cavabını tapmaq olur.

«Qızıl Ordu demək olar ki, bütünlüklə döyüş qabiliyyətindən məhrum və daşnak zabitlərinin komandası altında olan erməni könüllülərindən ibarət idi. Bu dəstələr ətraf kəndləri qarət edir, bununla müsəlman kəndlərinin qəzəbinə səbəb olurdular».

Bax, bu «könüllülər» Bakıya varid olandan sonra cəmi il yarım Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuş Mehmandarovu xalqın gözündən salmaq üçün əlinə süpürgə verib küçə süpürtdürmüşlər. Şübhəsiz, düşmənlərimiz yaxşı bilirdilər ki, Səməd bəy Mehmandarovu xalq sevir və inanırdılar ki, onlara «azadlıq gətirən könüllülərin» zülmündən xalqı məhz Səməd bəy Mehmandarov kimi generallar qurtara bilər. Bu ümidlə də hələ 1919-cu il iyunun altısında Qusar, Quba, Xaçmaz, Dəvəçi əhalisinin keçirdikləri mitinqin qətnaməsində deyilirdi:

«Biz əminik ki, hökumətimiz (Azərbaycan Demokratik hökuməti — Ş. N.) döyüş meydanında özünün son üzvünü itirənədək ona etibar etdiyimiz qadın və qızlarımızı qara generalların əlinə verməyəcək. Nikolayın mənafeyi naminə Port-Artur civarlarında fərqlənmiş şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözündə yaş damlaları süzüldüyü halda, Vətən, qadın və qızlarımızın, ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi».

Lakin işlər dəyişdi, dünyanın çərxi sanki tərsinə fırlandı. Möminlə dinsizin müharibəsi başlandı. Bu döyüşlərdə biz çoxlu tələfat verdik. Azərbaycanı içəridən «yeyən» S. Şaumyan, T. Əmirov, S. Lalayev, (hər ikisi ermənidir — red.) Avakyan kimi daşnaklar quzu cildində qurd olmuşdular. Onların quldur dəstələri gecələr müsəlman evlərinə hücum edir, kəndlilərin silahını əlindən alıb, vəhşicəsinə döyürdülər. «Azərbaycan» qəzeti (30/17 mart 1919, №67) yazırdı ki, Qafqaz cəbhəsindən türk orduları geri çəkilərkən Türkiyə erməniləri Qafqaz erməniləri ilə birləşdilər və birlikdə həmin hissələrə qarşı hücuma keçərək, onlara zərbə vurmağa başladılar. Bir tərəfdən Andronikin, digər tərəfdən isə Dro, Keri, Muradın dəstələri hərəkət edirdilər. Tərk edilmiş bütün müsəlman kəndləri qarət olunmuş və yerlə yeksan edilmişdi. Məhz bu vaxt Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri başlandı. Bu hadisələrlə əlaqədar Şaumyanın yazdığı məktub Gəncə komendantının əlinə keçdi. Məktubdan Şaumyan və Avakyanın daşnak olduqları açıq-aydın görünürdü... Bu faciələrin hamısı on səkkiz-on doqquzuncu illərdə olmuşdu. 1920-ci ilin aprelində isə qırx minlik milli Azərbaycan Ordusu yetmiş iki minlik XI Ordunun qarşısında tab gətirə bilmədi. Ona görə ki, otuz minlik piyadası, on min süvari qoşunu olan milli Azərbaycan Ordusu Zəngəzurda, Qarabağda, Qazax və başqa qəzalarda daşnak quldurları Hamazasbın və Andronikin dəstələrinə qarşı vuruşurdu.

On birinci ordu ilə Azərbaycana gələn marşal S. A. Krasovski «Жизни в авиации» kitabının (1960) yetmişinci səhifəsində bu barədə yazır: «XI Ordu hissələri Azərbaycan sərhəddinə, Yalama stansiyasına yaxınlaşanda Bakıda müsavat hökumətinin iclası gedirdi. Bu iclasda hərbi nazir general Mehmandarovdan hökumət başçısı Nəsibbəy Yusifbəyov soruşur: «Müsavat ordusu düşmənin hücumunun qarşısını ala biləcəkmi?» Nazir də sualı sualla qarşıladı: «Hansı düşməni nəzərdə tutursunuz? Daşnakları, yaxud menşevikləri? Menşevikləri deyirsinizsə ümid var. Hərgah XI Ordunu nəzərdə tutursunuzsa, onda bizim gücümüz yalnız bir dəqiqəliyə kifayətdir, cənab nazir. Biz bolşeviklərlə döyüşməyəcəyik!».

Ona görə də «sovet tərəfinin xahişi ilə xüsusi olaraq Bakıya dəvət olunmuş türk hərbi generalı Xəlil Paşanın da daxil olduğu XI Qızıl Ordu 1920-ci il aprelin 28-də döyüşsüz Bakıya daxil oldu. Xəlil Paşa Dərbənddən bu tərəfə yol boyu bütün dayanacaqlarda çıxış edib əhalini sovet hakimiyyətini müdafiə etməyə çağırırdı. İstambul hərbi muzeyində Xəlil Paşanın RSFSR, MİK tərəfindən təltif olunduğu gümüş xəncər saxlanılır» (Z. Bünyadov «Elm və həyat» jurnalı, 1988-ci il, № 10).

Bu yaxınlarda Türkiyədə səfərdə olmuş oyma işləri üzrə sənətkar dostumuz Firidun Seyfəddinoğlu 1976-cı ildə İstambulda çap olunmuş «Azərbaycan» adlı bir kitab da gətirmişdi. Kitabın müəllifi Kərim Oder xalqımızın ədəbiyyatından, tarixindən, iqtisadiyyatından və Azərbaycan Demokratik hökumətinin fəaliyyətindən məhəbbətlə söhbət açır. Kitab həm də xalqımızın görkəmli oğullarının nadir fotoşəkilləri ilə bəzədilib. Orda Səməd bəyin on səkkiz—iyirminci illərdəki fəaliyyəti haqqında məlumat və bizə məlum olmayan fotoşəkli də verilib. Kərim Oder yazır:

«Cümhuriyyət hökuməti əsgəri işlərə əhəmiyyət vermişdir. Hərbiyyə nəzarətə general Səməd bəy Mehmandarov təyin olunmuşdu. Onun müavini rus artilleriyasının «Allahı», general-leytenant Əliağa Şıxlinski, baş qərargah rəisi isə general-leytenant Məmməd bəy Sulkeviç idi. İyirmi dörd min süngü, altı min piyada, süvari, topçu və digər siniflərdən ibarət hər cür silahla yaraqlanmış bir ordu qurulmuş və Xəzər dənizində kiçik bir flot hazırlanmışdır. Bakıda, Lənkəran və Qarabağda milli hökuməti tanımaq istəməyənlərdən acı bir vəziyyət yaranmışdır. Rus və digər düşmən qüvvələri itaət və nizam altına alınmışdır».

İyirminci illərdə general Səməd bəy Mehmandarovun təlatümlü keçən günlərini o vaxtlar on iki yaşı olan oğlu Pir daha yaxşı xatırlayırdı: «Atam aprelin iyirmi yeddisində parlaman iclasından qayıdıb özümüzlə aparmaq üçün anamın hazırladığı çamadanları gördükdə dedi ki, bunları boşalt, heç yerə gedəsi deyilik. Anam: «Nə danışırsan? Necə gedəsi deyilik? Bilirsən ki, səni güllələyəcəklər?».

Atam cavab verdi ki, parlamanın son iclası qurtaranda «Hümmət» fraksiyası lideri Əliheydər Qarayev mənə yaxınlaşıb əmin etdi ki, Səməd bəy, getmə, qal! Heç yerə getmə. Söz verirəm ki, başınızdan bir dənə də tük əskik olmayacaq. Qal bizimlə işlə...

Anam isə etiraz edib dedi: «Ola bilər ki, sənə heç nə eləməzlər, amma oğlunun taleyi, gələcəyi, mənim vəziyyətim?..»

Atam qəti səslə: «Heç yerə getməyəcəyik» — dedi. Anam inadla «Axı qatar Biləcəridə gözləyir...». Atam: «Bizsiz də gedərlər. Vətəndən ayrılmağa heç bir əsasım yoxdur».

Doğrudan da, Biləcəridə müsavat hökumətinin başçılarını Tiflisə aparacaq qatar atama görə saat yarım gözləmişdi.

Tədqiqatçılar Səməd bəy Mehmandarovun tərcümeyi-halından danışanda iyirmi birinci ildən iyirmi dördüncü ilə kimi olan fəaliyyətindən demək olar ki, sükutla keçirlər. 1920-ci ilin avqustun birindən Səməd bəy Mehmandarov Əliağa Şıxlinski ilə birlikdə baş qərargahda işləmək üçün Moskvaya göndərilir. Şıxlinski Ali Artilleriya məktəbində gələcəyin marşalı L. A. Qovorova, N. D. Yakovlevə, M. N. Çistyakova, baş artilleriya marşalı N. N. Voronova və başqalarına dərs deyib. Səməd bəy Mehmandarov da Artilleriya Nizamnaməsi hazırlayan komissiyanın tərkibinə daxil edilib, həm də Hərbi Akademiyada taktikadan dərs deyib. İyirmi birinci ilin yayında Azərbaycana qayıdan hər iki general Respublika Hərbi Komissarlığının sərəncamında saxlanılır. Əliağa Şıxlinski bu barədə daha dəqiq məlumat verir: «İyulun on səkkizində biz ikimiz də Bakıya yola düşüb, iyulun iyirmi ikisində gəlib Bakıya çatdıq. Bakıda biz Azərbaycan Sovet Qoşunları Qərargahına daxil edildik. Bundan başqa hər ikimiz Azərbaycan Komandirlər məktəbində topçuluqdan — Mehmandarov rus, mən isə Azərbaycan dilində dərs deməyə başladıq. Qarnizon rəisi öz sədarəti altında olaraq, Bakı qarnizonu, Hərbi-Elmi Cəmiyyətinin təşkili haqqında əmr verdi: Mən sədr müavini təyin edildim. Qarnizon rəisi özü sədrlik etmirdi, adətən iclasları mən aparırdım. Mehmandarov isə bu cəmiyyətin üzvlüyünə təyin edilmişdi».

Bəs iyirmi üçüncü ildə general Səməd bəy Mehmandarovun əlinə süpürgə verib küçə süpürtdürən kimlər idi? Mərkəzdə oturan Stalin əmr vermişdi ki, müsəlman ziyalıları arasında «təmizləmə» aparılsın. Bakıda solların mövqeyini möhkəmlədən, Nərimanovun məsləkdaşlarına qarşı mübarizəni gücləndirən AK(b) P Bakı Komitəsinin katibi L. Mirzoyan, onun əlaltıları S. Qutin, A. Mikoyanın «varisləri» Sərkis və içərimizi qurd kimi gəmirən bir qrup keçmiş daşnak, havadarları Stalinin əmrini canla-başla yerinə yetirirdilər. Həmin ildə onlar Nərimanovu da Bakıdan perik salmışdılar. Onlar yaxşı bilirdilər ki, Nərimanov general Mehmandarovu sərkərdə kimi çox yüksək qiymətləndirirdi.

## Cümhuriyyət dövründə

Qırx altı il çar ordusunda xidmət edən Səməd bəy Mehmandarov 1917-ci il martın 28-də tam artilleriya generalı rütbəsində istefa verdi. Onun sonuncu vəzifəsi ikinci Qafqaz ordusunda korpuslar qrupunun komandanı idi. Mütəxəssislərin fikrincə bu, ordu komandanı vəzifəsinə bərabərdir. Birinci dünya müharibəsində iki ildən çox korpusa komandanlıq edən Səməd 5 ay o qədər məharətli döyüşlər

aparırdı ki, ikinci Qafqaz ordu korpusu «general Mehmandarovun qrupu» kimi şöhrət qazanmışdı. Xüsusilə, Vilno (Vilnyus şəhəri) istiqamətindəki əməliyyatlar onu şöhrətin zirvəsinə qaldırmışdı. Ona görə də on il ərzində (1904—15-ci illərdə) Səməd bəy üç dəfə general rütbəsi almışdır: 1904-cü il oktyabrın 22-də general-mayor, 1908-ci il iyulun 13-də general-leytenant və 1915-ci ildə tam artilleriya generalı. Qısa müddətdə generallıq pillələrini keçmək və sürətli təltifat hərb aləmində çox nadir hadisədir.

Hərbi akademiya təhsili olmayan eloğlumuzun imperiya ordusunda belə sürətlə irəliləməsinin səbəbi onun qoçaqlığı və güclü hərbi məharəti olmuşdur. Səməd bəy Mehmandarov tam artilleriya generalı kimi ali rütbəyə layiq görülən ilk azərbaycanlı idi.

Bunların hamısı general Səməd bəyin fevral burjua inqilabına qədərki fəaliyyətidir. İmperiya dağılandan sonra Vladiqafqaz şəhərinə gələn Mehmandarov yaralılara yardım edən «Aleksandr komitəsi»nin üzvü seçilir. Ömründə ilk dəfə hərbi xidmətə son qoyub dinc həyat sürməyə başlayır. Cəmi bir neçə ay sakit yaşayan Səməd bəy 1918-ci il avqustun əvvəllərində Vladiqafqazı tərk etməli olur. Şimali Qafqazda sovet hakimiyyəti quran bolşeviklərlə işləməkdən imtina edən Səməd bəy Mehmandarov hərbi Gürcüstan yolu ilə Bakıya gəlir.

1918-ci il noyabrın 6-da Azərbaycan Demokratik hökumətinin qərarı ilə hərbi nazirlik yaranır. Nazirliyin təşkili iki məşhur generala — Səməd bəy Mehmandarova və Əliağa Şıxlinskiyə tapşırılır. Həmin ilin dekabrın 24-də nazir hərbi salamlaşma barədə belə bir əmr verir:

«Sırada, eləcə də sıradan kənarda olarkən əsgərlərin azərbaycanca salamlaşması — bir sözlə «salam», cavabı isə «Əleyküm salam» olmasını bütün zabitlərə əmr edirəm.

Təltif zamanı əsgərə deyilməlidir: «Mərhəba», əsgər cavab verməlidir: «Çox sağ ol».

**Hərbi nazir, artilleriya**
**generalı S. Mehmandarov**
**Baş Qərargah rəisi,**
**polkovnik H. Səlimov».**

Görkəmli sərkərdəmizin Azərbaycana gəlişini, dar gündə xalqın dayağı olmasını əsgərlər böyük sevinclə qarşılamışdır. İl yarım fəaliyyətdə olan Milli ordumuzda iyirmi bir azərbaycanlı general xidmət etmişdir, Onlardan yalnız ikisinə — Teymurbəy Novruzova və Səməd bəy Mehmandarova əsgərlər şərqi qoşmuşlar:

Qafqaziyaya şan gəlir,
Dərdlərə dərman gəlir,
Aç köksünü, qarlı Qafqaz,
Sevdiyin Səməd gəlir.

***

Çoxdan bəri gözlərdik,
Qafqaziyanı əhv et yaşa,
Onun Sizə salamı var,
Minlər yaşa, Səməd paşa.

Yetmiş il əl vurmadığımız, üzümüzə «tamamilə məxvidir» qrifilə bağlanan Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivində generalımız haqqında belə şərqilər çoxdur. Bu şərqilərdən hiss olunur ki, xalq öz xilaskarını çoxdan gözləyirmiş.

Səməd paşa sərdarımız,
Qan axıdar xəncərimiz,
Düşmənləri qəhr edərik,
Yurdlarını məhv edərik,
Biz bir tabor əsgərlərik,
Pək şanlıyıq.
Sağ ol Səməd paşa, səni min yaşa,
Vətənin üstündə oldun tamaşa.
Səməd paşa əsgərlərin padəri
Çağırır silah başına irəli.

Azərbaycanın taleyi həll olunduğu bir vaxtda mudafiə naziri kimi məsul bir vəzifəyə gələn Səməd bəy Mehmandarov qarşıda duran çətinlikləri çox yaxşı dərk edirdi. Yüz illərlə əsgəri qüvvəsi olmayan bir xalqa qısa vaxtda nizami ordu yaratmaq ağır və məsuliyyətli iş idi. Bir tərəfdən də bu dar gündə Azərbaycanın ətrafı düşmənlərlə əhatə olunmuşdu. Dağılan imperiyadan Azərbaycana heç nə qalmamışdı. Nə silah, nə əsgəri qüvvə, nə də qışlalar vardı. Tərəddüd, şübhələr, bəzən də inamsızlıq altmış iki yaşlı ixtiyar generala əzab verirdi. Amma qəlbindəki inamı, güclü vətənpərvərliyi hər şeydən üstün idi. Bu inam güclü dağ seli olub tərəddüd və şübhələri yuyub aparırdı. Ana vətənə olan sonsuz bir məhəbbətlə o, kürsüyə qalxmışdı.

Səməd bəyin səlis danışığı, mərd siması, vətən təəssübkeşliyi ilə yana-yana danışması ziyalı qadınlarımızdan birinin — Məryəm xanım Bayraməlibəyovanın yaddaşında əbədi qalmışdır.

Tribunada, gözqamaşdırıcı şüaların düşdüyü yerdə general Səmədbəy Mehmandarov dayanmışdı. Ağarmış saçları, nurani sifəti, daxili kamilliyindən xəbər verirdi. Bu gün o, hərbi nazir vəzifəsinə təyin edilməyinə razılıq verməliydi. Respublikanın fəaliyyətinin elə ilk günlərindən generala təkidlə müraciət etmişdilər ki, belə bir məsuliyyətli vəzifəni öz üzərinə götürsün. O isə hər dəfə qətiyyətlə bu təklifi rədd etmişdi. Ona görə yox ki, çətinlik çəkəcəkdi. Dərk edirdi ki, indiyə qədər çarın etibarsız saydığı müsəlmanları, hərbi mükəlləfiyyətə layiq görmədiyi xalqı indi yeni sənətə hazırlamalı idi. Bu ona bənzəyirdi ki, yaşlı, ahıl bir adama yazı yazmağı öyrədəsən. Yox, yox, yüksək təşkilatçılıq keyfiyyətlərinə malik olan keçmiş çar generalını belə çətinliklər qorxuda bilməzdi.

...Səməd bəy Mehmandarovu bu addımı atmağa vadar edən isə qarşısıalınmaz, çox qüvvətli bir hiss idi — Vətən məhəbbəti. Azca həyəcanla dediyi «Üzərimə götürdüyüm bu müqəddəs vəzifəni yerinə yetirmək üçün bütün gücümü və bacarığımı sərf edəcəyəm» sözləri yerdən alqışlarla qarşılandı. Onun yan-yörəsində parıldaşan günəş, şəfəqləri bu günün bayram əhval-ruhiyyəsini daha da artırırdı. «Generalın bu müdrikliyi təzimə layiqdir. Allah özü onu bizə xilaskar yollayıb» — deyə hörmət əlaməti olaraq başımı endirdim».

* * *

Tapılan hər bir sənəd, fotoşəkil yenidən yazılacaq Azərbaycan tarixinin sanballı səhifəsi olacaq. Xüsusilə, hərb tariximizdəki boşluğun doldurulması yeni suveren dövlətimizin özülünü qoyan gənclərimizdə daha çox maraq doğurur. Çünki bu sahə uzun illər araşdırılmamış, «tamamilə məxfi» qalmış və hətta lazımsız bir tarix kimi öyrənilməmişdir.

Yetmiş il əl vurmadığımız 1918—20-ci illərin arxiv qovluqları açıldıqca bizə məlum olur ki, il yarım fəaliyyətdə olan Milli Ordu tariximiz çox zəngin olmuşdur. O da məlum olur ki, hərb tariximizi zənginləşdirən general Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Məmməd bəy Sulkeviç, Şahzadə Əmir Kazımxan Qacar..., bir də Azərbaycanın əsgər və zabitləri idilər.

Şöhrətli generalımız Səmədbəy Mehmandarovun bu illərdəki (1918—20) fəaliyyəti xüsusilə böyükdür. Onun yeni ordunun yaradılmasındakı müstəsna rolu, 1918-ci il dekabrın 25-də Azərbaycan xalqına müraciəti, əsgər və zabitlər qarşısında ata nəsihətli çıxışları və nəhayət, güclü Vətən təəssübkeşliyi 40 minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Həyatı və fəaliyyəti hələ də lazımınca tədqiq olunmamış general Mehmandarovun haqqında araşdırmalar apardıqca təkcə o illərin sənədlərində yox, qəzetlərin də səhifələrində çıxış və nitqlərinə rast gəlmək olur.

İlk hərbiyyə nazirimiz Səməd bəy Mehmandarov belə nitqlərdən birini 1919-cu il fevralın 25-də Azərbaycan «Məclisi-məbusan»ında da söyləmişdir. Generalın nitqi həmin il martın 7-də «Azərbaycan» qəzetində (131-ci nömrəsində) dərc olunmuşdur.

Səməd bəy öz nitqində fərarilikdən söhbət açır və o vaxtlar orduda onun olmasını xüsusi qeyd edir: «...Gəncədə son zamanlar bir adam qaçmışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtilə heç kəs qaçmayacaqdır».

General Səməd bəy Mehmandarovun ümumi məzmunu vətənpərvərlik ruhu ilə dolu olan nitqi bugünkü ağrı-acılarımızla tam səsləşir:

«Cəbhədə bulunmuş bütün zabitan ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimati-hərbiyə deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər.

Bu qism şeyləri yenidən düzəltmək üçün bir manatlıq nəsnəyə 30-dan 100 manata qədər pul verilməlidir».

Parlamentdə mülahizələrini sərt şəkildə bildirən nazir bahalığın tüğyan etdiyi bir ölkədə ordu quruculuğuna mane olanları cəzalandırmağı tələb edir. Axı, əlli ilə yaxın nizami orduda qulluq edən Mehmandarov heç vaxt görməmişdi ki, zabit əsgərin yeməyini, paltar və silahını satıb cib xərcliyi eləsin. Olduqca təmiz adam olan Səməd bəy indi gördüklərinə heyrət edir və dəhşətə gəlirdi. O, zabit adını, zabit şərəfini qorumağı hər şeydən üstün tuturdu. Ona görə də «Məclisi-məbusan»dakı nitqində xüsusi vurğuyla qeyd edirdi ki, əsgəri təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zabitan yalnız mərifət cəhətincə deyil, zahiri dəxi əsgərə hüsni-təsir bəxş olmalıdır. Onun geyimi daimi təmiz və faxir olması vacibdir.

Səməd bəy Mehmandarov Azərbaycana müharibə şəraitində gəlmişdi. Hələ imperiya dağılmamış ölkədə anarxiya, başıpozuqluq hökm sürürdü. Ayrı-ayrı qəzalarda qaçaq-quldur dəstələri yaranmışdı. Bakıda bolşevizm hökmranlıq iddiasında idi. İrandan və Qafqaz cəbhəsindən qayıdan rus əsgərləri, erməni-daşnak dəstələri ilə birləşib «Şura bayrağı» altında təkcə Bakıda on iki min nəfərə yaxın azərbaycanlını qanına qəltan eləmişdi.

Bu talan və qırğınlar yalnız Bakıda deyil, Quba, Şamaxı, Gəncə, Qarabağ, Muğan bölgələrində də olmuşdu. İrəvan və Zəngəzurda dağılan kəndlərin, öldürülən soydaşlarımızın sayı yüz mini keçmişdi.

Azərbaycan hökumətini tanımaq istəməyən əldəqayırma Muğan respublikası, ingilis qoşunlarının gəlişi, ağqvardiyaçı general Denikinin təhlükəsi, müxtəlif siyasi partiyalar, bitərəf sosialist, daşnak partiyaları, eləcə də portfelsiz nazirlər elə hey çoxalırdı. Sərhəd bölgələrində erməni hücumları, məhəlli toqquşmaları yeni yaranan orduya dirçəlməyə imkan vermirdi. Belə şəraitdə hərb naziri və onun tabeliyində olanlar gərgin işləməli olurdu. Əsgəri qışlaları gəzib yoxlayan Səməd bəy Mehmandarov hələ ki, könülaçan heç nə görmürdü. Nə nizam-intizam, nə geyim və silahlanma, nə də hərbi-hazırlıq peşəkar hərbçi olan naziri qane etmirdi.

Parlamentdə «Türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Onlardan külli miqdarda taxıl, heyvan və sair məkulat qalmışdır» — deyən hərb naziri din və dil qardaşımızın xeyirxahlığı ilə yanaşı qüsurlarını da söyləməkdən çəkinməmişdir.

«Əlbəttə, heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası onların hərəkətini tənqid etməyimizə də mane olmaz. Hərbiyyə nəzarəti Gəncəyə köçənədək bizə xəbər verdilər ki, əsgəri işlərimiz yaxşıdır və çoxlu yığılır, lazım olan kimi məşq verilir və ilaxır. Hər yeri gəzdim, qət`əti-əsgəriyyəmizə baxdım fəqət iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşkün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda,

yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamlarıyla dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər və moqif komandaları öz vəzifələrindən sui-istifadə edirlərdi. Çox bir külfətin yeganə çörək gətirənini əsgərə alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuru paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur».

1918-ci il dekabrın 25-də Azərbaycan Respublikasının hərbi naziri general Səməd bəy Mehmandarov öz xalqına yanıqlı bəyanatla müraciət etmişdir.

Bəyanatın əsas mövzusu o vaxtlar milli orduda yaranan hərc-mərclik və özbaşınalıq idi. Həmin illərdə nazir Səməd bəy Mehmandarovun müavini Əliağa Şıxlinski, Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, İbrahim ağa Vəkilov kimi məşhur generallar olsalar da yenə də orduda fərarilik və xoşagəlməz hallar baş verirdi. Lakin onlar zəngin hərbi təcrübələrinin, biliklərinin və əsl hərbçi dəyanətlərinin sayəsində tam nizami ordu yaratmağa nail olmuşlar.

Bəs o vaxtkı məşhur sərkərdələrimiz, xüsusilə nazir Səməd bəy Mehmandarov fərariliyin qarşısını necə almışdır? Məhz tələbkarlığı və sərt bəyanatı ilə 1918-ci ildə Səməd bəy Mehmandarov orduda yaranan çatışmazlığın qarşısına keçilməz bir sədd çəkmişdi.

Xalqımızın dar günündə hərbi nazir Səməd bəy Mehmandarovun on səkkizinci ildə yazdığı «Azərbaycan vətəndaşlarına» müraciəti bu günümüzlə tam səsləşir.

Onu da xatırladım ki, aşkarlığın işığı ilə açılan «tamamilə məxfidir» qrifli əlyazmasını Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində araşdırmalar apararkən əldə etdik.

«Cari ilin yazından etibarən Azərbaycan ayrılıb müstəqil dövlət oldu. Bu müddət ərzində cəmi hökumət adamlarının bütün səyləri ölkədə anarxiyanın qarşısını almaq oldu və qanunçuluq pozulan yerlərdə onun bərpasına yönəldilmişdir. Bu məqsədə nail olmaqdan ötrü hökumətin başqa tədbirlərinin arasında özümüzə məxsus hərbi qüvvələrin yaradılması, yəni Azərbaycan qoşunlarının təşkili haqqında qərar qəbul olunmuşdur.

...Hal-hazırda qoşunlarımızın təşkilini öz öhdəmə götürmüşəm.

İndi ölkəmizin bütün vətəndaşları—istər kasıb, istər dövlətli, eyni şəkildə hərbi qulluğu çəkəcəklər. Və əgər haçansa, kimsə dövlətliləri hərbi qulluqdan azad etsə, günahkarlar ağır cəzalanacaqlar.

Hərbi hissələrdə əsgərlər yaxşı geyinəcək, onların ərzaqlarının keyfiyyətcə yaxşı olmasına xüsusi fikir verib, bu barədə ciddi elan etmişəm. Göstəriş verilib ki, otaqlar təmir olunsun, qızdırılsın, bütün əsgərlərin fərdi yorğan-döşəyi olacaqdır.

Mən tədbir görmüşəm ki, əsgərlərə qarşı bütün qeyri-qanuni hərəkətlər ciddi töhmətlənsin və xüsusi ilə əsgərlərin döyülməsi halları ciddi cəzalandırılsın.

...Bütün bu tədbirləri həyata keçirib üzümü ilk növbədə sizə, hərbi hissələri tərk etmiş Azərbaycan vətəndaşlarına tuturam və bəyan edirəm ki, sizin böyük

xətanızı, əsgərlikdən qaçmağınızı bağışlayıb öz hissələrinizə köhnə təqvimlə yanvar ayının birindən gec olmayaraq qayıtmağa çağırıram. Lakin, əlavə edirəm ki, bu müddət üçün kim öz bölüyünə qayıtmasa, o, hərbi dövrün qanunlarına görə ağır cəza alacaq.

Bundan sonra, ölkəmizin bütün əhalisinə əziz Vətənimiz adından müraciət edərək xahiş edirəm ki, gözəl Vətənimiz Azərbaycan eşqinə, yüksək vətənpərvərlik hissimiz naminə mənə bizim qoşunumuzun təşkili işində yardım göstərəsiniz, bu qoşun bizə ölkəmizdə qanunçuluğu qorumaqdan ötrü vacibdir. Və yenə də xahiş edirəm ki, bütün o şəxslər ki, çağırış yaşları çatıb, əsgərlik etməlidirlər. Torpaqlarımızı qorumaq üçün özlərini çatdırsınlar. Qoy Vətən qarşısında borcunu unudan hər kəs Vətən qarşısında böyük günah işlədiyi üçün qohum-qardaş qınağı altına düşsün və, əlbəttə, qanun üzrə cəzalandırılsın.

Mənim bu bəyanatım ölkənin hər yerində yayılacaq və qoy savadlılar onu oxuyub mənasını savadsızlara çatdırsınlar».

***

Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz, dünya tarixinə yazılmış və bütün Avropa xalqlarının bizə nisbətən daha çox bildikləri, danışdıqları qəhrəmanlıqlardan ibarət şanlı hərb tariximizi xalqımız bilməlidir. Yüz illik rus hakimiyyətindən azad olunmuş türk xalqına xatırlatmaq lazımdır ki, biz həmişə boyunduruq altında olmamışıq. Hətta Avropa və Asiyaya öz tələblərimizi diktə etmişik.

...Belə zənn edirəm ki, türk tarixini yaxşı bilən kiməsə, bu günkü mühüm hadisələr də daxil olmaqla bizim xalqın tarixinə dair əsər yazmağı tapşırmaq lazımdır. Bu əsərdə xalqımızın keçmiş şöhrəti və yad hakimiyyəti dövründəki əzabları güzgüdə olduğu kimi öz əksini tapmalıdır.

**Səməd bəy Mehmandarov.**

Arxivdə generalın imzaladığı yüzlərlə sənədə, raporta və müraciətə rast gəlmişəm. Onların hamısı makinada yazılıb, ya da mətbəədə nəşr olunub. Yalnız bu yaxınlarda bir əlyazması tapdım. O, hərb naziri Mehmandarovun öz dəst-xəttilə Azərbaycan hökumətinin ünvanına yazılıb. 1919-cu il aprelin ikisində yazılan iki səhifəlik məruzə mənim üçün qeyri-adi tapıntı oldu. Nə gizlədim, bu tapıntıma hədsiz dərəcədə sevindim. Ona görə sevindim ki, müharibə aparan ölkənin generalının xalqının hərb tarixini yazdırmaq təşəbbüsünü vətənpərvərliyin zirvəsi kimi qiymətləndirdim.

Yuxarıda epiqraf kimi istifadə etdiyimiz cümlələr də həmin məruzədəndir. Belə tarixi sənədlərdən bixəbər olduğumuza görə bəzi «sapı özümüzdən olan baltalar» keçmiş sərkərdələrimiz barədə artıq-əskik danışırlar. Onlar hətta «hücuma» keçərək yazırlar ki, niyə Mehmandarovun, Şıxlinskinin və başqa sərkərdələrimizin Napoleon, Kutuzov, Suvorov kimi müdrik fikirləri, hərbi elmi

əsərləri qalmayıb. Bir sözlə, özümüzünkülərə qeyri-vətənpərvər damğası vururlar. Onda beləlvarinə cavab vermək çox ağır və əzablı olur. Bu müasir «vətənpərvərə» oğul istərəm başa salsın ki, totalitar rejim yetmiş ildən çoxdu onların 1918—20-ci illərdəki fəaliyyətinə «tamamilə məxvidir» möhürünü vurub. İndi, budur, aşkarlığın sayəsində yetmiş yeddi ildən sonra belələrinə Səməd bəy Mehmandarovun yazdığı tarixi sənəd cavab verir:

«Düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Yuxudan yenicə oyanmış xalqda sağlam, milli hiss oyatmalıyıq. Biz müsəlmanlar ancaq indi şüurlu həyat və milli yaradıcılıq dövrünə ayaq basmışıq... Xalq arasında türk irsinin milli hisslərini və vüqarını qaldırmaq üçün xalqı, qoşunlarımızı onun tarixi keçmişi ilə tanış etməliyik.

Yazılacaq məşhur tarixi əsərlər xalq içində və qoşunlarda geniş yayılmalı, hər bir kənd müəllimi və hər bir azərbaycanlı zabiti ondan istifadə etməlidir.

Gələcəkdə hökumətin köməkliyi ilə türk xalqının dahi xadim və rəhbərləri üçün müvafiq abidələr qoymaqla, onların xatirələri əbədiləşdirilməlidir».

Zənnimcə, general Səməd bəy Mehmandarov belə sağlam milli düşüncəsi ilə heç bir əla publisistdən geri qalmır. Sənətini, dövrünü nəzərə alsaq, bəlkə də o, müasiri olan ən yaxşı yazıçı-publisisti bir neçə addım da ötüb keçir.

Azərbaycan Dövlət Arxivində saxlanılan iki nömrəli qovluqda general Səməd bəy Mehmandarovun daha bir vətənpərvərliyinin, milli qürurunun şahidi oluruq. Orada yazılır ki, 1918-ci ildə ingilis qoşunlarının[1] Azərbaycanda öz ərazilərində olduqları kimi etinasız ağalığı hərb naziri Səməd bəy Mehmandarovu qəzəbləndirmişdir. Nazir onların istilaçı hərəkətlərinə etiraz əlaməti olaraq, vaxtilə (birinci dünya müharibəsi illərində — Ş. N.) ingilis komandanlığı tərəfindən təltif olunduğu ordenləri geri qaytararaq qəzəblə demişdir:

— Torpağımı, xalqımı fəth edən ikiüzlü bir ölkənin ordeni mənə lazım deyil. Xalqıma silah qaldıran bir ordunun ordenini gəzdirmək mənim üçün ən böyük təhqirdir.

Azərbaycandan çıxan ingilis qoşunlarının komandanı general Tomson şayiələr yayırdı ki, Azərbaycan bundan sonra özünü idarə edə bilməyəcək. Azərbaycan ordusu yox dərəcəsindədir. Orada qayda-qanun da yoxdur. Guya Azərbaycanı yağılardan qoruyan, onu idarə edən Tomsonun min ingilis və səkkiz yüz nəfərlik balağıaçıq hind əsgəri olmuşdur. Bu şayiələrdən sonra Azərbaycanda olan ingilis hərbi jurnalisti Skodlend-Liddel İngiltərə qəzetləri üçün hazırladığı xəbərlərdə yazırdı ki, Transqafqaz şayiələr ocağıdır. Burada şayiələr külək təpələr arasında yayılan kimi yayılır. Bir çox şayiələr Moskvada quraşdırılır və dövriyyəyə

[1] 1918-ci il noyabrın 17-də general V. M. Tomsonun komandanlığı ilə Bakıya gələn ingilis qoşunları 1919-cu ilin avqustunda Azərbaycan ərazisindən çıxdı — müəl.

buraxılır. Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan özü-özünə qayğı göstərə bilər. Mən bura iki gün əvvəl gəlmişəm və açığını deyim ki, bütün gördüklərim məndə dərin təəssürat yaradıb. Mənim şəhərdə olmadığım dörd həftə ərzində burada çox təəccüblü dəyişikliklər olub. Mən buraya gəldim ki, hamının mənə dediyi qarışıqlığı görüm, lakin onu tapa bilmədim. Tam qayda-qanun var. Mənə dedilər ki, mən ordu əvəzinə pozğunlaşmış kütlə görəcəyəm, lakin mən yaxşı, nümunəvi, güclü, odlu-alovlu gənclər gördüm. Doğrudan da mən indi Bakıda elə qayda-qanun gördüm ki, müharibə başlayan vaxtdan bu günədək Bakıda olmamışdı... Qayda-qanun ancaq Bakıda hökm sürmür, son dəyişikliklər bütün respublikada vəziyyəti aydınlaşdırmışdır. Qarabağ şuluqluğunu sülh əvəz etmişdir. Ermənilər və azərbaycanlılar sazişə gəlmişlər. Lənkəranda bolşeviklər Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğradıldı. Onlar bütün silah və sursatlarını Azərbaycan hökumətinə təhvil verdilər, adamlar isə xahiş etdilər ki, onları Azərbaycan hökumətinin tabeliyinə götürsünlər... Bütün bunlar, şübhəsiz, sübut edir ki, Azərbaycan qarma-qarışıqlıqdan qorxmur və bolşeviklərdən çəkinmir. Azərbaycan dövləti indi Transqafqazın bütün qalan xalqları üçün həqiqi nümunəyə çevrilmişdir».[1]

İngilis hərbi jurnalisti Skodlend-Liddelin Azərbaycan ordusunun ünvanına dediyi xoş məramlı sözlərə görə xalqımız ilk növbədə iki görkəmli sərkərdəmizə, 1918-ci ildə ordumuzun təməl daşını qoyan Əliağa Şıxlinskiyə və Səməd bəy Mehmandarova borcludur. Nizami və döyüşən ordu yaradan hər iki sərkərdə ilk hərbi nümayişin keçirilməsini, hərbi məktəblərin açılmasını, hərbi geyim formasının təşkilini və başqa gərəkli işləri həyata keçiriblər. İlyarım fəaliyyətdə olan Azərbaycan ordusu Lənkəranda bolşeviklərin üsyanını yatırdır, Zəngəzurda, Əsgəranda erməniləri məğlubiyyətə uğradır.

1919-cu ilin sonlarında Azərbaycan Respublikası üçün üç təhlükə vardı: şimaldan ağqvardiyaçı general Denikin, Zəngəzur və Qarabağdan daşnak erməniləri, ordunun daxilində isə bolşevik təbliğatı. Bu təhlükənin ikisinin qarşısını hərbçi dəyanəti ilə alan nazir Səməd bəy Mehmandarovu ən çox narahat edən «bolşevik xəstəliyi» idi. Qırmızı bolşeviklərin təbliğatı orduda olduğu kimi fəhlə-kəndli arasında da yayılmışdı. Bu təsir əsgər və zabitlərə də keçmişdi. Ona görə də nazir Səməd bəy Mehmandarov əsgərlərlə görüşündə təkrar-təkrar deyərdi ki, qoşun torpağımızı yağılardan qorumaqdan ötrü vacibdir. Qoşunun əsgəri siyasətlə maraqlanmalı, beynəlxalq aləmdə nələr baş verdiyindən hali olmalıdır. Amma nə zabit, nə də əsgər heç bir partiyanın, ya da cəmiyyətin qulu olmamalıdır. İstər Səməd bəy Mehmandarov, istərsə də Əliağa Şıxlinski uzun illik ordu həyatında siyasi partiya və qurumlardan uzaq olmuşlar. Onların ən ümdə vəzifəsi Vətəni, torpağı yağılardan qorumaq üçün nizami ordu yaratmaq idi. İyirmi səkkiz

[1] RMDA, F.894, siy.10, iş 82, v.2-10.

aprel çevrilişinin səhəri onları dindirən bolşevik çekistləri hər ikisinə: hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz? sualını vermişdi.

General Səməd bəy Mehmandarovun cavabı: «Bütün ömrüm boyu mən, hər cür siyasətdən uzaq olmuşam».

General Əliağa Şıxlinskinin cavabı: «hər bir inqilaba əksinqilab kimi yanaşıram, heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da»...

Bolşeviklərin Azərbaycana hücumuna düz bir il qalmış və onların ordudakı zərərli siyasətini əvvəlcədən hiss edən nazir S. Mehmandarov 1919-cu il aprelin 20-də Nazirlər Sovetinin sədrinə yazırdı: «Yaxşı olardı ki, Azərbaycan ordusundan azad olunmuş rus zabitləri, etibarsız element kimi Azərbaycan hüdudlarından kənar ediləydi. Lakin ümumi siyasi vəziyyətin bu məsələyə münasibətini bilmədiyimdən, xahiş edirəm, bu haqda mənə məlumat verəsiniz. Sizin qərarınızın nəticəsini bilmək istərdim».

Sovet hakimiyyəti illərində Səməd bəy Mehmandarov haqqında cəmi iki: 1946-cı ildə mayor Hacıağa İbrahimbəylinin «Səməd bəy Mehmandarov» (18 səhifəlik) və 1977-ci ildə polkovnik, tarix elmləri namizədi Əli Abbasovun «General Səməd bəy Mehmandarov» (80 səhifəlik) kitabçaları nəşr olunmuşdur. İndiyədək 1918—20-ci illərin sənədləri nə tarixçilərin, nə də S. Mehmandarov tədqiqatçılarının sərəncamına verilmədiyindən şöhrətli generalımızın həmin illərdə daxilən hansı hisslər keçirdiyindən, ən başlıcası azərbaycanlı kimi vətəndaşlıq təəssübkeşliyindən bixəbər olmuşuq.

Demokratiyanın sayəsində yeni açılan arxiv sənədləri arasında hərb nazirimizin çoxlu teleqramları, əmr və raportları işıq üzü gördü. Bu sənədlər o vaxtkı ordumuz, zabit və əsgər heyətimiz haqqında qiymətli məlumatlar verir:

21 oktyabr 1919-cu il; Lənkərandan teleqram. «Lənkəran Şəhər duması əhalinin istəyi ilə 15 oktyabr tarixli yığıncağında hərb naziri, general Səməd bəy Sadıq bəy oğlu Mehmandarovu Respublika Parlamentinə üzv seçmişdir.

Şəhər dumasının üzvləri».

**Lənkəran qəzası sakinlərinə müraciətnamə**

«Vətəndaşlar!

Azərbaycan Respublikası Dövlətinin xahişi ilə mən Lənkəran qəzasına dəstə göndərirəm. Vətəndaş müharibəsinə birdəfəlik son qoymaq, qayda-qanun yaratmaq, sizi dinc əhaliyə əzab verən zorakı dəstələrdən və qatillərdən azad etmək işi bu dəstəyə tapşırılıb.

Azərbaycanın ayrılmaz bir hissəsi olan qəzada məskunlaşmış bütün millətlərə ədalətli münasibət bəsləyən Azərbaycan orduları sizə qanun daşıyıcıları kimi göndərilirlər.

Silahlı qüvvələrin himayəsi ilə ölkənin bütün sahələrinin idarə olunmasında təcili mülki idarəetmə bərpa ediləcək. Mən əminəm ki, siz özünüz də Azərbaycan Respublikasının gələcək tamhüquqlu vətəndaşları kimi sülh şəraitində birgə

yaşamağın möhkəm əsasının qoyulması marağındasınız və görəcəyiniz bütün tədbirlər ölkədə qanun-qaydanın bərpa olunmasında hökumətin bütün qanuni əmrlərinin könüllü surətdə yerinə yetirilməsində və Azərbaycan Respublikası Dövlətinin nümayəndələrinə öz xeyirxah münasibətinizlə imkan daxilində köməklik göstərəcəksiniz.

Bununla bərabər, sizi əmin edirəm ki, Sovetlər, Komitetlər və ya «Muğan Respublikası» adı altında heç bir sərbəst təşkilatların yaradılmasına yol verilməyəcək.

Lənkəran qəzasında yeganə — Azərbaycan Respublikası hakimiyyəti tanınır və onun verdiyi qanunlara qulaq asmayan hər bir şəxs müharibə dövrünün qanunlarına əsasən qiyamçı kimi məsuliyyətə cəlb olunacaqlar.

Dəstə rəisinin göstərişi ilə əhali silahları təhvil verməlidir, kim əmri yerinə yetirməsə, hərbi-səhra məhkəməsinin sərəncamına veriləcək.

Xəbərdar edirəm ki, rus əhalisinə qarşı hər hansı bir zorakılığa və soyğunçuluğa yol verməyəcəyəm, çünki qəzada yaşayan başqa millətlərin nümayəndəsi kimi onları da Azərbaycan Respublikasının vətəndaşı sayıram.

Amma rus əhalisinin şəxsiyyətinə və toxunulmazlığına təminat verərkən, Mən onlardan da yerli hakimiyyətin verdiyi qanunların yerinə yetirilməsinə əməl etmələrini tələb edirəm.

Hər bir silahlı müqavimət ölüm cəzası ilə cəzalanacaq və belə hallarda qoşunlara amansız olmaları haqda əmr olunub.

Bu və ya digər bəhanələrlə xalqı ordu və hökumət əleyhinə qaldıranları bu haqda xəbərdar edirəm.

Mən də öz növbəmdə dəstə rəisinə[1] əmr etmişəm ki, qoşunun əhaliyə heç bir xətər toxundurmaması haqda ölçü götürsün və dinc əhaliyə qarşı hər cür zorakılıq göstərən günahkarlar ciddi cəzalansınlar.

**Azərbaycan Respublikasının hərb naziri,**
**Tam Artilleriya generalı Mehmandarov**
**23.VII.1919-cu il, Bakı şəhəri.**

Tərcüməni türk dilinə hazırladı: general-leytenant **Məmməd bəy Sulkeviç».**

**29.03.20-ci il, Bakı,**
**general Əliağa Şıxlinskiyə**

Quba alayından gəlmiş taborları yola salmağa hazırlamaq və tələb olunan kimi onları göndərmək lazımdır. Bu barədə Nazirlər Sovetinin Sədrinə məlumat verin.

**General Səməd bəy Mehmandarov».**

Artilleriya generalı Səməd bəy Mehmandarovun Nazirlər Sovetinin Sədrinə

**RAPORTU**

---

[1] General-mayor Həbib bəy Səlimov — müəl.

**21aprel 1919-cu il**

«Bakıda öz işini başa çatdırmış həmkarlar ittifaqının qurultayı aşağıdakı məzmunda qətnamə qəbul etmişdir: «Həmkarlar siyasi məqsəd güdməlidir. Sovet hökumətinin hər vasitə ilə Zaqafqaziyada olmasına cəhd göstərməlidir».

Bu qərar yerli bolşeviklərin Azərbaycanın müstəqilliyini məhv etmək və Sovet Rusiyası ilə birləşmək cəhdlərinə şübhə yeri qoymur. Qətnamədən göründüyü kimi, hökumətin fəaliyyətinin əsasında Azərbaycanın müstəqilliyinin müdafiəsi durur və mən şübhə etmirəm ki, bolşeviklərin dağıdıcı cəhdlərinə qarşı zəruri tədbirlər görüləcəkdir. Mən öz tərəfimdən bolşeviklərin Bakı qarnizonu qoşunlarına parçalayıcı təsirindən ehtiyat edirəm. Belə ki, Bakı indi Zaqafqaziya bolşeviklərinin fəaliyyət mərkəzi hesab edilir».

**«30.03.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

Kondelakinin (iki nömrəli zirehli qatarın komandiri) zirehli qatarını təcili olaraq Tovuza göndərin.

Beləliklə iki zirehli qatar olacaq, biri Tovuzda, o birisi isə Ağstafada.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

**«30.03.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

Bakıdakı vəziyyət imkan verirsə Quba alayının hər iki taborunu Gəncəyə göndərin: əgər imkan yoxdursa heç olmasa bir tabor da olsa göndərin. Bu barədə nazirə-sədrə məlumat verin.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

**«30.03.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

Qazağa gəlmiş Nuxa taborunu müharibə vaxtının ştatına uyğun olaraq iki taborlu heyətə, Tovuzda olan Lənkəran taborunu da iki yerə bölüşdürmək lazımdır. Onda Ağdam alayını isə üç tabor təşkil edər. Onların pulemyotla və qanunla bütün müəyyən olunanlarla təchiz edilməsinin qayğısına qalın. Bu hissələrdə altı pulemyot var, yəni onlara yenə altısını da vermək lazımdır. Pulemyotçular pulemyot məktəbinə təyin edilsin. Toplanış çox zəif gedir, xüsusi ilə Gəncə rayonunda. Nazirlər Sovetinin Sədrindən Ağdaş alayının fəal surətdə artırılmasını xahiş etsin.

Zaqatala alayı Qazağa bir tabor ayırmaqla eyni zamanda açılmalıdır. Zaqatala və Nuxa rayonlarında toplanışı gücləndirmək lazımdır.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

**«30.03.20-ci il, Bakı,**
**Daxili İşlər Nazirinə**

Cavanşir qəzasının rəisi Qalabəyova partizanların evlərinə getmələrinin qarşısını almaq üçün əmr verin. Əks halda Tərtər dəstəsinin vəziyyəti çox ağır olacaq.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

**«31.03.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

Nuxaya göndərilmiş Zaqatala alayı, taboru və dağ süvariləri taqımının Yevlaxa girmələri haqqında hansı məlumat olduğunu teleqrafla xəbər verin.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

**«01.04.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

Hissələrin, odlu silah sursatlarının göndərilməsinə aid olan sərəncamlar verilib və onların yerinə yetirilməsinə mən özüm nəzarət edirəm. Tatar alayının üçüncü eşelonundan və Şirvan bölüyündən başqa bütün hissələr Yevlaxdan çıxacaqlar. Tatar alayı eşelonu və Şirvan alayının bölüyü isə Yevlaxa təxminən saat iyirmi ikidə və yaxud iyirmi üçdə gəlib çatacaq, eyni zamanda Şirvan alayı bölüyünün Yevlaxdan at arabaları ilə yola salınması və bütün hissələrə aprelin ikisində mütləq Ağdama gəlmələri haqqında əmr verilib. Vəziyyətin ciddiliyini siz əla bilirsiniz və mən sizin qətiyyətinizə, şəraitlə hesablaşma bacarığınıza ümid bəsləyirəm. Bu gün sürət qatarı ilə yenidən Yevlaxda olacağam, əgər oradan Bakıya getməli olsam Yevlaxdan teleqrafla sizə bildirərəm.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

**«27.03.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

...Ermənilərlə apardığımız gecə döyüşlərindən sonra bizim tutduğumuz Marağalı kəndi təmizlənmişdir. Ermənilərdən bir neçə nəfər öldürülmüşdür. Ağır yaralanmış əsgər bu gün keçindi.

**General SƏMƏD BƏY MEHMANDAROV.**

**Podpolkovnik TONQİYEV.**

**«01.04.20-ci il, Bakı,**
**general ƏLİAĞA ŞIXLİNSKİYƏ**

Yevlaxdan təzəcə qayıtmışam. Dünən Qubalıların birinci eşelonu gedib. Bu gün isə Zaqatalalılar taborundan, Qubalılar bölüyündən, süvari diviziyanın təlim komandasından və Tatar alayının pulemyot komandasından ibarət ikinci eşelon yola düşməlidir. Elə bu gün Tatar alayının qalan yüzlüyü və Şirvan bölüyü Yevlaxa gəlməlidirlər. Bütün bu hissələr aprelin 2-də Ağdamda olmalıdır. Bunların miqdar tərkibi: Piyada qoşunlar — 1035, süvarilər — 570, qeyri süvarilərsiz və dağ süvarisi taqımı olmadan — 1605 nəfər. Əgər burada 155-ə qədər ata baxanları və qeyri sıravi piyadaları nəzərə alsaq, onda 1450 qalar. Sizi vadar etmirəm, ancaq sizə məsləhət verirəm ki, piyadalardan iki tabor və süvarilərdən isə bir tabor təşkil edəsiniz. Qeyri süvarilərin sayının minimuma çatdırılmasına, qalanlarını sıraya daxil edib və onların yaralananların tüfəngləri ilə silahlandırılmasına cəhd göstərin. Odlu silah sursatından ötrü mənim tərəfimdən Yevlaxdan Ləkiyə paravoz göndərilib və bu gün Yevlaxa gətirməlidir, sonra Yevlaxdan yük maşınları ilə

Ağdama daşınacaq. Əmr olunub ki, odlu silahlar sursatı arasında 200 ədəd əl qumbarası göndərsinlər, ancaq əfsuslar olsun ki, əsgərlər onların quruluşu ilə və atma qaydası ilə tanış deyillər. Onlardan istifadə edilməsi sizdən asılıdır. Amma məsləhət görürəm əvvəlcədən əsgərlərə onlardan istifadə qaydalarını öyrədəsiniz və təhlükəsizliklərinin təmin olunması üçün ölçü götürəsiniz. Quba alayı iki tabor əvəzinə ancaq 375 adam göndərib və mən sizin tələbinizi ödəməkdən ötrü başqa vasitələrdən istifadə etməli oldum. Mən həmişə podpolkovnik Hüseyn bəy Ququşyev[1] haqqında pis fikirdə olmuşam, amma indi təəccübümü deməyə bilmərəm. Sizin dediyinizə görə Bakı alayında 1700 sayda adam mövcuddur, amma səfərə 1000 nəfər cəlb olunub. Hərbi səfərə bütün adamlar cəlb edilməlidir və qalan ləvazimat mühafizə olunmaq üçün hərbi rəisə təhvil verilir. Adamları yola salıb qurtaran kimi Bakıya gələcəyəm, bu haqda vaxtında sizə məlumat verəcəyəm.

**General SƏMƏD BƏY MEHMANDAROV».**

***

**İkinci Azərbaycan piyada diviziyasının**
**48 №-li əmrindən, 30 aprel 1920-ci il,**
**Bakı şəhəri.**

«Əmrin surətini təqdim edirəm... 28 aprel № 238.

Həmin tarixdən mən öz vəzifəmi sovet hakimiyyəti tərəfindən təyin olunmuş hərb və dəniz komissarı Çingiz İldırıma təhvil verdim.

Xudahafizləşərkən, mən bütün hörmətli həmkarlarıma onların şərəfli və cəsur xidmətçiləri üçün bir daha öz səmimi minnətdarlığımı bildirirəm.

Heç şübhə etmirəm ki, onlar yeni hakimiyyət dövründə də... Azərbaycanın səadəti naminə namusla, şərəflə xidmət edəcəklər.

Əlvida, bütün varlığımla səmimi qəlbdən sevdiyim, həm işdə, həm də ailə səadətində böyükdən tutmuş kiçik rütbəli əsgərə kimi bütün hamınıza əmin-amanlıq, nailiyyətlər və xoşbəxtlik arzulayıram.

**AMİN ALLAH.**

**Əsli təsdiq olunmuşdur. Hərb naziri,**
**artilleriya generalı Səməd bəy Mehmandarov».**

***

1926-cı ildə Səməd bəy Mehmandarov məktəbin (Qırmızı komandirlər və RKKA kom. təşkilatının birləşmiş Azərbaycan məktəbində) növbəti buraxılışa xeyir-dua verərək bu sözlərlə müraciət etdi:

«Yoldaşlar. Bu gün biz yeni qırmızı komandirlər kimi sizi salamlayırıq. Siz daha sərbəst bir yola çıxmısınız, amma... sizi çox da asan olmayan məsul işlər

[1] Dördüncü Quba piyada alayının komandiri — müəl.

gözləyir. Bu işlərin ağılla, bacarıqla yerinə yetirilməsi tabeliyinizdə olan adamların hərbi hazırlığından asılı olacaq».

İki il sonra səhhətinə görə istefaya çıxan general Səməd bəy Mehmandarova dövlət yüz manat pensiya kəsmişdi. 1931-ci ilin fevral ayında Bakıda vəfat edən S. Mehmandarov keçmiş Çəmbərəkənd qəbristanlığında (indiki Şəhidlər xiyabanında) dəfn olunmuşdur. Sonralar — 1939-cu ildə bolşevik S. M. Kirova heykəl qoyulanda həmin qəbristanlıq dağıdılmışdır. O illərdə generalın ailəsi sürgündə idi. Qəbri başqa yerə köçürülmədiyindən yerlə yeksan edilmişdir.

## ALİM-GENERAL

General Əliağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilirlər ki, bu təvazökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxs idi.

**Heydər HÜSEYNOV,**
**filosof-alim.**

Fitri istedada malik olan tam artilleriya generalı Əliağa Şıxlinski bütün varlığı ilə sevdiyi Azərbaycan xalqına ömrünün sonunadək sədaqətlə xidmət etmişdir. Hərbi fəaliyyətində araşdırmalar apardıqda onun bir çox sahələrdə ilkin şəxs olduğunun şahidi oluruq. Yalnız general kimi vəzifəsini bitmiş hesab etməyən bu məşhur sərkərdə həm də hərb elminin görkəmli alimi idi. Hələ əsrin əvvəllərində hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən «Şıxlinski üçbucağı»ndan təkcə Rusiyada deyil, Fransa, Avstriya, Norveç, İsveçrə və başqa ölkələrin artilleriya məktəblərində də dərslik kimi istifadə olunmuşdur.

Əliağa Şıxlinski «Üçbucağı»nda artilleriya tarixində ilk dəfə topların gözlə görünməyən hədəfə atəş açmaq texnikasını işləyib hazırlamış və topların təkmilləşdirilməsi işinə bir sıra dəyərli yeniliklər gətirmişdir. Hərb elminin mütəxəssisləri bu gün də etiraf edirlər ki, general Şıxlinski qeyri-adi fəaliyyəti ilə fərqlənmiş nadir hərbi mütəxəssislərdəndir. O, yeganə azərbaycanlıdır ki, ilk dəfə Fransanın generallara məxsus fəxri «Legion ordeni» və zabitlərə verilən «Legion xaçı» ilə təltif edilmişdir. Əliağa Şıxlinski generallar arasında ən yaxşı hərb alimi, alimlər arasında ən məşhur artilleriya generalı idi.

Arxiv sənədlərindən məlum olur ki, general Əliağa Şıxlinski 1939-cu ildən sonra alim Heydər Hüseynovla müntəzəm elmi yaradıcılıq əlaqəsi saxlamışdır. Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət arxivindən aşkar etdiyimiz 1940-cı il 15 iyul tarixli məktub da general tərəfindən alimə ünvanlanmışdır. İri ölçülü kağızlarda yazılmış iyirmi səhifəlik məktub-müraciətində general Əliağa Şıxlinski alimə 852 sözün izahını və düzəlişlərini yazıb göndərmişdir. Məktubdan məlum olur ki, general bu ağır zəhməti 1939-cu ildə Heydər Hüseynovun redaktorluğu ilə nəşr olunmuş «Rusca—Azərbaycanca lüğət»i mütaliə etdikdən sonra çəkmişdir. General «Qeydlər»inin müqəddiməsində yazır: «Redaksiyanın

çağırışına əməl edərək, lüğətdə mənim rast gəldiyim səhvlər haqqında bəzi mülahizələrimi təqdim edirəm.

Ümumiyyətlə Lüğət çox gözəldir. Hər bir sözü ayrılıqda deyil, bütün cümlənin ümumi mənasını tərcümə etmək üçün, tərcüməçilərə kömək edəcək, frazeologiya xüsusilə yaxşıdır».

Ümumi müddəalarında isə Əliağa Şıxlinski belə qərara gəlir ki, lüğətin əsas çatışmayan cəhəti onun qısa olmasıdır.

«Lüğətdə çox yerdə əsas sözlər buraxılmış, ancaq onların törəmə sözləri verilmişdir.

Bizim dilimizi ona yad olan söz düzəltmələrindən təmizləmək lazımdır. Əgər başqa dillərə məxsus sözlərdən istifadə etmək ehtiyacı varsa, onda törəmə sözlər bizim dilimizin qanunlarına uyğun olmalıdır. Bu, hər şeydən əvvəl, isimlərdən sifət əmələ gəlmə hallarına aiddir. Məsələn: avtomat yazmaq olar və yazmaq da lazımdır. Ancaq avtomatik — olmaz, artıqdır. Hərb sözü dilimizə çoxdan qəbul edilmişdir, onu saxlamaq, hərbi sözünü isə atmaq lazımdır. Azərbaycan xalq dilinin zəngin xəzinəsindən rus və Avropa sözlərinin qarışığı kimi işlətmək də məqsədəuyğundur. Məsələn; axıntı (cərəyan), saxlanc (ehtiyat), dövrçağ dönümü (dövr), düzgü (quruluş), bilgi (nəzəriyyə) və s».

Təvazökar general məktubunun sonunda yazır: «Əgər siz təqdim olunmuş materialın heç olmasa kiçik bir hissəsindən istifadə edə bilərsinizsə, onda mən özümü çox xoşbəxt sanaram. Sevinərəm ki, mən də öz balımın kiçik bir damlasını sizin gözəl arı pətəyinizə əlavə etmişəm».

General Əliağa Şıxlinskinin bu iradlarını məmnuniyyətlə qəbul edən alim Heydər Hüseynov cavab məktubunda yazır ki, lüğətin gələcək nəşrində sizin elmi zəhmətinizdən mütləq istifadə olunacaq. Alim bunun üçün generala sətir haqqı da göndərmişdi.

Akademik Əlheydər Orucov «Əliağa Şıxlinskinin bir əlyazması haqqında» adlı məqaləsində haqlı olaraq belə qənaətə gəlir ki, generalın alim Heydər Hüseynova göndərdiyi «Qeydlər»i lüğətçilik, xüsusən də termin yaradıcılığı baxımından çox faydalıdır. İndiyə qədər hərbi mütəxəssis kimi tanınan Əliağa Şıxlinskinin dil, lüğətçilik, terminologiya məsələlərilə maraqlanması faktının özü səciyyəvi haldır. (Bax: «Terminologiya məsələləri» kitabı, Bakı, 1987-ci il, səh. 12).

General Əliağa Şıxlinski lüğətçiliklə 1940-cı ildənmi məşğul olmağa başlamışdır? Xeyr. Onun şəxsi arxivində mühafizə olunan «Zabitin dəftəri»ndəki qeydlərindən məlum olur ki, o, hələ gənc zabit ikən hərb elmi ilə, dilçilik və hərbi lüğətlə, terminologiya ilə maraqlanmış və bu sahədə gərgin axtarışlar aparmışdır. Uzun illər — 1879-cu ildən 1917-ci ilədək həyatının çox hissəsini Azərbaycandan uzaqlarda, yüksək hərbi dairələrdə, özgə məmləkətdə və başqa dil mühitində yaşamasına baxmayaraq general milli varlığını qoruyub saxlaya bilmişdir. Orada Azərbaycan dilində mətbuatın və nəşriyyatın olmaması

üzündən «Rusca—Türkcə qısa hərbi lüğəti»ni 1926-cı ildə Bakıda üç əlifba—rus, ərəb və latın əlifbası ilə nəşr etdirə bilmişdir. Bununla da ilk dəfə Azərbaycanda hərbi lüğətin yaradıcısı olmuşdur. Məhz bu əvəzsiz xidmətinə görə general Əliağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci il 23 fevral tarixli qərarı ilə Fəxri Fərmanla təltif olunmuşdur. Şıxlinskinin lüğəti hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın Azərbaycan dilinə tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda hərbi məktəblərdə, yenicə yaranmış orduda xidmət edən azərbaycanlı əsgər və zabitlər bu lüğətdən qiymətli vəsait kimi istifadə etmişlər.

Həmin kitabın elmi terminoloji əhəmiyyətini maraqlı faktlarla araşdıran filologiya elmləri namizədi A. Hacıyeva yazır:

«Əliağa Şıxlinskinin lüğəti geniş dil materialının dərin təhlilinin nəticəsi idi.

Azərbaycan dilinin lüğət tərkibini geniş əhatə etməsi, xalq dilinə məxsus söz və ifadələrdən yerli-yerində, səmərəli istifadə olunması, bir çox unudulmuş və az işlənən sözlərə yenidən termin kimi həyat vəsiqəsi verilməsi baxımından Ə. Şıxlinskinin lüğəti o dövrdə nəşr edilən lüğətlərin hamısından fərqlənir. ...Azərbaycan dilində hərbi terminologiyanın olmaması bu işdə böyük çətinlik törədirdi. Əliağa Şıxlinskinin lüğətinin nəşri ilə həmin çətinlik, demək olar ki, aradan qaldırıldı».

General Şıxlinskinin lüğətinin misilsiz elmi əhəmiyyətindən danışan görkəmli filosof-alim Heydər Hüseynov yazır:

«...Kitabın əvvəlində general Əliağa Şıxlinski lüğət tərtib edərkən yeddi əsas qəbul etdiyini göstərir: 1) Yad sözlərin yerinə bacardıqca, türk-Azərbaycan sözləri qoyulubdur. 2) El arasında işlənən türkləşmiş ərəb və fars sözləri buraxılmayıbdır: bu dürlü sözlər, onlar elə bir mənalı türk sözlərinin yanında dırnaqlar arasında yazılıbdır; məsələn: çağ (vaxt, zaman). 3) Türkcəyə qarışmış bəzi ərəb sözləri türcə deyilişinə uyğun yazılıbdır. Məsələn: qala (qəl'ə yerinə), sahat (saət yerinə). 4) Kökləri ərəbcədən olan sözlərin deyilişləri türcəyə uyğunlaşdırılıbdır; məsələn; vəq'tlər, təbiblər, vəzifəli (evqat, ətibba, müəzzəf yerinə) və sairə...».

Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Əlheydər Orucovun «Ə. Şıxlinskinin bir əlyazması haqqında» məqaləsindən:

«Yaşının ötməsinə, səhhətinin pozulmasına baxmayaraq general Əliağa Şıxlinski həyatının son günlərinə qədər dilimizin vəziyyəti, terminologiya, orfoqrafiya, lüğətçilik məsələləri ilə maraqlanırdı. Onu tez-tez Lüğətlər İnstitutunda, həmin institutun direktoru Heydər Hüseynovun yanında görmək olardı. Heydər Hüseynov Əliağa Şıxlinskiyə dərin hörmət və həssas münasibət bəslərdi. İnstitutun hazırladığı lüğətlərlə onu tanış edər və bu barədə fikrini bilmək istərdi. Onun 1940-cı ildə akademik Heydər Hüseynova 49 səhifədən ibarət göndərdiyi «Qeydlər»dən göründüyü kimi, ana dili ilə bərabər, klassik ədəbiyyatımızı, xüsusən folklorumuzu çox gözəl bilirmiş. Əliağa Şıxlinski indi ədəbi dildə işlənməyən, buna görə də müasir lüğətlərə düşməmiş, amma bəzi

dialekt və şivələrimizdə işlənməkdə davam edən sözləri yada salmaqla onların yazılı dilə (lüğətlərə) keçirilməsini məqsədəuyğun hesab edir. Bu baxımdan onun özünün yeni söz və formalar yaratmaq təşəbbüsü təqdirəlayiqdir. Bu günkü şəraitdə daha böyük əhəmiyyət qazanmış bu məsələ, görünür, hələ o zaman Əliağa Şıxlinskini düşündürmüş və fürsətdən istifadə edərək, yazdığı «Qeydlər» vasitəsilə fikrini lüğətçilərin nəzərinə çatdırmışdır».

O vaxtdan illər keçdi. General Əliağa Şıxlinskinin ilk vəsait olan hərbi lüğəti bir daha işıq üzü görmədi.

Totalitar Sovet rejimi azərbaycanlı generalın elmindən bəhrələnməyi öz millətinə yasaq elədi. Az tirajla nəşr olunmuş bu kitabın nadir nüsxələri qalıb. Bu gün zaman, dövr dəyişib. Yeni yaranan ordumuz üçün həmin lüğətin əhəmiyyəti şübhəsiz ki, əvəzsiz olardı.

## Milli ordu quruculuğunda

Əlli ildən çox nizami orduda qüsursuz xidmət edən Əliağa Şıxlinski həmişə birincilər sırasında olmuşdur. O, dörd müharibənin şahidi, üçünün iştirakçısı olub: 1904—05-ci illərdə Port-Artur, 1914-cü il Cahan Müharibəsində, 1918-ci illərdə isə torpaqlarımızın bütövlüyü uğrunda daşnak Ermənistanına qarşı döyüşüb. Böyük Vətən müharibəsinin şahidi olan qoca general yenə də fəaliyyətini dayandırmamışdı. O, «Xatirələrim» kimi qiymətli hərbi memuarını diktə edib yazdırmışdır. Bu, Azərbaycan hərb tarixində ilk və yeganə hərbi memuardır. İnqilabdan əvvəl və inqilabdan sonrakı dövrlərlə məşğul olan hərb elminin elə bir alimi yoxdur ki, həmin kitabdan qidalanmasın, bir qiymətli mənbə kimi ondan istifadə etməsin.

Görkəmli sərkərdə Əliağa Şıxlinskinin xalqımız üçün ən böyük xidmətlərindən biri də 1917-ci ilin noyabrında olmuşdur. Həmin ayın on beşində Qafqaza qayıdan Şıxlinski ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmışdı. Bununla da o, Milli Azərbaycan Ordusunun təməl daşını qoymuşdu. Bu barədə general «Xatirələrim» hərbi memuarında daha dəqiq məlumat verir:

«Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olunduğu barədə əmri oxudum. Öz xalqımın, baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyə qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım...[1]

Dekabrın otuz birində mən öz qərargahımın ilk heyətilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul olum. Korpus hissələrinin təşkilində böyük əngəllərə rast gəlirdik».

«Açıq söz» qəzeti 1918-ci il 7 yanvar tarixli nömrəsində nizami müsəlman əsgəri qüvvələrinin yaranması haqqında belə bir xəbər yaymışdı:

[1] Qərargah Tiflisdəki "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi – müəl.

«Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xoyski müsəlman əsgəri dəstələri təşkilatı haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə 1917-ci il dekabrın on birində Zaqafqaziya Komissarlığı Zaqafqaziya müsəlmanlarından nizami ordu təşkil etməsi qətnaməsini çıxarmışdır. Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi işi Qafqasiya Mərkəzi-Müsəlman Komitəsinə həvalə edilmişdir. Nizami ordu təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqafqaziya Komissarlığının bu qətnaməsinə bianən dekabrın on doqquzunda beşinci və yeddinci Qafqasiya nişançı firqələrindən ibarət olan altıncı ordu korpusunun Müsəlman nizami ordusuna əvəz edilməsi həqqində Qafqasiya cəbhəsi qoşunlarının baş komandanı tərəfindən Əmrnamə verilmişdir. Həmin əsgər dəstələrinin milliləşdirmək işlərinin nəzarəti general Əliağa Şıxlinskiyə həvalə edilmişdir.

General Şıxlinski öz vəzifəsinin ifasına başlamışdır».

1918-ci ilin oktyabrında general Əliağa Şıxlinski Gəncədə yeni yaratdığı Əlahiddə Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edərək demişdir: «Azərbaycanlılar birdəfəlik bilməlidirlər ki, doğma ordu əsla tənbəlxana deyil və onun mövcudluğu hər hansı bir azərbaycanlının maddi rifahını daha da yaxşılaşdırmaq üçün yaranmayıb. Ordu xalqın istinadgahıdır — bura xalqın ləyaqətli oğulları gəlməlidir».

General Əliağa Şıxlinski bu vətənpərvər çıxışını Gəncədə praporşiklər məktəbinin birinci buraxılışı münasibətilə söyləmişdir. Bu şənlikdə Qafqaz İslam Ordusunun baş komandanı Nuru Paşa, atası Hacı Əhməd, xalq təhsili naziri Nəsib bəy Usubbəyov, daxili işlər nazirinin vəkili Mehdi bəy Hacınski, sosial-təminat naziri Musa bəy Rəfibəyov, Gəncə qubernatoru, general İbrahim ağa Vəkilov və başqa dövlət xadimləri iştirak edirlər.

Elçin adlı müəllif 1918-ci il noyabrın 7 və 8-də «Azərbaycan» qəzetində (rus dilində) yazır ki, ertəsi gün Bakıdan gəlmiş qonaqlar və demək olar ki, bütün şəhər əhalisi hərbi meydana yollandılar. Meydanda təlim üçün əvvəlcədən səngərlər, yarğanlar və cürbəcür maneələr hazırlanmışdı. Hamı özünün milli bayramına, Türk-Azərbaycan zabitlərinin ilk buraxılışına tamaşa etməyə gəlmişdi. Ətrafda bayram əhval-ruhiyyəsi var idi.

Əlahiddə Azərbaycan korpusunun komandanı general Əliağa Şıxlinski ətrafdakılarla birgə səflə düzülmüş yungerlərə yaxınlaşıb onları salamlamışdı. General Əliağa Paşanın mehriban «salamına» birdən-birə səkkiz yüz gəncin ağzından gurultulu «salam» cavabı çıxdı. Sonra proqram üzrə təlim sınaqları keçirilməsinə başlandı.

1918—20-ci illərdə Azərbaycan silahlı Qüvvələrinin təşkilində Əliağa Şıxlinskinin müstəsna rolu olmuşdur. Doğma xalqının nizami ordusunu yaratmaq istəyən general uzun illik hərbi təcrübəsindən gecə-gündüz istifadə edirdi.

Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivində «tamamilə məxfidir» qrifi ilə saxlanan qiymətli bir sənəd bunu bir daha təsdiq edir. Milli Azərbaycan korpusunun komandiri general Əliağa Şıxlinski 1918-ci il dekabrın 13-də Gəncədən göndərdiyi «Məlumat»ında yeni Azərbaycan ordusunun layihəsini hazırlamışdı.

General yazır ki, Azərbaycanın müstəqil respublika elan edilməsi mənə may ayının 27-də qəzetlərdən aydın oldu.

Mən mayın 28-də yeni dövlətin hərb nazirliyinin layihəsini artıq hazırlamışdım; layihənin arxasında izahedici qeyd olan müfəssəl sxem əlavə edilmişdir.

Vəziyyətlə əlaqədar Əliağa Şıxlinski layihəsində təklif edir ki, vaxtilə türk zabitlərinin köməyi ilə yaradılmış hərbi korpus ləğv edilsin. Müharibə şəraitində bu, azlıq təşkil edir. Əvəzində diviziyalar təşkil edilsin. Onlar da hərb nazirinə və onun köməkçisinə tabe olunsun.

Gözəl təlim və tərbiyə almış, Mancuriyada müvəffəqiyyətlə döyüşən, yüksək döyüş qabiliyyətli Yapon ordusunun korpus təşkilatı haqqında təsəvvürü belə yox idi.

Şıxlinski layihədə incə bir mətləbə də toxunmuşdu. May ayında ilk müstəqil Azərbaycan hökuməti yarananda hərb naziri doktor Xosrov bəy Sultanov təyin edilmişdi. O da mülki şəxs idi.

Xosrov bəy türk zabitlərinin köməyi ilə ordunun təşkilində bəzi təxirəsalınmaz işlər görsə də, bu, ölkədəki ağır vəziyyəti yüngülləşdirmədi. Azərbaycanın həm daxilindəki, həm də qonşuluğundakı amansız düşmənə qarşı güclü ordu yaratmaq vacib idi. Təhlükə o qədər artmışdı ki, ölkənin qərb rayonlarında hərbi vəziyyət elan olunmuşdu. Belə şəraitdə mülki şəxsin hərb naziri olmasını peşəkar hərbçi olan Əliağa Şıxlinski məsləhət bilmirdi. Ona görə də haqlı olaraq yazırdı ki, hərb naziri — əgər o mülki şəxsdirsə — onda o özünün yanında səlahiyyətli şəxslərin çox kiçik sayından ibarət hərbi şura yaratmaq və qoşunların təlim və tərbiyəsinə bilavasitə nəzarət etmək üçün özünə köməkçi təyin etməlidir.

Mətndən o da məlum olur ki, general Əliağa Şıxlinski layihəni artıq ikinci, bəlkə də üçüncü dəfə hökumətin ünvanına göndərmişdir.

«Hökumət Gəncə şəhərinə köçən kimi (iyun ayının əvvəlində) mənim layihəm hərb nazirliyi müəssisələrinin müfəssəl sxemi şəklində Nazirlər Sovetinin Sədrinə təqdim edilmişdir.

Ehtimal edilirdi ki, hökumətə tam məlumatı, yəqin ki, Nazirlər Sovetinin müvafiq iclasına dəvət ediləcək korpus komandiri şəxsən özü təqdim edəcək.

Lakin mən heç bir yerə dəvət edilməmişəm və layihə haqqında heç bir xəbərdarlıq almamışam. Güman edirəm ki, layihə heç müzakirə edilməmişdir. Çünki Bakı quberniyasının bolşeviklərdən təmizlənməsi və bunun üçün lazım olan xarici kömək ilə əlaqədar olaraq yaranmış xüsusi şəraitə görə hökumət hərb naziri təyin etməkdən imtina etmişdir».

Nəhayət, hökumətin əmrilə 1918-ci il dekabrın 25-də tam artilleriya generalı Səməd bəy Mehmandarov hərb naziri oldu və həmin gün yanıqlı bəyanatla xalqa müraciət etdi. Dekabrın 29-da isə general-leytenant Əliağa Şıxlinski hərb nazirinin müavini təyin edildi.

## ULU VƏSİYYƏTİ FAYDASIZ OLMAZ

General Əliağa Şıxlinskiyə tale övlad qismət eləməmişdi. O, sevimli həyat yoldaşı Nigar xanımın ölümündən sonrakı həyatını tamamilə artıq hesab edirdi. Bu doğrudanmı belədir, yoxsa şair təbli məşhur sərkərdəmiz ötəri hissəmi qapılmışdı?

1931-ci ildə vəfat edən Nigar xanımdan sonra general on üç il yaşamışdır. Bu on üç ildə tənha yaşayan Əliağa Şıxlinski həyatının bir anını belə Nigarsız təsəvvür etməmişdir. O, hər cümə axşamı sevimli həyat yoldaşının qəbrini ziyarət etmiş, vəfatının ildönümündə ehsan vermişdir.

Görüşdüyüm Şıxlinskilər nəslinin çoxsaylı nümayəndələri mənə dönə-dönə demişdilər ki, generalın ən çox sevdiyi insan yalnız və yalnız həyat yoldaşı Nigar xanım olmuşdur. Əliağa Şıxlinski məşhur «Xatirələrim» əsərində, şerlərində və məqalələrində bu barədə söhbət açıb. Biz bu məhəbbətin ülviliyindən oxuculara az-çox çatdırmışıq...

1983-cü ildə Azərbaycan Dövlət Tarix Muzeyinin arxivindəki «Şıxlinski fondu»nda araşdırmalar aparankən ağzıbağlı bir məktuba rast gəldim. Mavi rəngli zərfin üstündə rus dilində belə yazılmışdı: «Vəsiyyət. Mən öləndən sonra açmalı!».

Məktub əlimdə, bir müddət kövrək hisslərin ağır təsirindən quruyub qaldım. Gözlərimdə yaş dumanı, beynimdəsə qarma-qarışıq sözlər fırlanırdı: «Açım, açmayım. Bu müqəddəs kişinin ruhu məni lənətləməz ki...». Məktubu o biri üzünə çevirib yapışdırılmış tərəfinə dönə-dönə baxıram. Məktub bağlıdır. 1943-cü il avqustun 18-də Bakıda vəfat edən generalın ölümündən isə düz 40 il keçir. Kədərlə köks ötürüb çölə boylanıram. Fevral ayının soyuğu sanki uğultu ilə içəri dolub varlığımı titrədir. Həyat və fəaliyyətini az-çox öyrəndiyim general Əliağa Şıxlinski bilirəm ki, çox maraqlı bir insan olub. Güclü müşahidəsi, əla mütaliəsi və geniş dünyagörüşü olan bu adam heç vaxt ötəri və ya başdansovdu iş görməzmiş. Onun şəxsi əlyazmalarını araşdıranda görürsən ki, xırdaca bir qeydi də böyük bir məna kəsb edir. Mənim yəqinimdir ki, generalın hələ oxumadığım vəsiyyətnaməsində də müdrik sətirlərə rast gələcəm.

Bu anda ağlıma qəribə bir fikir də gəldi. Əgər arxiv işçiləri icazə versəydi bu ağzıbağlı məktubu götürüb generalın yaxın qohumlarından birinin yanına gedər və onunla birgə açıb oxuyardım. Məlumdur ki, vəsiyyət hər şeydən əvvəl yaxın qohum üçün yazılır. Mən də istəyərdim ki, bu məktubu generalın doğması ilə birgə oxuyum. Amma bu mümkün deyil. İndi bu məktub adi kağız parçası deyil. Möhürlənib, qeydə alınıb və tarixi bir sənəd olub. Bəs bu tarixi sənəd nə üçün indiyədək heç kəsi maraqlandırmayıb. Bəlkə tədqiqatçıların rastına çıxmayıb. Elə isə onda mənim uğurumdur qarşıma çıxıb, açsam heç bir günah sahibi olmaram.

Ehtiyatla qələmimin iti ucunu ağzıbağlı məktuba yaxınlaşdırıram. Qırx il qurumuş yapışqan asanca qopur. İçərisindən adi dəftər kağızında yazılmış dörd vərəq çıxır. Birincinin sərlövhəsi: «Ailə vəsiyyətnaməsi»; 30 oktyabr 1933-cü ildə yazılıb. İkincisi — «Əziz Bahadır və Varya!» (Həmin tarixdə yazılıb). Üçüncüsü sərlövhəsizdir, yalnız: «3 yanvar 1938-ci il» tarixi qoyulub. Dördüncüsü: «Son rica (xahiş)», 13 mart 1942-ci ildə yazılıb. General Əliağa Şıxlinskinin «Vəsiyyətnamə»sinin dördünün də üzünü köçürüb evə qayıdıram. Yol boyu ikinci vəsiyyətnamədəki bir cümləni ürək ağrısı ilə öz-özümə təkrar edə-edə gəlirəm.

«Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim «əmlakım» mənim dəfn olunma və ən sadə qəbr daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar».

Oxucum, general Şıxlinskinin vəsiyyətnamələrindəki kədər təkcə bu cümlədə deyil. Onların dördü də tənha yaşayan insanın kədər və həsrətilə doludur. Burda onun sevimli Nigarına ülvi məhəbbətinin də şahidi olacaqsan.

Mən on bir il əvvəl ulu generalımızın kədərinə şərik oldum. Vəsiyyətnamələri sizə təqdim etməkdə bircə məqsədim var: xalqımız üçün əvəzsiz xidmətlər göstərmiş general Əliağa Şıxlinskinin nikbinliyinə, qayğılarına siz də şərik olun. Ulu vəsiyyəti faydasız olmaz.

***

**Ailə vəsiyyətnaməsi**

Mənim ölümümdən sonra, əmlakımdan nə qalarsa; mebel, qab-qacaq, geyim şeyləri və başqa əşyalar, eləcə də qalmış nəqd pul məbləğini həyatımın kimsəsiz illərində mənə qayğı göstərmiş həkim Bahadır Qayıbova[1] və onun arvadı Qayıbovaya[2] vəsiyyət edirəm.

Yazılanları öz şəxsi imzam ilə təsdiq edirəm.

**30 oktyabr 1933-cü il, Bakı**
**ƏLİAĞA ŞIXLİNSKİ**

Biz, mətnin altında imza atmış şəxslər, aqronom Nəsrulla Əlizadə və texnik Sadıq Əlizadə şahidik ki, Əliağa Şıxlinski 30 oktyabr 1933-cü ildə bizim iştirakımızla vəsiyyətnaməni tərtib edib, imzalayarkən tam sağlam əqlə və yaddaşa malik idi. 1. Nəsrulla Əlizadə, 2. Sadıq Əlizadə.

**Əziz Bahadır və Varya!**

---

[1] Bahadır bəy Mirzə Hüseyn Əfəndi oğlu Qayıbov (1878-1949). Əliağa Şıxlinskinin qaynıdır. Onlar həm də qonşu olmuşlar.

[2] Varvara Qayıbova doktor Bahadır bəyin arvadı —müəl.

Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim «əmlakım» mənim dəfn olunma və ən sadə qəbr daşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətnaməm gülünc hal almış olar.

Lakin, ora əvəz olaraq, unudulmaz həyat yoldaşım Nigar xanımın vəfatından sonra, siz məni qayğı ilə hərtərəfli əhatə edərək, onsuz yaşadığım günləri mənim üçün mümkün və dözümlü etdiyinizə görə, mənim sizə qarşı olan minnətdarlığımın həddi-hüdudu yoxdur.

Bu qəni minnətdarlığı mən özümlə qəbr evinə belə aparacağam.

Sizin mənə qarşı mərhəmətinizə görə Allah sizdən razı olsun.

**Sizi sevən**
**Əliağa Şıxlinski**
**Bakı, 30/X-1933-cü il.**

***

**3.01.1938-ci il**

Vəsiyyətnamə yazılarkən, mənim bəzi qiymətli şeylərim var idi ki, onlar bahadır və Varyanın mənə göstərdikləri qayğı və mənəvi köməklikdən əlavə, maddi yardımlarını qismən ödəyə bilərdi.

Lakin mən gözlənildiyindən də artıq yaşadım, satmalı nə vardısa, satıb xərclədim və bununla da vəsiyyətnamə öz mənasını itirmiş oldu.

Əgər evdə qalmış əşyaların dəyəri dəfn mərasiminə və sadə qəbr daşına kifayət edərsə, ona da Şükr. Heç bir ehsan və elan lazım deyil.

Qohumlara telefon vasitəsilə, telefon yoxsa, məktubla xəbər vermək olar.

Qəbir daşı yalnız onun üçündür ki, mənim adım unudulmaz həyat yoldaşım Nigar xanımın adı ilə yanaşı yazılsın.

**ƏLİAĞA ŞIXLİNSKİ**

**Son rica (xahiş)**

1.Əgər mən yataqda qalası xəstə olsam, məni xəstəxanaya göndərin.

2.Əgər xəstəxanada ölsəm, nəşimi evə yox, xəstəxanadan qəbristanlığa aparın.

3.Qəzetdə elan verməyin.

4.Dəfnetmə xərclərinin az olmasına çalışın. Yorğan-ağına bükülmüş cəsədi rənglənməmiş, üstünə ağ kilim salınmış tabuta qoyun.

5.Heç bir ehsan verməyin, bunu etmək həmişə gərəksizdir, müasir çətinlikləri nəzərə alsaq isə qəbahətdir.

6.Mənə əziz olan Nigar xanımın qəbri ilə yanaşı qəbri yastı tava daşı ilə örtüb, üstündə yazarsınız: Əliağa Şıxlinski — heç bir tarix lazım deyil.

**ƏLİAĞA ŞIXLİNSKİ.**
**Bakı, 13.03.1942-ci il.**

Nə tabutun içinə, nə tabutun üstünə bir dənə də olsun gül qoyulmasın.

## ƏLİAĞA ŞIXLİNSKİ.

## GENERAL FİRİDUN BƏY VƏZİROV

1985-ci ildə Tiflis arxivində general Firidun bəy Vəzirov haqqında saxlanan qısa məlumatlarla tanış oldum. Böyük bir sərkərdənin tərcümeyi-halını oxuculara belə—natamam şəkildə çatdırmaq istəmirdim və inana da bilmirdim ki, indiyədək generalın bir doğması qalmamış ola. Bakıya qayıdanda tarix muzeyinə gedib onun əməkdaşlarından kömək istədim. Nərmin xanım Tahirzadə dedi ki, general Firidun bəyin qızı Nigar xanım Bakıda yaşayır.

Nigar xanım çox şeyləri xatırlaya bilmirdi. Yetmiş illik sərt rejimli vahimə onun yaddaşından çox əhvalatları silib aparmışdı. İllərin ağrı-acısı onu yumağa döndərmişdi. Nəvəsi Erazm köməyimə çatdı. Babası Firidun bəyin və nənəsi Zeynəb Səlim qızı Vəzirovanın iki fotoşəklini tapıb mənə hədiyyə elədi.

—Erazm, — dedim, — arxiv sənədlərində nənən Zeynəbin adı Zinaida Səlimovna Kriçinskaya kimi yazılıb. Yəqin ki, bunun da bir səbəbi var?

—Əlbəttə, var. Nənəm milliyətcə Litva tatarıdır. Sizin arxivdə rast gəldiyiniz onun qız ad-familidir. 1870-ci ildə babam yeddinci Belorus qusar alayında ştabs-rotmistr rütbəsində qulluq edəndə evləniblər. Evlənmə mərasimində babam onun ad-familini müsəlman ad-famili ilə rəsmiləşdirib. Nənəm də babamla birgə rus qoşunlarının tərkibində 1877—78-ci illərdə Bolqarıstanın Osmanlı imperiyasından azad edilməsi uğrunda döyüşlərdə iştirak edib. Bunu o illərdən yadigar qalan iri ölçülü bir fotoşəkil də təsdiq edir. Babam Firidun bəy Vəzirov əla döyüş xidmətlərinə görə bu müharibədə mayor rütbəsindən polkovnikə qədər yüksəlmiş və alay komandiri vəzifəsinə təyin olunmuşdur.

Nəslən Tiflis zadəganlarından olan babam otuz səkkiz il imperiya ordusunda xidmət etdikdən sonra general-mayor rütbəsində istefaya çıxmışdır. 1906-cı ildən Tiflisdəki doğma ata-baba mülkündə yaşamış və azərbaycanlıların nəfinə təşkil olunmuş xeyriyyə cəmiyyətlərində ictimai fəaliyyətini davam etdirmişdir.

General Firidun bəy Cəlal oğlu Vəzirovun «hərbi xidmət kitabçasından sətirlər:

1850-ci il aprelin 19-da Tiflisdə zadəgan ailəsində anadan olmuşdur. İlk təhsilini Tiflis klassik gimnaziyasında almışdır. 1868-ci ildə Yelizavetqraddakı süvari məktəbini əla qiymətlərlə bitirmişdir. Hərbi xidmətə unter-zabit rütbəsində yeddinci Belorus qusar alayında başlamışdır. Təltif olunduğu orden və medallar: ikinci və üçüncü dərəcəli “Müqəddəs Anna”, orduda iyirmi beş illik xidmətinə görə üçüncü və dördüncü dərəcəli “Müqəddəs Vladimir”, ikinci və üçüncü dərəcəli “Müqəddəs Stanislav” ordenləri ilə təltif olunmuşdur.

General Firidun bəy Vəzirov həm də 1877—78-ci illərdəki müharibədə göstərdiyi sərkərdəlik qabiliyyətinə görə tunc medalla, bir də üçüncü Aleksandrın imperatorluq etməsinin ildönümü şərəfinə gümüş medalla mükafatlandırılmışdır.

1919-cu il mayın ilk günlərində Tiflisdə yaşayan general-mayor Firidun bəy Vəzirovun ünvanına Bakıdan bir məktub gəldi. Məktub altmış doqquz yaşlı generalın əhvali-ruhiyyəsinə xoş təsir bağışladı. Məktubda deyilirdi:

«Çox hörmətli Firidun bəy cənabları, Azərbaycan Demokratik Cumhuriyyətinin yaratdığı Milli Ordudan şübhəsiz ki, xəbərdarsınız. Xalqımızın sərkərdə oğlu kimi yəqin ki, bu şad xəbərə siz də sevindiniz. Yeni yaranan orduda xidmət etmək üçün sizin kimi bacarıqlı və təcrübəli sərkərdələrə çox böyük ehtiyacımız var. Onu da xatırladım ki, könüllülər hesabına ordumuzun sayı gündən-günə artır. Ağır şəraitdə də olsa, baş qərargah yaradılmasına nail olduq. Qərargahın nəzdində ümumi şöbə, növbətçi general şöbəsi, süvari şöbəsi, mətbuat və başqa şöbələr artıq fəaliyyətdədir. Azərbaycan hökuməti ordu üçün dövlət büdcəsindən xeyli vəsait ayırmışdır. Hazırkı vaxtda hərbi ləvazimatla yanaşı, yeni zabit heyətinin hazırlığında da çətinliklərimiz çoxdur. İnanırıq ki, Azərbaycanın müstəqillik qazandığı vaxtda gənc Azərbaycan Ordusunun sıralarında xidmət edən oğullarımız üçün siz hərbi təcrübənizi əsirgəməyəcəksiniz. Ona görə də çox xahiş edirəm, baş qərargahda birgə çalışmaq üçün dəvətimizi qəbul edəsiniz.

**Hörmətlə: Baş Qərargahın rəisi general-mayor**
**ƏBDÜLHƏMİD BƏY QAYTABAŞI».**

Bu səmimi məktubu alan general dərhal ailəsi ilə birgə Bakıya köçmüşdür. Azərbaycan Demokratik Respublikasının hərbi naziri Səməd bəy Mehmandarovun 7 avqust 1919-cu il tarixli 351 nömrəli əmri ilə general-mayor Firidun bəy Vəzirov Bakı şəhərinin komendantı təyin olunmuşdur.

Beş il sonra — 1925-ci il iyunun 30-da general-mayor Firidun bəy Vəzirov yetmiş beş yaşında vəfat etmişdir.[1]

## GENERAL TEYMUR BƏY NOVRUZOV

Sən kimsən, ey igid? Suçun, günahın nədir ki, yetmiş altı il cəmi xalqından, millətindən gizlədiblər. Qorxudan adını, soyadını belə şəklinin arxasına yaza bilməyiblər. Dövlət Tarix Muzeyinin nadir fondunda saxlanan yeganə fotoşəklinin arxasında ancaq bunları oxudum: «Birinci dünya müharibəsi illərində dörd dəfə Müqəddəs Georgi ordeni ilə təltif olunan azərbaycanlı zabit».

Şəklin arxasında adının yazılmadığına görə kimi günahlandıraq? Arxiv işçilərini, yoxsa totalitar rejimi? Bilmirəm. Bir aydan çoxdur ki, sənin bu balaca fotoşəklini yazı stolumun üstündən götürüb qovluğa qoymağa əlim gəlmir. İstəyirəm səni elim, obam tanısın, bəsdi bu qədər arxivlər küncündə qaldığın. Səni görüb tanıyan nəvə-nəticən fəxrlə desin ki, bu igid mənim babamdır. Axı, imperiya

[1] General F. Vəzirov haqqında əldə etdiyimiz faktlar bunlar oldu. Şübhəsiz ki, gələcək tədqiqatlarımda bu məşhur sərkərdə ilə bağlı tapılan sənədlərlə onun bioqrafiyasını oxuculara müfəssəl çatdıracağam — müəl.

ordusunun ali ordeni hər yoldan ötənə, hər atına süvar olub döyüşə gedən əsgərə verilmirdi. Səni tanımaq üçün olsa-olsa əlimizdə bir əsas, fikrimizdə bir güman var. O da rəhmətlik general Əliağa Şıxlinskinin «Xatirələrim» kitabının 155-ci səhifəsindəki üç cümlədir. Birinci dünya müharibəsində qeyri-adi şücaət göstərən eloğlularımız haqqında fəxrlə söhbət açan şöhrətli generalımız Əliağa Şıxlinski yazır:

«Georgi kavalerləri arasında Teymur bəy Novruzov adlı bir azərbaycanlı da vardı. Nijeqorod polkunun rotmistri olan Teymur bəy Novruzov müharibənin ikinci günü almanlarla ilk toqquşmada özünü göstərmişdir; bu zaman general-leytenant Xan Naxçivanskinin (Hüseynxan Naxçıvanski — Ş. N.) komandanlığı altında olan bizim atlılarımız alman atlılarını darmadağın etmişdilər. Bu döyüşdə Teymur bəy Novruzov almanların piyadalaşmış atlılarına hücum edib iki ağır top qənimət almış, buna görə də Georgi xaçı ilə təltif edilmişdi».

Hələ kimliyini dəqiq bilmədiyim, eloğlu. Uzaq illərin arxasından sənə, sənin ruhuna və sağ olub-olmadığını bilmədiyim nəvə-nəticənə müraciət edirəm. Sən öz gəlişinlə bizim Azərbaycan hərb tarixinə gec də olsa, yeni səhifə açmısan. Sən— rotmistr Teymur bəy Novruzov birinci dünya müharibəsində döyüşən iki yüz əllidən çox azərbaycanlı zabit arasında bu yüksək ordenlə təltif olunan yeganə igid olmusan. Sənin eyni soyadında yetmiş il əvvəl Azərbaycan Demokratik Cümhuriyyətinin milli ordusunda bir general-mayorumuz da olub. Mən bu ad-soyada Azərbaycan Respublikası Yeni Tarix Mərkəzi Dövlət Arxivinin nadir fondunda rast gəldim.

Azərbaycan Demokratik Cümhuriyyətinin 1919-cu il iki avqust tarixli protokolundan bir çıxarışı oxuyanda qəlbim iftixarla döyündü:

«Birinci süvari Tatar (Azərbaycan — Ş. N.) alayının polkovniki Teymur bəy Novruzova əla xidmətinə görə general-mayor rütbəsi verilsin».

Qismətinə bax, bir arxivdə quruca və uca general adın, o birində isə bir parça fotoşəklin qalıb.

Bir də on doqquzuncu ildə sənə zəbt vəkili[1] Əli Şövkət əfəndinin qoşduğu şərqi gəlib çatıb bizlərə.

Xoş gəldin ey şövkət məqam,
Əsgər sənə eylər salam.
Sən əsgərin göz nurusan,
Minlər yaşa Teymur paşa!..
Xoş gəldiniz zəhmət çəkib,
Alayımızı ucaltdınız...
Əsgərlərin vurudi budur,
Minlər yaşa, Teymur paşa,

---

[1] Məhkəmə katibi.

Paşalığın mənbəini,
Vurudi sizə var olsun.
Əvəzində biz ölərik
Minlər yaşa Teymur paşa...

Bəzən sənin haqqında düşünəndə öz-özümə təsəlli verirəm. Deyirəm, Allaha min şükür ki, hələ quruca adın, bu bir parça şəklin də saxlanılıb. Axı, biz 1920-ci il aprelin iyirmi səkkizindən dünənimizə kimi sənin və silahdaşlarının fotoşəklini gizlətmişik, cırıb atmışıq, adınızı çəkməyə, rütbənizi deməyə qorxmuşuq. Çünki başımızın üstündə iyirminci ilin daşnak-bolşevik terroru, bir də otuz yeddinin qara qılıncı olub. Sənə və sənin kimi doğma Azərbaycanımızı yadlardan qoruyan igidlərimizə qənim kəsilmişik. Bizi həmişə məcbur ediblər ki, özümüzə yox, Şimala baxaq. İstilaçı On birinci Ordunu azadlıq ordusu kimi yetmiş iki il mədh etmişik. Bizə deyiblər ki, tarix dərslərinizdə Kutuzovun, Suvorovun, Çapayevin haqqında olan hər sətri, hər cümləni əzbərliyin.

Unudun Babəkinizi, Cavanşirinizi, general Səməd bəy Mehmandarovunuzu, Əliağa Şıxlinskinizi və onlarca başqalarını.

Bilmirəm, sənə baba deyim, əmi deyim, yoxsa... Eloğlu, sən mənim üçün, mənim xalqım üçün hələlik yarıməfsanə, yarımhəqiqətsən. Əgər hər hansı bir isti ocaqlı azərbaycanlı ailəsindən sənin əl boyda fotoşəklin tapılsa, uzaq da olsa bir nəvə-nəticən harayıma səs verib, köməyimə çatsa onda tək mən yox, Azərbaycan hərb tarixi sevinəcək. İnanıram ki, səni tanıyan olacaq, sən yetmiş altı ildən sonra doğma xalqına qovuşacaqsan. Vaxtilə azadlıq uğrunda çarpışan ruhun nəvə-nəticənə qovuşacaq, inanıram buna, inanıram, eloğlu. İnanıram ki, iri ala gözlərin, vüqarlı baxışın, azərbaycanlısayağı burulmuş eşmə bığın kimsənin diqqətindən yayınmayacaq.

Əziz oxucu, ümid yeri üçün bir faktı da nəzərinə çatdırmaq istərdim. Uzun müddət YUNESKO Beynəlxalq təşkilatında işləmiş həmyerlimiz Ramiz Abutalıbovda Almaniyada yaşayan soydaşımız Hilal Münişin Ceyhun bəy Hacıbəyliyə yazdığı məktub saxlanılır. Məktubda Hilal Münişi Ceyhun bəyə yazır ki, azərbaycanlı general Teymur bəy Novruzov Berlindədir. O, iki min beş yüz nəfərdən ibarət süvari təşkil etməyə sizdən kömək istəyir. Azərbaycandan bolşevikləri qovmaq üçün qüvvə toplayır. General Teymur bəy Azərbaycanın xilası uğrunda inamla çalışır. O, 1877—78-ci illərdə rus-türk müharibəsinin qəhrəmanı, qvardiya polkovniki Kərim bəy Novruzovun qohumudur...

## BİR NƏSLİN GENERALLARI

Tarixə «olub keçmiş şeylər», «çağırılmış bayatılar» kimi baxanlar idrak və zövqü məhdud insanlardır.

Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq haqqını dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar.

Şuşaya getməkdə məqsədim görkəmli ədəbiyyatşünasımız Firidun bəy Köçərlinin dədə-baba yurdunu görmək idi. Bir xeyirxahın köməyi ilə evi tapıb, həyət-bacanı gəzdim. Unudulmuş Firidun bəyin nə yaxın, nə də uzaq bir qohumu ilə görüşüb söhbət edə bilmədim. Mülkün divarına çoxdan vurulmuş, rəngi solmuş xatirə lövhəsini ürək ağrısı ilə oxudum. Evi muzey görmək ümidim vardı. Amma sanatoriya anbarı kimi istifadə olunduğunu görəndə, yadıma olmuş bir əhvalat düşdü. Onu mənə Qazax seminariyasının məzunu, mərhum Hacıbala Hacıyev danışmışdı.

Seminariya hələ Qoridə olarkən (1910-cu il) bir gün dərsdən evə gələn Firidun bəy arvadı Badsəbanı əli qoynunda fikirli görür. Firidun bəy təşvişlə soruşur:

—Badsəba, nə olub, niyə qəmlisən? Şuşadan, ya da Qazaxdan bəd xəbər var, nədi?

Badsəba xanım kədərlə:

—Eh, ay Firidun, niyə də fikirli olmayım, bu qədər ömür sürdük, tanrı bizə bir övlad da vermədi ki, nişanəmiz qalsın.

Firidun bəy əvvəlcə bərk tutulur, sonra özünə gəlib, arvadına təsəlli verir:

—Fikir eləmə, Badsəba, bu seminariyada oxuyan uşaqların hamısı bizim övladlarımızdır. Bizi kim unutsa da onlar unutmazlar. Bu, mənim yəqinimdir. Vaxt gələr görərsən...

İllər keçir. Firidun bəy Köçərli 1920-ci il mayın 22-dən 30-dək davam edən Gəncə qiyamı zamanı mənfur daşnaklar tərəfindən öldürülür. Badsəba xanım 1921-ci ildə Bakı Pedaqoji Texnikumunda tərbiyəçi işləyir. Dörd il sonra bacarıqlı mütəxəssis kimi pedaqoji texnikum təşkil etmək üçün Zaqatalaya göndərilir. 1929-cu ildə Quba Pedaqoji Texnikumunun müdir müavini olur. Bir ildən sonra onu Şəki Uşaq Evinin müdiri təyin edirlər. Həmin dövrdə yetimxana ciddi ehtiyac içində idi. O, kömək üçün hansı idarəyə müraciət edirdisə, yardım edən olmurdu. Firidun bəyin 1910-cu ildə dediyi sözləri xatırlayan Badsəba xanım Mərkəzi Komitədə Torpaq komissarı işləyən, keçmiş Qori seminariyasının məzunu Teymur Hüseynovun yanına gəlir. Yetimlərə kömək üçün ona müraciət edir. Teymur Hüseynov Badsəba xanımı doğma anası kimi çox səmimi qarşılayır. Maddi cəhətdən kömək edir, üstəlik də yetimxananın müasir mebellə təmin olunmasına sərəncam verir.

Bu əhvalatdan sonra Badsəba xanım ölənə qədər (1954) deyərmiş ki, Firidun bəylə mən sonsuz olmamışam. Qori və Qazax seminariyasının hər bir məzunu bizim övladımızdır.

İndi Firidun bəyin dədə-baba yurduna baxa-baxa fikirləşirəm ki, Teymur Hüseynov kimi xeyirxahlar «otuz yeddi»nin günahsız qurbanı olmasaydı, bəlkə də mülk bu günə düşməzdi. Demək, indi Teymur kimi övladlara ehtiyacımız var. Təəssüf ki, «otuz yeddi»nin qara küləkləri çox seminaristi öz burulğanında məhv

elədi. Hətta seminariyanın təşəkkülü və Azərbaycan maarifinin inkişafında böyük xidmətləri olan Sultan Məcid Qənizadə belə yetmiş iki yaşında ikən şəxsiyyətə pərəstiş dövrünün qurbanı oldu.

Nə gizlədim, Şuşada Firidun bəy Köçərlinin dədə-baba mülkünü görəndə, fikirləşdim ki, övladsızlıq yaman bəladır. Əgər tanrı Firidun bəylə Babsəba xanıma övlad nişanəsi versəydi, bu gün yurdu anbar olmazdı...

O vaxtdan səkkiz il keçib. Amma Şuşada Firidun bəyin dədə-baba mülkünün qapısından asılmış qara daş boyda anbar qıfılı hələ də gözümün qabağından getmir. Bu da ömrünün qırx ildən çoxunu ədəbiyyatımıza, maarifimizə həsr etmiş Firidun bəy Əhmədağaoğlu Köçərli kimi müqtədir şəxsə ehtiramımız...

***

Firidun bəyin dədə-baba mülkünün qonşuluğundakı ikimərtəbəli əzəmətli mülk də istər-istəməz diqqətimi cəlb elədi. Maraqlanıb belə gözəl imarətin kimə məxsus olduğunu soruşdum. Dedilər ki, şahzadə Bəhmən Mirzənin olub.

Mənim tərifləyə-tərifləyə, heyranlıqla mülkə baxdığımı görən «bələdçim»:

—Əşşi, çox da tərifəlayiq deyil, — dedi.

—Niyə? — deyə maraqla soruşdum.

—Bəhmən Mirzə arvad düşkünü olub, çox arvad alıb, çoxlu da övladı olub, — deyə bələdçim deyindi.

—Bəhmən Mirzənin ailə məsələsini bilmirəm. Amma Azərbaycan tarixində müəyyən xidmətləri var. Bir də o, neçə-neçə ziyalı oğul, qız yetişdirib, — dedim və ürəyimcə olmayan söhbəti yumşaldıb yekunlaşdırdım.

Həmin gün gəzə-gəzə Şuşanın yuxarı hissəsinə gedib çıxdım. Nəhəng bir kilsəyə rast gəldim. Burda iyirmi beş-otuz usta, fəhlə canfəşanlıqla işləyirdi. Öyrəndim ki, Yerevandan gətirilmiş xüsusi ustalar bizim Daşkəsən mərməri ilə erməni kilsəsini yenidən bərpa edir, zərif naxışlar salırlar. Üzərində pozulmaqda olan yazılara qızılı rəng vururlar.

O gecə mehmanxanadakı pambıq yorğan-döşəyim od olub məni yandırdı. İlan vuran yatdı, mən yatammadım...

1983-cü ildə şahidi olduğum bu iki hadisənin günahkarları bu gün xəcalət çəkirmi görəsən? Nə isə... Belə sağalmaz yaralarımız, çəkilməsi mümkün olmayan dərdlərimiz çoxdur... Bir tərəfdən də Bəhmən Mirzənin kimliyi dərd olub ürəyimi yeyirdi. Fikirləşirdim ki, belə əzəmətli mülkün sahibi imkansız, kasıb adam ola bilməzdi... Sonralar arxivlərdə işləyəndə, inqilabdan əvvəlki ədəbiyyatları mütaliə edəndə, tez-tez Bəhmən Mirzənin adına rast gəlirdim. Hər yerdə də onun və oğullarının fəaliyyəti barədə xoş sözlər söylənilirdi. Bu vaxt qeyri-ixtiyari olaraq «bələdçi»mi xatırlayır və düşünürdüm ki, Bəhmən Mirzəyə yaxdığı «arvad düşkünü» ifadəsini o, hardan alıb?

Sovet dövründə çıxan kitab və məqalələrdə şahzadə Bəhmən Mirzənin «arvad düşkünü» olması fikrinə rast gələndə əsəbiləşdim. Demək, «bələdçim» ancaq bu dövrün ədəbiyyatını mütaliə eləyibmiş. Bu dövrdə yazılan elmi-tarixi

«əsərlərimizin» demək olar ki, hamısında şahzadə Bəhmən Mirzənin adı pisliyə çəkilib. Kimi onu «padşahpərəst», kimi «intriqaçı», kimi də «arvad düşkünü» adlandırıb.

Doğrudanmı şahzadə Bəhmən Mirzə «arvad düşkünü» olub?

II Yekaterinanın əxlaqi keyfiyyətləri dünya ictimaiyyətinə, eləcə də tarixçilərə bəlli olduğu halda, rus müəllifləri onun məişət işləklərinin üstündən sükutla keçir, hətta onun hakimiyyət dövrünü «Qızıl əsr» dövrü adlandırıblar. Bəs onda bizim müəlliflər niyə tarixi şəxsiyyət olmaqla kimliyini hərbi qabiliyyəti ilə təsdiq etmiş Bəhmən Mirzəyə qara yaxanlara şərait yaradırlar?

Bəri başdan deyim ki, şahzadə Əbdülsəmid Bəhmən Mirzə Abbas Mirzə oğlunun qanuni olaraq evləndiyi on altı arvaddan altmış üç övladı olub. Onların otuz biri oğlan, otuz ikisi qız idi.

Bəs tarixi həqiqət necədir, şahzadə Bəhmən Mirzə kimdir? O, 1811-ci il oktyabrın 31-də İranda anadan olub. Milliyyətcə azərbaycanlıdır. İran şahı Fətəli şahın nəvəsi, şahzadə Abbas Mirzənin oğludur. Qacarlar sülaləsinin üçüncü hökmdarı Məhəmməd şahın isə qardaşıdır. Uzun müddət Təbrizin general-qubernatoru və Cənubi Azərbaycanın hakimi olmuşdur.

Azərbaycan tarixşünaslığında Bəhmən Mirzə Qacar «Şükürnameyi-şahənşahi» («Şahənşaha minnətdarlıq») adlı əsəri ilə tanınır. Çox təəssüf ki, bu qiymətli əsər indiyədək əlyazma halındadır. Tədqiqatçı Əli Hüseynzadənin verdiyi məlumata görə, Bəhmən Mirzə «Təzkirəyi Məhəmməd şahi» (1832), eləcə də Şimali Amerika, Fransa, İngiltərə, İtaliya, İran, Türkiyə və Çin haqqında qısa coğrafi-tarixi, etnoqrafik məlumat kitablarının da müəllifidir. Yeri gəlmişkən, Azərbaycan tarixçilərindən yalnız Əli Hüseynzadə onun əsərləri barədə sanballı fikirlər söyləmişdir.

«Şükürnameyi-şahənşahi» əsərini Bəhmən Mirzə 1871-ci ildə Şuşa şəhərində fars dilində yazmışdır. Onda müəllifin altmış yaşı vardı. Əsərdə o, Çingiz xandan Ağa Məhəmməd şah Qacara qədər altı əsrlik bir dövrdən, həmçinin Qafqazın tarixşünaslığı haqqında geniş məlumat verir. Müəllif əsəri saray arxivində saxlanan faktlar əsasında yazıb.

Bəs necə olub ki, Cənubi Azərbaycanımızda yüksək vəzifə tutan və böyük mənsəb sahibi olan şahzadə Bəhmən Mirzə Qacar rus təəbəliyini qəbul edib? Bu barədə 1902-ci ildə çap olunmuş «Rus imperatorunun coğrafiya cəmiyyəti Qafqaz şöbəsinin xəbərləri» məcmuəsinin on beşinci cildinin birinci nömrəsində ətraflı məlumat var. Onu kiçik ixtisarla oxuculara təqdim edirəm.

«Məhəmməd şahın (1834—1849) doğma qardaşı, Müzəffərəddin şahın babası olan Bəhmən Mirzə ötən yüzilliyin qırxıncı illərində Azərbaycan əyalətinin hakimi olmuşdur. Orada o, enerjili və Avropa mədəniyyətinə meylli bir hakim kimi tanınmışdır. Elə buna görə də dövrünün böyük vəziri, fanatik molla Hacı Mirzə Ağasiyyənin nifrətinə və təqiblərinə məruz qalmışdır. Bu vəzir xəstə və zəif xarakterli Məhəmməd şahın müəllimi və tərbiyəçisi kimi ona bəslədiyi hədsiz

etibarın sayəsində otuz il ərzində İranda despotcasına, özbaşına hökmranlıq etmişdir...

O vaxtlar Avropa mədəniyyətinə meyl göstərənlərin hamısı təqib edilirdi: bu təqiblərdən şahın doğma qardaşı, Azərbaycanın hakimi şahzadə Bəhmən Mirzə də yayına bilməmişdi. Onun bütün təşəbbüsləri, təklifləri rədd edilirdi, buna görə də 1847-ci ildə şəxsən şahla görüşməkdən ötrü Tehrana yollanmağa məcbur olmuşdu. Amma Hacı Mirzə Ağasiyyənin fitnə-fəsadı və böhtanları nəticəsində şah öz qardaşını səmimi qarşılamamış və Bəhmən Mirzə onunla anlaşa bilməmişdi. Fanatik qocanın hər hansı bir yolla rəğbətini qazanmaq məqsədilə Bəhmən Mirzə ona hədiyyə olaraq 50000 holland çervonu bağışlamışdı. Lakin Hacı Mirzə Ağasi, şahzadənin dediyinə görə, həmin pulu qəbul etsə də, ona münasibətini zərrə qədər dəyişməmiş, əksinə, şahı inandırmışdı ki, qardaşı onun həyatına qəsd eləmək və taxt-taca sahib olmaq niyyətindədir. Bununla da bədbəxt şahzadənin taleyi həll edilmişdi. Lakin o, cəlladlara səxavətlə bəxşişlər verməklə hesabına evdən qaça bilmiş və rus missiyasında[1] sığınacaq taparaq müdafiə olunmuşdu. Ölkədəki mövcud ənənəyə görə, rus elçisi müdafiədən imtina edə bilməzdi, odur ki, Bəhmən Mirzə etibarlı mühafizəçilərlə Tiflisə göndərilmiş, sonra isə imperator I Nikolayın iradəsinə rəğmən Şuşa şəhərində yerləşmişdi. Rus elçisinin tərəfkeşliyi nəticəsində Bəhmən Mirzə çox güman ki, özü ilə bütün əmlakını və babası Fətəli Şahın, eləcə də atası Naib-ül Sultanın (Şahzadə Abbas Mirzənin — Ş. N.) arxivlərindən götürdüyü qiymətli tarixi materialları apara bilmişdir. Və məhz Şuşada, sakit və tənha bir guşədə, dünyanın həyəcanlarından uzaqda o, həmin tarixi materialları öyrənməyə başlamış, onların əsasında da Qafqaz diyarının tarixşünaslığını tərtib etmişdi. O, əsərində farsların və türklərin hökmran olduğu dövrlə rusların hakimlik etdiyi dövrdə bu diyarın vəziyyətini müqayisə etmək məqsədini güdürdü.

Müəllif ön sözdə yazır ki, «bu tarixdə keçmiş hakimlərin bu diyarın sakinlərinə necə azğın münasibət bəslədikləri, onların əmlakını talan etdikləri, arvad və uşaqlarını əsir aparmaları, şəhər və kəndlərini dağıtmaları qələmə alınmışdır. Daha sonra bu diyarın qüdrətli rus hakimiyyəti dövründəki vəziyyəti təsvir olunmuşdur. Bütün bunları mən o məqsədlə bu tarixşünaslıq əsərinə daxil etmişəm ki, diyarın sakinləri keçilməz dağ xarabalıqlarında, sıx meşələrdə, məhrumiyyət içərisində, əsarətdə yaşayan babalarının məişəti ilə əyani tanış olsunlar, hazırkı firavanlıqlarını düzgün qiymətləndirə bilsinlər.

Həqiqətən də Çingiz xan dövründən XIX əsrin əvvəllərinə qədər Qafqazda baş verən hadisələrin bütün təfərrüatı ilə tanış olduqca tarixi keçmişin məşəqqətləri bir-bir göz önündə canlanır. Müəllifin xidməti həm də ondadır ki, o, bütün fars salnaməçiləri kimi milli şovinizmə qapılmır və həqiqətdən yayınmır: məsələn,

---

[1] Missiya — diplomatik nümayəndəlik mənasında — müəl.

bütün fars tarixçiləri I Şah Abbası məşhur qəhrəman, dahi sərkərdə və müqəddəs şəxs kimi qələmə verir, buna görə də hətta ona «Cənnətməkan» titulu da verirlər. Bəhmən Mirzə isə onu olduğu kimi təsvir edir. Məlum olur ki, bu, məşhur qəhrəman elə vəhşiliklər törədib ki, tanış olduqca adamın damarlarında qanı donur: bu əməlləri yalnız insan cildində yırtıcılar törədə bilərdilər. Məsələn, o öz atasını doqquz il zülmətxanada incitmiş və orada ölməsinə bais olmuşdur. Öz doğma qardaşları Abutalıb Mirzəni və Təhmasib Mirzəni Alamut qalasında düz otuz beş il saxlamışdır. Onlar qalada məhrumiyyətlərdən ölmüşlər. Onun əmrilə doğma oğlanları, hətta taxt-tac varisləri heç bir səbəb olmadan, şübhə üzündən öldürülmüş və gözləri çıxarılmışdır. Bu kimi faktlara ilk dəfədir ki, fars müəllifində rast gəlirsən. Bu həqiqətpərəstlik əlbəttə, Bəhmən Mirzənin əsərinin müsbət cəhətidir».

1848-ci il mayın 12-də «Lənkəran» gəmisi ilə Bakıya gələn şahzadə Bəhmən Mirzə az müddət Şamaxıda qaldıqdan sonra Tiflisə köçür, Mirzə Fətəli Axundovun qonşuluğunda yaşayır.

Dörd ilə yaxın Tiflisdə yaşayan şahzadə Bəhmən Mirzə yenidən Vətənə qayıtmaq üçün təşəbbüs göstərmir. Bu barədə Rus çarlığı İran hökumətinə rəsmi müraciət edir. Lakin İran şahlığı onun qarşısında üç şərt qoyur: birinci, Azərbaycanda (Cənubi Azərbaycan nəzərdə tutulur — Ş. N.) yaşamaq əzmində olmasın; ikinci, mənsəb və vəzifə tələb etmədən ona veriləcək kəndlərin gəliri ilə kifayətlənsin; üçüncü, Rusiya dövləti tərəfindən himayə edilmək imtiyazına malik olmadan, şahın digər rəiyyətləri kimi, adi vətəndaş hüququ ilə İrana qayıtsın.

Bəhmən Mirzə ədalətsiz hesab etdiyi bu üç şərtin heç biri ilə razılaşmır. Və ömürlük rus təbəliyini qəbul edir. 1851-ci il oktyabrın 4-də Şuşaya köçən Bəhmən Mirzə Məlikovların mülkünü satın alır. Ona imperator tərəfindən doqquz min altı yüz manat maaş kəsilir.

Görünür, ona görə də Bəhmən Mirzə rus imperatorunun tərifini göylərə qaldırır, onun ədalətindən, rəiyyətlərinə göstərdiyi səxavətdən razı qalaraq «Şükürnameyi-şahənşahi» əsərində yazırdı:

«Nə nahaq adam öldürən var və nə də bir kəsin bədən üzvünü kəsən. Nə bir kimsədən cərimə alan var, nə də bir kimsənin malını zəbt edən. Bu, bir böyük nemət və sonsuz lütfdür ki, Allah sizə bağışlayıbdır. Bəs bu nemətə qarşı şükrü vacib biliniz, əmniyyətin qədrini yaxşı biliniz, həmişə əlahəzrət şahənşaha dua ediniz və bu dövlətin həmişəlik yaşamasını istəyin... İndi müşahidə edin ki, əlahəzrət padşahın varlığının nuri sayəsində məmləkətlər necə abad olub, əmniyyət qazanmışdır».

1884-cü il fevralın 11-də Şuşada vəfat edən Bəhmən Mirzə Bərdədəki İmamzadə qəbristanlığında dəfn olunub.

Rus hökuməti tərəfindən hörmətlə qəbul edilən şahzadə Bəhmən Mirzənin həyat və fəaliyyətinə inqilabdan əvvəl nəşr olunmuş «Qafqaz Arxeoqrafiya Komissiyasının aktları» məcmuəsinin onuncu cildində geniş yer verilir.

İnamla demək olar ki, Bəhmən Mirzə altmış üç övladının hamısına ali təhsil vermiş, xalqımız üçün yararlı şəxsiyyətlər böyütmüşdür. Onun qızları Tiflis gimnaziyasında oxumuş, müsəlman qadınlarının xeyriyyə cəmiyyətlərində fəal iştirak etmişlər. Məscid tikdirmiş, yol çəkdirmiş, ibtidai məktəblər açılması işində var-dövlətlərini səxavətlə xərcləmişlər.

Qədim Gəncədə onun qızı Səbiyyə xanımdan bir nişanə qalıb. O, qəriblər üçün şərq ornamentləri ilə bəzədilmiş mehmanxana-məscid tikdirmişdir. İnqilabdan əvvəlki ruhani sorğu kitablarında və məscidin mehrabında oxuyuruq: «Bu məscidin yerini, öz mülkündən-torpağından şahzadə Bəhmən Mirzənin qızı Səbiyyə xanım vəqf edib. Burda yaşayan başqa səxavət sahibləri də binanın tikilməsində xərc çəkiblər». Uzun illər məscid kimi istifadə olunan həmin binada sonralar A. S. Puşkinin şərəfinə kitabxana təşkil olunmuşdur.

Maraqlı haldır ki, Bəhmən Mirzənin gəlinləri, nəvələri də Peterburqda, Kiyevdə, Tiflisdə ali Avropa təhsili almışlar.

Fransız, ingilis, rus, fars və Azərbaycan dillərində kamil savada malik olan Sitarə xanım Qacarın oğlanları Şəmsəddin və Oveys Petroqrad Politexnik İnstitutunda təhsil almışdılar. Tiflis Nücabə qızlar institutunda ali təhsil alan Gövhər xanım Qacar 1905-ci ildə təşkil olunmuş «Zaqafqaziya müsəlman qadın xeyriyyə cəmiyyəti»nin sədri olmuşdur. O, fanatiklərin əlilə öldürülmüş Ağəli Əkbər İsmayılovun qızı, Bəhmən Mirzənin isə gəlini idi. Peterburq qızlar institutu nəzdində xüsusi kurs bitirmiş bu nüfuzlu qadın general əri şahzadə Əmir Kazım Mirzə Qacarla birgə əsrin əvvəllərində müsəlmanların mədəni tədbirlərinin hamısında yaxından iştirak etmişdir. Gövhər xanım Qacar haqqında Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım yazır: «Cəmiyyətin sədri Gövhər xanım Qacar savadlı, işgüzar və bacarıqlı bir qadın idi, çadrasız gəzirdi, əri hərbi qulluqçu idi. Tiflisin yüksək cəmiyyətlərinə gedib-gələr, canişin arvadının ziyafətlərində olardı. Özünün əlaqələri, həmçinin ağlı və nəzakəti ilə o bizim tədbirlərimizin həyata keçirilməsinə kömək edərdi».

Bəhmən Mirzənin 1905-ci ildə Port-Artur döyüşlərində həlak olmuş oğlu Əliqulu Mirzə qeyri-adi istedad sahibi olmuşdur. Tiflisdəki kadet korpusunu bitirdikdən sonra Oryol şəhərində yerləşən əlli birinci Çerniqov draqun alayında xidmət etmiş, 1903-cü ildə Yeletsdəki əlli ikinci Nejinski alayına dəyişdirilmişdir. 1905-ci ildə Port-Artur döyüşlərində igidliklə həlak olan mayor Əliqulu Mirzə döyüş xidmətlərinə görə «Müqəddəs Stanislav» ordeni ilə təltif olunmuşdur. O da Bərdədəki İmamzadə qəbristanlığında, atası Bəhmən Mirzə ilə yanaşı dəfn olunmuşdur.

1979-cu ildə doxsan iki yaşında Tiflisdə vəfat edən oğlu Şəmsəddin Mirzənin atası haqqında «O qayıdacaq» adlı xatirəsi qalmışdır. O yazır ki, hələ Oryolda olarkən hərbi-təlim məşqləri zamanı atam at sürməkdə, nişangahı dəqiq vurmaqda həmişə birinci prizləri alardı. Hərbçi dostları onu mahir atıcı kimi tərifləyəndə sakit təbiətli, az danışan atam elə belə, yüngülvarı gülümsünərdi.

Müharibə başlayanda atam ön cəbhə üçün vacib olan əşyalarını yığışdırıb qabqardı. Anam Sitarə xanım həyəcanla:

—Əliqulu, — dedi, — sən də gedəcəksən? Axı həkimlər deyir ki, sənin ürəyin xəstədir, özün də müalicə olunursan, belə bir ürəklə cəbhəyə getmək, açıq-açığına ölümə getmək deməkdir.

Atamın qalın qaşları çatıldı:

—İndi, — dedi, — o barədə danışmaq vaxtı deyil. Xəstə adam gərək çoxdan istefaya çıxaydı. Bu saat geri dursam, deyəcəklər ki, müharibəyə getməkdən qorxdu...

—Axı, sən xəstəsən, özü də ciddi...

—Boş şeydir, heç nə olmaz, — deyən atam hərbi çantasını qabqarmağı davam etdirdi. — Evdə əvəzimdə bu boyda kişi qalır, — atam mənim başımı tumarladı.

Onda mənim on yaşım yenicə tamam olmuşdu.

Oğlunun və müasirlərinin yazdığına görə, mayor Əliqulu Mirzə Qacar fotoqrafiya sənətini gözəl bilirmiş. Təsadüfi deyil ki, onu haqlı olaraq Azərbaycanın ilk qeyri-professional fotoqrafı adlandırırlar. Bu gün Tiflis, Bakı, Peterburq arxivlərində Bəhmən Mirzənin ailə üzvlərinə məxsus fotoşəkillərin də müəllifi şübhəsiz ki, mayor Əliqulu Mirzə Qacar olmuşdur.

Bəhmən Mirzə Qacarın on beşdən çox oğlu İran və rus ordularında hərbi xidmətdə olub. Onlardan altısı — Əmir Kazım Mirzə, Məhəmmədəli Mirzə, Səməd Mirzə, Mahmud Mirzə, Əmənullaxan Mirzə və Sədrəddin Mirzə general rütbəsinə qədər yüksəliblər. Altısı isə polkovnik idi: Şahruh Mirzə, Xosrov Mirzə, Xanbabaxan Mirzə, Seyfulla Mirzə, Nəsrulla Mirzə və Əbdülsəmid Mirzə.

Uzun axtarışlardan sonra müxtəlif arxivlərdən, ayrı-ayrı adamlardan onların onunun fotoşəklini əldə edə bildim. Bəhmən Mirzənin isə o tay Azərbaycanın hakimi və baş komandanı olan vaxt çəkilmiş fotoşəklini respublika Əlyazmalar İnstitutundan tapdım. Sədrəddin Mirzənin nəticəsi M. Dadaşov adına elmi-tədqiqat mühəndislər institutunun mühəndisi Yavuz Muradovdan ulu babası Abbas Mirzənin yeganə əksini aldım.

Bəhmən Mirzənin hərbçi oğulları draqun (xüsusi süvari qoşun hissələri — Ş. N.) alaylarında leyb-qvardiya zabiti kimi rus və İran ordularında şərəflə xidmət etmişlər.

1884-cü ildə «Sın oteçestva» jurnalı (2/III-50) yazırdı: «Bəhmən Mirzənin həddi-buluğa çatmış oğlanlarının bəziləri rus, bəziləri isə İran ordusunda hərbi xidmətdədirlər. Demək olar ki, bütün Qafqaz draqun alaylarında Bəhmən Mirzənin ya oğlanları, ya da zabit qohumları var. Şahzadə Bəhmən Mirzənin oğlu Mahmud Mirzə keçmişdə Nijeqorod draqun alayında türk kompaniyasında ştabs-rotmistr olmuşdur. Kompaniyanı qurtardıqdan sonra əmisi Məhəmməd şah onu İrana çağırır, hazırda o, general rütbəsində İran leyb-qvardiyasına komandanlıq edir».

Bəzən arxivdən heç bir sənəd tapmayanda əl boyda şəklin arxasındakı iki-üç sətirlik avtoqraf da adamın köməyinə gəlir. Onda bizdən çox-çox uzaq illərdə yaşamış həmin avtoqrafı yazana qəlbinin dərinliklərində minnətdarlığını bildirirsən. Gözəl xətlə yazılmış aşağıdakı sətirləri oxuyanda şahzadə Şahruh Mirzənin ruhuna rəhmət oxudum: «Kazak polkunun leyb-qvardiya polkovniki şahzadə Şahruh Mirzədən Mələksimaya* dostluq hədiyyəsi. 16 may 1899-cu il, Tiflis şəhəri». Bir az aşağıda isə xırda hərflərlə belə yazılmışdı: «Şahzadə 1915-ci ildə Cəbrayılda vəfat etdi.

«...Bir oğlumdan başqa bir də Nisə xanım adlı qızım vardır ki, şahzadə Bəhmən Mirzənin oğlu Xanbabaxana ərə vermişəm. Qızımın əri bizim imperatorun ordusunda xidmət edir. Xoşəxlaq, savadlı, təmiz cavanlardan biridir. Günah işlərin və bəd əməllərin yanından belə ötməz. Mənim kimi o da mütləqa şərab içməz, həmişə Tiflisdə yaşayır. Öz evimdə ona bir neçə otaqdan ibarət mənzil ayırmışam. Qızımdan və həmin Xanbabaxandan iki nəvəm vardır».

Bu sətirlərin müəllifi böyük dramaturqumuz Mirzə Fətəli Axundovdur. Araşdırmalardan məlum olur ki, 1851-ci ildə Tiflisdən Şuşaya köçən Bəhmən Mirzə, Axundovla dostluq əlaqəsini kəsməmiş, əksinə, onu daha da dərinləşdirib qan qohumluğuna kimi davam etdirmişdir.

M. F.Axundovun böyük qızı Seyrabəyim 1866-cı ildə Bəhmən Mirzənin oğlu Xanbabaxanla ailə qurur. Bu saf, ülvi izdivacdan iki övlad — Mələksima adlı qız və Mənsur Mirzə adlı oğul dünyaya gəlir. Altı il sonra, 1872-ci ildə Axundovun qızı Seyrabəyim vəfat edir. İki uşağın yetim qalması Mirzə Fətəliyə çox ağır təsir edir. Onların yad qapazı altına düşməməsi və sevimli kürəkəni Xanbabaxanın «xoşəxlaq, savadlı, təmiz cavanlardan biri» olması xatirinə Mirzə Fətəli ikinci qızı Nisə xanımı da bir il sonra ona ərə verir.

M. F. Axundovun öz kürəkəni haqqında yazdığı tərif dolu sətirlər təkcə Xanbabaxana aid deyil. Bu işdə bir ata kimi Bəhmən Mirzənin də təlim-tərbiyəsi öz təsirli rolunu oynamışdır. Heç şübhəsiz ki, məhz şahzadə Bəhmən Mirzə kimi maarifçi, tarixşünas və sözübütöv kişilər belə oğul yetirə bilərdi. Sevindirici haldır ki, Bəhmən Mirzənin altmış üç övladının hamısı Xanbabaxan kimi təmiz əxlaqlı gənclər olmuşlar. Əksəriyyəti hərb sənətində qulluq edən oğlanların heç biri nə dinlərini dəyişmiş, nə də dillərini unutmuşdur. Yuxarıda Şəmsəddin Mirzənin xatirəsindən sitat gətirmişdik. Orada müəllif yazır ki, Oryoldan atam Əliqulu Mirzənin cəbhəyə getmək söhbəti anamla azərbaycanca olmuşdur. O vaxtlar zadəgan ailələrində fransız və rus dillərində danışmaq dəbdə olsa da, atam ailədə həmişə doğma Azərbaycan dilində danışardı.

---

* Polkovnik Xanbabaxan Qacarın qızı, M. F. Axundovun nəvəsidir. 1905-ci ilin sentyabrında ilk Zaqafqaziya müsəlman qadınlarının xeyriyyə cəmiyyəti onun evində təsis olunmuşdu. Milyonçu H. Z. Tağıyevin oğlu Ağasadıq Tağıyevin həyat yoldaşı idi. – müəl.

Xanbabaxan Mirzənin hərbi fəaliyyəti haqqında əlimizdə çox az məlumat var. O, uzun illər orduda zabit kimi xidmət etmiş, süvari polkovniki rütbəsinə qədər yüksəlmişdir. 1877—78-ci illər rus—türk müharibəsinin iştirakçısı olmuşdur. M. F. Axundovun Rəşid bəyə yazdığı məktublarından hiss olunur ki, o, kürəkəni Xanbabaxanın cəbhədə göstərdiyi şücaətlə fəxr edirmiş. Böyük dramaturqun şəxsi arxivində onlarla məktub, əlyazması qorunub saxlanılır. O vaxtlar Belçika məmləkətinin paytaxtı Brüssel şəhərində ali təhsil alan oğlu Rəşid bəyə yazdığı məktubların demək olar, əksəriyyətində Xanbabaxan hörmətlə xatırlanır.

Məktublarından birində Rəşid bəy Rusiya—Türkiyə müharibəsindən söhbət açır və Xanbabaxandan nigaran qalaraq «müharibənin gedişi haqqında mənə ətraflı yaz, ata. Xanbabaxan yenə sərhəddəmi vuruşur?» — sualına cavab istəyir.

Başqa bir məktubunda isə oxuyuruq:

«Siz allah, Xanbabaxan haqqında məktubunuzda geniş yazın. Mənim səmimi salamlarımı Xanbabaxana, anama, bacıma, bizim əzizimiz Ağa Əli Əkbərə, (onun haqqında aşağıda bəhs olunacaq — Ş. N.) dostumuz Kərbəlayi Lətif əmiyə yetirin. Balaca Mirzə Mənsuru və hələ üzünü görmədiyim Nisə xanımı öpün. Xanbabaxan ötən məktubunda yazmışdı ki, artıq Mirzə Mənsura əlifbaları öyrətmişəm... Bu mənim üçün çox sevindirici bir xəbər oldu. Çalışaq ki, Mirzə Mənsur tam Avropa təhsili alsın...».

Mirzə Fətəlinin oğlu Rəşid bəyə məktubundan: «Keçən məktubda mən anamın fotoşəklini sənə göndərmişdim. İndi isə Xanbabaxanın, Nisə xanımın, Mənsur Mirzənin və Mələksima xanımın şəkillərini göndərirəm. Mənim keçən məktubumda verdiyim suallara cavab yaz...».

Gizli mülki müşavir A. Q. Şerbinin Mirzə Fətəliyə 14 may 1877-ci il tarixli məktubundan:

«Bir az bundan əvvəl cənab Q. Qrimdən öyrəndiyim sevinc dolu xəbərlə sizi təbrik etməyi özümə borc bilirəm. Çox şad oldum ki, şahzadə Rzaqulu Mirzə iki süvari alayına briqada komandiri* təyin olunub.

Şahzadə Rzaqulu Mirzənin peterburqlu Mariya Vladimirovna Pollana 28 yanvar 1876-cı il tarixli məktubundan:

«Mənim Qafqaz ordusuna göndərilməyim yəqin ki, sizə məlumdur. Mən ayın on beşində Şuşadan İrəvana yola düşdüm. Əlahəzrət böyük knyaz Qafqaz canişininin əmrilə mən oraya təyin edilmişəm...

Mənim Tiflisdə bir nəfər qohumum vardır. O mənim sevimli qardaşım poruçik Xanbabaxanın qaynatası Mirzə Fətəli Axundovdur. Mən onu gözəl sifətlərinə görə səmimi qəlbdən sevirəm...».

Təəssüf ki, şahzadə Xanbabaxan Bəhmən Mirzə oğlunun təvəllüd tarixini dəqiqləşdirmək mümkün olmadı. Tiflisdə dərc olunan «Zarya Vostoka» qəzeti

* Çar ordusunda polkovniklə general arasında olan yüksək hərbi rütbə - müəl.

1926-cı il nömrələrində iki gün (11, 12 noyabrda) dalbadal onun ölümü haqqında nekroloq vermişdir:

«Uzun sürən ağır xəstəlikdən sonra Şahzadə Bəhmən Mirzənin oğlu mərhum Mirzə Fətəli Axundovun kürəkəni polkovnik Xanbabaxan Qacar vəfat etdi. Cənazə Krılov küçəsindəki üç nömrəli evdən götürüləcək. Dəfn mərasimi bir nömrəli müsəlman qəbristanlığında olacaq».

***

Rəşid bəylə atası Mirzə Fətəlinin beş il davam edən yazışmalarında bir adamın da adı tez-tez hörmət və ehtiramla çəkilir, uzaq Brüsseldən ona səmimi salamlar göndərilir. Məktublarda belə ehtiramla yada düşən Ağaəli Əkbər İsmayılov kimdir? Nəslin ağbirçəyi İzzət xanım Qayıbovanın saxladığı balaca bir yazı bu barədə ətraflı məlumat verir. Onu vaxtilə İzzət xanımın anası Ziba xanım Qayıbova ömrünün qürub çağını yaşayan Şəmsi Qacarın dilindən yazıya alıb. Burda Ağaəli Əkbər İsmayılovun taleyi ilə yanaşı, Bəhmən Mirzə Qacarın övladları haqqında da məlumat verilir.

Aydın olur ki, Ağaəli Əkbər İsmayılov əslən Şamaxı şəhərindəndir. Atasının ölümündən sonra cibindəki üç manat pulla Tiflisə gəlir. O vaxtlar Tiflisdə ipəyə böyük ehtiyac vardı. Şamaxıya nisbətən ipək burda iki-üç dəfə baha satılırdı. Bunu öyrənən Ağaəli Əkbər Şamaxıya qayıdır və gücü çatan qədər ipək götürüb payi-piyada Tiflisə gəlir.

Onun ikinci gəlişi daha uğurlu olur. Bu dəfə at alır və yenidən ipək dalınca Şamaxıya qayıdır. Beləliklə o, yavaş-yavaş varlanır və keçmiş Vorontsov, indiki Qorqasalı küçəsində müflisləşmiş bir tacirdən mülk alır. Əlli beş nömrəli bu mülk Mirzə Fətəlinin yaşadığı əlli üç nömrəli evin qonşuluğunda yerləşirdi. Qısa vaxtda onlar elə dostlaşırlar ki, hətta daha tez-tez görüşmək üçün daxili eyvana körpücük salıb birləşdirirlər.

Babam bisavad idi və Mirzə Fətəlidən xahiş etmişdi ki, ona savad öyrətsin. O vaxtlar ərəb əlifbası işləndiyi üçün bu, asan deyildi. Babamın dediyinə görə, çox qısa müddətdə oxumağı öyrənib. Onun ticarət işləri çox yaxşı gedirdi. Evdən əlavə o, Qocorda bağ da alır, evlənir. Sonralar öz qızlarını — sənin nənəni, Sittarə xanımı, Gövhər xanımı və Fərruxa xalanı Zaqafqaziya Nücabə Qızlar institutunda oxumağa qoyur. Böyük qızı — sənin nənən Gövhər xanım Qacar* institutu qurtarmır və Bəhmən Mirzənin oğlu general Əmir Kazım Mirzəyə ərə gedir. Qalan ikisi institutu qurtararaq Əmir Kazım Mirzənin subay qardaşlarına ərə gedir. Onlardan biri mənim atam Əliqulu Mirzə hərbi xidmətdə idi və əvvəllər anamla Vladiqafqazda yaşayırdı. Sonra isə Oryol şəhərindəki Çerniqov alayına hərbi xidmətə keçir. Rus—yapon müharibəsinin əvvəllərində isə Nijeqorodsk süvari

* Gövhər xanım Ağaəli Əkbər qızı İsmayılova — Qacar (1862— 1927). 1905-ci ildə yaranmış Zaqafqaziya müsəlman qadınları xeyriyyə cəmiyyəti»nin sədri olmuşdur — müəl.

alayında qulluq edir. Fərruxa xanım əri Xancahanxan Mirzə ilə yola getmədiyindən uşaqları ilə birgə anamın yanına qayıdır.

1903-cü ildə Ağaəli Əkbər İsmayılov qulluqçunun köməyi sayəsində evə yol tapan fanatiklərin əlilə öz evində öldürülür. Öldürülməsinin səbəbi qızlarının çadranı atması və Zaqafqaziya Nücabə Qızlar İnstitutunda oxuması idi. Bu vaxta qədər Ağaəli Əkbər çox pul xərcləsə də amma yenə də böyük məbləğdə vərəsəlik qoymuşdur. Ev Fərruxa xalaya qaldı. Bağlardan ən böyüyü sənin nənən Gövhər xanıma və qalan üç bağ da mənim anama çatdı. Sovetləşmədən sonra bağlar, mülklər müsadirə olundu...

İzzət xanım onu da dedi ki, Ağaəli Əkbər İsmayılov 1991-ci il noyabrın 20-də təyyarə qəzasında həlak olmuş akademik Tofiq İsmayılovun ata babasıdır.

## GENERAL ƏMİR KAZIM MİRZƏ

Şahzadə Bəhmən Mirzənin otuz bir oğlunun on beşindən çoxu hərbi qulluqda olmuşdur. Bəs sovet hakimiyyəti illərinə qədər sağ qalan bu oğlanların sonrakı taleyi necə olmuşdur?

Onların on beş nəfərinin Azərbaycan Demokratik Ordusunda xidmət etməsi barədə arxiv sənədlərində az-çox məlumat var: 1918-ci ildə polkovnik Xosrov Mirzə Qacar birinci Azərbaycan süvari alayının komandiri olmuşdur. Polkovnik Seyfulla Mirzə Qacar isə baş qərargahda intendant şöbəsinin rəisi idi.

Respublika Dövlət Arxivində saxlanan bir sənəddə deyilir ki, Gəncə üsyanında türk zabitləri və denikinçilər iştirak edirdilər. Üsyançıların artilleriya hissəsinə denikinçi polkovnik Nikolayev komandirlik edirdi. Üsyançıların başçılarından biri də keçmiş musavat ordusunun generalı Məhəmməd Mirzə Qacar idi.

Bundan sonra Qacarlar nəslinin faciəsi başlanmışdır. Şahzadə Bəhmən Mirzənin iki oğlu — general-mayor Əmir Kazım Mirzə və polkovnik Sədrəddin Mirzə 1920-ci ilin iyununda iyirmi üç nəfər Müsavat zabiti ilə birgə günahsız olaraq Nargin adasında güllələnirlər. General-mayor Əmənulla xan Mirzə İrana köçüb, Tehranda yaşayır. Onların Tiflis və Şuşadakı mülkləri müsadirə olunur.

Azərbaycan hərb tarixinə, maarif və mədəniyyətinə görkəmli simalar bəxş etmiş bu ziyalı nəslin bir nümayəndəsi ilə görüşə bildim. Respublika EA-nın müxbir üzvü Çingiz Qacarda babalarından qalma nadir əlyazmaları, qiymətli fotoşəkillər və müxtəlif yadigarlar saxlanılır. Onlardan biri general-mayor Əmir Kazım Mirzə Qacara məxsusdur. Əmir Kazım Mirzə iyirmi beş il orduda qüsursuz xidmət etdiyinə görə, üstündə tuncdan tökülmüş atlı fiquru olan stolüstü saatla mükafatlandırılıb. Saatın üstündə «Əmir Kazım Mirzəyə əla xidmətinə görə» sözləri yazılıb. 44-cü Nijeqorod alayının marşını çalan saat indi də işləyir. Bu qiymətli hədiyyə general Əmir Kazım Mirzəyə 1898-ci il, dekabrın 16-da verilmişdir.

General Əmir Kazım Mirzə 1853-cü ildə Şuşada anadan olmuşdur. İlk təhsilini Tiflis klassik gimnaziyasında almış, iyirmi yaşında isə Peterburqdakı Nikolayev süvari məktəbini bitirmişdir. 1873-cü ildə kornet—zabit rütbəsində Əmir Kazım hərbi xidmət üçün Qafqaz Əlahiddə ordusunun 44-cü Nijeqorod alayına göndərilmişdir. İyirmi beş il bu alayda qüsursuz xidmət edən Əmir Kazım imperiyanın yüksək orden və medalları ilə təltif olunmuşdur.

1877—78-ci illərdə olan rus—türk müharibəsində onun xidməti dördüncü dərəcəli «Müqəddəs Anna» və üçüncü dərəcəli «Müqəddəs Stanislav» ordenləri ilə mükafatlandırılmışdır. Ən yaxşı süvari zabitləri sırasında mayor Əmir Kazım Mirzə 1881-ci ildə imperator üçüncü Aleksandrın tacqoyma mərasimində iştirak etmişdir. Süvari podpolkovniki Əmir Kazım Mirzə 1895-ci ildə eskadron komandiri təyin olunur. Həmin ili o, Buxara əmirliyinin üçüncü dərəcəli «Parlayan ulduz» ordeni ilə mükafatlandırılır.

Ötən əsrin yetmişinci illərindən hərbi xidmətdə sürətlə irəliləyən igid zabit Əmir Kazım Mirzəni hökumət səxavətlə təltif etmişdir. O, 1879-cu ildə üçüncü dərəcəli «Müqəddəs Anna», ikinci dərəcəli «Müqəddəs Stanislav» (qılıncla birgə), 1881-ci ildə ikinci dərəcəli «Müqəddəs Anna», altı il sonra üçüncü və dördüncü dərəcəli «Müqəddəs Vladimir», 1890-cı ildə isə İranın dördüncü dərəcəli məşhur «Şire-Xorşid» ordenləri ilə mükafatlandırılmışdır. Əsrimizin ikinci ilində alay komandirinin birinci müavini kimi yüksək vəzifəyə təyin edilən polkovnik Əmir Kazım Mirzə 1910-cu ildə general-mayor rütbəsinə layiq görülmüşdür.

General Əmir Kazım Mirzə təkcə hərbçi deyildi. O, xalqımızın maariflənməsində də yaxından iştirak etmiş, Tiflisdə və ayrı-ayrı qəzalarda ibtidai məktəblərin açılmasına maddi cəhətdən kömək göstərmiş və kasıb balalarını öz xərcinə oxutmuşdur. Onun ən böyük xidmətlərindən biri 1912-ci ildə Tiflisdə Azərbaycan dram cəmiyyətinin təsisi və tamaşa binasının açılmasında yaxından iştirakı olmuşdur. 1911-ci ildə ilk dramaturqumuz M. F. Axundovun yüzillik yubileyi də general-mayor Əmir Kazım Mirzə Qacarın sədrliyi ilə keçmişdir.

## GENERAL ƏMƏNULLAXAN QACAR

Qacarlar nəslinin daha bir general oğlu Əmənullaxan Mirzə Qacar olmuşdur. O, qardaşı Əmir Kazım xandan doqquz yaş kiçik idi. Təəssüf ki, onun haqqında əlimizdə olan faktlar çox azdır. İnqilabdan əvvəlki qəzetlər: «Kavkaz», «İrşad», «Əxtər». Əmənullaxanın hərb fəaliyyətindən qısa yazılar verib.

1862-ci il yanvarın səkkizində Şuşada anadan olan Əmənullaxan Mirzə Peterburqdakı hərbi kadet korpusunu bitirmişdir. On yeddi yaşında poruçik rütbəsi alan Əmənullaxan 1879-cu il iyulun 19-dan xidmətə başlamış, doqquzuncu Kuban piyada-kazak divizionunda komandir olmuşdur. 1900-cü il mayın 6-da nizami kazak batalyonundakı nümunəvi xidmətinə görə Əmənullaxan Bəhmən Mirzə oğluna yesaul (mayor) rütbəsi verilmişdir.

Birinci dünya müharibəsi illərində Avstriya cəbhəsində vuruşan igid süvari komandirin döyüş fəaliyyəti üçüncü dərəcəli «Müqəddəs Vladimir», ikinci dərəcəli «Müqəddəs Anna» və üçüncü dərəcəli «Müqəddəs Stanislav» ordenlərinə layiq görülmüşdür.

1915-ci ildə üçüncü Kuban kazak-piyada divizionuna komandirlik edən Əmənullaxan Mirzəyə həmin il aprelin 25-də polkovnik rütbəsi verilmişdir. Güclü döyüşlər zamanı ayağından ağır yaralanan Əmənullaxan arxa cəbhəyə göndərilsə də hərbi fəaliyyətini dayandırmamışdı.

Kuban kazak nizami hissələrindəki nümunəvi xidmətlərinə görə Əmənullaxan Qacar 1917-ci ildə general-mayor rütbəsi almışdır.

Fevral burjua inqilabından sonra Qafqaza qayıdan Əmənullaxan bir müddət Tiflisdə və Şuşada yaşamışdır. Bolşevik təzyiqinə dözməyən və bolşevik təhlükəsini əvvəlcədən hiss edən Əmənullaxan 1920-ci ildə İrana mühacirətə getmişdir. Tehranda yaşayan general-mayor Əmənullaxan Mirzə Qacar hərbi məktəbdə işləmiş, İran nizami ordusunun yaradılmasında yaxından iştirak etmişdir. İran Milli Məclisinin üzvü, İran—Sovet dostluğu cəmiyyətinin sədri, general-mayor Əmənullaxan Mirzə Qacar min doqquz yüz otuz yeddinci ildə Tehranda vəfat etmişdir.

* * *

Qacarlar nəslinin on beşdən çox oğlu 1918—20-ci illərdə zabit kimi Milli Ordumuzda xidmət edib. Onların dörd nəfəri general idi: Şahzadə general-mayor Əmir Kazım Mirzə Qacar, Əmənulla Mirzə Qacar, Feyzulla Mirzə Qacar və Məhəmməd Mirzə Qacar. Qardaşların hərbi nazir Səməd bəy Mehmandarovun adına yazdığı ərizələr Respublika Yeni Tarix Mərkəzi Dövlət arxivində saxlanılır. General Əmir Kazım Mirzə Qacarın 1918-ci il dekabrın birində vətənpərvər ruhda yazdığı ərizədə onun ömür yolunun indiyədək açılmayan səhifələri də var:

**«Əlahəzrət yoldaş hərbi nazirə**

Hörmətli cənab Səməd bəy, təəssüflər olsun ki, Bakıya gəlib siz Əlahəzrətlərinə xahişimi çatdıra bilmədim. Bunun da səbəbi hərbi Nazirliyin Gəncəyə köçürülməsi oldu.

Sizinlə görüşə bilmədiyimə çox təəssüf etdim. Bakıya gəlib sizi tapa bilmədim, çünki siz xidməti işlərinizlə əlaqədar müvəqqəti şəhərdən getmişdiniz. Oğlumun və qızımın xəstəliyi haqqında evdən teleqrama almışam, Tiflis şəhərinə qayıdıram. İcazənizlə sizə yazılı surətdə müraciət edirəm və bundan əlavə raport da yazmışam.

Mən otuz dörd il hərbi xidmətdə olmuşam. Və iki hərbi kompaniyada iştirak etmişəm: 1877—78-ci illərdə rus—türk müharibəsində və rus—yapon müharibəsində. Öz xahişimlə cəbhəyə göndərilmişəm və döyüşlərdə podpolkovnik rütbəsində iştirak etmişəm. Bir neçə döyüş təltifatı alandan sonra polkovnik rütbəsinə layiq görülmüşəm.

Xidmət etdiyim müddətdə qoşun hissələrinin iki tədris kursunu bitirmişəm: Qafqaz Süvari Tədris rotasının və ikinci süvari zabit məktəbinin kurslarını. Hər iki kursu da birincilər sırasında, mükafatla.

Az müddət istefada olsam da hərbi ruhda tərbiyə almış, həmişə də hərbi işlə maraqlanmış və hərbi ədəbiyyatı izləmişəm. Məhz buna görə də hərbi qulluğun müasir tələblərinə uyğun olaraq xidmət borclarını icra etmək bacarığına və lazımi qədər fiziki qüvvəyə malik olduğumu hiss edirəm.

Qərargahın Azərbaycan kursuna təqdim etdiyim xidmət dəftərçəmdə keçdiyim hərbi xidmət haqqında tam məlumat almaq olar.

Zati-aliləri, Vətənin keçdiyi bu ağır vaxtda öz xalqıma xeyir vermək məqsədilə, bu həm də mənim ailəmin zəifləmiş iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb olardı.

Xahiş edirəm, Azərbaycanın hər hansı hərbi idarəsində mənə general vəzifəsindən birini (nəzarət generalı və ya məiyyət generalı) və yaxud sizin məsləhət gördüyünüz vəzifəni həvalə edəsiniz.

Sizin mənim haqqımda xeyirxah qərarınızı gözləyən bəndəniz general-mayor Şahzadə Əmir Kazım Mirzə Qacar».

1919-cu il iyulun 9-da Azərbaycan Ordusunda əla xidmətlərinə görə birinci artilleriya briqadasının komandanı, polkovnik şahzadə Məhəmməd Mirzə Qacara general-mayor rütbəsi verilmişdir.

Həmin illərin arxiv sənədləri ilə tanış olanda görürsən ki, polkovnik Sədrəddin Mirzə Qacar, praporşik Abbas Mirzə Qacar, poruçik İbrahim Mirzə Qacar, kornet İdris ağa Qacar, Firidun Mirzə Qacar, kornet Darab Mirzə Qacar və başqaları həmişə ön cəbhələrdə erməni daşnaklarına qarşı igidliklə vuruşmuşlar.

Çox təəssüf ki, milli ordumuzda qulluq edən Qacarlar nəslinin çoxsaylı oğullarının həyatı faciə ilə bitmişdir. İyirminci ildə Azərbaycana soxulan daşnak-bolşevik ordusunun rəhbərləri onların əksəriyyətini ölkədən didərgin salmış və güllələmişlər. General-mayor Əmənullaxan İrana, polkovnik Xosrov Mirzə Türkiyəyə, kornet Darab Mirzə Amerikaya, Tofiq və Ənuşirəvan Mirzə qardaşları isə Fransaya pənah apardılar. İki yüksək rütbəli Qacar oğullarını — general Əmir Kazım xanı və polkovnik Sədrəddin Mirzəni bolşeviklər iyirminci ilin mayında güllələdilər.

## Nəslin ağbirçəyi

Sənətşünas dostum Ziyadxan Əliyevin incəsənət tariximizdən bəhs edən yazılarını oxuyuram. Hər dəfə görüşəndə özümüzdən asılı olmayaraq xeyli «dərdləşirik», tapıntılarımız haqqında biri-birimizə məlumat veririk. Özümüzdən asılı olmayaraq, elə küçədə, görüşdüyümüz yerdə yeni mövzularımız haqqında fikir mübadiləsi aparmaq həmişə ümumi işimizin xeyrinə olub. Bu dəfə də belə oldu. Ziyadxan söhbətarası dedi:

—Sən gərək ki, Qacarlarla maraqlanırsan? Eşitdiyimə görə onlardan nəsə yazmaq istəyirsən?

—Hə, — dedim, yazıram, amma oktyabr inqilabı, otuz yeddinci il Qacarları elə pərən-pərən salıb ki, bu nəslin ən yaxın adamını tapa bilmirəm.

Dostum məni diqqətlə dinləyib bir an fikrə getdi. Mən isə gözlərimi ondan çəkmədim və hiss eləyirəm ki, tanımadığım bir məlumatlı adamı məmnuniyyətlə nişan verəcək. Çünki dostumun bu məsələlərdə son dərəcə əliaçıq olmağına bələd idim.

O, əlini cibinə salıb dəftərçəsini çıxartdı. İstədiyi səhifəni tapıb:

—Bu günlərdə, — dedi, — bizim incəsənət muzeyinə bir ana gəlmişdi. Qacarlar haqqında xeyli nadir foto şəkillər gətirmişdi. Sözün düzü, Qacar familiyasını eşidəndə səni xatırladım. Telefonunu da yazıb götürmüşəm. Görüşsən, yaxşı olar, bəlkə Mahrux xanım Qacarın sənə köməyi dəydi.

Həmin günü Mahrux xanıma zəng elədim. Polkovnik Şahrux Mirzə Qacarın nəvəsi olduğunu söylədi. Qacarların bu gün bizim müasirimiz olan bəzi məşhur nəsillərlə qohumluq əlaqələri barədə dəyərli məlumatları ilk dəfə Mahrux xanımdan eşitdim. Görüşmək istəyimə məmnuniyyətlə razılıq verdi.

Astanadan içəri keçəndə Mahrux xanım məni iki yaraşıqlı gənclə tanış etdi. Bir nənə kimi Kamran Qacarla və Darab Mirzə ilə fəxr etdiyini iftixarla söylədi. Davranışından, danışığından da görüb, duydum ki, bu nəvələr tərifə layiqdirlər. Müxtəlif arxivlərdən topladığım Qacarlara aid fotoşəkillərə birgə baxırıq. Bizimlə birgə əyləşən sakit təbiətli iki gənclə fotoşəkildəki Qacarların oxşarlığına söz ola bilməz. Bu, mehriban, iltifatlı ana isə dönə-dönə mənə təşəkkür edir ki, unudulmuş nəslimizin oğulları haqqında bu qədər şəkil və sənəd toplaya bilmişəm.

Mahrux xanım doğrudan da öz nəsli haqqında çox şey bilir. Hətta babaları barədə hələ qurtarmadığım yazımdan bir səhv də tapdı.

—Babam Şahrux Mirzə, — dedi, 1909-cu ildə Şuşada yox, 1915-ci ildə Cəbrayıl qəzasında vəfat edib. Qəbri indi də ordadır. Şahzadə olduğuna və uzun müddət ordudakı nümunəvi xidmətinə görə istefaya çıxan babama Cəbrayıl qəzası Qafqaz canişini tərəfindən hədiyyə olunub. Babamın dörd oğlu, üç qızı olub: Kamran Mirzə, Camal Mirzə, Darab Mirzə və Qəhrəman Mirzə. Qızları isə Fəxrisoltan, Tacülmülk və Nimtac xanım idi.

Mən Kamran Mirzənin qızıyam. Atam doqquz il Üçkilsədə (indiki Eçmiadzin) bələdiyyə rəisi olub. Əmim Darab Mirzə hərbçi idi: Peterburqda zadəgan balalarına məxsus hərbi kadet korpusunu bitirmişdi. Tiflis gimnaziyasını qurtaran Camal əmim Qubadlının Xancan kəndində müəllim işləyirdi.

—Mahrux xanım, Azərbaycanda bir çox məşhur nəsillər olub. Qacarlar onların hansı ilə qohum idi?

—Elə bir ziyalı nəsil yoxdu ki, bizim Qacarlar onlarla qohum olmasın. Mənim bildiyimə görə məşhur şairə Xurşud banu Natəvanın nəvəsi Ənbər xanım Bəhmən Mirzənin oğlu Fətəli Mirzənin arvadı olub. Yenə Natəvanın nəvəsi

Ağbikə (general-mayor Mehdiquluxan Vəfanın qızı) isə Rzaqulu Mirzənin oğlu Əkbər Mirzə Qacarın arvadı olub.

Bəhmən Mirzənin böyük qızı Qızıxanım Məhəmməd Qasım ağa Cavanşirin arvadı idi. İkinci qızı Zəri xanım isə məşhur tibb alimi Kərim bəy Mehmandarovun həyat yoldaşı olub. Onun da nəvəsi məşhur neftçi alim Süleyman Vəzirov idi.

Heydərqulu Mirzə Qacarın qızı Rəhimə xanım məşhur maarifçi Bədəlbəy Bədəlbəyovun həyat yoldaşı idi. Onların da oğlanları Əfrasiyab və Şəmsi Bədəlbəylilərdir.

Kazım Mirzənin oğlu Darab Mirzə, yəni mənim doğma əmim Fransada mühacirətdə olanda məşhur bir fransız ailəsinin qızı ilə evlənib. Onun da qızı hazırda Parisdə yaşayır. Qacar soyadı ilə.

—Məlum məsələdir ki, aradan yüz ildən çox bir vaxt keçir. Çox sağ olun ki, Qacarlar sülaləsi haqqında bəzi faktları açıqlamaqda mənə yaxından kömək etdiniz. Mahrux xanım, bunları kimdən, hansı mənbədən öyrənmisiniz?

—Əvvəla, bütün bunları özümə borc bilirəm. Və belə düşünürəm ki, hər kəs öz nəslinin, öz xalqının tarixini bacardığı qədər öyrənməlidir. Yoxsa biz quru yerdə qalarıq. Bunu mən balalarıma, nəvələrimə də tövsiyə edirəm.

Sonrası da ulu babam Bəhmən Mirzənin sonuncu - on altıncı arvadı Afərin xanım uşaq vaxtı mənə çox şeyləri danışıb. O, yüz altı yaşında Bakıda vəfat etdi. Nəql edərdi ki, Bəhmən Mirzə Şuşaya köçəndən sonra şəhər əhalisi ilə daha yaxın olmaq üçün bir qəssabın Püstə adlı gözəl qızı ilə evlənir. Lakin Püstə adı şahzadəyə layiq olmadığına görə dəyişib Afərin xanım edir. Nəslimiz haqqında çox şeyləri anam Manbəyim xanım da mənə danışıb. O, Tiflisdə gimnaziyada oxumuşdu, üç dil bilirdi. Fars, ingilis və rus dillərində sərbəst danışar və yazıb oxuyardı. Mənim ali təhsilli həkim olmağımın səbəbkarı da anam olmuşdur.

—Sizdə ulu babanız şahzadə Bəhmən Mirzə  Qacarın bir yadigarı varmı?

—Var. Bir nəticə kimi onları əzizləyib saxlayıram.

Amma bəzi qiymətli yadigarlarını Azərbaycan Tarix Muzeyinə vermişəm.

Ötən əsrin fransız səyyah-rəssamının «Şahənşahi İran-ibni səltənəti Azərbaycan» portretini muzeyə təqdim etmişəm. Portretdə babam şahzadə Bəhmən Mirzə Qacar təsvir olunub. Sonra babamın xəzinəsindən çıxan qızıl sapla tikilmiş süzənini, kəşkülü, tirmə şalı, əbrə şalı və başqa hədiyyələrini muzeyə hədiyyə elədim ki, qoy xalqın malı olsun, xalq görsün.

Mahrux xanımla vidalaşdım. Yol boyu nələr düşündüyümü təsəvvür eləmək çətindir. Bütün varlığımla bu səmimi, ziyalı anaya minnətdar oldum ki, xələf kimi, adlı-sanlı sələflərinin bioqrafiyasını gələcək nəsil üçün yaşadır. Amma bir şeyi də acı təəssüf hissi ilə xatırladım. Xatırladım ki, Dikkens, Viktor Hüqo, Fyodor Dostoyevski kimi klassiklər səfillərin, qumarbazların həyatını yazırdılar. Leskov qaraçıların həyatını öyrənmək üçün on ildən çox qaraçılarla gəzib dolaşdı, vardan-yoxdan çıxdı. Axırda dədə-baba mülkünü də satdı. Maksim Qorki bir qarnı ac, bir qarnı tox Rusiyanın geniş çöllərini dolaşıb rus mujiklərinin həyatını öyrənib onları

qələmə aldı. Amma biz xalqımızın hərb, mədəniyyət, maarif tarixində danılmaz xidmətləri olan ayrı-ayrı nəsilləri haqqında yazmağı indiyədək düşünməmişik. Düşünməmişik ki, soy kökündən ayrılmaq öz tarixindən uzaqlaşmaq özünü tanımamaq deməkdir. Bu, Qacarlar soy kökünün tarixi yox, Azərbaycan tarixinin bir səhifəsidir.

Bu familiyanı daşıyan oğullar düşmən torpağımıza göz dikəndə qılıncını qurşayıb, kəhər atına sıçrayıb harayımıza gəlib, köməyimizə çatıb. Tariximizin dərin qatlarından gələn bir səs deyir ki, bu soy kökün Fətəli şah, Abbas Mirzə, Ağa Məhəmməd Qacar, Cavadxan Ziyadxanoğlu kimi igidləri var.

Bütün bunları unutmaq, yazmamaq heç insafdan deyil...

## MİLLİ SƏRKƏRDƏLƏRİMİZİN FACİƏSİ
## (1918-1920-ci illər)

Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır. Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər.

**Nəriman NƏRİMANOV**

Yurddaşlar, bu qanlı yollarla irəliləyərək biz azadlıq yolunda şəhid olmuş yoldaşlarımızı bir an belə unutmadan çalışmalıyıq. Hamı bilməlidir ki, azadlığın gələcəyi gün uzaqda deyil.

**Məmməd Əmin RƏSULZADƏ.**

### Qırmızı terror

İyirminci il martın iyirmi ikisində, Novruz bayramı axşamı daşnaklar Əsgəran keçidini kəsdilər. Onlar bu yeganə keçidi kəsməklə Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq istəyirdilər. Top və pulemyotlarla silahlanan qiyamçılara İrəvandan gələn daşnak generalı Dro Kanayan komandanlıq edirdi.

Azərbaycan Cümhuriyyətinin Müdafiə Nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmrilə Əsgəran cəbhəsinə güclü qüvvə ayrıldı. Martın iyirmi üçündə Azərbaycan ordusunun əsas hissəsi — iyirmi minə qədər əsgər və zabiti bu cəbhəyə göndərildi. O cümlədən, üçüncü Gəncə, beşinci Bakı, birinci Cavanşir, dördüncü Quba, səkkizinci Ağdam polkları general Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Aprelin üçündə başlayan bu ölüm-dirim savaşı on iki gün davam etdi. Azərbaycanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrunda mərdliklə vuruşaraq Şuşa qalasına və Xankəndinə daxil oldular. Yenilməz fədakarlıqla vuruşan əsgərlərimiz daşnak ordusunu darmadağın etdi. Erməni süvari dəstəsinin başçısı Dəli Qazar öldürüldü. Əsgəranın böyür-başında gizlənən ermənilər xəndəklərdən çıxıb qaçmağa başladılar. Qarabağ dağlarında yenidən Azərbaycan bayrağı dalğalandı. Bu vaxt cəbhəyə gələn hərbi nazir Səməd bəy

Mehmandarov xain düşmən üzərində çalınan qələbəyə görə əsgərlərimizi təbrik edərək demişdi: «Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə olmuşam. Fəqət sizin qədər qəhrəman əsgərlərə az-az təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu müdafiə etdiniz».

Əsgəranda qanlı döyüşlər gedəndə Maqsud Şeyxzadə yeniyetmə bir gənc idi. On səkkiz yaşı yenicə tamam olmuşdu. Qəlbi vətən eşqi ilə döyünən bu gəncin ürəyi düşmənə, torpağımıza basqın edən ermənilərə nifrətlə dolu idi. Azərbaycan ordusunun yenilməzliyi qarşısında dözə bilməyib geri çəkilən daşnak tör-töküntülərinin məhv edilməsi gənc şair Maqsud Şeyxzadənin də hədsiz sevincinə səbəb olmuşdu. Bu qələbədən ruhlanan şair iyirminci ilin martında «Qarabağ» və «Əsgəran marşı» kimi sanballı şerlər yazmışdır. İkinci şer bu günümüzlə daha çox səsləşdiyinə görə onu bütövlüklə möhtərəm oxuculara təqdim edirəm.

Vardı Əsgəranda minlərlə əsgər,
Aslan yavrusu tək sarsılmaz ərlər.
İrəli, irəli ey islamlarım.
Yağı yuvasını dağıdanlarım.

Dəydi top gülləsi yad ordusuna,
İstərəm alaylar dağılıb sına,
İrəli, irəli, ey tərlanlarım.
Geniş üfüqlərə can atanlarım.

Görək mərd çıxacaq neçənci igid?
Laləzar salacaq neçənci şəhid?
İrəli, irəli, türk oğulları.
Sizsiniz qısaldan uzaq yolları.

Azərbaycan hərb tarixinin səhifələrinə yazılacaq belə parlaq qələbələrin ömrü təəssüf ki, bundan sonra bircə ay davam etdi. Mikoyanın, Qazarovun, Avetisovun, Amazaspın quyruq bulayıb qabaqlarına düşdüyü bolşevik — daşnak ordusu bir ay sonra işğalçı kimi Bakıya soxuldu.

Həyatının son dəqiqələrinə kimi o məşum günü ürək ağrısı ilə xatırlayan xalqımızın böyük oğlu Məmməd Əmin Rəsulzadə yazırdı: «Azərbaycan Cümhuriyyəti hökuməti aprel ayının 27-də yuxusundan sərsəm bir halda qalxdı. Bir tərəfdə Bakı limanında lövbər salan dəniz qüvvələrinin üsyan bayrağı açdığını, digər tərəfdən Benaqazi (Binəqədi) Yanar dağı səmtdən Qızıl ordunun atəş saçaraq gəldiyini və geri qaçmaq istərkən yolunun Türkiyəli bir zabitin komandasında olan «Yardım alayı» tərəfindən kəsildiyini gördü».

Bununla da dəhşətli, qorxunc bir dövr gəldi. Xüsusi bir amansızlıqla Vətənimizə hücum edən bolşevik-daşnak ordu birləşmələri vətənpərvər oğullarımızı qan içində boğdu. Ölkəmiz təqibə, böhtana məruz qaldı. Min cür

həngamələrlə, izahı olmayan həbslərin dalğası gücləndi. On minlərlə günahsız adamlar güllələndi. Azərbaycan Milli Ordusunun min iki yüzdən çox əsgər və zabiti Arazı keçərək o taylı qardaşlarımıza pənah apardı. Təqib olunan minlərlə ziyalımız Türkiyə, Fransa və Almaniyaya mühacirətə getdi. Bolşevik-daşnak təqibinin əzabkeşlərindən biri — zabit Ələsgər Əsgərov — Kəngərlinski şahidlik verir ki, «şəxsən özüm tərəfindən yoxlanılmış siyahıya görə, bolşeviklərin Azərbaycandakı ağalığı dövründə ancaq hərbi rütbəlilərindən məhv edilənlər: generallar — on iki, polkovnik və podpolkoviklər — iyirmi yeddi, kapitan və ştabs-kapitanlar — poruçik və podporuçiklər — qırx altı, praporşik və podpraporşik— yüz qırx səkkiz, qalanları — iki yüz altmış altı (hamısı müsəlmanlar)... 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrordan qırx səkkiz min adam öldürülmüşdü ki, bunun da çox hissəsi ziyalıların payına düşürdü».

1920-ci il mayın otuzunda «Kommunist» qəzeti bolşevik terrorunun alçaqlığına bəraət qazandıraraq, həyasızcasına «Layiqli cəza» adlı bir məqalədə yazırdı: «Ali inqilab tribunalı bu işə yalnız həqiqi proletar ədliyyə orqanları nümayəndələrinə xas olan ehtiyatlıq və təmkinlə nəzər salmışdır. Azərbaycanın azad əmək adamlarının mənafeyini əsas tutan tribunal heç bir «qanuni intiqam» duyğularına yol vermədən özünün soyuq və ölçüb-biçilmiş qərarını vermişdir»,

Bolşeviklər «təmkinlə», «soyuq və ölçülüb-biçilmiş» haqsız qərarları ilə Azərbaycan Milli Ordusunun say-seçmə yüksək rütbəli zabitlərindən və general oğullarından bizi məhrum etdilər. Yetmiş ildən çox adı və şöhrəti bağlı qapı arxasında qalan sərkərdələrimiz haqqında məlumatla bu gün tanış ola bilirik.

## Generallar

GENERAL-MAYOR HƏBİB BƏY SƏLİMOV — Baş Qərargah və dəftərxana rəisi. Azərbaycan Demokratik Respublikasının hərbi Naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun iyirmi altı fevral min doqquz yüz on doqquzuncu ildə, otuz nömrəli əmri ilə general-mayor rütbəsi ilə təltif olunub, 1920-ci ilin martında «Əsgəran müharibəsi» adı ilə məşhur olan cəbhənin qəhrəmanı. 1919-cu ilin iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hakimiyyətini tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri darmadağın edilmişdir. Düşməndən qənimət üçün götürdüyü bir təyyarəni, iyirmi dörd topu və altmış pulemyotu Azərbaycan Ordusunda istifadəyə vermişdir. Muğan və Lənkəranı ana yurdu Azərbaycana qaytaran Həbib bəy buraya qısa müddətə vali təyin edilmişdir.

1918-ci ildə Azərbaycanda olmuş türk podpolkovniki Rüştü «Bakı yollarında» («Hərbi məcmuə» № 93) kitabında Həbib bəyi igid bir sərkərdə kimi xatırlayır: «Cəsur və döyüş texnikasını gözəl bilən türk ordusunun yüksək rütbəli zabitləri tərəfindən layiqincə qiymətləndirilən polkovnik Həbib bəy rus ordusunda

yetişmiş azərbaycanlı zabitlərdəndir. Döyüşlərdə cəbhə iki yerə ayrılırdı: şimal və cənub qruplarına. Cənub qrupunun komandiri polkovnik Həbib bəy Səlimov idi».

1919-cu ildə ordudakı maddi çətinlikləri görən polkovnik Həbib bəy Səlimov hökumətin adına göndərdiyi raportda ürək ağrısı ilə yazırdı: «Demək olar ki, bütün əsgərlər Azərbaycan əyalətlərində yerli əhalinin hesabına dolanır, yarıac, yarıtox həyat sürürlər. Hətta böyük və varlı şəhər olan Bakıda əsgərlərə yemək tapılmır. Nə polkun, nə də korpusların anbarları yoxdur. Əsgərləri həmişə «un şorbası» ilə yedirtmək olmaz ki... Onuncu polkun çoxlu əsgəri çəkməsiz və corabsızdır. Ordunu yeməksiz, paltarsız, atsız, təchizatsız yaratmaq olmaz. Yarıac, paltarsız əsgər əlbəttə ki, evə qaçmaq istəyəcək.

Ona görə də özümə mənəvi borc bilərək aşağıdakı fikirlərimi çatdırım:

1.Günün şüarı ancaq bu olmalıdır: hər şey ordu üçün.

2.Kağızda deyil, rəsmi şəkildə bir korpus yaratmaq lazımdır.

3.Belə korpusun yaradılması və təminatı üçün vəsaiti əsirgəməməli.

Böyük Napaleon Bonapart deyirdi ki, müharibə üçün üç şey lazımdır. Birincisi pul, ikincisi pul, üçüncüsü yenə də pul.

Ordunu yedirtmək, geyindirmək və bolşevikləri nəzərdən qaçırmadan hər cür xəstəliklərdən qorumaq lazımdır».

İndiyədək nə fotoşəkli, nə də tam tərcümeyi-halı əldə edilməyən cəsur general Həbib bəy Səlimovun müxtəlif arxivlərdən vətənpərvər ruhda yazılmış bir neçə məktub və teleqramını əldə edə bildik. Bu məktub və teleqramları Həbib bəy Qarabağ ərazi qoşunlarının komandanı olarkən, odlu döyüşlər gedən Şuşa və Ağdamdan göndərmişdir. Bunlar Həbib bəy Səlimovun döyüş yolunu qismən də olsa öyrənməyə imkan verir.

**«Hərb nazirinə**

Bakı alayında 390 süngü vardır. Noyabrın 23-də Qocaz istiqamətində vəziyyət tədricən bərpa olunur. Düşmən hər tərəfdən Zabuq çayının sağ sahilinə atılmışdır. Ümid edirəm ki, bu günlərdə ...rayonu tuta bilərik. Cəbrayıl dəstəsində vəziyyət tam başqadır. Ora iki batalyon — 3 000 süngü qüvvə göndərilməsə vəziyyəti düzəltmək mümkün olmayacaqdır. Yaranmış vəziyyətdə bu cür qüvvəni Xaçmaz dəstəsinin tərkibindən çıxarmaq, məncə mümkün deyildir.

Mən indi sizin barışıq fikrinizlə o şərtlə razıyam ki, barışandan sonra gələcək üçün sürətlə hazırlıq işləri görülsün.

**General Həbib bəy SƏLİMOV.**
**20 aprel 1920-ci il, Şuşa».**

«Bakı, general-leytenant Əliağa Şıxlinskiyə. Dünənki döyüş göstərdi ki, ermənilər bütün vasitələrindən istifadə ediblər. Əsgəran cəbhəsində Dilicandan gəlmiş əla təlim edilmiş və çox gözəl döyüş aparan Dəli Qazarın partizanları bir yerə cəmləşiblər. İndiki partizanlara ümid bəsləmək olmaz. Onlara kəsərli söz, xalqa çoxlu pul və bütün başqa vasitələrlə köməklik göstərmək lazımdır ki, onlar Vətənə daha böyük həvəslə xidmət etsinlər. Təkrar edirəm, məsələ çox ciddidir,

artıq Ermənistan və Azərbaycan arasında Qarabağda gizli müharibə gedir. Hər tərəfdən patronlar tələb edirlər. Onların neçəyə olursa-olsun alınıb gətirilməsi vacibdir. Hazırda dövlətin ehtiyatları Gəncədən Araza qədərki ərazidəki cəbhə üçün düşmən ilə müqayisədə həddindən artıq azdır. Ancaq etibarlı və yaxşı təşkil olunmuş partizanları müvəqqəti sizin tərəfə yönəldə bilərlər.

**General Həbib bəy SƏLİMOV.**
**31 mart 1920-ci il».**

***

**Hərb Nazirinə**

«...Bu vəziyyət yerli əhali arasında çaxnaşma yaratdı. Onlar bizim Ağbulaq yaxınlığında dayanan alayımızı xəbərdar etmədən çaxnaşma salır və qaçırlar. Abdal kəndində olan əsgərlərin bir hissəsini də arxalarınca aparırlar.

Bütün bunlar aralarında iki minə yaxın silahlı şəxslər olan Ağdam əhalisinin gözləri qarşısında baş verirdi.

Bir nəfər belə Gülablıların köməyinə getmədi, əksinə iki-üç yüz erməninin Gülablıda görünməsi onlarda çaxnaşma saldı, əlbəttə onlar səsə-küyə salaraq mərkəzə teleqrama vurdular və Bakı da tez onların köməyinə gəldi.

Mən Qarabağda baş verən hadisələrdən xəbərdaram və şəraitə görə mümkün olan bütün tədbirlərdən istifadə edirəm. Lakin, abdallıların, gülablıların, Xaçinki kənd əhalisinin arzusu ilə qoşunu ata bilmərəm. Ayın on doqquzunda səhər saat 10-da mən özüm Ağdamda oldum, partizanlar üçün məhkəmə qurdum, lazım olan tədbirləri gördüm.

Nəticədə biz Güləbird kəndini, Qızıl hündürlüyünü tutmuşuq, Abdal kəndinə hücumu davam etdiririk.

Mənə inanın ki, mən özümü qorumuram, şəxsən olduğum və komandirlik etdiyim yerlərdə düşmənin qəflətən yaxalamasına yol verməyəcəyəm.

Tatar alayının dərhal Cəbrayıla gəlməsinin böyük əhəmiyyəti olar, çünki bu alayın əksəriyyətini ləzgilər təşkil edir, bu da Quba qəzasında az fayda verə bilər.

**General Həbib bəy SƏLİMOV.**
**20 aprel 1920-ci il, Şuşa».**

***

«Bakı, general-leytenant Əliağa Şıxlinskiyə.

Dronun (Qarabağ ərazisində döyüşən erməni-daşnak silahlı birləşmələrin komandiri — Ş.N.) qüvvələrinin hücumu zamanı Şuşa şəhərinin vəziyyətinin nə dərəcə ağır ola biləcəyini nəzərə alaraq, ermənilərə Cavad qəzası süvari qoşunlarının köməkliyi ilə Cəbrayıl qəzası tərəfindən güclü təzyiq göstərilməsini lazım bilirəm. Eyni zamanda İran şahsevənləri Zəngəzur qəzasına soxulsaydılar daha yaxşı olardı. Geniş hücum əməliyyatı aparmaq üçün tək Cəbrayıl qəzasının vəsaiti kifayət deyildir.

**ADR-in Qarabağ ərazi qoşunlarının komandanı general Həbib bəy SƏLİMOV.**
**31mart 1920-ci il».**

***

**Hərb nazirinə**

«...Bizimkilərin geriyə qaçmalarının qarşısını özüm rəhbərlik etdiyim yüz nəfərlik parlament mühafizə dəstəsi ilə aldım. Artilleriya, xüsusilə Nəbibəyovun batareyası əla atışırdı, lakin təəssüf ki, batareya komandiri hissə qapılıb, batareya ilə həmləyə keçdi. Hal-hazırda ermənilər Əsgəranı, Xanabad kəndini, 3360-cı yüksəkliyi, Daşbaşı kəndini tuturlar.

Ümumiyyətlə biz döyüşərək erməniləri iki verst geri çəkilməyə məcbur etmişik. Aşağıdakı itkiləri vermişik: alayın..., praporşik Nəcəfəliyev və on altı əsgər öldürülüb. Parlamentin mühafizə dəstəsindən podporuçik Dauşvili, praporşik Əsgərov, Ərəbov yaralıdırlar. Əsgərlərdən yeddi nəfər ölmüş və on beşi isə yaralıdır.

Döyüşçülərin əhval-ruhiyyəsi yaxşıdır. Düşmən çox böyük itkilər vermişdir, tək Xaramutda 60-a qədər düşmən cəsədi sayılmışdır.

**General Həbib bəy SƏLİMOV.**
**1 aprel 1920-ci il, Ağdam.**

Naxçıvan Mərkəzi Dövlət Arxivində saxlanan səksən iki nömrəli protokol isə cəsur general haqqında ağ yalanla doludur. 1920-ci il avqustun iyirmi ikisində Naxçıvan komyaçeykasının iclasında hərbi komissar Starovun sədrliyi və Fyodorovun katibliyi ilə yeddi nəfər bolşevik, musavat generalı Həbib bəy Səlimovun «fəaliyyəti barədə işə» baxırlar. Lakin cəmi üç nəfər — «troyka» dindirilmişdir.

**Birinci şəxs Şaxtaxtinski:** «General Səlimov zəhmetkeş xalqın satqınıdır, səbatsızdır. O, Bakıdan İrana qaçdı və oradan Naxçıvana gəlib camaatı dilə tutdu ki, əhali razılıq versin onun polku 600 əsgər, 10 ədəd top və bir neçə pulemyotla Naxçıvana gəlsin. O, Sovet hökuməti əleyhinə təbliğat aparırdı. Lakin indiki hökumətə qarşı günahını boynuna almır. Polkun silahlarını İranda satıb mənimsəmişdir».

**İkinci şəxs Rüstəmov:** «Mən Şaxtaxtinskinin dediklərini təsdiq edirəm və əlavə olaraq bildirirəm ki, general Səlimov yerli əhalini başa salırdı ki, onun başçılığı ilə Naxçıvana yeni polk toplasın və bolşeviklər əleyhinə vuruşsunlar... O, həqiqətən Sovet hökuməti əleyhinə təbliğat aparırdı...»

**Üçüncü şəxs Xəlilbəy:** «Daşnaklar Şuşaya hücum edəndə (1920-ci ilin mart ayında — Ş. N.) Azərbaycan hökuməti korpus təşkil edib Səlimovun başçılığı ilə cəbhəyə, daşnaklarla vuruşmağa göndərdi. Lakin, Səlimovun təcrübəsizliyi və korpusa başçılıq edə bilmədiyindən xeyli yaralı və ölüm hadisələri olmuşdur.

Lakin mən işə qarışandan sonra döyüş müvəffəqiyyətlə başa çatdı və daşnak hücumu darmadağın edildi.[1]

Bütün bunlardan sonra Azərbaycan hökuməti ona 242-ci polka və üçüncü kavpolka başçılıq etməyi tapşırdı. O vaxtkı qırmızılar Bakıya yaxınlaşırdı, mən ona təklif etdim ki, qırmızıları müdafiə etsin. O, söz versə də sözünü yerinə yetirmədi, satqınlıq elədi. Sovet hökuməti əleyhinə təbliğat aparmağa başladı».

Yekunda: yoldaş Starov təklif etdi ki, general Həbib bəy Səlimovu həbs edib XI ordunun hərbi sovetinin sərəncamına göndərmək.

Təklif bir səslə qəbul edildi.

Burda «sapı özümüzdən...» olan müdrik el deyimini xatırlamaya bilmirsən. Bu yalan və iftiralardan sonra general Həbib bəy Hacı Yusif oğlu Səlimovu bolşeviklər güllələdilər.

General-mayor **Cavad bəy Şıxlinski** — birinci piyada diviziyasının komandanı. Zəngəzur döyüşlərinin (1919) fəal iştirakçısı. 1920-ci ilin mayında Gəncə üsyanının təşkilatçısı, həmin üsyandan sonra İrana mühacirətə getmişdir.

General-mayor **Əbdülhəmid bəy Şərifbəy oğlu Qaytabaşı** — 1919-cu il dekabrın onundan Baş Qərargahın rəisi və növbətçi generalı. Peşəkar hərbçi kimi milli ordu quruculuğunda əvəzsiz xidmətləri olmuşdur. Şəxsi heyətin təşkili, qərargahda növbətçilik sistemi, yeni hərbi idarə və hərbi müəssisələrin yaradılması üçün var qüvvəsi ilə çalışan general Əbdülhəmid bəy Qaytabaşı yazırdı: «Cəmi bir il ərzində Baş Qərargahın fəaliyyəti təşkil olunub qaydaya düşdü. Öhdəmizə düşən bütün vəzifələri qərargahın digər üzvləri ilə birlikdə vicdanla, namusla və yorulmadan yerinə yetirdik». 1920-ci il aprelin otuzunda bolşevik ordusunda müvəqqəti Qərargah rəisi olub. Həmin ilin iyun ayında Gəncə üsyanına görə günahlandırılıb güllələnmişdir.

General-mayor **Murad Gəray bəy Tlexas** — 1918-ci ildə Baş Qərargahda Baş Artilleriya idarəsinin rəisi. On doqquzuncu il dekabrın dördündən Bakı şəhərinin general-qubernatoru Azərbaycan Milli hərəkatında və ordu quruculuğunda önəmli yeri var. Milliyyəti çərkəz idi. 1874-cü ildə Kuban vilayətində hərbçi ailəsində anadan olub. Sankt-Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirib. Port-Artur və Birinci dünya müharibəsində iştirak edib. Hər iki müharibədə nümunəvi döyüş zabiti kimi şöhrət qazanıb. 1918-ci ildə Azərbaycanın ağır günündə, din qardaşı kimi kömək etməyə könüllü gəlib.

İyirminci ildə bolşeviklərin istilasından sonra inqilabçı Əli Bayramovun qatillərindən biri kimi həbs edilib. Mayın 21-dən 29-dək Ali İnqilab Tribunalının

[1] Xəlilbəy tamamilə haqsız və qərəzli danışıb. O döyüşdən yazılan çoxlu xatirələrdə və arxiv sənədlərində daşnakların 1920-ci ilin martında Şuşa və Xankəndindən əzilib çıxarılması məhz general Həbib bəy Səlimovun komandirlik məharəti sayəsində olduğu dönə-dönə qeyd olunub. Xəlil bəy isə həmin döyüşdə kiçik könüllülər dəstəsinin komandiri olmuşdur — müəl.

məhkəməsində şahid kimi dindirilmişdir. Əli Bayramovun ölümündə günahı sübut olunmadığına baxmayaraq, əksinqilabçı və musavat generalı kimi mayın 29-da gecə saat ikidə güllələnmişdir. İlyarımlıq Azərbaycan ordusundakı əla fəaliyyəti hərb nazirinin və Baş Qərargah rəisinin iki əmrində tam öz əksini tapır. 1919-cu ilin sentyabr və dekabr aylarında verilən 421 və 559 nömrəli əmrlər Azərbaycan Yeni Tarix Mərkəzi Dövlət Arxivində «tamamilə məxvidir» qrifi ilə saxlanılır.

«Bizim üçün böyük əhəmiyyətə malik olan müxtəlif predmetlər, silahlar və başqa hərbi əmlak əldə etmək üçün mən Gürcüstan Respublikasının Tiflis şəhərinə Baş Artilleriya idarəsi rəisi, general-mayor Murad Gəraybəy Tlexasın rəhbərliyi altında komissiya göndərmişdim.

Bir sıra ciddi çətinliklərə baxmayaraq, qısa müddət ərzində, olduqca sərfəli qiymətlərlə Bakıda və Gəncədə qiymətli əmlak kütləsi quraşdırılmış və gətirilmişdir.

Əldə edilmiş predmetlərin əksəriyyəti təzə, istifadə olunmuşları isə tam yararlı haldadır.

Mənim komissiyaya verdiyim tapşırığın bu cür əla yerinə yetirilməsini, ona general-mayor Murad Gəray bəy Tlexas kimi qeyrətli, təcrübəli və vicdanlı şəxsin rəhbərliyində görürəm və ona xidməti şəxslər tərəfindən səmimi minnətdarlığımı bildirirəm.

Eləcə də, alınmış malların baxılmasında, qəbulunda və yola salınmasında iştirak etmiş komissiyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm.

**Hərb naziri, Artilleriya generalı**
**Səməd bəy MEHMANDAROV**
**Baş Qərargah rəisi, general-mayor**
**Həbib bəy SƏLİMOV».**
(Fon. 2900, siy. 7, sax. v. 1. səh. 7)

***

«Hərb nazirliyi təşkil edilərkən, ordunun özü kimi, mərkəzi idarələrinin və müəssisələrinin də, demək olar ki, heç nədən yarandığı zaman general-mayor Murad Gəray bəy Tlexas Baş Artilleriya İdarəsinin rəisi vəzifəsini icra etməyə başlamışdır. General-mayor Tlexas, doğma ordumuzun təşkil edilməsi işlərində mənim ən yaxın əməkdaşlarımdan biri olmuşdur. İgid insan və yorulmaz təcrübəli xidmətçi olan Murad Gəray bəy Tlexas ordunun silahlanması, bütün Azərbaycan boyu səpələnmiş artilleriya əmlakının toplanması, artilleriya anbarlarının və emalatxanalarının qurulması işlərində böyük əmək sərf etmişdir.

İndi həmin generala Respublikanın müdafiə olunması üzrə yüksək dərəcədə mühüm hərbi vəzifələrin həvalə edilməsi ilə əlaqədar olaraq, ümumi işin xatirinə onun Baş Artilleriya idarəsi rəisi vəzifəsindən azad edilməsini daha faydalı bilirəm.

Bu vəzifənin bir illik yerinə yetirilməsi müddətində göstərdiyi nümunəvi iş, səy və görkəmli nailiyyətlər üçün hörmətli Murad Gəray bəy Tlexasa xidməti şəxslər tərəfindən səmimi təşəkkürümü bildirirəm.

**Hərb naziri, Artilleriya generalı**
**Səməd bəy MEHMANDAROV**
**Baş Qərargah rəisi, general-mayor**
**Həbib bəy SƏLİMOV».**
(F. 2900, siy.1, sax.v. I. səh.127)

General-mayor **İbrahim ağa Usubov** — Milli orduda atıcılıq işləri üzrə müfəttiş və hərbi-tədris müəssisələrinin rəisi. 1919-cu ilin avqustundan isə ikinci süvari diviziyasının komandanı. 1920-ci il iyulun 16-da bolşeviklər onu Nargin adasında güllələyib.

General-leytenant **Məmməd bəy Sulkeviç** — Krım hökumətinin sabiq başçısı. 1919-cu ilin martından Azərbaycan Milli Ordusunda Baş Qərargah rəisi olmuşdur. 1920-ci il iyulun on beşində «əksinqalibi fəaliyyətdə» ittiham olunduğuna görə bolşeviklər güllələdilər. General-mayor **Şahzadə Əmir Kazım Mirzə Qacar** — 1918-ci il dekabrın 1-dən Azərbaycan ordusunda xidmətə başlamışdır. 1919-cu il dekabrın 18-dən Gəncənin komendantı təyin olunmuşdur. İyirminci ilin iyununda Gəncə üsyanında fəal iştirak etdiyinə görə həbs edilmiş və bolşevik çekası Tuxareli tərəfindən şaşka ilə doğranmışdır.

General-mayor **Davud bəy Sadıq bəy oğlu Yadigarov** — Azərbaycan Milli Ordusunda mühafizə diviziyasının rəis müavini. İyirmi üç oktyabr min doqquz yüz on doqquzuncu ildə hərbi nazir Səməd bəy Mehmandarovun 492 nömrəli əmrilə general-mayor rütbəsi ilə təltif olunub.

General-mayor **Xəlil bəy Mirəli xan oğlu Talışxanov** — 1918-ci ildə Vətəndaş müharibəsindən Azərbaycana qayıdan «Dikaya diviziya»nın tərkibindəki Tatar (Azərbaycan — Ş. N.) alayının komandiri. Həmin il Bakıdakı daşnak hərbi qüvvələri tərəfindən həbs olunmuş, lakin yerli əhalinin haqlı tələbi ilə azad edilmişdir.

1859-cu ildə Tiflisdə anadan olan Xəlil bəy Birinci Dünya Müharibəsində iştirak etmişdir. 1920-ci ilə kimi Azərbaycan Ordusunda xidmət etmişdir. Bolşeviklərin istilasından sonra son taleyi barədə heç bir məlumat yoxdur.

General-mayor **Əlyar bəy Mehdi oğlu Haşımbəyov** — 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirinin müavini. Birinci Dünya müharibəsində üçüncü Qafqaz araba-karvan briqadasının komandiri olmuşdur. On yeddinci ildə istefaya çıxan general Əliyar bəy 1918-ci ildə Azərbaycan Cümhuriyyətində könüllü xidmətə başlamışdır.

General-mayor Əliyar bəy Haşımbəyov 1856-cı il martın səkkizində Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini ədadiyə (realnı) məktəbində alan Əliyar bəy 1871-ci ildə Tiflisdəki piyadalar məktəbinə daxil olmuşdur. 1918-ci ildən artilleriya qoşunlarının piyada hissələrində xidmətə başlamışdır.

Hərbi xidmətinin otuzuncu ilində — 1908-ci il dekabrın altısında general-mayor kimi yüksək rütbəyə layiq görülmüşdür. Ordudakı qüsursuz xidmətinə görə 1889-cu ildə üçüncü dərəcəli «Müqəddəs Stanislav», 1894-cü ildə üçüncü dərəcəli

«Müqəddəs Anna», 1895-ci ildə ikinci dərəcəli «Müqəddəs Stanislav», 1898-ci ildə ikinci dərəcəli «Müqəddəs Anna» və 1904-cü ildə «Müqəddəs Vladimir» ordenləri ilə təltif olunmuşdur.

1919-cu ildə Hərbi İntendant idarəsinin rəisi işləyən general Əliyar bəy Haşımbəyovu 1920-ci ildə bolşeviklər güllələmişlər.

General-mayor **Teymur bəy Novruz oğlu Novruzov** — Milli Orduda süvari diviziyasının qərargah rəisi. İki avqust min doqquz yüz on doqquzuncu ildən birinci Tatar alayının komandiri, dörd sentyabr 1919-cu ildən süvari diviziyasının rəisi. Birinci Dünya müharibəsində dörd dəfə Müqəddəs Georgi ordeni ilə təltif olunmuşdur. Azərbaycan Demokratik Cümhuriyyətinin 1919-cu il iki avqust tarixli əmrilə ordudakı əla xidmətlərinə görə general-mayor rütbəsi verilmişdir. 20-ci ildə bolşeviklərin təzyiqindən Almaniyaya mühacirətə getmişdir.

General-qubernator **Cavad bəy Rza bəy oğlu Məlikyeqanov** — 1920-ci il sentyabrın on doqquzunda komissar Nersesov tərəfindən həbs edilib. Az müddət Bakıda, Bayıl həbsxanasında saxlanıldıqdan sonra Kareliyanın Keme şəhərinə sürgün edilmişdir. Həyat yoldaşı məşhur maarifpərvər Məryəm xanım Bayraməlibəyovaya 1935-ci ildə sürgündən göndərdiyi məktubunda yazırdı: «...sən yaxşı bilirsən ki, mən Vətənimi, Azərbaycanımı, xalqımı sevirəm. Hər şeydən əziz tuturam və canımı onlara qurban verirəm...».

Şimal həbs düşərgələrində olmazın əzablar çəkən, 1918-ci ildən Azərbaycan parlamentinin üzvü Cavad bəy 1942-ci il mayın 18-də ürək partlamasından həbsxanada vəfat etmişdir. 1917-ci ildə könüllü surətdə Müsavat partiyasına daxil olan Məlikyeqanov Lənkəran şəhərinin general-qubernatoru olmuşdur.

Həyat yoldaşı Məryəm xanım 1937-ci il noyabrın on dördündə həbs edilib Arxangelsk şəhərinə sürgün edilmişdir. On doqquz il sonra gözləri şikəst halda Bakıya qayıdan Məryəm xanım Bayraməlibəyova 1967-ci ildə vəfat etmişdir.

General-qubernator **Əmir xan Cahangir xan oğlu Xoyski**— Qubada və Bakıda qubernatorun müavini olub. 1919-cu il oktyabrın on üçündə Qazax qəzasının qubernatoru təyin edilib.

Azərbaycan Cümhuriyyətinin Xarici işlər naziri Fətəli xan Xoyskinin qardaşı oğludur. 1920-ci il iyunun on doqquzunda əmisi Tiflisdə teatrdan çıxarkən muzdlu erməni qatili tərəfindən öldürüldükdən sonra Əmirxan ailəsi ilə Türkiyəyə qaçmışdır. Ali təhsilli idi: Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdi. 1966-cı ildə İstanbul şəhərində vəfat etmişdir.

General-qubernator **Xosrov bəy Paşa bəy oğlu Sultanov**— 1919-cu il yanvarın on beşindən Qarabağın general-qubernatoru. Həmin il martın 21-dən 30-dək olan Əsgəran döyüşlərində daşnak generalı Dronun quldur dəstələrini darmadağın etmişdir. İyun ayının əvvəllərində gizli yolla Şuşaya silah gətirən erməni milli Şurasının üzvlərini həbs edib, onların Qarabağ hüdudlarından çıxarılmasına nail olmuşdur. Zaqafqaziya Seyminin və Azərbaycan Parlamentinin

üzvü idi. 1918—1920-ci illərdə daşnakların Qarabağdan təmizlənməsində qardaşı Sultan bəylə birlikdə misilsiz xidmət göstərmişdir.

Xosrov bəy 1879-cu il martın 10-da Laçın rayonunun Kürdhacı kəndində anadan olub. Orta təhsilini Gəncə klassik gimnaziyasında, ali təhsilini isə Odessa Universitetində almışdır. 1920-ci il aprel çevrilişindən sonra Türkiyənin Trabzon şəhərinə mühacirətə getmişdir. Az sonra daşnak təqibindən İstambula köçmüş və 1941-ci ildə orada vəfat etmişdir.

General-mayor **Feyzulla Mirzə Qacar** — Azərbaycan Demokratik Respublikasının hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarovun doqquz yanvar min doqquz yüz on doqquzuncu ildə iyirmi nömrəli əmri ilə Gəncədəki süvari diviziyasının qarnizon rəisi təyin olunub.

General-mayor **Vasili Dmitriyeviç Karqatleteli** — İstehkamçılar hərbi məktəbinin rəisi. Müvəqqəti hərbi nazir tam artilleriya generalı Əliağa Şıxlinskinin yüz altmış yeddi nömrəli əmrilə 1920-ci il martın iyirmi dördündə general-mayor rütbəsi verilib.

General-mayor **Şahzadə Məhəmməd Mirzə Qacar** — Milli orduda Baş Artilleriya idarəsinin rəisi. 1919-cu il iyulun doqquzunda əla xidmətlərinə görə general-mayor rütbəsi verilmişdir. General Şahzadə Məhəmməd Mirzə Qacar haqqında hərb naziri Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi Həbib bəy Səlimovun həmin il noyabrın 30-da imzaladıqları bir nömrəli əmr onun sərkərdəlik fəaliyyəti barədə nadir sənədlərdən biridir:

«Hərb naziri köməkçisinin məlumatından aydın olur ki, general-mayor Şahzadə Məhəmməd Mirzə Qacar birinci piyada diviziyasına müvəqqəti komandanlıq etdiyi müddətdə Gəncə qarnizonunun rəisi vəzifəsini icra edərkən, batalyon yaradılması və xüsusi təyinatla yola salınması, eləcə də qoşun hissələrinin isti və əsgəri geyimlə təmin edilməsində çoxlu səy və fəaliyyət göstərmişdir. Buna görə də mən ona səmimi minnətdarlığımı bildirirəm».

General-mayor **Mirkazım xan Mirəli xan oğlu Talışxanov** — 1855-ci il iyulun on yeddisində Bakıda anadan olmuşdur. Talış xanlarının nəslindəndir. 1917-ci ilə qədər Rusiyanın müxtəlif şəhərlərində rota, alay və batalyon komandiri olmuşdur. Birinci Dünya müharibəsindəki xidmətlərinə görə general-mayor rütbəsi alıb. 1918—20-ci illərdə Lənkəran Dairə müfəttişi vəzifəsində işləmişdir.

General-mayor Mirkazımxan Talışxanov 1938-ci ildə səksən dörd yaşında Bakıda vəfat etmişdir.

General-mayor **Şahzadə Əmənnulla Mirzə Qacar** — 1918-ci il dekabrın birində könüllü olaraq Milli Orduda qulluğa başlamışdır. Müxtəlif vəzifələrdə işləmişdir. 1920-ci il yanvarın 27-də Xankəndində yerləşən birinci süvari diviziyasının rəis müavini olmuşdur. 1862-ci ildə Şuşada anadan olan Əmənulla xan iyirmi səkkiz il Kuban-Kazak nizami hissəsində xidmət etmişdir. 1917-ci ildə general-mayor rütbəsi verilib. Bolşevik təzyiqindən (1920-ci ildə) İrana mühacirətə getmiş və 1937-ci ildə Tehranda vəfat etmişdir.

General-mayor Səməd bəy Məşədi bəy oğlu Rəfibəyov — Tiflis kadet korpusunu 1916-cı ildə bitirib. İlk hərbi xidmətə yeddinci Qafqaz sərhəd alayında başlayıb. 1918-ci ilin yanvarından yeni yaranan Müsəlman korpusunda birinci Bakı atıcı polkunda rota komandiri kimi bolşevik-daşnak dəstələrinə qarşı vuruşmuşdur.

Poruçik Səməd bəy 1918-ci il iyulun 2-də əla xidmətinə görə ştabs-kapitan rütbəsi alır. Nuru paşanın təqdimatı ilə Azərbaycan dəmir yolunun müvəqqəti komissarı təyin olunur.

Respublika Müdafiə nazirinin əmrilə 1919-cu ilin fevralında birinci Cavanşir polkunu və Lənkəran ehtiyat alayını təşkil edir.

Hərb naziri general Səməd bəy Mehmandarovun və müavini Əliağa Şıxlinskinin əmr və raportlarında Səməd bəy Rəfibəyov bilikli, enerjili və qoçaq komandir kimi xarakterizə edilir. Podpolkovnik Səməd bəy Rəfibəyovun birinci Cavanşir piyada polku 1920-ci ilin mart-aprel aylarında Xankəndində və Şuşada erməni daşnaklarına qarşı mərdliklə vuruşub.

Bolşevik istilasından sonra Türkiyəyə mühacirətə gedən Səməd bəy Rəfibəyov hərbi fəaliyyətini dayandırmamışdır. Qoşun komandanlığı vəzifəsinə qədər yüksələn istedadlı eloğlumuz böyük Atatürk paşanın yaxın silahdaşı və dostu olmuşdur. Ona 1948-ci ildə general-mayor rütbəsi verilmişdir.

Birinci dərəcəli «İstiqlal ordeni» ilə təltif olunan Səməd bəy Rəfibəyov 1892-ci ildə qədim Gəncənin Balabağban qəsəbəsində anadan olmuş, 1980-ci il oktyabrın 20-də İstambulda vəfat etmişdir.

General-mayor **Məmmədsadıq bəy İsmayıl oğlu Ağabəyzadə** — şərqşünas alim kimi daha çox məşhurdur. 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətində daxili işlər nazirinin müavini olmuşdur 1920-ci ildə İstambula — əmisi oğlu, professor Əlibəy Hüseynzadənin yanına gedir. Bir il orada yaşadıqdan sonra Fransaya mühacirətə gedir. Ali məktəblərdə fars və türk dillərindən dərs deyən Məmmədsadıq bəy fransızcanı da gözəl bilirdi.

Bəxtinə cəlayi-vətənlik düşən görkəmli Azərbaycan oğlu Məmmədsadıqbəy Ağabəyzadə 1927-ci ildən Lvov universitetinin professoru Ziqmund Smoqjevskinin dəvətilə Lvov universitetində işləyir. O, ərəb, fars, türk dillərindən dərs deyir, islam paleoqrafiyasını, epiqrafiyasını və kaliqrafiyasını tədris edirdi. Məşhur polyak şərqşünasları Teofil Volodarski, Olqa Bak, Tadeuş Levitsin və başqaları həmyerlimiz, general-professor Məmmədsadıq bəyin yetirmələri olmuşlar. Hərbi fəaliyyətilə yanaşı şərqşünas kimi də böyük şöhrət qazanan M. Ağabəyzadə 1904-cü ildə rus dilində «Türkmən ləhcəsi», 1931-ci ildə polyak dilində «Türk dili», 1932-ci ildə «Fars dili», 1934-cü ildə «Ərəb dilinin qrammatikası» kimi sanballı əsərlərini nəşr etdirmişdir.

1944-cü ildə Lvov şəhəri faşistlər tərəfindən alınanda bir alman zabiti tənha yaşayan professor Məmmədsadıq bəyin mənzilini öz qərargahına çevirir. Yarıqaranlıq, nəmli zirzəmiyə köçən Məmmədsadıq bəyin zəif vücudu daha da pisləşir. Elm fədaisi və müsavat generalı Məmmədsadıq bəy Ağabəyzadəni 1944-

cü il noyabrın 8-də sevimli tələbəsi Tadeuş Levitski Lvov şəhər qəbristanlığında dəfn edir. «Əgər qardaşlarım[1] gəlib çıxmasalar, onda nəyim varsa, T. Levitskiyə qoyub gedirəm. Mənə uzun müddətli sədaqətli xidmətinə görə pani Severina Vilkoşinskayaya üç yüz zlot, Teodozi Krulyovaya yüz zlot, Olqa Voşçaka, mənim şagirdimə bir kitab və istədiyi üç qramafon val verərsiniz».

Bu, bolşevik təzyiqindən qürbətdə tənha yaşayan görkəmli həmyerlimizin ölümqabağı yazdığı vəsiyyətindən bir parçadır.

General-şərqşünas Məmmədsadıqbəy 1865-ci ildə Göyçayda anadan olmuşdur. İlk təhsilini Bakı realnı məktəbində alan M. Ağabəyzadə Konstantinovsk piyada məktəbini əla qiymətlərlə bitirmişdir. Ona görə də 1886-cı ildə Sankt-Peterburqdakı Mixaylovski artilleriya məktəbinin üçüncü kursuna qəbul edilmişdir. Az müddət Qafqazda qulluq edən gənc zabit Məmmədsadıq bəy yenidən Peterburqa qayıdıb Xarici İşlər Nazirliyinin Şərq dilləri kurslarında təhsil alır. 1899-cu ildən 1913-cü ilə kimi Türküstan hərbi dairəsində qulluq edir. Əla hərbi xidmətinə görə general-mayor rütbəsi alıb.

General Məmmədsadıq bəy Ağabəyzadə Birinci Dünya müharibəsində iştirak etmişdir.

General-mayor **Konstantin Davıdoviç Çxeidze** — 1919-cu ildə Gəncədən Bakıya köçürülmüş Azərbaycan hərbiyyə məktəbinin rəisi.

«...Adını xatırlamadığım daha bir neçə qurbanlarımız və şəhidlərimiz vardı. Azərbaycan cəlladı Bağırovun bir məlumatında qeyd olunduğu kimi, əlli ikidən artıq qanlı xalq üsyanlarında fədakaranə ölən minlərcə igid partizanlarımızı da unutmayalım. Gənc ordumuzun şəhid komandanları Həmid Qaytabaşıları, Süleyman paşaları, Murad Gəraylını, İbrahim ağanı (general-mayor İbrahimağa Usubov — Ş. N.), Səlimov Həbibbəyləri və bir çox digərlərini də yada salalım» (M. Ə. Rəsulzadə «Azərbaycan davası» məqaləsindən).

[1] General-professor Məmmədsadıq bəyin iki qardaşı və bir bacısı olmuşdur — Həzrətbəy, Rəhimbəy və Badam xanım — müəl.

Redaktoru **R.Faxralı**
Korrektoru **N.Qılınclı**
Rəssamı **A.Ələkbərov**

Yığılmağa verilmiş 3.05.95. Çapa imzalanmış 4.12.95.
Kağız formatı 60x90 1/16. Ofset kağızı № 1.
Uçot nəşr vərəqi 12+1,0 (şək.) Fiziki və şərti çap vərəqi 13,25.
Sifariş 199. Sayı 3000.
"Hərbi nəşriyyat"ın mətbəəsində çap olunmuşdur.
370007, Bakı şəhəri, C.Hacıbəyli küç. 26.